AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

***ISBN: 90000000060074***

**2017, 2 (17)**

**BAKI-2017**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2(17), 2017

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutnda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov (**baş redaktorun müavini**), İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib)

**UOT 94 (479.242)**

# NAXÇIVAN XANLIĞI, ONUN RUSİYA İMPERIYASI TƏRƏFİNDƏN İŞĞALI

***İ.M.Hacıyev***
*AMEA Naxçıvan Bölməsi*
*ismayil_haciyev@yahoo.com*

***Açar sözlər:*** *Naxçıvan xanlığı, tümən, mahal, idarə sistemi, Rusiya, kəngərli, işğal, atribut*

Məqalədə Nadir şah dövlətinin süqutundan sonra Azərbaycan ərazisində yaranan xanlıqlardan biri olan Naxçıvan xanlığı, onun Azərbaycan dövlətçiliyində oynadığı rol, inzibati-ərazi vahidləri, idarəetmədə özünəməxsus xüsusiyyətlərə malik olması, müstəqil siyasət yeritməsi, hərbi gücü, dövlət atributları kimi məsələlərə diqqət yetirilmişdir. Burada Naxçıvan hakimi olan Kalbalı xanın yeritdiyi daxili, xüsusi ilə xarici siyasətinin önəmli cəhətləri tədqiq edilmiş, xanlığın siyasi tarixində cərəyan edən hadisələr, Ağa Məhəmməd Qacarın, Fətəli şahın, Abbas Mirzənin, P.Sisianovun, A.Yermolovun və başqalarının Kalbalı xana münasibətləri faktik materiallar əsasında araşdırılmışdır. Rusiya ilə Qacarlar İranı arasında aparılan müharibələr, Naxçıvan xanlığının işğalı tədqiq edilmişdir.

## НАХЧЫВАНСКОЕ ХАНСТВО, ЕГО ЗАВОЕВАНИЕ СО СТОРОНЫ РОССИЙСКОЙ ИМПЕРИИ

***И.М.Гаджиев***

***Ключевые слова:*** *Нахчыванское ханство, тюмэн, магал, система управления, Россия, кенгерли, захват, атрибут*

В статье рассказывается об одном из ханств, возникших на территории Азербайджана после падения государства Надир шаха – Нахчыванском ханстве, о его роли в государственности Азербайджана, админстративно-территориальных единицах, о специфических методах управления, независимой политике, военной мощи, государственных атрибутах. Здесь на основе фактических материалов исследованы

основные направления внешней и внутренней политики, проводимой правителем Нахчывана Калбалы ханом, события, произходившые в политической истории ханства, взаимоотношения между Калбалы ханом и Ага Мухаммедом Каджаром, Фатали шахом, Аббас Мирзой, П.Цициановым, А.Ермоловым и др. Также исследованы война между Россией и Каджарским Ираном и захват Нахчыванского ханства.

## NAKHCHIVAN KHANATE, ITS ANNEXED BY RUSSIA EMPIRE

***İ.M. Hajiyev***

***Keywords:*** *Nakhchivan khanate, tuman, province, system of government, Russia, kangarli, occupation, attribute*

In the article the author have been paid attention to Nakhchivan khanate which was one the khanate established in Azerbaijan territory after the disruption of Nadir shah`s state. Its role in the statehood history of Azerbaijan, its official-territory units, its own specific features in governance, his independent policy, military power, state attributes have been learnt. In here the main features of internal, especially external policy of Kalbali khan the reign of Nakhchivan khanate is investigated. On the basis of factual materials the events happened in the political history of khanate, Agha Mahammad Qajar`s, Fatali shah`s, Abbas Mirza`s, P.Sisyanov`s, A.Yermalov`s attitude to Kalbali khan is analyzed. The battle between Rusia and Qajars` Iran, annexed of Nakhchivan khanate is also investigated.

Nadir şahın yaratdığı Əfşarlar dövləti (1736-1747) dövrünün güclü dövlətlərindən biri idi. Bu dövlətin yaranmasında Azərbaycan mühüm rol oynamışdır. Ona görə də Nadir şah yaratdığı dövlətdə Səfəvilərdən qalma inzibati-ərazi bölgüsünü ləğv edib, yeni sistem formalaşdırarkən Azərbaycanı Təbriz mərkəz olmaqla inzibati vahid kimi ayırmışdı.”Naxçıvan xanlığı” kitabının müəllifləri bu barədə yazmışdır: “1736-cı ildə Nadirqulu xanın tacqoyma mərasimi keçirildi. O, İran şahı elan edildikdən sonra dövlətin idarə olunmasında və inzibati quruluşunda ciddi dəyişiklik apardı. Nadir şah Səfəvi inzibati-ərazi bölgülərini-bəylərbəylikləri ləğv etdi. Azərbaycan ərazisində Şirvan, Qarabağ (Gəncə), Təbriz və Çuxur-Səəd bəylərbəyliklərini ləğv edib, vahid Azərbaycan vilayəti adı altında bir mərkəzdə-Təbriz ətrafında birləşdirdi. Şah vilayətin idarəsini qardaşı İbrahim xana həvalə etdi. Bundan əlavə hər yerdə yerli hakimlər Nadir şahın yaxın adamları ilə əvəz olundu”[5, s.27].

Azərbaycanın tarixi-coğrafi bölgələrinin, o cümlədən Naxçıvanın idarə edilməsində də dəyişikliklər edilmişdir. Naxçıvanın idarə edilməsindəki dəyişiklik kəngərli tayfasına olan inamsızlıqla bağlı olmuşdur. Görünür kəngərlilər hakimiyyət uğrunda mübarizədə Səfəvilərin tərəfini saxlamış, buna görə də Nadir onlara şübhə ilə yanaşmışdır. Nadirin əmri ilə kəngərlilərin mövqeyini zəiflətmək məqsədi ilə onların bir hissəsi Əfqanıstana köçürülmüşdür. Kəngərlilər əvvəldə qeyd etdiyimiz kimi vaxtilə Xorasana da köçürülmüşdü. Lakin o zaman əsas məqsəd kəngərlilərə olan inam və onların dövlətin mühafizəsində iştirakının təmin edilməsi olmuşdur. Bununla kifayətlənməyən Nadir şah Naxçıvanın idarə edilməsi üçün iki hakim-hakim-e ölke-yi Naxçıvan (Naxçıvan ölkəsinin hakimi) və hakim-e tümən-e Naxçıvan (Naxçıvan tüməninin hakimi) təyin etmişdir. Bununla eyni zamanda, Naxçıvan ölkəsinin idarə edilməsində vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər. Bu dəyişikliklərə baxmayaraq, Naxçıvanda stabil hakimiyyət yaratmaq mümkün olmurdu. İlk vaxtlar Naxçıvan hakimi Muğan qurultayında Naxçıvanı təmsil edən Mirzə Rza idi. Mirzə Rza bu vəzifədən uzaqlaşdırıldıqdan sonra həmin vəzifəyə Ağa Həsən təyin edilmişdi. Bu da vəziyyəti dəyişə bilməmişdi. Hakimin zülmündən xalq üsyana qalxmışdı [5, s.29]. Bu dövrdə Nadirin hakimiyyətinə qarşı çıxan sui-qəsdçilər 1747-ci ilin iyun ayında onu öldürmüşdülər.

Nadir şahın öldürülməsindən sonra onun imperiyası parçalandı. Bu zaman Azərbaycan ərazisində iyirmiyədək xanlıq (Şəki, Quba, Qarabağ, Urmiya, Təbriz, Sərab və s.) yarandı. Belə xanlıqlardan biri də müstəqil Naxçıvan xanlığı olmuşdur. Tədqiqatçıların yazdığı kimi “1747-ci ildə Nadir şahın dövləti süquta uğradıqdan sonra kəngərli tayfa başçısı Heydərqulu xan yerli feodallara arxalanıb, Ağa Həsəni hakimiyyətdən uzaqlaşdıraraq, özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi”(5, s.30). Lakin Naxçıvan xanlığının meydana gəlməsini yalnız bu hakimiyyət dəyişikliyi ilə izah etmək doğru olmazdı. Xanlığın timsalında müstəqil Naxçıvan xanlığının yaranması onun uzun tarixi bir dövr ərzində Azərbaycan dövlətçiliyində oynadığı rol, Səfəvilər dövləti tərkibində Naxçıvan ölkəsi kimi vahid inzibati ərazi olaraq inkişafı, Naxçıvan şəhərinin siyasi və iqtisadi mərkəz funksiyasını üzərinə götürməsi və kəngərli tayfası hakimlərinin siyasi liderlik ənənəsilə izah etmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qeyd etmişdir ki, “Azərbaycanın Naxçıvan diyarı qədim tarixə malikdir. Burada əsrlər boyu böyük mədəniyyət formalaşmışdır. Biz bu gün Naxçıvanın qədim mədəniyyətindən danışarkən təkcə sənətkarlıq, əkinçilik, memarlıq mədəniyyətini yox, bununla yanaşı, zəngin dövlətçilik mədəniyyətini də nəzərdə tuturuq. Bu ərazidə müxtəlif dövrlərdə mükəmməl dövlət idarəçiliyi formaları meydana çıxmışdır. Buna misal olaraq Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ təşkil edən Naxçıvan xanlığını göstərmək olar. Naxçıvan xanlığı böyük bir əraziyə malik idi. Olduqca gərgin bir dövrdə yaranan bu dövlət qurumu

Azərbaycanda inzibati idarəçiliyin formalaşmasına öz töhfəsini vermiş, xalqımıza məxsus tarixi ərazini, dil və milli mədəniyyəti qorumağı bacarmışdır”[14, s.103].

Naxçıvan xanlığı yarandıqda onun ərazisi Zəngəzur dağlarından başlayaraq Araz çayı vadisinə qədər olan torpaqları əhatə edirdi. Xanlıq şimal-şərqdən Dərələyəz dağları, cənub-şərqdən İlanlıdağ, şimal-qərbdən isə Böyük və Kiçik Ağrı dağları ilə əhatə olunmuşdu. Naxçıvan xanlığı İrəvan, Qarabağ, Xoy və Maku xanlıqları ilə həmsərhəd idi (13, s.26). M.Quliyevin hesablamalarına görə Naxçıvan xanlığının tarixinin birinci dövründə, yəni müstəqil olduğu 1747-1797-ci illərdə ərazisi 9428,71 kv.km, İrandan qismən asılı olduğu 1797-1828-ci illərdə isə ərazisi 4642, 83 kv.km. olmuşdur [10, s.26].

Naxçıvan xanlığı mövcud olduğu ərazi daxilində müəyyən inzibati-ərazi vahidlərinə bölünmüşdü. Yuxarıda qeyd etdiyimiz kimi Naxçıvanın inzibati ərazi bölgüsünə aid son məlumatlar farsdilli “Təzkirət əl-mülük”də (1727) və “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə (1727) əks olunmuşdur. Naxçıvanın tarixi-coğrafiyasına dair tədqiqatda göstərilir ki, inzibati-ərazi bölgüsündə əvvəlki dövrlə müqayisədə heç bir dəyişiklik baş verməyən Naxçıvan xanlığı 1797-1813-cü illərdə faktiki olaraq İrandan asılı vəziyyətə düşür. İran hakimiyyəti dövründə Naxçıvan xanlığı inzibati baxımdan iki tümənə bölünmüşdür ki, bunlardan biri Naxçıvan, digəri isə Ordubad tümənləri idi. 1797-ci ildən etibarən Naxçıvan xanlığına daxil olan Mehri və Qafan mahalları İbrahim Xəlil xan tərəfindən işğal olunub, Qarabağ xanlığına birləşdirilmişdir. Naxçıvan və Ordubad tümənləri bir neçə mahala bölünürdü. 1813-1828-ci illərdə Naxçıvan töməni dörd mahaldan (Naxçıvan, Əlincə, Xok və Dərələyəz), Ordubad töməni isə beş mahaldan (Ordubad, Əylis, Dəstə, Çənnab və Biləv) ibarət idi [1, s.25].

Naxçıvan xanlığının idarə sistemi, əsasən, Azərbaycan xanlıqlarının idarə sistemi ilə eyni idi (8). Bu idarə sistemi isə ümumən Səfəvilər dövlətinin idarə sisteminə əsaslanırdı. Bununla eyni zamanda, hər bir xanlığın təşəkkül tapması və fəaliyyətinin bəzi xüsusiyyətlərinə uyğun olaraq, idarəetmədə də spesifik cəhətlər özünü göstərirdi. Naxçıvan xanlığının müstəqilliyi dövründə-1747-1797-ci illərdə xanlar sərbəst olduğu halda, 1797-1828-ci illərdə Qacarların iradəsindən asılı idilər. Naxçıvan xanlığının mövcud olduğu dövrdə burada Heydərqulu xan (1747-1763/64), Şükrulla xan (1768, 1770-1771, 1777, 1779), Kalbalı xan (1787-1820), Ehsan xan (1827-1828) kimi nüfuzlu xanlar hakimiyyətdə olmuşdur.

Xanlıq dövrünə aid idarə sistemi barədə XVII-XIX əsrlərə aid 25 Naxçıvan əlyazmalar sənədləri məlumat verir. Sənədlər K.N.Smirnov tərəfindən tədqiqata cəlb edilmişdir [22]. Prof. Şahin Fərzəlibəyli həmin sənədləri yenidən tədqiqata cəlb etmiş və bir sıra yeni fikirlər irəli sürmüşdür. O, qeyd edir ki, bu 25 sənəd Kəngərli bəy sülaləsinin “ata-baba əlyazmalarını” toplu halda hifz

edən “bir çuvalda” aşkar olunmuşdur. Həmin çuvalda 300-dən çox sənəd olmuşdur ki, hal-hazırda onların taleyi naməlumdur. Lakin məlum olan budur ki, Kəngərli bəylərinin o zaman Rusiya və sovet siyasəti üçün “sərfəli olan” 25 sənədi məlum tədqiqata məruz qalmış, qalanları ola bilsin ki, gizlədilmiş, yaxud aradan çıxarılmışdır [6, s.80]. Topluya daxil edilən sənədlərdən aydın olur ki, Kəngərli tayfasının irsi başçısı olan xan eyni zamanda Naxçıvan hakimi olmuşdur. Hakimin xüsusi müavini-“vəkil” adı ilə fəaliyyət göstərən yüksək rütbəli məmur isə Kəngərli xanının adından qəbilə köçərilərinin daxili işlərinin tənzimlənməsi üçün vəzifədar edilmişdir [6, s.81]. 1803-cü ilə aid olan şah fərmanından aydın olur ki, İran-Rusiya döyüşləri vaxtı Fətəli şah tərəfindən orduya 50 min adam səfərbər edilmiş və onların arasında kəngərlilər də olmuşdur. Orada Kəngərli tayfasına ehtiram göstərilməsi və tayfa başçısı-Naxçıvan əyalətinin hakimi Kalbali xan Kəngərliyə hörmət edilməsi xüsusunda ciddi əmr olunmuşdu. Amma, bu sənəddə Kəngərli tayfasına bir qədər tənqidi yanaşılmış və yazılmışdır ki, “bu tayfa İrandan daha çox öz ölkəsinə bağlıdır”[6, s.83]. Bu, tamamilə doğru bir müşahidədir və Qacarların kəngərlilərə şübhə ilə yanaşdığını ortaya çıxarmaqla, eyni zamanda hakimiyyət münasibətlərinin rus-İran münasibətləri kontekstində ziddiyyətli olduğunu, daha doğrusu Qacarlardan asılılıq dövründə də Kalbalı xanın müstəqil siyasət yeritmək fikrini təsdiq edir.

Naxçıvan xanlığının dövlət həyatının ən önəmli faktorlarından biri onun hərbi gücü idi. Bu qüvvələr əsas etibarı ilə kəngərlilərdən toplanırdı. 1780-ci illərə aid bir məlumatda Şükrulla xanın on min nəfərlik hərbi qüvvə çıxara biləcək bir əraziyə hakimlik etməsi qeyd edilir [17, s.108]. Digər bir mənbədə Kalbalı xanın qoşunlarının sayının on iki min döyüşçü olduğu göstərilir [18, s.625-627]. 1833-cü ildə nəşr edilmiş Naxçıvan əyalətinin statistik təsvirinə görə xanlığın hərbi hissələri 800 piyada və 200 süvaridən ibarət idi [19, s.60-61]. Naxçıvan xanlığına aid sənədlərdə maafların da adlarına rast gəlinir. Vergi və mükəlləfiyyətlərdən azad olunmuş maaflar da təhlükəli günlərdə, çərik döyüşçülər kimi xanın tələb etdiyi yerlərdə hazır olmalı idilər. Amma Naxçıvan xanlığında sərhədlərin ən sədaqətli və etibarlı keşikçiləri Kəngərli süvariləri sayılırdı [10, s.42]. Naxçıvan əlyazma sənədlərinin məlumatına görə, Kəngərli tayfası rus işğalınadək aparılan döyüşlərdə süvari qoşun çıxarırdı və həmin qoşun “Naxçıvan süvariləri” adlanırdı. Amma, Naxçıvan əhalisinin Kəngərli tayfasına mənsub olmayan digər hissəsi isə “Naxçıvan piyada batalyonu” (yəni sərbazlardan ibarət dəstə) adı altında döyüşürdü [10, s.27].

Naxçıvan xanlığının bir dövlət kimi əsas atributlarından biri də onun pul dövriyyəsi ilə bağlı idi. Əvvəlki tarixi dövrlərdən məlum olduğu kimi, Naxçıvan şəhəri müxtəlif dövlətlər zamanı zərbxanaya malik olmuş, burada sikkələr zərb edilmişdi. Xanlıq dövründə isə dövlətin özünəməxsus pul vahidləri zərb olunmuşdur [4].

Azərbaycan xanlıqlarını müstəqil dövlət kimi xarakterizə edən əsas atributlardan biri də onların gerbləri və bayraqları olmuşdur. Dövlət bayrağının Azərbaycan dövlətçiliyi üçün əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidenti tərəfindən 12 noyabr Dövlət Bayrağı günü elan edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə 17 noyabr Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qəbul edilmişdir.

Müstəqil dövlət kimi meydana gələn Naxçıvan xanlığının gerbi və bayrağı da var idi. Naxçıvan xanlığının dövlət və döyüş bayrağı Azərbaycan dövlətləri bayraqlarının ənənəsini davam etdirməklə eyni zamanda dövrün yeni meyllərini də özündə əks etdirmiş, bununla birgə, sonrakı dövr dövlət bayraqlarına da mühüm təsir göstərmişdir. Hazırda Naxçıvan xanlığının iki dövlət və bir döyüş bayrağı aşkar edilmişdir. Bu bayraqlar tədqiqatçı P.Gözəlov tərəfindən aşkar edilmiş və öyrənilmişdir. Dövlətçilik üçün əhəmiyyətini nəzərə alaraq həmin təsvirləri burada vermək yerinə düşər.

Sankt-Peterburqdakı "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondundan aşkar edilmiş birinci dövlət bayrağı 1827-ci ildə xanlığın işğalı zamanı general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür. *Bayraq düzbuçaq formada eni 144 sm, uzunluğu 178 sm-dir. Qızılı ipəkdən hazırlanmış bayraq bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarətdir. Bayrağın iki hissəsi bir ölçüdə, biri isə nisbətən ensizdir. Bayrağın üzərində ərəb qrafikası ilə Qurani-kərimdən 48-ci əl-Fəth ayəsinin bir hissəsi və dini şüarlarla yanaşı altı səkkizguşəli ulduz və nəbati elementlər əks edilir. Üst zolağın üzərində ərəb qrafikası ilə Qurani-Kərimdən 48-ci əl-Fəth surəsinin bir hissəsi bayrağın üzərinə həkk edilib. Zolağın sol tərəfində digər xanlıq bayraqlarında əks olunmuş zanbaq gülü burada da parçadan tikilib. Sağ tərəfdə biri digərinin içərisində, aralarında dairəvi sədd olan iki səkkizguşəli ulduz qızılı saplarla bayraqda yerləşdirilib. Qeyd etmək lazımdır ki, əks edilmiş ulduz Möminə Xatın türbəsinin üzərindəki ulduzların üslubunda tərtib edilib.*

Dövlət Ermitajı Muzeyinin arxiv sənədlərində aşkar edilmiş ikinci bayraq 1812-ci il 19-20 oktyabrda Aslandüz döyüşündə general-mayor Kotlyarevski tərəfindən qənimət kimi götürülmüşdür. *Bayraq dördkünc formada olaraq, uzunluğu 145 sm., eni 159 sm-dir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", bayrağın sol tərəfində Qurani-kərimdən 48-ci əl-Fəth surəsinin bir hissəsi yazılıb: "Həqiqətən, biz sənə açıq-aydın qələbə verdik". Bayrağın aşağı hissəsində Qurani-kərimdən 2-ci əl-Bəqərə surəsinin bir hissəsi yazılıb. Sağda ərəb qrafikası ilə "Ey rəbbimiz bizə səbr ver, bizi sabit et", sol tərəfdə isə "Kafirə və qövmeyə qarşı mübarizədə bizə kömək et" yazıları vardır. Bayrağın orta hissəsində açıq sarı rəngli romb parça tikilib, üzərində sarı rəngdə şir və günəş rəmzi təsvir edilib.*

*İrəvan xanlığının bayrağından fərqli olaraq burada şirin üzü sağ tərəfə duraraq, başı frontal istiqamətdə göstərilir. Şirin sol pəncəsində qılınc təsvir edilib. Bayraq ucluğu "xəmsə" - insan əli formasındadır. Ucluğun üzərinə ucları qotazlı ağ rəngdə iki lent bərkidilib* [7, s.30-31].

"Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondunda aşkar edilmiş üçüncü bayraq 1827-ci ildə xanlığın işğalı zamanı general Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür. *Bayraq düzbucaq formada eni 92 sm, uzunluğu 192 sm-dir. Bir-birinə üfüqi şəkildə tikilmiş solğun yaşıl və qırmızı parçalardan ibarətdir. Yaşıl hissədə simvolik günəş formasında qırmızı parçadan səkkiz guşəli ulduz tikilib. Bayraq qumaşının çox saylı zədələrindən aydın olur ki, sözü gedən bayraq döyüşlərdə istifadə edilib. Bayrağı dəqiqliklə müşahidə etdikdə görünür ki, üzərində zədələnmiş hissələr bərpa edilərək tikilib və bir necə yerdən yamanıb. Bayrağın üzərindəki ulduzun bir hissəsi zədəli olduğundan bərpa edildikdən sonra ulduz yeddigüşəli qalıb* [7, s.39-40].

Naxçıvan xanlığının bayraqlarından başqa, heç bir xanlığın bayrağının üzərində xanlıqlara mənsubluğunu bildirən rəmz istifadə olunmayıb. Səkkizgüşəli ulduz Azərbaycan ərazisində qədim dövrlərdən istifadə edilmiş və müqəddəs hesab olunmuşdur. Əcəmi Naxçıvaninin Möminə Xatın məqbərisinə yerləşdirdiyi ulduz kompozisiyası Naxçıvan xanlığının bayrağındakının eynidir. Əcəmi memarlıq elementləri Naxçıvan xanlığının Dövlət bayrağının üzərində, mənsub olduğu Naxçıvan xanlığının əsas əlaməti və möhürüdür. Naxçıvan xanlığının bayrağında rəmzi şəkildə minarənin də təsvir edilməsi bu bayraqda Naxçıvana aid ikinci bir elementin özünə yer aldığını göstərir.

*Bayraqların üzərindəki rənglər xalqın tarixi ənənələrini əks etdirir. Yaşıl rəngin çox mənaları var, islamçılıqla yanaşı – bolluq, həyat sevgisi, inam, sevinc, ümid, azadlığı ifadə edir. Qırmızı rəng isə, müasirliklə yanaşı digər mənaları olub, məhəbbət, yüksək məqsədlər, qəzəb, igidlik, cəsurluq, düşmənin axan qanını ifadə edib. Naxçıvan ərazisində aypara rəmzli nümunələr olmuşdur. Hesab olunur ki, bütpərəstlik dövründə aypara rəmzi aya sitayiş edilən ölkələrdə olmuşdur. Albaniyada (Qafqaz) uzun müddət Aya sitayiş və Ay məbədi olmuşdur. Ola bilsin ki, məhz buna görə də Naxçıvan ərazisindən tapılan tunc buxurdanda Alban hökmdarı Cavanşirin tacının üzərində aypara rəmzi görünür. İslamda aypara ilahiliyin və ali hakimiyyətin əsas simvolu sayılır. Aypara VII əsrin əvvələrində islamın, bütün onun şaxələrinin və təriqətlərinin emblemi olmuşdur, X-XI əsrlərdən isə aypara əksər müsəlman ölkələrinin dövlət simvolu olmuşdur. Naxçıvan xanlığının bayrağında ay-ulduz, aypara simvolunun istifadə edilməsi də, ənənələrin dərin köklərinin sübutudur* [7, s.40-41].

Naxçıvan xanlığının Dövlət bayrağında ay-ulduz (aypara) təsvirlərinin olması, Naxçıvan xanlığının bayrağının ipək parçadan tikilməsi, üzərində qızılı

rəngli saplardan istifadə edilməsi bu bayrağın iqamətgahda, rəsmi yerlərdə istifadə olunduğunu göstərir. Bayrağın üzərindəki ulduzlar da Naxçıvan xanlığının əhatə etdiyi ərazilərdəki nahiyələri, qəzaları, əsas tayfaların idarə etmədə iştirakını əks etdirir.

Naxçıvan xanlığı mövcud olduğu dövr ərzində gərgin siyasi hadisələrlə zəngin olmuşdur [15]. Xanlığın meydana gəldiyi ilk dövrdə Heydərqulu xan ilə qarabağlı Pənah xan arasında dostluq münasibəti var idi. Heydərqulu xan xanlığının siyasi və iqtisadi cəhətdən möhkəmləndirlməsinə xüsusi önəm verirdi. Onun ölümündən sonra xanlıqda hakimiyyət uğrunda mübarizə onun vəziyyətinə mənfi təsir etdi, qonşu hökmdarların xanlığın daxili işlərinə müdaxiləsi genişləndi. Ənənəvi olaraq Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan İran və Osmanlı dövləti ilə birgə, 1783-cü ildə Kartli-Kaxet çarlığı ilə Georgiyevsk müqaviləsi bağlayan Rusiya imperiyasının da bu mübarizəyə qoşulması ilə regionda vəziyyət mürəkkəbləşdi. Naxçıvan bu geopolitik vəziyyətdə tarixən olduğu kimi həmin dövrdə də mühüm rol oynayırdı. Naxçıvanda Abbasqulu xan və Cəfərqulu xan arasında hakimiyyətə yiyələnmək uğrunda gedən mübarizə xanlığın siyasi mövqeyini zəiflədirdi. Görkəmli dövlət xadimi Kalbalı xanın (təxminən 1740-cı illər-1823) Naxçıvanda hakimiyyətə gəlməsi ilə xanlığın siyasi tarixində mühüm yer tutur [9]. Onun hakimiyyət dövrünü iki yerə ayırmaq olar: 1787-1797-ci illəri əhatə edən on illik dövr müstəqil siyasət yeridildiyi dövr kimi, 1797-1820–ci illər isə Qacarlardan asılılıq dövrü kimi ayrıla bilər. Lakin bu iki dövr arasında hökmdarın həyatında böyük bir faciə baş vermişdir. Qacarlar dövlətinin banisi Ağa Məhəmməd şah (1795-1797) onun Rusiya ilə siyasi münasibətlərini əsas tutaraq gözlərini çıxartdırmış və həbs edərək Tehrana göndərmişdir [16, s.35]. Buna baxmayaraq, Kalbalı xan dövrünün siyasi simalarından biri kimi ən mühüm hadisələrdə iştirak etmişdir.

Ağa Məhəmməd Qacardan sonra hakimiyyətə gələn Fətəli şah Kalbalı xanı həbsdən azad etmiş, lakin Naxçıvanda deyil, İrəvanda yaşamağa icazə vermişdir. Kalbalı xan İrəvanda olarkən onun nüfuzu daha da artmış, Naxçıvanda hakimiyyətini möhkəmləndirməyi qərara alan Fətəli şah tərəfindən onun 1803-cü ildə doğma Naxçıvana qayıtmasına razı olmuşdu. Tezliklə İran və Rusiya arasında kəskinləşən münasibətlər 1804-1813-cü illər müharibəsinə çevrilmişdir. Xoy xanı Cəfərqulu xanın qohumu İrəvan xanı Məhəmməd xanla birlikdə anti-İran mövqeyində durması, Fətəli şahın 1804-cü ildə İrəvanı ələ keçirməsinə, Məhəmməd xanı əsir edərək Tehrana göndərməsinə və İrəvan xanlığının idarəsinin də Kalbalı xana tapşırılmasına səbəb oldu [5, s.84]. Bunun nəticəsində Qafqazdakı rus qoşunlarının komandanı P.D.Sisianovla Kalbalı xan arasında münasibətlər kəskinləşdi. 1806-cı ildə Sisianovun öldürülməsindən sonra Kalbalı xan siyasi manevr etməyə başladı və mövqeyini möhkəmləndirmək məqsədi ilə Rusiyanın Qafqaz dairələri ilə münasibəti bərpa

etdi və müstəqil siyasət yeritməyə başladı. Onun bu siyasəti Fətəli şahın narazılığına səbəb olduğundan, Abbas Mirzəni Naxçıvan üzərinə göndərdi. Abbas Mirzə yalnız xəyanət hesabına Naxçıvanı ələ keçirə bildi və Abbasqulu xan hakimiyyətə gətirildi [5, s.90]. Ruslar da Naxçıvan uğrunda mübarizəyə başladılar. 1808-ci ilin oktyabrında rus qoşunları Qarabağdan Naxçıvana doğru hərəkətə başladı. Qarababa döyüşündən sonra ruslar Naxçıvana daxil oldular. Lakin Naxçıvanda uzun müddət qala bilmədilər və şəhəri tərk etməyə məcbur oldular. Vəziyyətin belə olduğunu görən Abbas Mirzə Naxçıvanda möhkəmlənməyə xüsusi diqqət yetirdi və sonrakı yürüşlər Naxçıvan vasitəsi ilə həyata keçirilməyə başlandı. Ona görə də Naxçıvanda nüfuzlu xanın hakimiyyətinə ehtiyac yarandı. Bunu nəzərə alan Abbas Mirzə etimadı doğrultmayan Abbasqulu xandan sonra yenidən hakimiyyətə Kalbalı xanın gətirlməsinə nail oldu.

Abbas Mirzə tərəfindən Naxçıvana xüsusi əhəmiyyət verilməsinin göstəricilərindən biri də şəhərin yaxınlığında möhkəmləndirilmiş Abbasabad qalasının tikilməsi oldu [3, s.118-122]. Abbasabad qalası hərbi-strateji mövqeyinə, həmin dövr üçün müasir olan hərbi tələblərə cavab verməsinə görə bölgədə Qacarlar İranının mühüm bazası rolunu oynayırdı.

Müharibənin gedişində üstünlüyə nail ola bilməyən İran 1813-cü il oktyabrın 12-də Rusiya ilə Gülüstan müqaviləsini imzaladı [11, s.437-443]. Naxçıvan xanlığı İranın tərkibində qaldı.

Gülüstan müqaviləsindən sonra Qacarlar Naxçıvanda daha da möhkəmlənmək üçün xan hakimiyyətini zəiflətmək və mərkəzdən asılılığını artırmağa çalışırdı. Kalbalı xan isə müstəqil siyasət yeritməyə çalışır, bunun üçün artıq Naxçıvanla qonşu olan Rusiya ilə münasibətləri gücləndirməyə çalışırdı. Bu məqsədlə xan çar I Aleksandr tərəfindən Qafqazdakı rus qoşunlarının yeni komandanı və 1816-cı ildə İrana göndərilən nümayəndə heyətinə rəhbər təyin edilmiş A.Yermolovun Naxçıvandan keçən elçiliyini qəbul etmişdir [9, s.240-260]. Bu görüş Yermolov üçün də xüsusi əhəmiyyətə malik idi, çünki ona verilən təlimatda Rusiyaya birləşdirilmiş bəzi torpaqların Naxçıvan və İrəvan xanlıqları ilə dəyişdirilməsi də nəzərdə tutulurdu. Görüşə dair mənbələrdən aydın olur ki, Kalbalı xan əslində, özünü siyasi cəhətdən müstəqil aparırdı [20; 24]. Yermolov missiyasını başa çatdırıb geri dönərkən, 1817-ci ilin sentyabrında Naxçıvandan keçərkən Kalbalı xanla yenidən qısa bir görüşü olmuşdu [9, s.254-255, 260].

Yermolovun elçiliyinin əsas nəticələrindən biri ondan ibarət oldu ki, İran zəifdir və ona hər hansı torpaq güzəştə getmək məqsədəuyğun deyil, digər tətəfdən ingilislərin də fəal kömək göstərdiyi İran özü məğlubiyyətin əvəzini çıxmaq üçün yeni müharibə hazırlığındadır. Belə bir mürəkkəb hərbi-siyasi və diplomatik mübarizə şəraitində Kalbalı xanın 1820-ci ildə hakimiyyətdən uzaqlaşması Naxçıvanda hakimiyyət uğrunda mübarizəni yenidən kəskin-

ləşdirdi. Kalbalı xandan sonra hakimiyyətə gələn böyük oğlu Nəzərəli xanı hakimiyyətdə əmisi oğlu Kərim xan, 1822-ci ildə isə onu da Hüseyn Mirzə əvəz etdi. 1823-cü ildə yenidən Kərim xan hakimiyyətə gəldi (1823-1827) və sonrakı hadisələr onunla, Ehsan xanın dövründə (1827-1828) cərəyan etdi [5, s.104-105].

1826-cı ildə Rusiya İran arasında Naxçıvan xanlığının da hakimiyyətini sona çatdıran müharibə başladı [21; 23]. Müharibənin gedişi zamanı, 1827-ci il iyunun 27-də ermənilərin xəyanəti, rus qoşunlarına köməkliyi və bələdçiliyi nəticəsində Naxçıvan işğal olundu [10, s.126]. İyulun 5-də Araz çayı sahilində Cavanbulağı adlı yerdə baş verən döyüşdə ruslar qalib gəldi. Bu döyüş Abbasabad qalasının müdafiəçilərinin döyüş ruhuna mənfi təsir etdi. Ehsan xanın da yaxından iştirakı ilə qala təslim oldu. 1827-ci il oktyabrın 1-də İrəvanın da təslim olması ilə müharibə son dövrünə qədəm qoydu. Rus qoşunları artıq, Azərbaycanın cənub hissəsində hərbi əməliyyatları genişləndirməyə başladı. Vəziyyətin böhranlı həddə çatdığını görən İran ingilislərin də təsiri ilə tezliklə sülh müqaviləsi bağlamaq üçün danışıqları intensivləşdirdi [2]. 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya ilhaq edildi. 1828-ci il martın 6-da Ehsan xan Ordubaddan Abbasabad qalasına gətirildi və Naxçıvan naibi təyin edildi [10, s.126]. Beləliklə, faktiki olaraq Naxçıvan xanlığının ləğv edilməsi başa çatdı.

Naxçıvan xanlığında sosial-iqtisadi həyatın inkişafı və onun səmərəli idarəçiliyinin təşkili dövlətin varlığını davam etdirməsi üçün zəruri şərtlərdən idi. Lakin hakimiyyət uğrunda siyasi mübarizələr, qısa bir dövr ərzində xeyli miqdarda vəsait toplamaq siyasəti xalqın vəziyyətini ağırlaşdırır, əhalini var-yoxdan çıxarırdı. Belə bir çətin vəziyyətə baxmayaraq, tarixən ölkənin mühüm iqtisadi mərkəzlərindən biri olan Naxçıvan Azərbaycanın xanlıq dövrü iqtisadi həyatında vacib rolunu davam etdirirdi. Bu dövr mədəniyyətinin inkişafına da müəyyən töhfələr vermişdir [16, s.62-78].

## ƏDƏBİYYAT


1. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı, 1995, 96 s.
2. Bu barədə daha ətraflı bax: Şükürov K. Türkmənçay – 1828. Bakı, 2006, 188 s.
3. Bu qalaya dair tarixi faktlar M.Quliyev tərəfindən təhlil edilmiş və ümumiləşdirilmişdir. Bax: Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, Bakı, 2013, s.118-122.
4. Bu məsələyə dair bax: Гезалов П. Знамена азербайджанских ханств как источник по изучению истории государственности. Баку, 2010, 208 с.

5. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 2007, 120 s.
6. Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər//Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, 1999, s.79-94.
7. Gözəlov P. Naxçıvan xanlığına məxsus üç bayraq. Bakı, 2016, 80 s.
8. Xanlıq dövründə idarə sistemi haqqında bax: Мамедова Э. Администраривное устройство и управление азербайджанских ханств во второй половине XIX века. Автореферат диссертации… канд. ист. наук. Баку, 1999, 24 с.
9. İvanov R.N. Kalbalı xan Naxçıvanski. Dövrü və irsi (Tarixi oçerklər). Bakı, “Azərnəşr”, 2012, 718 s.
10. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan, “Əcəmi” NPB, 2013, 184 s.
11. Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Dörd cilddə, Birinci cild, Bakı, 2009, 512 s.
12. M.Quliyevə görə Naxçıvan xanlığının ərazisinin bu cür ənənəvi şəkildə göstərilməsi həqiqətə uyğun deyil. Onun fikrincə, Naxçıvan xanlığının ərazisi Zəngəzur sıra dağlarından xeyli şimalda olan Kəngərli çayından başlayır.
13. Mustafazadə T. Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı, “Təhsil”, 2006, 504 s.
14. Naxçıvan xanlığının bayraqlarının təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Naxçıvan Muxtar Respublikası. Rəsmi sənədlər. Naxçıvan, 2015, 120 s. (s.103-105).
15. Naxçıvan xanlığının siyasi tarix məsələləri barədə bax: Əliyev F., Əliyev M. Naxçıvan xanlığı, s.63-81; Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.46-116; Naxçıvan tarixi. Üç cilddə. II c. Naxçıvan, 2014, s.23-58; Budaqova S. Naxçıvan diyarının siyasi tarixi. Bakı, 2014, s.24-37.
16. Naxçıvan tarixi. Üç cilddə, II cild. Naxçıvan: “Əcəmi” NPB, 2014, 528 s.
17. Seyidbəyli E.M. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000, 229 s.
18. Акты собранные Кавказской Археографической Комиссией. В. 12-ми тт. Т.1. Тифлис, 1866, 816 с.
19. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 263 с.

20. Борозна В. Краткое описание путешествия Российского императорского посольства в Персию в 1817 г., СПб, 1821, 270 с.
21. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. М., 1969, 228 с.
22. Передняя Азия в документах (Серия памяти Ю.Н.Марра). Кн. 1. Нахичеванские рукописные документы XVIII-XIX вв. Тбилиси, 1936, 141 с.
23. Потто В.А. Кавказская война. Т.III. СПб, 1886, 713 с.
24. Соколов А.Е. Дневные записки о путешествии Российского императорского посольства в Персии в 1816-1817 гг., М., 1910, 35 с.

**UOT 94(479.24)**

# İRƏVAN BÖLGƏSINƏ ERMƏNİLƏRİN KÜTLƏVİ KÖÇÜRÜLMƏSİNİN İLKİN MƏRHƏLƏSİ, ƏHALİNİN SAY DİNAMİKASINDA BAŞ VERMİŞ DƏYİŞİKLİKLƏR

***İ.F.Kazımbəyli***
*Naxçıvan Universiteti*
*ibrahimkazimbeyli@gmail.com*

***Açar sözlər:*** *İrəvan bölgəsi, köçürülmə, mərhələ, əhali, say dinamikası, ilkin*

Məqalədə XIX əsrin əvvəllərində Azərbaycan ərazilərində baş vermiş ictimai-siyasi hadisələrə nəzər salınır. Rusiya-İran dövlətləri arasında baş vermiş məlum müharibələrdən sonra ərazilərimizin işğalı, parçalanması və nəhayət Şimal ərazilərimizin Rusiyanın müstəmləkəçilik siyasətinə məruz qalmasının səbəbləri aydınlaşdırılır.

Ermənilərin Cənubi Qafqaza köçürülməsinin layihə “rəhbərlərinin” xüsusi canfəşanlığı tarixi faktlarla tədqiqatda öz əksini tapır.

Rusiyanın ayrıca olaraq dövlət siyasətinin əsaslarını təşkil edən ermənilərin köçürülməsi prosesində erməni katolikosu və yepiskopları da xüsusi rol oynayırdılar. Onlar daha çox təbliğat, təsir və təzyiq kimi vasitələrdən istifadə edərək erməni əhalisinin köçürülmə prosesinə maksimum cəlb edilməsinə çalışırdılar. Köçürülən erməni əhalisi Rusiya tərəfindən məqsədyönlü şəkildə işğal edilmiş Şimali Azərbaycan ərazilərində, əsasən də İrəvan, Naxçıvan və Qarabağ əyalətlərinin təbii gözəlliyi, yaxşı iqlimi və xəzinə torpaqlarında kompakt şəkildə, yerləşdirilirdi, onların qayğıları hökümət tərəfindən qarşılanırdı.

## ПЕРВЫЙ ПЕРИОД МАССОВОГО ПЕРЕСЕЛЕНИЯ АРМЯН В ЭРИВАНСКУЮ ОБЛАСТЬ, ИЗМЕНЕНИЕ ЧИСЛЕННОЙ ДИНАМИКИ НАСЕЛЕНИЯ

***И.Ф.Казымбейли***

***Ключевые слова:*** *Эриванский регион, период, население, численная динамика, первичный.*

В научной статье рассматривается общественно-политические события происходящие в начале XIX века на территории Азербайджана.

Также исследованы захват, раздробление наших земель и наконец попадания северного Азербайджана в колонию России после Русско-Иранской войны.

Особое усердие «руководителей» проекта переселения армян Южный Кавказ нашло свое отражение историческими фактами.

В процессе переселения армян, который являлся основой Российской государственной политики, армянский католикос и епископы сыграли особую роль. С помощью пропаганды и нажима они стремились привлекать максимум населения армян в переселенческий процесс.

Со стороны России армяне переселенце целенаправленно переселялись на территорию Северного Азербайджана, особенно в Эриванские, Нахичеванское и Карабахские области. Эти районы отличались своей природной красотой, мягким климатом и обилием казенных земель, все нужды переселенцев обеспечивались со стороны русского правительства.

## THE FIRST PERIOD OF MASS MOVING OF ARMENIANS TO IRAVAN REGION, CHANGES TAKE PART IN POPULATION'S GROWTH DYNAMICS.

***İ.F.Kazimbeyli***

***Keywords:*** *Iravan province, moving, stage, population, growth dynamics, first*

In the scientific article, public-political events are concerned in the beginning of XIX century in the territories of Azerbaijan. After the known war between Russia and Iran states the invasion, separation and finally the reasons of our North areas' undergo the colonial policy of Russia.

In the research work project “leaders” zeal on Armenians moving to the Southern Caucasus it finds its reflection in the historical facts.

The moving process of Armenians basing the main sides of Russia's state policy Armenian bishops and catholicos had great role. While using propaganda, influence and pressure they tried to attract in maximum size Armenian population to moving.

Moved armenian people was placed compactly on state lands in Northern Azerbaijan territory, mainly in Iravan , Nakhchivan and Karabakh provincials, which has natural beauty, good climate and their state care for them were supported by government.

Bu dövrdə köçürmə prosesi böyük vüsət aldı və miqyası genişləndi. Ermənilərin köçürülməsi prosesinə rəhbərlik etmiş Lazarevin Xoydan Paskeviçə göndərdiyi 1828-ci il 9 mart tarixli raportunda göstərilirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir [1,s. 624-625].

Lazarevin Paskeviçə təqdim etdiyi 24 dekabr 1829-cu il tarixli yekun hesabatına görə, ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına köçürülməsi işlərinə 1828-ci il fevralın 26-dan başlanılmış və bu proses iyunun 11-də başa çatdırılmışdır. Bu müddət ərzində İran ərazisindən 8249 erməni ailəsi Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ əyalətlərinə köçürülmüşdür. Bundan başqa, köçürülməli olan daha 1500 erməni ailəsinin köçürülməsini həyata keçirmək ayrılan zamanın başa çatması ilə əlaqədar olaraq mümkün olmamışdır. Köçürmə işlərinə xəzinədən 14.000 qızıl və 400 gümüş rubl xərclənmişdir [16,s.57]. Polkovnik Lazarev general İ.Paskeviçə göndərdiyi adı çəkilən hesabatında yazırdı: “1828-ci il fevralın 26-da fəaliyyətə başlayıb, yerlərdə saxlanılan təxminən 1500 ailə istisna olunmaqla, elə həmin il iyun ayının 11-də fəaliyyətimi başa çatdırdım... Bu müddətdə əlahəzrətdən 14.000 manat qızıl pul və 400 manat gümüş pul almışam. O cümlədən də, Naxçıvan şöbəsinə verdiyim 2000 manatdan çox qızıl pulla 8249 xristian (erməni – İ.K.) ailəsi köçürmüşəm” [16,s.57]. Onu da qeyd etmək lazımdır ki, 8249 ailə (təxminən 40-50 min nəfər) rəqəmi ancaq rəsmi köçürülənləri əks etdirir, qeyri-rəsmi köçənlərin sayı bu rəqəmlərə daxil deyildir.

1829-cu ildə İ.Paskeviçin verdiyi xüsusi tapşırıq əsasında fransız mənşəli rus tədqiqatçısı, kollec assesoru İ.İ.Şopen 1829-1832-ci illərdə Erməni vilayətində kameral təsvir həyata keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu kameral təsvirin nəticələri müəllifin 1852-ci ildə nəşr edilən “Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi” əsərində [17] verilmişdir. İ.İ.Şopenin bu əsərdə verdiyi statistik məlumatlara görə, İrandan köçürülən ermənilərdən təkcə 366 ailə (1715 nəfər) İrəvan şəhərinin özündə, 265 ailə (1110 nəfər) Naxçıvan şəhərində və 36 ailə (182 nəfər) isə Ordubad şəhərində yerləşdirildi. Bundan başqa İrandan köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində məskunlaşdırıldı. Bütövlükdə, İrəvan əyalətində 4559 ailə (12.498 kişi, 11.070 qadın, cəmi 23.568 nəfər), Naxçıvan əyalətində 2137 ailə (5641 kişi, 5011 qadın, cəmi 10.652 nəfər), Ordubad dairəsində 250 ailə (698 kişi, 642 qadın, cəmi 1340 nəfər) erməni yerləşdirildi. Nəticədə “Erməni vilayəti”ndə 35560 nəfərdən ibarət 6946 erməni ailəsi köçürüldü [17, s.635-642].

Yeni təşkil edilmiş “Erməni vilayəti”ndə müsəlmanların sayı 81749 nəfər (16078 ailə) və ermənilərin sayı 25131 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdən sonra onların sayı 60691 nəfərə (11374 ailə)

çatdı. Bununla da, bölgədə ermənilərin sayı 24 faizdən 43 faizə qalxdı [11, s.32].

Beş min erməni ailəsinin İrəvan xanlığı ərazisində yerləşdirilməsi məsələsi ortaya çıxanda "Erməni vilayəti"nin rəhbərliyindən Paskeviçə bildirilmişdir ki, burada onların hamısının dolandırılması üçün imkan yoxdur. Vilayət rəhbərliyi ermənilərin bir qisminin də Qarabağda yerləşdirilməsini məqsədəuyğun hesab edirdi. Lazarev Paskeviçə göndərdiyi məktubunda bildirirdi ki, Urmiya, Səlmas və Xoydan olan köçkünlər artıq Naxçıvana çatmışlar. Onların arasında daha çox ehtiyac içərisində olanlar Qarabağa göndərilsinlər. Orada 3000 erməni ailəsinin yeni məhsul əldə edilənə qədər ərzaqla təmin edilməsi üçün imkan vardır [21,s.106]. Buradan da aydın olur ki, 6946-sı "Erməni vilayəti"ndə yerləşdirilən İrandan köçürülən 8249 erməni ailəsinin yerdə qalan 1303 erməni ailəsi də Qarabağa və ətraf ərazilərdə yerləşdirilmişdir.

Rusiya İranla Türkmənçay müqaviləsini imzaladıqdan az sonra – 1828-ci il aprelin 26-da Osmanlı dövlətinə müharibə elan etdi və Rusiya-Osmanlı müharibəsi başladı [18, s.32]. Müharibə Balkan və Qafqaz cəbhələrində olmaqla iki cəbhədə aparıldı. Rusiya-İran müharibəsində olduğu kimi, Rusiya-Osmanlı müharibəsində də ermənilər təbəəsi olduqları Osmanlı dövlətinə xəyanət etdilər və düşmən tərəfə - Rusiyaya xidmət etdilər. Osmanlı erməniləri Rusiya tərəfə keçib öz ölkələrinə qarşı vuruşmaqla yanaşı, ölkə daxilində də ruslara xidmət edərək, casusluq edir və müxtəlif provakasiyalar törədirdilər. Axıska, Qars, Ərzurum və digər şəhər-qalaların rus qoşunları tərəfindən ələ keçirilməsində ermənilərin ruslara göstərdiyi xidmətlər çox mühüm rol oynamışdı.

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi Rusiyanın qələbəsi ilə başa çatdı 1829-cu il sentyabrın 14-də Rusiya tərəfindən diktə edilən şərtlər əsasında Ədirnə müqaviləsi imzalandı [16, s.143-150]. Ədirnə müqaviləsinə görə, Axalsıx və Axalkələk paşalıqları və bu ərazilərdən şimalda yerləşən Anapa və Poti qalaları və eyni zamanda Müqəddəs Nikolay limanına qədər Qara dənizin bütün şərq sahilləri Rusiyaya keçdi (IV maddə).

Rusiya Türkmənçay müqaviləsində olduğu kimi, Ədirnə müqaviləsində də erməniləri unutmadı. Osmanlı dövlətinə xəyanət edərək, Rusiya tərəfə keçib öz ölkələrinə qarşı vuruşan, eyni zamanda ölkə daxilində də ruslara xidmət edən erməni əhalisini "təqiblərdən qorumaq" adı altında müqaviləyə ayrıca maddə salındı. Müqavilənin on üçüncü maddəsinə görə, hər iki dövlət müharibə dövründə düşmən tərəfə xidmət edən təbəələrini əfv edir və onlara 18 ay müddətində öz daşınar əmlakları ilə istədikləri yerlərə köçmək hüququ verilirdi. Ruslar tərəfindən işğal edilən və Osmanlılara geri verilən yerlərdə yaşayan əhalinin iki dövlətdən birinin ərazisinə köçmək istəyənlərinə də 18 ay müddət verilirdi [17, s.79]. Bu maddə Türkmənçay müqaviləsinin on beşinci maddəsi

ilə eyni mahiyyətdə idi və Osmanlı imperiyası ərazisində yaşayan ermənilərin Rusiya imperiyası ərazilərinə köçürülməsini nəzərdə tuturdu.

Ermənilərin Cənubi Qafqaza köçürülməsi layihəsinin memarlarından olan general İ.Paskeviç Qars paşalığını da Rusiyaya ilhaq edərək “Erməni vilayəti”nə birləşdirmək və bu ərazini də köçürüləcək ermənilər hesabına xristianlaşdırmaq niyyətində idi. O, bu məqsədlə hələ Rusiya-Osmanlı müharibəsi başa çatmamış - 1829-cu ilin iyununda xarici işlər naziri K.V.Neselrodeyə müraciət etmişdi. Lakin Rusiya hökuməti, Qafqaz cəbhəsində daha çox Osmanlı ərazilərinin içərilərinə doğru genişlənməni sülh üçün təhlükə hesab edib Axalsıx və Axalkələk paşalıqları ilə kifayətlənməyi uyğun bilmişdi [20, s.296-297].

Osmanlı dövlətindən ermənilərin köçürülməsi işlərinə general Pankratyev rəhbər təyin olundu. General İ.Paskeviç Osmanlı ərazilərindən köçürülən erməni əhalisini yerləşdirmək və onların qayğılarını qarşılamaq üçün xüsusi komitə yaratdı. Bu komitənin fəaliyyəti üçün 12 maddədən ibarət qaydalar müəyyən etdi [2, s.835-836]. Bu qaydalar aşağıdakılardan ibarət idi:

1. Köçürülənlər Rusiyanın ərazisinə daxil olan kimi onların qayğısı üçün bütün sərəncamları Köçkünlər komitəsi verəcəkdir; 2. Köçürmə prosesi sona çatana, köçürülənlərin hamısı yaşayış yerlərində məskunlaşana və kəndlərdə köçkünlərin təsərrüfat qayğıları həll edilənə qədər komitə öz fəaliyyətini davam etdirməlidir. Bundan sonra komitə baş komandanlığa yekun hesabat verib öz fəaliyyətini dayandırmalıdır; 3. Komitə dərhal Gürcüstanda və digər əyalətlərdə boş dövlət torpaqları haqqında məlumat toplamalıdır; 4. Bütün köçkünlər üç zümrəyə ayrılmalıdır: 1) tacirlər və alverçilər; 2) sənətkarlar və istehsalın hər hansı növündən baş çıxaranlar; 3) əkinçilər və yaxud kəndlilər. Köçkünlərin məskunlaşması zamanı tacir və sənətkarları şəhərlərdə və bu işlə məşğul olmağa imkan olan yerlərdə, kəndliləri isə kəndlərdə yerləşdirmək, bu zaman iqlim şəraitini və əvvəlcə məskunlaşdıqları səviyyəni nəzərə almaq lazımdır. Yelizavetpolda və digər şəhər və əyalətlərdə boş dövlət evləri vardır, ona görə də komitə, sənətkarları və tacirləri həmin yerlərdə yerləşdirməyi nəzərdə tutmalıdır; 5. Köçkünlər Komitəsi Osmanlı ərazisindən köçürülənlərin siyahısını hərbçilərdən tələb edən zaman onların haradan köçürüldükləri, hansı işlə məşğul olmaları haqqında məlumat verməyi də tələb etməlidir; 6. Komitə çalışmalıdır ki, köçürülən kəndlər bütövlükdə, bu mümkün olmazsa, qonşuluqda yerləşdirilsinlər; 7. Komitə köçürülən əhalini hər kənddə ailələrin, hər ailədə nəfərlərin sayına mütənasib olaraq lazımi qədər torpaqla təmin etməlidir; 8. Köçürülənlər bütövlükdə dövlət torpaqlarında, əgər bu kifayət etməsə, kilsə və mülkədar torpaqlarında yerləşdirilməlidirlər; 9. Köçürülənlər 6 il müddətinə vergilərdən, 3 il müddətində isə torpaq mükəlləfiyyətlərindən azad edilməlidirlər; 10. Yeni köçürülən xristian kəndlərini müsəlman kəndləri ilə qarışdırmamaq, onlardan ibarət ayrıca mahal və dairələr təşkil etmək lazımdır;

11. Köçürülənləri məskunlaşdırmaq üçün yer seçərkən rahatlığı, gözəlliyi və yaxşı suyun olmasının qayğısına qalmaq lazımdır; 12. Köçürülən hər bir ailəyə orta hesabla 25 rubl gümüş pul həcmində maddi köməklik göstərilməlidir [2, s.831-832].

Köçürmə prosesində bu qaydalara ciddi əməl olundu. Köçürülən erməni əhalisi Rusiya tərəfindən məqsədyönlü şəkildə işğal edilmiş Şimali Azərbaycan ərazilərində, əsasən də İrəvan, Naxçıvan və Qarabağ əyalətlərinin təbii gözəlliyi, yaxşı iqlimi və saf suyu olan dağətəyi rayon və şəhərlərində kompakt şəkildə yerləşdirildi, onların qayğıları hökumət tərəfindən qarşılandı.

İranda olduğu kimi, Osmanlı dövlətindən də ermənilərin köçürülməsi prosesində erməni katolikosu və yepiskopları xüsusi rol oynadılar. Onlar daha çox təbliğat, təsir və təzyiq kimi vasitələrdən istifadə edərək erməni əhalisinin köçürülmə prosesinə maksimum cəlb edilməsinə çalışırdılar [12, s.406].

General İ.Paskeviç Ədirnə müqaviləsinin imzalanmasından dərhal sonra ermənilərin köçürülməsi prosesini həyata keçirmək üçün hərəkətə keçdi. O, 1829-cu il oktyabrın 10-da imperator Nikolaya göndərdiyi raportunda ermənilərin köçürülməsinə işinə başlamaq üçün icazə istəyir və bunun üçün maliyyə ayrılmasını xahiş edərək: “Bəyaziddə 2000 erməni bizim əsgərlərin cərgəsində vuruşmuşlar, Ərzurumda xristian əhalinin böyük hissəsi bizim dini bayramı qeyd etmişlər. Qarsda ermənilərdən ibarət 800 nəfərlik könüllü batalyon təşkil edilmişdir. Onların ailələrindən 10 min nəfərinin başının üstünü labüd təhlükə almışdır. Mərhəmətli hökmdar, mərhəmətli diqqətinizi bu bədbəxt qurbanlara yönəldin, onların Rusiyaya göstərdikləri sədaqətə görə Osmanlılar tərəfindən cəzalandırılmasına imkan verməyin. Ona görə də cəsarət edib əlahəzrət imperatordan bu ailələri Gürcüstan və Erməni vilayətlərinə yerləşdirmək ixtiyarını mənə verməsini xahiş edirəm. Zənnimcə, köçürülən hər bir ailəyə orta hesabla 50 gümüş rubl kifayət edəcəkdir” [3, s.830].

1829-cu il noyabrın 18-də hərbi nazir Çernışev Paskeviçə yazırdı ki, imperator onun təklifini bəyənmişdir [4, s.830-831]. Paskeviçin yazışmaları və dövrün digər sənədləri göstərir ki, Qafqazdakı Rusiya hərbi komandanlığı İrandakı təcrübədən çıxış edərək Osmanlı dövlətindən ermənilərin köçürülməsi işinə əvvəlcədən lazımi hazırlıqlar görmüşdü. Buna görə də Ədirnə müqaviləsinin imzalanmasından dərhal sonra hələ hökumət tərəfindən köçürmə prosesinə maliyyə vəsaiti ayrılmadan köçürmə prosesi başlamışdı. İlkin olaraq yardıma ehtiyacı olmayan və öz vəsaitləri hesabına köç etməyə hazır olan ermənilər köçürüldü və bunlar Alagöz, Lori və Gümrü bölgələrindəki boşalmış müsəlman kəndlərində məskunlaşdırıldı [5, s.831].

Onu da qeyd etmək lazımdır ki, Ədirnə müqaviləsinin 13-cü maddəsində nəzərdə tutulmuş “köçmək hüququ” təkcə xristianlara deyil, eyni zamanda bölgədə yaşayan müsəlman əhalisi üçün də nəzərdə tutulmuşdu. Müqaviləyə görə Rusiyaya keçən ərazilərin müsəlman əhalisi Rusiya hakimiyyəti altında

yaşamaq istəmədiyi təqdirdə, eyni zamanda müharibə dövründə Cənubi Qafqazın Osmanlı ordularına dəstək verən müsəlman əhalisi də nəzərdə tutulmuş müddət ərzində Osmanlı ərazilərinə köçə bilərdi. Osmanlı dövləti bölgənin müsəlman əhalisi üçün bu hüququn tanınmasına müharibə dövründə onu dəstəkləyən müsəlmanların ruslar tərəfindən təqib olunmasının qarşısını almaq zərurəti kimi baxırdı. Rusiya isə bundan bufer zona üçün nəzərdə tutduğu ərazilərdə müsəlmanların sayının minimuma endirilməsi və köçürülən ermənilərin müsəlmanlar tərəfindən boşaldılmış evlərə yerləşdirilməsi üçün istifadə etdi. Rusiya təqibindən çəkinən müsəlmanların Osmanlı dövlətinə mühacirət etməsi və Osmanlı dövlətindən ermənilərin planlı şəkildə köçürülərək İrəvan bölgəsində yerləşdirilməsi nəticəsində bölgənin demoqrafik durumu ermənilərin xeyrinə kəskin dəyişdi.

Paskeviç tərəfindən hərbi nazir Çernışevə göndərilən 22 yanvar 1830-cu il tarixli raportda qeyd edilirdi ki, Qars bölgəsindən köçürülən 2500 erməni ailəsi onların əvvəl yaşadıqları iqlim şəraiti nəzərə alınmaqla, Pəmbək distansiyasının Alagöz yaxınlığındakı boşalmış müsəlman kəndlərində, Ərzurumdan köçürülən 95 ailə Loridə yerləşdirilmiş, köçürülməyə hazırlanmış daha 2000 ailə isə öz istəklərinə uyğun olaraq Axalsıx və ətraf ərazilərdə yerləşdiriləcəkdir. Bəyazid şəhərindən köçürülməyə hazırlanan 1143 erməni ailəsi, eyni zamanda Bəyazid sancağından 2000-ə qədər erməni ailəsi yazın gəlməsi ilə köçürüləcək və onların istəyinə uyğun olaraq, Erməni vilayəti və ya Qarabağ əyalətində yerləşdiriləcəklər [6, s.832-833]. 1829-cu ilin payızında başlanan ermənilərin köçürülməsi prosesi sərt qışın gəlməsi ilə müvəqqəti olaraq səngisə də, 1830-cu ilin yazından etibarən geniş miqyas aldı və köçürmə üçün müəyyən edilən müddətin sonuna qədər davam etdi.

Osmanlı dövləti onun ərazisində səpələnmiş halda olan ermənilərin ruslar tərəfindən köçürülüb sərhəd boyunca ərazilərdə yığcam şəkildə yerləşdirilməsindən narahatlıq keçirirdi. Ona görə də Osmanlı hökuməti ermənilərin kütləvi köçürülməsinin qarşısını almaq məqsədilə Rusiya ilə müharibə zamanı ermənilərin Osmanlı dövlətinə etdiyi xəyanəti, törətdikləri vəhşilikləri bağışlamaq barədə qərar verdi və fevralın 17-də yerlərdəki ermənilərə "əfvnamə"lər göndərdi [14, s.393]. Lakin bu tədbirlər ermənilərin kütləvi köçünün qarşısını ala bilmədi. Çünki rusların və onlarla birgə fəaliyyət göstərən erməni ruhanilərinin erməni əhalisi üzərində təsiri və təzyiqi daha güclü idi və bu amil prosesin kütləvi hal almasına gətirib çıxartdı.

Ədirnə sülh müqaviləsinə görə, köçürmə üçün müəyyən edilən 18 aylıq müddət 1831-ci il mart ayının 10-da başa çatdı [12, s.398]. Lakin bu zaman ermənilərin köçürülməsi prosesi hələ tam başa çatdırılmamışdı. Buna görə də köçürmə prosesinə rəhbərlik edən general Pankratyev İ.Paskevicə müraciət edərək köçürmə prosesini tamamlamaq üçün müddətin daha 2 ay, bu mümkün olmadıqda isə, heç olmasa köçürülən ermənilərin Osmanlı ərazilərində qalan

əmlaklarının satılması işini başa çatdırmaq üçün daha 40 gün uzadılmasına təşəbbüs göstərilməsini xahiş edirdi. Ədirnə müqaviləsinə görə ermənilərin köçürülməsi üçün müəyyən edilən müddətin başa çatmasına baxmayaraq köçürmə işlərinin planlaşdırıldığı kimi hələ tam başa çatmadığını görən Paskeviç Osmanlı tərəfinə müraciət, arximandrit Tatos, Makdesi Karapetyan, Ağacan Karapetyan, Hovanes Matevesyan, Ağacan Osipov və Hakop Hanakovdan ibarət 6 nəfərlik heyəti ermənilərin qoyub gəldikləri əmlakların və torpaq sahələrinin satışını təşkil etmək üçün Ərzuruma göndərdiyini və satış işləri ilə bağlı onlara köməklik göstərmələrini xahiş etdi [12, s.395].

Ədirnə müqaviləsinin imzalanmasından sonra keçən bu müddət ərzində Osmanlı dövlətindən Rusiyaya rəsmi rəqəmlərə görə 14.044 ailə və ya 90.000 nəfər erməni əhalisi köçürüldü [7, s.829-830]. Pankratyevin Paskeviçə yuxarıda qeyd etdiyimiz müraciətindən anlaşılır ki, Osmanlı dövlətindən 18 ay müddətində 14.044 ailə və ya 90.000 nəfər erməni köçürsə də, bu rəqəm daha çox miqdarda erməni əhalisinin köçürülməsini planlaşdıran Rusiya hərbi və siyasi dairələrini tam təmin etməmişdi. 1831-ci il martın 26-da Paskeviçin hökumətə təqdim etdiyi raporta və eyni tarixdə tərtib edilən sənədə görə, ermənilərin Osmanlı ərazilərindən Cənubi Qafqaza köçürülməsi və yerləşdirilməsi prosesinin yekunları aşağıdakı cədvəldəki kimi olmuşdur [8, s.845-846].

Cədvəl 4.1.1

(Osmanlı dövlətindən Cənubi Qaafqaza köçürülən ermənilərin sayı və onların yerləşdirildikləri ərazilər)

| Haradan köçürülmüşdür | Köçürülən ailələrin sayı | Köçürülənlərin məskunlaşdırıldığı yerlər |
|---|---|---|
| Ərzurumdan | 7298 | -Böyük əksəriyyəti (5000 ailə) Axalsıx paşalığının ərazisində;<br>-1050 ailə Borçalı distansiyası və Çalki ətrafında;<br>-Yerdə qalan 1315 ailə isə Pəmbək və Şörəyel distansiyalarında. |
| Ərdahandan | 67 | |
| Karsdan | 2264 | Pəmbək və Şörəyel distansiyalarında |
| Karsdan | 200 | Erməni vilayəti və Talın mahalında |
| Bəyaziddən | 4215 | Erməni vilayəti, Göyçə gölü ətrafı və Baş Abaranda |
| Cəmi | 14044 | |

Cədvəldən də göründüyü kimi, Ədirnə müqaviləsinə görə 1829-cu ilin oktyabrından 1831-ci ilin martına qədər əksəriyyəti Osmanlı dövlətinin Ərzurum, Bəyazid və Qars ərazilərindən Cənubi Qafqaza 14.044 erməni ailəsi

köçürülmüşdür. Bunlardan Ərzurum köçkünü olan 7298 və Ərdəhandan köçürülən 67 erməni ailəsindən (ümumilikdə 7365 ailə) 5000 ailə Axalsıx paşalığının ərazisində, 1050 ailə Borçalı distansiyası ərazisində və Çalki ətrafında, 1315 ailə isə Pəmbək və Şörəyel distansiyalarında yerləşdirilmişdir. Qarsdan köçürülən 2464 erməni ailəsindən 2264 ailə Pəmbək və Şörəyel distansiyaları ərazisində, 200 ailə isə "Erməni vilayəti" və Talın mahalında məskunlaşdırılmışdır. Bəyazid sancağından köçürülən 4215 erməni ailəsi isə "Erməni vilayəti", Göyçə gölü ətrafı və Baş Abaranda yerləşdirilmişdir [9, s.847].

Rusiya sənədlərində Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayı ilə bağlı rəsmi olaraq 14.044 ailə və ya 90.000 nəfər qeyd edilsə [10, s.845-847] də, bu son rəqəm deyildi. Bir çox tədqiqatçılar, hətta erməni tarixçiləri də etiraf edirlər ki, Osmanlı dövlətindən köçürülən ermənilərin sayı 100.000 civarında və ya ondan da çox olmuşdur.

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi dövründə general Paskeviçin yavəri olmuş və sonralar rus ordusunda general rütbəsinə qədər yüksəlmiş N.İ.Uşakov (1802-1861) "1828-1829-cu illərdə Asiya Türkiyəsindəki hərbi fəaliyyətlərin tarixi" adlı əsərində 14.000 erməni ailəsinin və ya 90.000 nəfər erməninin köçürüldüyünü qeyd edir [20, s.291].

İlkin mənbələr əsasında "1829-1831-ci illərdə ermənilərin Cənubi Qafqaza köçürülməsi" problemini araşdıran rus tarixçisi O.Kuznetsov isə bəhs edilən dövrdə Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayının 150.000 olduğunu yazır [15, s.60].

Erməni tarixçisi N.A.Tavakalyan Osmanlı ərazilərindən Rusiyaya köçürülən ermənilərin sayının 14.000 ailədən çox və ya 100 min nəfər ətrafında olduğunu yazır [19, s.37].

Başqa bir erməni tarixçisi R.Hovannisian Osmanlı dövlərindən köçürülən ermənilərin sayının 100 min nəfər civarında olduğunu yazır [13, s.9].

Dövrün Osmanlı mənbələri əsasında "1828-1829 Osmanlı-Rus savaşında Şərqi Anadoludan Rusiyaya köçürülən ermənilər"lə bağlı xüsusi tədqiqat aparan türk tarixçisi K.Beydili köçürülən ermənilərin sayının 100 min civarında olduğunu qeyd edir [12, s.407].

Bu rəqəmlərdən göründüyü kimi, Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayı ilə bağlı Rusiya rəsmi hesabatlarında səslənən 90.000 rəqəmi yalnız rəsmi statistikanı əks etdirir və belə demək mümkünsə, bunu da heç tam əks etdirmir. Dövrün sənədlərində də əks olunduğu kimi, rəsmi rəqəmlərdən başqa qeyri-rəsmi köçkünlər də kifayət qədər olmuş və köç prosesi müqaviləyə görə nəzərdə tutulmuş müddətin başa çatmasından sonrakı dövrdə də davam etmiş və bu prosesin qarşısını almaq mümkün olmamışdır. Hələ 1829-cu ilə qədər Şörəyel-Pəmbək distansiyalarına 1536 erməni ailəsi (5425 nəfər kişi cinsi) köçürülmüşdü. Bu distansiyalar 1801-ci ildə Gürcüstana birləşdirildiyindən "Erməni vilayəti"nə daxil edilməmişdi. Sonra isə Osmanlı

dövlətindən 3148 ilə (10575 nəfər kişi cinsi) köçürülmüşdü. 1832-ci ilin sonu-1833-cü ilin əvvəlində Osmanlı dövlətindən Zolqaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyalarına köçürüldü. Köçürülənlər arasında 169 nəfər yunan və 963 nəfər erməni katoliki də var idi. Şörəyel-Pəmbək bölgəsində 100-ə yaxın kənddə Osmanlı dövlətindən köşürülən ermənilər yerləşdirilmişdi [11, s.41]. 1834-cü ilin məlumatına görə, Bəyaziddən köçürülən 1000 nəfər (təxminən 300 ailə) yezidi kürd də İrəvan əyalətində məskunlaşdırıldı [14, s.402]. Sonrakı illərdə də ermənilərin pərakəndə köçün davam etdi. Bütün bunları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, qeyri-rəsmi köçkünlərlə birlikdə Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülərək əsasən Azərbaycan torpaqlarında məskunlaşdırılan ermənilərin sayı 150 min civarında olmuşdur.

## ƏDƏBİYYAT


1. АКАК, Т. VII, док. 592, с. 624-625.
2. АКАК, Т. VII, док. 820, с. 831-832, док. 822, с. 835-836.
3. АКАК, Т. VII, док. 818, с. 830.
4. АКАК, Т. VII, док. 819, с. 830-831.
5. АКАК, Т. VII, док. 820, с. 831.
6. АКАК, Т. VII, док. 821, с. 832-833.
7. АКАК, Т. VII, док. 829-830, с. 845-847; Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, с. 642.
8. АКАК, Т. VII, док. 829, с. 845-846, док. 830, с. 847.
9. АКАК, Т. VII, док. 830, с. 847.
10. АКАК, Т. VII, док. 829, 830, 831, с. 845-847.
11. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya. Soyqırım. Qaçqınlıq, s. 32.
12. Beydili K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler // Belgeler. Cilt XIII, Sayı 17, Ankara, Türk Tarih Kurumu, 1988, s. 406.
13. Hovannisian R.G. Armenia on the Road to İndependence 1918. Los Angeles, Berkeley, 1967, p. 9.
14. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.Mahmudov. Bakı, Azərbaycan 2010, səh.375.

15. Кузнецов О. Нашествие или исход? Переселение армян в Закавказье в 1829-1831 гг. в трудах российских военных историков второй трети XIX – начала XX столетия // İRS- Наследие, № 5 (59), Баку, 2012, с. 60.
16. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri, s. 57; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin təsviri. Bakı: Azərbaycan 1995, 1289 Beydili K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler, s. 376, 382.
17. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., Типография Императорской Академии наук, 1852. IX 1231
18. Шеремет В.И. Турция и Адрианопольский мир 1829 г. Москва, Изво «Наука», 1975, с. 32.
19. Тавакалян Н.А. Переселение армян из Персии и Турции в Закавказье после присоединения Восточной Армении к России // Историко-филологический журнал АН Арм. ССР. Ереван, 1978, № 3 (82), с. 37.
20. Ушаков Н.И. История военных действии а Азиатской Турции в 1828 и 1829 годах. Част 2, с. 296-297.
21. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XXв.). Баку, "Алтай" 1999, 300 s.

**UOT 902**

# МОНЕТНОЕ ДЕЛО ГОСУДАРСТВА ШИРВАНШАХОВ XVI ВЕКА

***А.Г.Сеидов, А.А.Кулиев***
*Азербайджанский государственный*
*экономический университет*
*Институт Археологии и Этнографии НАНА*
abbas.seyidov@gmail.com, akifarifoglu@mail.ru

***Ключевые слова:*** *Государство Ширваншахов, Шемаха, Баку, монетный двор, теньга, дирхем, нумизматика, Шейх Ибрагим I, Джелаириды, Эмир Тимур, Тохтамыш хан, Халилуллах, Фаррух Йасар, Гази бек.*

При династиях Мазьядидов-Дербенди монетные дворы Государства Ширваншахов в Шемахе, Дербенте, Гябале, Шабране, Баку, Махмудабаде, Гулистане и Бугурде производили монеты разных типов и веса от имени Джелаиридов, Джучи, Тимуридов, Каракойюнлу, Аккойюнлу и Сефевидов. На монетах шейха Ибрагима I и Халилуллаха I не упоминаются имена правителей Ширваншахов.

Эти монеты были отчеканены по денежно-весовой системе Джалаиридов. В годы зависимости от империи Тимуридов монеты чеканились по их денежно-весовой системе.

Выпуск монет от имени Ширваншахов продолжался до 1549 года. Монетные дворы Ширвана начали выпускать монеты с именем правителя Сефевидов Тахмасиба I после смерти Ширваншаха Бурхана Али.

# ŞİRVANŞAHLAR DÖVLƏTİNDƏ XVI ƏSRDƏ SİKKƏ ZƏRBİ

***A.Q.Seyidov, A.A.Quliyev***

***Açar sözlər:*** *Şirvanşahlar dövləti, Şamaxı, Bakı, zərbxana, təngə, dirhəm, numizmatika, Şeyx I İbrahim, Cəlairilər, Əmir Teymur, Toxtamış xan, Xəlilullah, Fərrux Yasar, Qazi bəy.*

Məzyədilər-Dərbəndilər sülalələrinin dövründə Şirvanşahlar dövlətinin Şamaxı, Dərbənd, Qəbələ, Şabran, Bakı, Mahmudabad, Gülüstan və Buğurd

zərbxanalarında Cəlairilərin, Cüçilərin, Teymurilərin, Qaraqoyunluların, Ağqoyunluların və Səfəvilərin adına müxtəlif növdə və çəkidə sikkələr istehsal olunurdu. Şeyx I İbrahim və I Xəlilullah sikkələrinin üzərində hökmdarların adı qeyd olunmayıb.

Bu pullar Cəlairi pul-çəki sisteminə uyğun zərb edilib. Teymurilərdən asılı olduğu zamanlarda Şirvan sikkələri onların pul-çəki sisteminə uyğun zərb olunmağa başladı.

Şirvanşahların adına sikkə zərbi 1549-cu ilədək davam edib. Şirvanşah Burhan Əlinin ölümündən sonra, zərbxanalar səfəvi hökmdarı I Təhmasibin adı ilə pul zərb etməyə başlayıblar.

## THE COINAGE OF THE STATE OF SHIRVANSHAHS IN 16TH CENTURY

***A.G.Seyidov, A.A.Guliyev***

***Keywords:*** *the State of Shirvanshahs, Shamakhy, Baku, mint, tenga, dirham, numismatics, Sheikh Ibrahim I, Jalairids, Emir Teymur, Tokhtamysh Khan, Khalilullah, Farrukh Yassar, Gazi bek.*

During the Mazyadid-Derbendy dynasty the mints of the State of Shirvanshah in Shamakhy, Derbent, Gabala, Shabran, Baku, Mahmudabad, Gulistan and Bughurd produced coins of different types and equilibrium on behalf of rulers of Jalairid, Juchi, Timurid, Karakoyunlu, Akkoyunlu and Safavi. On the coins of Sheikh Ibrahim I and Khalilullah I the names of the rulers of Shirvanshahs were not mentioned.

These coins were minted according to the Jalairid monetary-weighting system. During the Shirvan's dependence of Timurid Empire the coins were issued by their monetary-weighting system.

The production of coins on behalf of the Shirvanshahs lasted until 1549. After the death of Shirvanshah Burhan Ali, the mints of Shirvan started to produce coins with the name of the Safavid governor Tahmasib I.

В 1500 году Ширваншахское государство подверглась нашествию войск Ардебильского правителя Исмаила. В Джабанинской битве войска кызылбашев разбили войска Ширваншаха, Фаррух Ясар пал в бою. Захватив Шемаху, Баку и разорив Ширван кызылбаши вернулись в Южный Азербайджан.

После ухода Исмаила, сын Фаррух Ясара Бахрам бек был объявлен Ширваншахом. В период его царствования монетные дворы Ширвана успели выпустить монеты от имени султана Бахрама. Одна такая монета, двойной дирхем выпущенный в 906 г.х. (1500/1501 гг.н.э.) в Шемахе хранится в нумизматическом фонде МИА (Инв. № 51270, вес=2,12 гр.). Лицевая сторона: Внутри линейного ободка трехстрочная арабская надпись: - «Шемаха / султан Бахрам бек / 906 г.». Оборотная сторона: Внутри линейного круга выгравирована четырехстрочная арабская надпись передающая шиитскую символику: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». На монете имеется пробивка.

После смерти Ширваншаха Бахрам бека в 907 г.х. (1501/1502 гг.н.э.) на Ширванский престол взошел его брат Мухаммед Гази бек. В период правления своего отца Фаррух Ясара, Гази бек был правителем Баку. Во время осады Баку со стороны кызылбашев, его не было в городе и оборонной второй столицы Ширваншахов командовала его жена.

После ухода Исмаила, Бахрам бек, а затем Гази бек стали править Ширваном. Но его правление было недолгим. После семимесячного правления в конце 907 г.х. (1501/1502 гг.н.э.) Гази бек был убит своим сыном Махмуд беком. За его короткое правление монетные дворы Ширвана успели отчеканить разнотипные и разновесные монеты с его именем.

В «Бакинском кладе 1948 года» были выявлены более 230 сереб-ряных монет Ширваншаха Мухаммед Гази бека. А.В.Рагимов разделил их на два типа.

*Первый тип.* (Вес=1,59 гр., д=14,0-16,0 мм). Лицевая сторона: Внутри малого круга, охваченного линейным ободком выгравировано: - «Чекан /Шемаха/ 907». Между малым и внешним кругом в круговую выгравировано: - «Ширваншах справедливый, повелитель правоверных Султан Мухаммед Гази». Оборотная сторона: В центре розетка из шести дуг, оброшенных выпуклостью наружу находится фигурный геометрии-ческий узор. Вокруг нее – четыре равных фигурных гнездышек, концы которых образуют петли. В гнездах помещены имена четырех халифов: - «Абу-Бекр, Омар, Осман, Али». По наружному краю, между гнездышками в сегментах дан мусульманский символ веры. Линейных и точечных ободков не видно [6, 113-114].

Подобная монета была издана известным нумизматом А.М.Раджабли [7, 102]. Ученый называет монеты весом 1,59 гр. и 1,80 гр. теньгами. По нашему мнению эти монеты являются двойными дирхемами.

*Второй тип.* (Вес=1,55 гр., д=13,0-14,0 мм.). Лицевая сторона: В эллипсовидной фигурной рамке помещена надпись в три строки: - «Чекан /Шемахи/ 907». За фигурной рамкой, вкруговую выгравировано: -

«Ширваншах справедливый, повелитель правоверных султан Мухаммед Гази». Оборотная сторона: Все, как на предыдущих, но в некоторых экземплярах розетка состоит не из шести, а восьми дуг.

Средний вес монет первого типа составляет 1,6 гр., второго типа 1,63 гр.

Как уже отмечалось, Гази бек в 907 г.х. был убит своим сыном Султан Махмудом. Захвативший власть, Султан Махмуд, через несколько дней был вынужден покинуть Шемаху, так как население Ширвана подняло восстание против него и пригласила на престол Ширваншахов его дядю Шейха Ибрагима (Шейхшаха) из Гиляна. Покинув Ширван, Султан Махмуд бежал в Тебриз к Шах Исмаилу I. Через три года, он во главе сефевидских отрядов вторгся в Ширван. Ширваншах Шейхшах отступил в крепость Гюлистан. Сефевиды осадили крепость, но после трехмесячной осады Султан Махмуд был убит мемлюком Кара беком. Кара бек обезглавив своего хозяина, отправил отрубленную голову Султана Махмуда Шейхшаху. Оставшиеся без предводителя кызылбаши были наголову разбиты войсками Шейхшаха.

Данные события нашли свое отражение в монетном деле рассматриваемого периода. Монетный двор Шемахи, начиная с 907 г.х. (1501/1502 гг.н.э.) в течение года выпускают серебряные и медные монеты с именем Султана Махмуда.

В Бакинском кладе 1948 года из 1875 экземпляров монет, 225 экземпляр принадлежал ширваншаху Султан Махмуду. Несколько монет из этого клада были изданы А.В.Рагимовым. По форме картушей и легенд эти монеты были разделены на десять типов.

*Первый тип.* В нумизматическом фонде МИА хранится двойной серебряный дирхем (Вес=1,56 гр., д=13,0 мм.). Лицевая сторона: В середине круга, охваченного двойным ободком (внешний точечный) помещена двухстрочная надпись: - «Султан Махмуд». Между строками тамга в виде переплетенного сердца. Оборотная сторона: Внутри квадратной рамки в центре монеты: - «Чекан /Шемахи/907». С четырех сторон от квадрата, в бокалах имена четырех халифов: - «Абу Бекр, Омар, Осман, Али». В круговую от фигурной рамки: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». Все вместе охвачено линейным ободком [5, 115].

Монет этого типа в Бакинском кладе оказалось 127 экземпляров, в том числе 4 брактеата.

*Второй тип.* Двойной дирхем этого типа был издан А.В.Рагимовым (Вес=1,7 гр., д=13,0 мм.). Лицевая сторона: Внутри двойного ободка (внешний точечный) двухстрочная надпись: - «Султан Махмуд». Над словом «Султан» выгравированы три точки. Оборотная сторона: Внутри

квадратной рамки: - «Чекан /Шемахи/ 907». В бокалах имена четырех халифов. Вкруговую дан мусульманский символ веры. Все вместе охвачено линейным ободком [5, 115].

*Третий тип.* В МИА хранится серебряный двойной дирхем, чеканенный в 907 г.х. в Шемахе (Вес=1,70 гр., д=14,0 мм.). Лицевая сторона: Внутри малого круга: - «Чекан /Шемахи/907». В круговую, вокруг ободка: - «Аль-султан, ала-азам (высочайший), Султан Махмуд, да сделает Аллах вечным царствование его». Внешнего ободка не видно. Оборотная сторона: В квадратной рамке, повторена место и год чеканки. Все, так же, как на предыдущих монетах. В центре тамга, в виде переплетенного сердца.

*Четвертый тип.* В нумизматическом фонде МИА, хранятся 32 двойных дирхема этого типа (Вес=1,70 гр., д=13,0 мм). Лицевая сторона: Внутри малого круга: - «Чекан /Шемахи/907». Вокруг в круговую: - «Султан, высочайший, Султан Махмуд, да сделает Аллах вечным царствование его». Оборотная сторона: В квадратной рамке помещен обычный символ веры. В центре, монетный знак из трех пересекающихся маленьких кружков, а в сегментах – имена четырех халифов [5, 116].

*Пятый тип.* Девять двойных дирхема, выпущенных в 907 г.х. в Шемахе имеется в нумизматическом фонде МИА. Одна из монет этого типа была издана А.В.Рагимовым (Вес-1,60 гр., д=13,0 мм). Лицевая сторона: Внутри малого круга: - «Чекан /Шемахи/ 907». Вкруговую, за малый кругом: - «Султан высочайший, Султан Махмуд, да продлит Аллах его царствование». Оборотная сторона: Внутри квадрата, в центре монеты: - «Чекан / Шемахи/ 907». Вокруг квадрата дан мусульманский символ веры. Все вместе охвачено в линейный ободок [5, 116].

Подобная монета была издана А.М.Раджабли [7, 102].

*Шестой тип.* В МИА хранятся 9 серебряных двойных дирхема, чеканенных в Шемахе 907 г.х. (Вес=1,55 гр., д=14,0 мм.). Лицевая сторона: Внутри линейного круга: - «Султан Махмуд». Вне круга сохранились отрывки надписи: - «... высочайший... Махмуд, да сделает Аллах вечным царствование его». Оборотная сторона: Внутри квадрата: - «Чекан /Шемахи/ 907». В сегментах: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха».

*Седьмой тип.* В нумизматическом фонде МИА, имеется 11 серебряных двойных дирхемов из Бакинского клада 1948 г., выпущенные от имени Султана Махмуда. Год и место чеканки на монетах отсутствуют (Вес=1,65 гр., д=14,0 мм.). Лицевая сторона: В центре монеты, полустертая трехстрочная персидская надпись: - «Наши разрушенные дела..., о боже, повернет, наконец, Махмуд». Оборотная сторона: Внутри квадрата: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». В

центре тамга в виде переплетенного сердца. С четырех сторон от квадрата, в бокалах имена четырех халифов.

*Восьмой тип.* В МИА хранятся 6 серебряных двойных дирхема со сбитым годом и местом чеканки (Вес=1,5 гр., д=13,0 мм.). Лицевая сторона: Такая же как на монете седьмого типа. Оборотная сторона: Внутри квадратной рамки: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». В центре квадрата тамга в виде переплетенного сердца. В сегментах имена четырех халифов.

Подобная монета была издана А.В.Рагимовым [5, 116].

*Девятый тип.* В нумизматическом фонде МИА имеется два двойных дирхема, выпущенный в Шемахе от имени Султана Махмуда. Год выпуска не обозначен (Вес=1,60 гр., д=13,5-14,0 мм.). Лицевая сторона: Такая же, как на монете седьмого типа. Оборотная сторона: Внутри квадратной рамки в центре монеты: - «Шемаха». Между малым и большим квадратом: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». В сегментах имена четырех халифов. Все вместе охвачено линейным ободком.

*Десятый тип.* Семь двойных дирхема чеканенных в 908 г.х. (1502 г.н.э.) Шемахе хранится в МИА (Вес=1,59 гр., д=12,0-13,5 мм). Лицевая сторона: Внутри трехлинейного круга (средний точечный) трехстрочная надпись: - «Адиль /Султан/ Махмуд». В центре монеты тамга в виде переплетенного сердца. Оборотная сторона: Внутри квадрата в центре монеты: - «Чекан, Шемахи, 908». В бокалах: - «Абу Бекр, Омар, Осман, Али». По краю монеты: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха».

Как уже отмечалось, Шейх Ибрагим II (Шейхшах) в 908 г.х. взошел на Ширванский престол. В 911 г.х. (1505-1506 гг.н.э.), он разгромил сефевидские войска, прибывшие с Султаном Махмудом. Но несмотря, на это, ему пришлось признать власть шах Исмаила I. С этого периода монетные дворы Ширвана начали чеканить монеты от имени сефевидского шаха. Чеканка монет от имени шах Исмаил I, продолжалось не долго. В 913 г.х. (1507/1508 гг.н.э.) воспользовавшись походом Исмаила I в Мараш, для подавления восстания племени зулькадаров, ширваншах Ибрагим II прекратил выплату дани в казну Сефевидов. С этого периода монетные дворы Ширвана начали чеканку монет нового образца, с именем ширваншаха Шейх Ибрагима II.

В 915 г.х. (1509 г.н.э.) шах Исмаил I во второй раз вторгся в Ширван и захватил Баку, Шемаху, Шабран и Дербенд. Ширваншах Ибрагим II укрылся в крепости Бугурд. Поняв бессмысленность дальнейшей борьбы с Сефевидами, Ибрагим II послал в ставку шах Исмаила I своих послов и просил помилование. Между сторонами был подписан мир. В 924 г.х.

(1518 г.н.э.) и 927 г.х. (1521 г.н.э.), ширваншах дважды, с дорогими подарками посетил дворец шах Исмаила I. В дальнейшем, между сторонами были установлены родственные отношения; сын Ибрагима II Султан Халил женился на дочери шах Исмаила I Перихан ханум, а Исмаил I на дочери ширваншаха Ибрагима II. После двадцатидвухлетнего правления, ширваншах Шейх Ибрагим II в 930 г.х. (1524 г.н.э.) умер.

В период правления ширваншаха Шейх Ибрагима II (Шейхшаха) монетные дворы Ширвана чеканили разнотипные и разновесные монеты. Эти монеты выпускались с перерывами в продолжение двух периодов. Первый период: 908-913 гг.х. (1502-1508 гг.н.э.), второй – 915-930 гг.х. (1509-1524 гг.н.э.). Начиная с 920 г.х. (1514 г.н.э.) на монетах Ибрагима II, вместо традиционной суннитской символики, появилась шиитская символика, передающая имена двенадцати шиитский имамов.

В 1936 году, в Алагирском районе Северо-Осетинской АССР, во время археологических раскопок в святилищей Реком был найден клад серебряных монет. Клад состоял из джелаиридских, ширваншахских, османидских, трабзонских и грузинских монет. Ширваншахская монета принадлежала Шейх Ибрагиму II. Монета была выпущена в Шемахе в 913 г.х. (Вес=1,01 гр., д=12,0-13,0 мм). Лицевая сторона: Внутри квадрата, охваченного линейным ободком: - «Чекан Шемахи». В сегментах – остатки эпитета и имени Ибрагима II. Оборотная сторона: Внутри ободка арабская надпись в три строки: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха, 913» [3, 88].

В Чайкендском кладе 1935 года, общий вес которого 4380 гр., среди османидских и сефевидских монет, 2929 экземпляров монет принадлежали ширвашаху Шейх Ибрагиму II. Профессор Е.А.Пахомов разделил эти монеты на 25 типов. Самая ранняя монета была выпущена в 913 г.х. (1507/1508 гг.н.э.), самая поздняя, 918 г.х. (1512/1513 гг.н.э.). Максимальный вес серебряного дирхема 1,23 гр., средний 1,04 гр., минимальный 0,86 гр. Среди монет имеются брактеаты, то есть монеты с одинаковыми реверсами или аверсами [2, 8-17]. Большое количество монет было чеканено в монетном дворе Шемахи (Вес=0,94 гр., д=12,0-13,0 мм.). Лицевая сторона: Две изогнутые линии, пересекаясь между собою 4 раза, образуют в середине монеты довольно большой фигурный овал конечности затем сливаются с наружным одиночным линейным ободком. В среднем овале в две строки: - «Чекан Шемахи». Вне овала: - «Султан правосудный», внизу: - «Шейх Ибрагим». Элифа в середине слова «Ибрагим» нет. Оборотная сторона: Картуш повторяется. В среднем овале дата выпуска: - «918». Над и под овалами, выгравирована: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха» [2, 16].

Подобные монеты были изданы Д.М.Фрейном и А.К.Марковым [1, 933, №3; 10, 150, 351, №8].

В Бакинском кладе 1948 года, 1062 экземпляров монет принадлежали ширваншаху Шейх Ибрагиму II. А.В.Рагимов разделил эти монеты на 15 типов. Самая ранняя монета была выпущена в 908 г.х. (1502/1503 гг.н.э.), самая поздняя в 920 г.х. (1514/1515 гг.н.э.). Все монеты были выпущены в Шемахинском монетном дворе. При анализе монет, наблююдается снижение веса монет. Если в первые годы правления ширваншаха Ибрагима II (908 г.х.) дирхем весил 1,37 гр., в последние же годы 0,87 гр. Монеты Ибрагима II чеканились из чистого серебра и имели пробу 95% [8, 117-121].

Как уже отмечалось, с 920 г.х. (1514 г.н.э.) на монетах ширваншаха Ибрагима II, вместо традиционного суннитского символа веры появилась шиитская символика. Одна такая монета была издана А.В.Рагимовым (Вес-1,34 гр., д=14,0 мм.). Лицевая сторона: В фигурном линейном четырехугольнике выгравирована место и дата выпуска: - «Шемаха, 920». Вокруг четырехугольника останки надписи: - «Султан, правосудный, Шейх Ибрагим». Оборотная сторона: Внутри квадратной рамки: - «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха, Али наместник Аллаха». В сегментах имена двенадцати имамов без их эпитетов. От надписи сохранилось: - «Гасан, Гусейн».

После смерти ширваншаха Шейх Ибрагима II (Шейхшах), в 930 г.х. (1524 г.н.) на Ширванский престол взошел его сын Султан Халил (Халилуллах II).

В период правления ширваншаха Халилуллаха II – 930-942 гг.х. (1524-1535 гг.н.э.), монетные дворы Ширвана выпускали от его имени разнотипные и разновесные монеты.

В нумизматическом фонде МИА хранятся серебряные дирхемы выпущенные в Шемахе 938 г.х. (1531/1532 гг.н.э.). Одна из дирхемов весом 0,5 гр. была издана А.М.Раджабли. Ученый называет эту монету теньгой (Инв. № 7605, вес=0,5 гр.). Лицевая сторона: Орнамент в центре, разделяет монетное поле на две части. Над орнаментом выгравировано: - «Султан Халилуллах». Оборотная сторона: В центре картуши дан год выпуска: - «938». Над ним: - «чекан», внизу – «Шемаха» [7, 102].

По сведениям источников Халилуллаху II удалось восстановить свою власть, а Фаррух Ясар II бежал в Дагестан, где и умер [9, 323].

В нумизматическом фонде МИА хранится серебряный дирхем, выпущенный в Шемахе 934 г.х. Монета была издана А.М.Раджабли (Инв. № 9991, вес=0,5 гр.). Лицевая сторона: В центре монеты трехстрочная арабская надпись: - «Аль-султан/Фаррух Ясар/ чекан Шемахи». Оборотная

сторона: В центре монеты, внутри картуши выгравирована дата выпуска: - «934». Вокруг размещен мусульманский символ веры [7, 102, № 110].

После смерти Халилуллаха II в 942 г.х. (1536 г.н.э.) на Ширванский престол взошел сын Фаррух Ясара II Шахрух.

Воспользовавшись благоприятным случаем Тахмасиб I решил захватить Ширван. Сефевидская армия под командованием брата шаха Алхас Мирзой в сопровождении Горчубаши Падара вторгся в Ширван и захватила Сурхаб и Габалу. Ширваншах Шахрух бежал в крепость Бугурт. После четырех месячной осады крепостные стены были разрушены пушками сефевидов и ширваншах Шахрух вынужден был сдаться, на милость победителю.

Шах Тахмасиб I передав управление Ширваном своему брату Алхас Мирзе и взяв плененного ширваншаха Шахруха с собой, вернулся в Тебриз. В 946 г.х. (1539 г.н.э.) по приказу Тахмасиба I, ширваншах Шахрух был казнен [9, 326].

Таким образом, после 677 летнего правления династии Мазьядидов в Ширване, Ширваншахское государство прекратило свое существование, а его территория была присоединена Сефевидскому государству.

В период правления ширваншаха Шахруха монетные дворы Ширвана выпускали от его имени разнотипные и разновесные серебряные и медные монеты. Одна серебряная монета выпущенная в 942 г.х. (1535/1536 гг.н.э.) Шемахе была издана профессором Е.А.Пахомовым [4, 49, № 495].

Еще один серебряный дирхем из МИА был издан А.М.Раджабли. Монета весом 0,5 гр. была выпущена в 944 г.х. (1537/1538 гг.н.э.) Шемахе (Инв. №98880, вес=0,5 гр.). Лицевая сторона: В линейном круге, разделенном на две части (линейный знак с маленьнким кругом в центре) выгравирована: - «Аль-султан, Шахрух». Оборотная сторона: В верхнем сегменте дата выпуска: - «944».

В 955 г.х. (1548 г.н.э.) Бурхан ад-Дин захватил Шемаху и провозгласил себя ширваншахом. Процарствовав несколько месяцев, Бурхан ад-Дин в 956 г.х. (1549 г.н.э.) умер.

В период кратковременного правления Бурхан ад-Дина, Шемахинский монетный двор успел выпустить от его имени серебряные монеты. В МИА имеется серебряный дирхем весом 0,6 гр., чеканенный в 955 г.х. Шемахе. (Инв. № 51277, вес=0,6 гр.). Лицевая сторона: Внутри монетного поля: - «Бурхан Али Султан». Оборотная сторона: В центре, внутри картуши: - «955». Вокруг останки имен четырех халифов.

После упразднения Ширваншахского государства монетные дворы Ширвана начали выпуск монет с именем Сефевидского правителя Тахмасиба I.

## ЛИТЕРАТУРА

**1.**Марков А.К. Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. / СПб.: 1896, 1082 с.
**2.**Пахомов Е.А. Чайкендский клад 1935 года. // Изд. Аз.ФАН СССР, Баку: 1941, с.48.
**3.**Пахомов Е.А. Монетные клады Азербайджана и других республик и краев Кавказа. Баку: 1966, вып.IX., Изд. АН СССР, 124 с.
**4.**Пахомов Е.А. Клады Азербайджана и других республик и краев Кавказа. Изд.Аз.ФАН СССР. Вып.2, Баку: 1938, 120 с.
**5.**Рагимов А.В. Бакинский клад (Находка 1948 г.). / Материальная культура Азербайджана, вып.III, Баку: 1953, с.98-126.
**6.**Рагимов А.В. О Бакинском кладе XV-XVI вв. / Докл. АН Аз.ССР, Баку, 1949, №1, с.42-46.
**7.**Раджабли А.М. Нумизматика Азербайджана. Баку: Элм и Хаят, 1998, 232 с.
**8.**Сейфеддини М.А., Кулиев А.А. Нумизматика Азербайджана. Т.III, Баку: Элм, 2002, 340 с.
**9.**Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı 1997, Azərnəşr, 408 s.
**10.** Fraehn. Cn.M. Nova supplementa ad-recensionem numorum Muhammedanorurum etc Akademiae. Imp. Scient. Petropolitanae Petropol, T.I., 1826.



**Теньга (Серебро) Аноним. Период Ширваншаха Шейха Ибрагима I**



**Теньга (Серебро) Аноним. Период Ширваншаха Халилуллах I**



**Теньга (Серебро). Ширваншах Фаррух Йасар I**



**Дирхем (Серебро). Ширваншах Бахрам-бек**



**Дирхем (Серебро). Ширваншах Султан Мухаммад Гази бек**



**Дирхем (Серебро). Ширваншах Султан Махмуд**



**Дирхем (Серебро). Ширваншах Шейх Ибрагим II**



**Дирхем (Серебро). Ширваншах Халилуллах II**



**Дирхем (Серебро). Ширваншах Фаррух Йасар II**



**Дирхем (Серебро). Ширваншах Шахрух**



**Дирхем (Серебро). Ширваншах Бурхан Али.**

**UOT 342-34**

## DÖVLƏT İNFORMASİYA SİYASƏTİ: ANLAYIŞI, PRİNSİP VƏ FUNKSİYALARI

***X.Q.Niyazov***
*AMEA Hüquq və İnsan Haqları İnstitutu*
*xalid-555@mail.ru*

***Açar sözlər:*** *siyasi kommunikasiya,informasiya siyasəti, informasiya cəmiyyəti, informasiya inqilabları, DİS-in prinsip və funksiyaları, konvergent media, informasiya-kommunikasiya texnologiyaları*

Dövlət informasiya siyasəti dövlətin məcmu fəaliyyətinin sistemyaradıcı elementi, hakimiyyətlə cəmiyyətin kütləvi dialoqunun təmin edilməsinin mühüm vasitəsi kimi çıxış edir.

Dövlət informasiya siyasəti Azərbaycanın informasiya sferasındakı milli maraqlarını təcəssüm etdirən məqsədlərin, həmçinin həmin məqsədlərə nail olmağın strateji istiqamətlərinin məcmuyunu ifadə edir. Dövlətin daxili və xarici siyasətinin ayrılmaz hissəsi olmaqla dövlət informasiya siyasəti cəmiyyətin həyat və fəaliyyətinin bütün sferalarını əhatə edir.

Dövlət informasiya siyasətinin formalaşması prinsipləri sistemlilik, tamlıq, obyektivlik, informasiyanın keyfiyyət və kəmiyyətinin birliyi, elmilik və digər prinsipləri ehtiva edir.

DİS-in funksiyaları dedikdə dövlətin cəmiyyətin informasiya mühitinin və onun subyektlərinin mövcud vəziyyətinin qorunması və perspektiv inkişafının dəstəklənməsinə yönəlmiş hərəkətləri nəzərdə düşülür. Funksiyaların kəmiyyət çoxluğunu informasiya sferasını yaradan əlaqələrin müxtəlifliyi və dövlətin onunla qarşılıqlı əlaqəsi şərtləndirir.

## ГОСУДАРСТВЕННАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА: ПОНЯТИЕ, ПРИНЦИПЫ И ФУНКЦИИ

***Х.Г.Ниязов***

***Ключевые слова:*** *политическая коммуникация, информационнаяполитика, информационное общество, информационные революции, принципы и функции ГИП, конвергентная медиа, информационно - коммуникационные технологии*

Государственная информационная политика выступает в качестве системообразующего элемента комплексной деятельности государства, ключевого посредника в налаживании диалога между правительством и обществом. Данная политика представляет собой совокупность целей, отражающих национальные интересы Азербайджана в информационной сфере и стратегических направлений их достижения.

Следует отметить, что государственная информационная политика, являясь неотъемлемой частью внешней и внутренней политики государства, охватывает все сферы жизнедеятельности общества. Процесс ее формирования опирается на такие базовые принципы, как системность, целостность, объективность, единство качества и количества информации, научность и др.

Говоря о функциях государственной информационной политики, количественную меру которых обуславливает разнообразие связей, создающих информационную сферу, подразумеваются действия, направленные на защиту информационного пространства государства и общества, а также на поддержание перспективного развития его субъектов.

## STATE INFORMATION POLICY: CONCEPT, PRINCIPLES AND FUNCTIONS

***Kh.G. Niyazov***

***Keywords:*** *political communication, information policy, information society, information revolutions, principles and functions of public information policy, convergent media, information and communication technologies*

The state information policy acts as a backbone component of the complex activity of the state, a key intermediary in establishing a dialogue between the government and society. This policy is a set of goals reflecting Azerbaijan's national interests in the information sphere and strategic directions for their achievement.

It should be noted that the state information policy, being an integral part of the state's foreign and domestic policy, covers all spheres of society's life. The process of its formation is rests on such basic principles as consistency, entirety, impartiality, the unity of quality and quantity of information, scientific character, etc.

Speaking about the functions of the state information policy, the quantitative measure of which is determined by the variety of links that create

the information sphere, we mean actions aimed at protecting the information space of the state and society, as well as supporting the future development of its subjects.

**Giriş.** Biz cəmiyyətin ifrat siyasiləşdiyi və müxtəlif kontentli informasiya axınlarının gücləndiyi bir dövrdə yaşayırıq. Belə bir cəmiyyətin səciyyəvi özəlliklərini təcəssüm etdirən informasiya-siyasi mühitdə hər bir aktor malik olduğu konkret qabiliyyətləri nümayiş etdirərək öz fərdi təcrübəsini formalaşdırır. Lakin siyasi kommunikasiyanın bütün iştirakçılarına – qrup, partiya, vətəndaş zümrələri və institutlara ən böyük təsiri cəmiyyətdə nəhəng informasiya istehsalçısı olan dövlət göstərir.

Qeyd etməliyik ki, hakimiyyət sferasında diskursu qoruyub saxlamağın əsas vasitəsi qismində dövlət informasiya siyasəti çıxış edir. Belə bir şəraitdə dövlətin siyasi fəallığının tipi fərqli – informasiya təminatı yaxud da məqsədyönlü fəaliyyət formasında çıxış edə bilər. Bu tip informasiya problemlərinin həlli ilə məşğul olan dövlət siyasətini vətəndaşların baza tələbat və maraqlarını təmin edən informasiyanın əldə edilməsinə, hakimiyyət strukturları və institutlarını fövqəlmilli (qlobal) informasiya proseslərinin təsirindən qoruyan, həmçinin dövlət və cəmiyyətin beynəlxalq əlaqələrinin güclənməsinə dəstək verən müvafiq texniki vasitələrin inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin məcmuyu kimi nəzərdən keçirmək mümkündür.

**Dövlət informasiya siyasətinin anlayışı, məqsəd və vəzifələri**

Dövlətin informasiya müstəvisində həll etməyə vəzifəli olduğu məsələlərin mürəkkəb və kompleks xarakteri onun öhdəlikləri sırasına daxil olan daha vacib məqsədlərin reallaşdırılmasını aktuallaşdırır. Həmin məqsədlər hansılardır?

- vətəndaşların söz azadlığı, şəxsi həyat və intellektual mülkiyyət sirrinin qorunması prinsiplərinə müvafiq olaraq informasiya əldə etmək hüqunun təmin edilməsi;
- əhalinin müasir səviyyədə informasiya ala bilməsi üçün texniki imkanlarla təmin edilməsi;
- ölkə daxilində və beynəlxalq müstəvidə informasiyadan istifadə sahəsində inhisar praktikası ilə mübarizə;
- yetişməkdə olan nəslin informasiya təcavüzündən müdafiəsi;
- informasiyanın istehlakçılara çatdırılmasının elektron formasının tətbiqi üzərindən dövlət orqanlarının funksiyalarının tranformasiyası, vətəndaşlara dövlət informasiyasının ucuzlaşdırılması;
- informasiyanın qanunsuz dövriyyəsinin qarşısının alınması;
- informasiya siyasətinin hədəfləmiş olduğu məqsədlərə nail olmasının səmərəliliyini təmin etmək üçün kadr və təşkilati strukturun təkmilləşdirilməsi.

Həll etdiyi məsələlərin dövlət üçün kəsb etdiyi əhəmiyyət dərəcəsinə görə dövlət informasiya siyasətinin rolu birinci yaxud ikinci dərəcəli olmaqla təsnifləşdirilə bilər. İlk sıraya müasir şəraitdə informasiya sahəsində məqsədyönlü fəaliyyət olmadan həlli mümkünsüz görünən məsələlər daxildir. İkinci sıraya isə dövlətin iqtisadi, sosial və siyasi sahədə önə sürdüyü prioritetlərlə müqayisədə bir qədər yedək xarakter daşıyan informasiya hərəkətləri aid edilir.

Bütövlükdə, dövlətin informasiya siyasəti dövlətin məcmu fəaliyyətinin sistemyaradıcı elementi, hakimiyyətlə cəmiyyətin kütləvi dialoqunun təmin edilməsinin mühüm vasitəsi kimi çıxış edir.

Dövlət informasiya siyasəti Azərbaycanın informasiya sferasındakı milli maraqlarını təcəssüm etdirən məqsədlərin, həmçinin həmin məqsədlərə nail olmağın strateji istiqamətlərinin məcmuyunu ifadə edir.Dövlətin daxili və xarici siyasətinin ayrılmaz hissəsi olmaqla dövlət informasiya siyasəti cəmiyyətin həyat və fəaliyyətinin bütün sferalarını əhatə edir.

Heç şübhəsiz, inkişafının paradiqmal səciyyə daşıyan yeni mərhələsində ölkəmizin informasiya siyasətinin uzunmüddətli strateji hədəfi Azərbaycanda demokratik informasiya cəmiyyətinin qurulması və ölkənin beynəlxalq informasiya birliyinə daxil olmasıdır. Belə bir keçidin labüdlüyünü təmin edən konkret müqəyyəd şərtlər mövcuddur. Həmin keçidin əsas şərtini ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafını təmin edən məsələlərin həlli və onların təhlükəsizliyinin təminatı kontekstindəvahid informasiya-telekommunikasiya məkanının yaradılmasıtəşkil edir.

Dövlət informasiya siyasətinin qarşısında duran konkret məqsədlər vardır və həmin hədəflərin əldə olunması heç də asan və sadə proses olmayıb insanın XXI əsrin informasiya cəmiyyətində səmərəli fəaliyyətini təmin edə biləcək ümumtəhsil və kadrların peşəkar hazırlığı sisteminin inkişafını və təkmilləşdirilməsini tələb edir. Belə bir siyasətin mövcudluğu heç də onun effektivliyinə dəlalət etmir. Bunun üçün dövlət informasiya siyasəti kompleks, məqsədyönlü və sistemli xarakter daşımalı, transparent olmalı və heç şübhəsiz, “triada”nın – vətəndaş cəmiyyət və dövlətin maraqlarının uzlaşmasına yönəlməlidir.

Dövlət informasiya siyasətinin əsas anlayışları normativ hüquqi aktlarda, ilk növbədə inkişaf etmiş ölkələrin qanunvericiliyi ilə uyğunlaşdırılmış qanunlarda ifadə olunur ki, bu da nəticə etibarilə dövlət informasiya siyasətinin həyata keçirilməsinin bünövrə faktoru rolunu oynayır. Belə bir siyasətin əsas vəzifələriölkənin inkişafının yeni tipli siyasi və sosial-iqtisadi şərtlərindən, informasiyanın yaradılması, yayılması və istifadə olunmasında inkişaf etmiş ölkələrin informasiya siyasəti təcrübəsinə istinad edən mükəmməl təcrübədən irəli gəlir. Bu, adi məsələ deyil. XXI əsrin trendi informasiya cəmiyyəti, onun strateji əmtəəsi isə informasiyadır. Və bütün sivil ölkələr informasiya cəmiyyəti quruculuğunu özlərinin sosial-iqtisadi, siyasi və mədəni inkişaflarının

təməlyaradıcı şərti kimi dəyərləndirməklə məqsədyönlü dövlət informasiya siyasəti xətti yürüdürlər.

Azərbaycan çox cəlbedici geosiyasi və geoiqtisdi məkanda yerləşdiyinə görə onun yürütdüyü informasiya siyasəti sintez xarakter daşıyır. Həm çevrədəki yaxın qonşular, həm Avropa Birliyi, həm də "İyirmilik" faktoru bu siyasətin formalaşmasında və həyata keçirilməsində müəyyən "söz sahibi" roluna iddia etsə də, hakimiyyətin apardığı güclü və müstəqil siyasət kənardan hər hansı bir təmayülün ilhaqını istisna edən siyasət aparmağa imkan verir. Azərbaycanın informasiya siyasətinin məxsusiliyini və universallığını təyin edən elementlərdən biri də həmin siyasətin həyata keçirilməsi üçün qısamüddətli, ortamüddətli və uzunmüddətli proqramlara istinad olunmasıdır. Bütün bu məsələlərdə Azərbaycan Avropa Şurasının üzvü kimi Avropa Birliyi Komissiyasının informasiya cəmiyyətinin formalaşması ilə bağlı irəli sürdüyü tövsiyələrə əməl etməkdədir.

**Dövlət informasiya siyasətinin prinsipləri.**

Təəssüfhissi ilə qeyd etmək istərdik ki, Azərbaycan dövlət informasiya siyasətinin hələlik institutlaşmadığı, bu sferadakı mövcud ictimai-informasion münasibətləri tənzimləyən təkmil normativ-hüquqi bazanın, bitkin nəzəri-metodoloji konsepsiyasının təşəkkül tapmadığı postsovet ölkələri sırasındadır. Son illərin meqainkişaf trendləri cəmiyyətin həyat fəaliyyətinin bütün istiqamətlərini özündə bütünləşdirərək ictimai, siyasi, iqtisadi, sosiomədəni, texnoloji sahələrdə konkret irəliləyişlərə möhürünü vurmuşdur.

Sonuncu informasiya inqilabının XX əsrin sonları XXI əsrin əvvəllərində Azərbaycana gətirdiyi informasiya cəmiyyəti özünün yüksək texnoloji trendləri ilə yanaşı sırf institusional, sistemli təmayülləri ilə də fərqlənmişdir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinası qəbul edilsə də, əfsuslar olsun ki, informasiya təhlükəsizliyi ilə bağlı doktrina hazırlanmamışdır. Bu daha çox dövlət informasiya siyasətinin formalaşması və reallaşdırılması sisteminin yoxluğu ilə izah edilə bilər. Belə bir sistemin yoxluğu şəraitində, zənnimizcə, həmin siyasətin konseptual cəhətdən işlənib hazırlanmış prinsiplərindən söhbət açmaq da əbəs olardı.

Əlbəttə, informasiya mühitinin aktorlarının, eləcə də belə bir siyasəti ictimai-siyasi praktikada tətbiq edən dövlətin fəaliyyətində həmin prinsiplər çulğaşmaqdadır və bəzən hər hansı bir funksiyanı digərindən fərqləndirmək çətin olur. Lakin istənilən halda deyilənlər təqdim olunan təsnifatın mühümlüyünü və elmi vacibliyini inkar etmir.

Dövlət informasiya siyasətinin formalaşması prinsipləri sistemlilik, tamlıq, obyektivlik, informasiyanın keyfiyyət və kəmiyyətinin birliyi, elmilik və digər prinsipləri ehtiva edir.

DİS-in fəaliyyət prinsiplərinə aşağıdakılar aiddir: dövləti və şəxsi sirrlər, intellektual mülkiyyət istisna olmaqla bütün informasiya mənbələrinə sərbəst

yanaşma prinsipi; vətəndaşların KİV və dövlətə etibar prinsipi; söz azadlığı və yayılan məlumata görə məsuliyyətin vəhdəti; əks-əlaqə; informasiya qanunvericiliyinin permanent təkmilləşdirilməsi, DİS-in həyata keçirilməsinin beynəlxalq təcrübəsinin öyrənilməsi prinsipi və s.

DİS-in baza prinsiplərinə isə aşağıdakıları aid etmək mümkündür: milli və dövlət maraqlarının prioriteti prinsipi; vətəndaşların mütləq əksəriyyətinin maraqlarının nəzərə alınması; informasiyanın sosial istiqaməti; qeyri-dövlət KİV-nə differensiallaşdırılmış dövlət dəstəyi; informasiyanın açıqlığı prinsipi; insanların mənəvi-əxlaqi və profesional keyfiyyətlərinin vəhdəti prinsipi və s.

KİV-ə, hakimiyyətə etibar prinsipi cəmiyyətdə tərəfdaşlıq əlaqələrinin, hakimiyyətlə xalq arasında qarşılıqlı münasibətlərin dialoq formasının formalaşmasına, ölkə miqyasında və beynəlxalq ictimai rəydə dövlətin imicinin yaxşılaşdırılmasına yardım etməyə hesablanıb. Müşahidələr və sosioloji tədqiqatlar göstərir ki, 90-cı illərdə və 2000-ci illərin əvvəllərində cəmiyyətdə medianın çap seqmentinə etibar daha yüksək olmuşdur. Yəqin ki, köklü səbəb-lər sırasında Azərbaycanda postsovet məkanı kimi ənənəvi medianın daha güclü olduğunu göstərmək mümkündür. Sonrakı dövrdə postsənaye cəmiyyətinin təşəkkülü, modernləşmə proseslərinin inkişafı media sənayesinin konvergent-ləşməsini, bununla da elektron medianın mövqelərinin önə çıxmasını labüd etmişdir. Lakin belə bir liderlik heç vəchlə ölkə vətəndaşlarının “new media”ya tam etibar göstərdiyi anlamına gəlməməlidir.

Əks-əlaqə prinsipi dövlətin informasiya və digər siyasətlərinin həyata keçirilməsində əsas yerlərdən birini tutur. Ona praktikada əməl olunması hakimiyyətin xalqın tələb və ehtiyaclarına adekvat reaksiyasını şərtləndirir [3, 28]

Sadalanan prinsiplərinin hər birinin DİS-in qurulması, təşəkkülü və inkişafındakı rolu ölçüyəgəlməzdir.

Bütövlükdə isə, Dövlət informasiya siyasəti aşağıdakı baza prinsiplərinə söykənməlidir:

1. Siyasətin açıqlığı prinsipi – informasiya siyasətinin əsas postulatları cəmiyyət tərəfindən açıq müzakirə olunur və dövlət ictimai rəyi nəzərə alır.
2. Maraqların bərabərliyi prinsipi – siyasət informasiya fəaliyyətinin bütün iştirakçılarının maraqlarını onların cəmiyyətdəki mövqeyi, mülkiyyət forması və dövlət mənsubiyyəti nəzərə alınmadan eyni səviyyədə nəzərə alır.
3. Sistemlilik prinsipi – tənzimləmə obyektlərindən birinin vəziyyətini dəyişməklə bağlı qərar qəbul edilərkən onun nəticələrinin digərlərinə təsir ehtimalı da nəzərdən keçirilməlidir.

4. Ölkə istehsalçısının prioriteti prinsipi – bərabər şərtlər ortamında üstünlük ölkənin rəqabətqabiliyyətli informasiya-kommunikasiya vasitələri, məhsulları və xidmətləri istehsalçısına verilməlidir.
5. Sosialyönümlülük prinsipi – dövlət informasiya siyasətinin əsas tədbirləri Azərbaycan vətəndaşlarının sosial maraqlarının təminatına yönəldilməlidir.
6. Dövlət dəstəyi prinsipi – informasiya siyasətinin sosial sferanın informasiya inkişafına yönəlmiş tədbirləri dövlət tərəfindən maliyyələşir [4].

Hazırda sosial-texnoloji inqilabın növbəti mərhələsi – informasiya cəmiyyətinin təşəkkülü prosesi gedir. Müasir informasiya və telekommunikasiya texnologiyaları (İTT) cəmiyyətin sosial strukturunda, iqtisadiyyatda, demokratiya institutlarının inkişafında baş verən dəyişikliklərə həlledici təsir göstərir.

İTT-ları müxtəlif sosial effektlər doğurmaqla yanaşı, ictimai fikrin informasiya cəmiyyətinin nəzəriyyəsi adı ilə tanınan yeni axınının yaranmasını şərtləndirmişlər. 60-70-ci illərdə yaransa da elmi məzmundan daha çox futurist xarakter daşıyan həmin nəzəriyyə, demək loar ki, təşəkkülünün başlanğıc mərhələsindədir.

Bu gün gerçəkdən də ictimai inkişafın texnoloji komponenti özünün keyfiyyət və tərəqqi parametrlərinə görə əsrin əvvəlindəkindən bir xeyli fərqlənir. Onun təsiri altında baş verən dəyişikliklərin sürəti isə o qədər böyükdür ki, bir nəslin gözləri önündə texnoloji yeniliyin bir neçə mərhələsi dəyişməkdədir.

Uzun illər ərzində dövlət informasiya siyasəti əsas etibarilə kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı problemləri əhatə etmişdir. Son illər DİS-nin məzmunu bir xeyli genişlənərək vətəndaş və təşkilatların informasiya əldə etməklə bağlı Konstitusiya ilə təsbit edilmiş hüquqları, eləcə də informasiya təhlükəsizliyinin bəzi aspektləri ilə zənginləşmişdir.

XX əsrin son onilliyində Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur [1].

90-cı illərin sonları 2000-ci illərin əvvəllərində ölkədə informasiyalaşmanın müxtəlif proqramlarında ifadə olunmuş dövlət informasiyalaşma siyasətinin prinsip və əsasnamələri formalaşaraq inkişaf etməyə başlayır. Qeyd etməliyik ki, həmin siyasət dövlətin KİV, rabitə və telekommunikasiya sahəsindəki siyasətindən əlahiddə həyata keçirilirdi.

Üçüncü minilliyin əvvəllərindən etibarən Azərbaycanda dövlət informasiya siyasətinin ayrı-ayrı qollarının inkişafı istiqamətində müəyyən konseptuallıq və dinamika nəzərə çarpır. Belə bir keyfiyyət sıçrayışı ölkədə postsənaye dövrünün çağırışı və ölkənin siyasi və sosial-iqtisadi inkişafının ifadəsi olaraq informasiya cəmiyyətinin qurulması ilə səciyyələnir. Heç şübhəsiz, dövlət informasiya siyasətinin öhdəsinə miqyası və əhəmiyyəti etibarilə çox vacib vəzifə və məsələlərin həlli düşürdü.

**Dövlət İnformasiya siyasətinin funksiyaları.**

İndi Dövlət informasiya siyasətinin funksiyalarını nəzərdən keçirək. Əvvəlcə, bu anlayışın ehtiva dairəsini müəyyənləşdirək. DİS-in funksiyaları dedikdə dövlətin cəmiyyətin informasiya mühitinin və onun subyektlərinin mövcud vəziyyətinin qorunması və perspektiv inkişafının dəstəklənməsinə yönəlmiş hərəkətləri nəzərdə düşülür. Funksiyaların kəmiyyət çoxluğunu informasiya sferasını yaradan əlaqələrin müxtəlifliyi və dövlətin onunla qarşılıqlı əlaqəsi şərtləndirir.

Tədqiqata cəlb etdiyimiz mövzu çərçivəsində onlardan bəzilərini nəzərdən keçirmək məqsədəuyğun olardı:

**İnformasiya** funksiyası – vətəndaşlar və hakimiyyət orqanları üçün az-çox əhəmiyyət kəsb edən məlumatların istehsalını və yayılmasını əhatə edir. Bizi maraqlandıran mövzu kontekstində dövlət orqanlarının xüsusi diqqətini tələb edən və ictimai əhəmiyyət kəsb edən siyasi informasiyanın əhəmiyyətini xüsusi qeyd etmək lazım gəlir [5, 68].Əgər nəzərə alsaq ki, əldə edilən informasiyalar əsasında vətəndaşlarda hökumətin, parlamentin, partiya və digər siyasi institutların fəaliyyəti, həmçinin iqtisadi və soaial siyasət, cəmiyyətin mədəni həyatı haqqında müəyyən təəssüratlar formalaşır, dövlət KİV orqanları faktları seçib işıqlandırarkən, həmçinin şərh edib qiymətləndirərkənxüsusilə diqqətli olmalıdırlar.

Belə bir müstəsna səlahiyyət, əslində, medianın üzərinə çox ciddi məsuliyyət yükü qoyur.

**Təhsil** funksiyası – vətəndaşlara böyük informasiya selində yalnız intellektual inkişaf, ümumi dünyagörüşün formalaşması üçün faydalı ola biləcək məlumatların əldə edilməsini tövsiyə edir.

Müasir şəraitdə azərbaycanlıların siyasi təhsil səviyyəsinin artırılmasında KİV-in rolu xüsusilə fərqləndirilir. Bu məsələdə ölkənin təhsil təsərrüfatı irəli çıxıb öz sözünü deyə bilmədiyi üçün ağırlıq yenə də KİV-in üzərinə düşür. Mətbuat isə, etiraf olunmalıdır ki, öz funksional təyinatı etibarilə siyasi biliklərin sistematik və dərindən mənimsənilməsini təmin etmək iqtidarında deyildir.

Dövlət informasiya siyasətinin **sosiallaşma** funksiyası öz mühüm mövqeyi və aktuallığı ilə fərqlənir. Sosiallaşma bütün nəsillərin cəmiyyətdəki dəyər və normalara inteqrasiyasını təmin etməklə insanların adaptasiya

imkanlarını genişləndirir, onlara sosial-siyasi reallıqla bütünləşmək imkanı tanıyır.

**Tənqid və nəzarət** funksiyası tək KİV deyil, cəmiyyətin digər ixtisaslaşmış institutları vasitəsilə də həyata keçirilir. Ancaq predmetliliyi və təsirliliyi baxımından KİV-in tənqidi obyektinin qeyri məhdudluğu ilə fərqlənir.

Ancaq demokratiya dalğası nəzarət sözünün önünə bir ictimai kəlməsi dəəlavə etməklə nəinki nəzarət anlayışının obyektini, eləcə də mahiyyətini dəyişdi. KİV-in nəzarət funksiyasınamüxalifətinin zəif və latent olduğu, vətəndaş cəmiyyətinin tam formalaşmadığı, dövlət nəzarət institutları əməkdaşlarının kifayət qədər peşəkar olmadığı bir cəmiyyətdə daha çox ehtiyac vardır.

Azərbaycan Respublikasında ictimai nəzarətistər ənənəvi mətbuatın, istərsə də konvergent medianın bir ictimai fikir institutu olaraq əsas funksiyalarından birinə çevrilmişdir. Bütövlükdə, cəmiyyətin idarə edilməsində ictimai nəzarətin pozitiv rolunu ilk dəfə ölkə Prezidenti İlham Əliyev qabartmışdır.

2016-cı il yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçısı bir daha cəmiyyətdə ictimai nəzarət institutunun vacibliyinə toxunmuşdur: “Mən dəfələrlə ictimai nəzarət haqqında fikirlərimi bildirmişəm. İctimai nəzarət gücləndirilməlidir. İctimai nəzarət olmadan korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə biz qalib gələ bilmərik. Ona görə dövlət siyasəti, güclü siyasi iradə artıq özünü göstərir və müsbətə doğru dəyişikliklər də var. İnstitusional tədbirlər görülür, islahatlar aparılır və bu mübarizə geniş ictimai dəstəyə də malikdir. Ancaq bu dəstək daha da fəal olmalıdır[2].

Dövlət informasiya siyasətinin **səfərbəredici** funksiyası insanların müəyyən siyasi hərəkətlərə yaxud şüurlu hərəkətsizliyə sövq etməsində ifadə olunur[5, 75]. DİS-in bu funksiyası cəmiyyətdaxili, eləcə də xarici münasibətlərin balanslaşdırılmasında, ictimai ovqat və əhval-ruhiyyənin normallaşdırılmasında müstəsna əhəmiyyətə malikdir. Və burada aparıcı rol yenə də dövlət KİV-inə, televiziya və radiosuna məxsusdur. Belə ki, bu media seqmenti insanların ağlına, hisslərinə, düşüncə obrazına, onların bu və ya digər hadisəni qiymətləndirmə meyarlarına və s. təsir etməklə hər cür milli və dini dözümsüzlük, ekstremizm və separatçılıq meyillərinə qarşı effektiv mübarizə apara bilirlər.

Dövlət informasiya siyasətinin **humanitar** funksiyası insanın həyat və fəaliyyəti üçün adekvat informasiya və sosiomədəni mühitin yaradılmasında, onun öz hüquq və azadlıqlarını həyata keçirə bilmə qabiliyyətində, eləcə də cəmiyyətdə ictimai asayişin, vətəndaş sülhü və həmrəyliyin bərqərar edilməsində ifadə olunur.

Bir çox müasir tədqiqatçılar [6, 51-81] dövlət siyasətinin bir sıra funksional özəlliklərini fərqləndirirlər:

- əvvəla, dövlət siyasətinin daşıyıcıları yalnız publik siyasətin ifadəçiləri ola bilərlər;

- ikincisi, dövlət siyasətinin formalaşması və reallaşdırılması qanunla müəyyən edilmiş prosedurlar əsasında və müvafiq strukturlar üzərindən həyata keçirilə bilər;

- nəhayət, dövlət siyasətinin obyektləri qismində konkret maddi predmetlər deyil, ayrı-ayrı fəaliyyət növləri çıxış edir.

Azərbaycanın da aid olduğu keçid tipli ölkələrdə dövlət idarəetməsində informasiya komponenti vazkeçilməz əhəmiyyət kəsb edir. İnformasiya siyasəti yeni sosial qaydaların təşəkkülünə təkan verə bildiyi kimi, siyasi proseslərin demokratik istiqamətini gərginləşdirə bilmək xarakterinə də malikdir.

## ƏDƏBİYYAT

1. *“Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003—2012-ci illər)” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* http://ictfund.gov.az/uploads/s/3.pdf/ 23.03.2017

2. *http://www.president.az/articles/17442*. 21.01.2017

3. *Крат Ю.Г., Шрамкова И.Г.* Основы информационной безопасности: учеб.пособие/ Ю.Г.Крат, И.Г.Шрамкова.–Хабаровск: Изд-во ДВГУПС, 2008,112 с.

4. *Концепция государственной информационной политики Российской Федерации.* Принята государственной Думой Федерального Собрания Российской Федерации 15 октября 1998 г. / Под ред. О. Финько. М.: 1999.

5. *Plitko А.Г.* Понятие государственной информационной политики. Москва, 2005, 158 с.

6. *Пушкарева Г.В.* Политический менеджмент: Учебное пособие. М.: Дело, 2002. С. 14-27; Политология: Учебник / Отв. ред. B.C. Комаровский. М.: РАГС, 2002. С. 122-136; Соловьев А.И. Политология: Политическая теория, политические технологии: Учебник для студентов вузов. М.: АспектПресс, 2001, с. 51-81.

**UOT 929**

# XX ƏSRİN İKİ BÖYÜK AZƏRBAYCANLI SİYASİ XADİMİ

***Ə.H.Şəfiyeva***
*AMEA ak. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*afshanshafiyeva@yahoo.com*

***Açar sözlər:*** *S.H.Tağızadə, M.Ə.Rəsulzadə, İran-e-nou qəzeti. İran demokratik partiyası*

Məqalədə XX əsrin ilk onilliklərində Azərbaycanın və İranın siyasət meydanına çıxmış tarixi şəxsiyyətlərdən və dövlət xadimlərindən olan Məhəmməd Əmin Rəsulzadə və Seyid Həsən Tağızadənin birgə keçdikləri məsləkdaşlıq və əməkdaşlıq yolundan bəhs olunur. İranın tanınmış istimai-siyasi xadimi olan S.H.Tağızadə İran Demokrat Partiyasını (İDP) yaradaraq (1909) ölkədə ilk partiya sisteminin əsasını qoymuşdur. M.Ə.Rəsulzadə isə bu partiyanın təşkilatçılarından biri kimi partiyanın mərkəzi mətbuat orqanı, fars dilində buraxılan (23 avqust 1909) "İran-e nou" qəzetinin ideya rəhbəri və baş redaktoru kimi fəaliyyət göstərmişdi. Tarixi şərait, xüsusilə son məqsəd olaraq edilən seçim, onları hələ keçəcəkləri yolların başlanğıcında ayırsa da əsası eyni məsləkə söykənən bu dostluq zamanın sınağından çıxmış və ömürlərinin sonunadək qorunub saxlanmışdır.

# ДВА ВЕЛИКИХ ПОЛИТИЧЕСКИХ ДЕЯТЕЛЯ-АЗЕРБАЙДЖАНЦА XX ВЕКА

***А.Г. Шафиева***

***Ключевые слова:*** *С.Г.Тагизаде, М.Э.Расулзаде, газета «Иран-е-ноу», Иранская Демократическая Партия*

В статье рассматриваются совместные этапы жизненного пути и сотрудничества двух исторических личностей и государственных деятелей, появившихся на политической арене Азербайджана в первые десятилетия XX века – представителя Северного Азербайджана – Мухаммед Амина Расулзаде, и Южного Азербайджана – иранца Сейид Гасана Тагизаде. Известный общественно-политический деятель Ирана С.Г.Тагизаде заложил основы первой партийной системы в стране, создав

в 1909 году Иранскую Демократическую Партию (ИДП). А не являвшийся иранским подданным М.А. Расулзаде, войдя в состав Центрального Комитета партии как один из её организаторов, стал идейным руководителем и главным редактором центрального печатного органа партии – издававшейся на персидском языке (с 23 августа 1909 года) газеты «Иран-е-ноу» («Новый Иран»). Наряду с партийной деятельностью, органом которой она являлась, газета «Иран-е-ноу» публиковала статьи по самому широкому спектру вопросов в сфере общественных отношений, парламента, печати, политических организаций, языка и прочего.

В начале XX века последующие политические пути этих двух ярких личностей, имевших одинаковые этнические корни, схожие детство и юность, ступивших на один и тот же путь борьбы, который объединяли общая цель и стремления, разошлись по ряду причин. Тагизаде видел путь к свободе и счастью своего народа в модернизированной иранской государственности, и всю свою жизнь посвятил этой идее. Расулзаде же, избрал путь национальной государственности Азербайджана и посвятил свою жизнь борьбе за неё. Хотя исторические условия, а, в особенности, личный выбор каждого и развели их в начале жизненного пути, эта дружба, опиравшаяся на одну и ту же идейную основу, пройдя испытание временем, сохранилась до конца их жизни.

## THE TWO MAJOR AZERBAIJANI POLITICAL FIGURES OF THE 20TH CENTURY

***A.H. Shafiyeva***

***Keywords:*** *S.H.Taghizadeh, M.A.Rasulzadeh, Iran-e-Nou newspaper, the Democratic Party of Iran*

The article is about the collaboration of the persons having identical ideas - historical and public figures of Azerbaijan–North Azerbaijani Mahammad Amin Rasulzadeh and the South Azerbaijani (Iranian) Seyyid Hassan Taghizadeh that came to the political arena in the first decades of the 20th century. Seyyid Hassan Taghizadeh, who was well-known public and political figure of Irancreating Iran Democratic Party (IDP) (1909), laid the foundation for the first party system in the country. Mahammad Amin Rasulzadeh who was not a subject of Iran, was included to the Central Committee staff as one of the organizers of the party and became the ideologist and the editor-in-chief of the party's central press organ -“Iran-e Nou” newspaper published in Persian (23 August 1909). Along with the activities of the party,“Iran-e-nou”, also published broad range of articles on Iran's social, political and cultural life,

social relations in society, parliament, the press, political organization, language and so on.

At the beginning of the 20th century, later political path of these two prominent persons of the same ethnic origin, similar childhood and youth, who stepped the arena of struggle with the same intent and purpose, separates forsome reasons. Taghizadeh saw the path of freedom and happiness of his people in modern Iranian statehood and dedicated his whole life to struggle for the sake of this conviction. However, Rasulzadeh chose the path of national Azerbaijan statehood and devoted all his life to the struggle for this conviction. Though historical conditions, particularly the selection of the ultimate goal separated them at the beginning of the road they would pass, this friendship based on the same persuasion could stand tests of the time and was preserved till the end of their lives.

Siyasi sarsıntılar, müharibələr və inqilablar əsri kimi qiymətləndirən XX əsr eyni zamanda bir çox xalqlar üçün milli dirçəliş, milli haqlar uğrunda mübarizə və milli dövlətçiliyin əldə edilməsi yolunda tarixi şərait və geniş imkanlar dövrü olmuşdur. XX əsri öz əzəli torpaqlarında, lakin iki böyük dövlətin sərhədləri hüdudlarında qarşılayan Azərbaycan xalqı əsrin bu tələblərinə cavab vermiş, yaranmış tarixi şəraitdə öz milli və demokratik hüquqlarını təsdiqləmək cəhdləri etmiş və öz mübarizəsində bu və ya digər dərəcədə uğurlar qazanmışdır. 1906-1911-ci illərdə İranda Konstitusiya - Məşrutə inqilabında cənubi azərbaycanlıların aparıcı rolu, 1917-1920-ci illər Təbrizdə Ş.M.Xiyabaninin rəhbərliyi ilə milli-demokratik hərəkat, nəhayət, əsrin əvvəllərindən başlayaraq Şimalı Azərbaycanda güc toplayan milli şüur, milli dirçəliş və milli hərəkatın öz inkişafında azərbaycanlıların milli dövlətçiliyinin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə nəticələnməsi deyilənlərə sübutdur. Bütün bu hərəkatlar, təbii ki, öz qəhrəmanlarını – siyasi liderlərlərini, ideoloqlarını, ictimai və dövlət xadimlərini, sərkərdə və inqilabçılarını yetirmişdir. Lakin XX əsrin ilk onilliklərində Azərbaycanın siyasət meydanına çıxmış tarixi şəxsiyyətlərdən yalnız iki nəfəri ideoloq - Dövlət xadimi kimi təmsil olunmuşlar: Şimalı Azərbaycanda Məhəmməd Əmin Rəsulzadə - Cənubi Azərbaycanda (və İranda) Seyid Həsən Tağızadə. Azərbaycanın iki böyük paytaxtında - Bakıda və Təbrizdə, ruhani ailələrində dünyaya gəlmiş bu iki şəxs, taleyin hökmü ilə öz siyasi-ictimai görüşlərinin hələ formalaşdığı bir dövrdə tanış olmuş, bu tanışlıq məsləkdaşlığa, daha sonra əməkdaşlığa çevrilmiş və böyük bir dostluğun təməlini qoymuşdur. Tarixi şərait, xüsusilə son məqsəd olaraq edilən seçim onları hələ keçəcəkləri yolların başlanğıcında ayırsa da, əsası eyni məsləkə söykənən bu dostluq zamanın sınağından çıxmış və ömürlərinin sonunadək qorunub saxlanmışdır.

Təbrizin hörmətli və nüfuzlu ailələrindən sayılan Tağızadələrin əsilləri Naxçıvanın Ordubad nahiyəsinin Vənənd kəndindən, Mir Haşımin nəslindən idi [6, s. 14-15]. Seyid Həsənin atası Seyid Tağı Rusiya təbəəsi olmaq istəməyərək, hələ cavan yaşlarından Təbrizə gəlmiş, burada Şəbüstərilər nəslindən olan bir qızla evlənmiş və bu izdivacdan onun 4 oğlu olmuşdur [6, s. 16-17]. 1878-ci ildə Təbrizdə, ali ruhani - müctəhid ailəsində doğulan Seyid Həsən kiçik yaşlarından dini təhsil almış, daha sonra müstəqil şəkildə dünyəvi elmləri öyrənməyə başlamış, Təbrizdəki müxtəlif məktəblərdə, o cümlədən Amerika missionerlərinin məktəbində oxumuşdur [6, s. 31]. Həmin dövr Təbrizdə İranın digər şəhərlərindən fərqli bir mütərəqqi mühitin mövcud olması da müstəqil şəkildə Qərb və Şərq maarifçilərinin və filosoflarının əsərlərini mütaliə edən, xarici dilləri öyrənən gənc Tağızadənin dünyagörüşünün formalaşmasına güclü təsir etmiş, yeni ideyalarla tanışlıq tədricən siyasi-hüquqi məsələlərlə marağa səbəb olmuşdur. Mirzə Mülküm xanın, M.Ə.Talıbovun, Z.Marağayinin, digər müəlliflərin sosial-demokrat məzmunlu ideyaları, Qanunun hakimiyyətinin bərqərar edilməsi, siyasi azadlıqlar və s. kimi fikirlər Tağızadənin düşüncəsində əsaslı dönüş yaratmış və onun qarşıdakı həyat yolunun artıq siyasətlə bağlı olacağını şərtləndirmişdir. 1904-cü ildə Seyid Həsən yaxın dostu, gələcəkdə Cənubi Azərbaycanın böyük maarifçi xadimi Mirzə Məhəmməd Əli Tərbiyət ilə birlikdə Cənubi Qafqaza səfər edərək, əvvəl Culfadan Naxçıvana, sonra İrəvana gəlir, burada azərbaycanlı ziyalılar, o cümlədən Qurbanəli Şərifovla görüşür, ilk dəfə qatara minərək Tiflisə gedir [6, s. 38]. “Avropanın ilk qapısı” kimi qəbul etdiyi Tiflis mühiti, ziyalılar, xüsusən azərbaycanlılarla görüşlər Tağızadənin yaddaşında dərin iz buraxır. “Şərqi Rus” qəzeti redaksiyasında onun təsisçisi və redaktoru Məhəmməd Ağa Şahtaxtinski, qəzetin gənc əməkdaşları Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə və Rəşid İsmayılov ilə tanışlığı, Şərqdə modernləşmə düşüncəsinin ən qızğın tərəfdarları və daşıyıcıları olan bu insanlarla söhbətlərini S.H.Tağızadə sonralar özünün Tiflisdəki ən faydalı görüşləri kimi qiymətləndirmiş, onların hər biri haqqında dəyərli fikirlər söyləmişdir [6, s. 40-41] .

Tiflisdən İstanbula, daha sonra Misirə (İskəndəriyyə və Qahirə), Beyrut və Dəməşqə yollanan və həmin ölkələrin mütərəqqi ruhlu ziyalı dairələrində ən geniş mövzularda - Şərq-Qərb, Qərb-İran, İranın problemləri və həlli yolları ətrafında geniş fikir mübadiləsi aparan S.H.Tağızadə 6 ay sürən bu səfərdən və görüşlərdən bir nəticə - İranda modernləşmə uğrunda siyasi vasitələrlə mübarizə aparmağın zəruriliyinə tam əminlik hasil edir. Öz yeni siyasi baxışlarını S.H.Tağızadə əvvəl Qahirədə, sonra Təbrizdə nəşr etdirdiyi “İranın hazırkı durumu və ya tarixin məhkəməsi” adlanan ilk iri həcmli, proqram xarakterli məqaləsində şərh edərək keçmişdə şanlı tarixə malik olan İranın müasir dövrdəki durğunluqdan və gerilikdən nicatının Qərb mədəniyyətini mənimsəməkdə olduğunu göstərir [10, s. 428-429]. Bu məqalə Tağızadənin həyatında siyasi

ideya axtarışları mərhələsinin yekunu və qarşıdakı uzun onillikləri əhatə edəcək zəngin siyasi fəaliyyətinin kredosunun seçimi sayıla bilər. "Modernləşmə" elmi-siyasi-ideoloji dünyagörüşünə söykənən bu kredonun əsasını isə İran dövlətçiliyi prinsipi təşkil edir. Bu məqalə eyni zamanda Tağızadənin çox qısa zaman ərzində və ən yüksək səviyyədə İranın ali siyasi dairələrinə daxil olmasına bir vəsiqə olur.

İranın xarici asılılığının güclənməsi, daxili ziddiyyətlərin kəskinləşməsi, xalq kütlələrinin narazılığının artması 1905-ci ildə İranda Məşrutə (konstitusiya) inqilabı adlanacaq kütləvi etirazların başlanması ilə nəticələnir. Müxtəlif əhali təbəqələrinin tələbləri qarşısında Şah hakimiyyəti 1906-cı ilin avqust ayında Konstitusiyanın qəbul edilməsi və İran Parlamentinin - Məclisinin yaradılması haqqında fərman verir. Azərbaycandan Məclisə seçkilər yalnız noyabr ayında (Məclis işə başladıqdan sonra) keçirilir. Tağızadə özü bu vaxt artıq Tehranda olsa da, onun yuxarıda adı çəkilən məqaləsi Təbrizdə kitabça şəklində çap olunaraq Məşrutə tərəfdarlarının diqqətini cəlb edir. Beləliklə, o, seçki kampaniyasında iştirak etmədən Azərbaycandan nümayəndə kimi Məclisə deputat seçilir [8, s. 55]. Dərhal qızğın fəaliyyətə başlayan S.H.Tağızadənin rəhbərliyi ilə azərbaycanlı deputatlar Məclisin işinin Avropa standartlarına uyğun şəkildə təşkil edilməsinə, Əsas Qanunun və ona Əlavənin müasir qanunvericilik tələblərinə cavab verməsi sahəsində ciddi səy göstərir, bir sıra mühüm qanunların qəbul edilməsinə nail olurlar. Lakin bütün bu nailiyyətlər kəskin mübarizə şəraitində əldə edilir, Tağızadənin radikal çıxışları bir tərəfdən onun xalq arasında böyük nüfuz qazanmasına, digər tərəfdən hakim mühafizəkar qüvvələrin, şah və sarayın dərin qəzəbinə səbəb olur. Son nəticədə Məclisin mövcudluğu ilə barışa bilməyən İranın hakim mühafizəkar qüvvələri Tehrana hərbi qubernator təyin edilmiş Rus kazak briqadasının polkovniki Lyaxovun dəstəyi ilə 1908-ci il iyunun 23-də hərbi çevriliş edərək, birinci Məclisi top atəşinə tutaraq dağıdır. Məşrutəçi qüvvələrə qarşı hücum zamanı bir neçə deputat həlak olur və öldürülür. Çoxlu sayda deputat həbs edilir və bir neçəsi xarici səfirliklərdə gizlənir. İngilis səfirliyinə sığınan S.H.Tağızadə ölkədən 1,5 il müddətinə sürgün olunmaq şərti ilə İranı tərk etməli olur [6, s. 92].

Bakıya gələn Seyid Həsən burada geniş fəaliyyət göstərən iranlıların xeyriyyə cəmiyyətindən maddi və mənəvi dəstək alaraq konstitusiya lehinə təbliğat aparmaq üçün Avropaya yollanır. Yalnız həmvətənləri arasında deyil, artıq Bakının siyasi və ziyalı ictimaiyyəti arasında tanınan Tağızadə bu səfər zamanı ondan müsahibə almağa gələn Məhəmməd Əmin Rəsulzadə ilə tanış olur. Həmin dövr 24 yaşlı Məhəmməd Əminin çiyinləri arxasında "Müsəlman Gənclik Təşkilatı" adlı gizli bir dərnəyin yaradıcısı, "Hümmət Sosial-Demokrat Müsəlman Təşkilatı"nın banilərindən biri və 5 ildən artıq müddətdə Tiflis və Bakı mətbuatında rus istibdad rejiminin tənqidinə həsr olunmuş onlarla

məqalənin müəllifi kimi siyasi mübarizə təcrübəsi var idi. 1909-cu ilin əvvəllərində "Tərəqqi" qəzetində hökumət əleyhinə yazılarına görə həbs olunmaq təhlükəsi qarşısında M.Ə.Rəsulzadə Bakını tərk edərək həmin qəzetin müxbiri kimi İrana gedir. Bu dövr - Tehranda Məclis topa tutulduqdan və ölkədə irtica rejimi bərqərar olduqdan sonra Məşrutə hərəkatının mərkəzi Azərbaycana-Təbrizə keçmişdi və Rəsulzadənin İrana gəldiyi günlər Səttarxanın başçılığı ilə Azərbaycan azadxahları şah qüvvələrinə qarşı mütəşəkkil və mübariz ordu kimi çıxış edirdilər. Cənubi Azərbaycanın şəhər və kəndlərini addım-addım gəzən, öz doğma xalqının acınacaqlı vəziyyətini yaxından müşahidə edən, Təbriz Əncüməninin (yerli idarə orqanı) üzvləri, ziyalılar və azadlıq mücahidləri ilə görüşən, Səttarxanla müsahibə aparan M.Ə.Rəsulzadə özünün məşhur "İran məktubları"nı yazır. "Tərəqqi" qəzetinin 1909-cu il yanvar-avqust saylarında dərc olunan bu "Məktublar"- məqalələr silsiləsi Təbriz üsyanının salnaməsi olmaqla, 11 aylıq mühasirədən sonra onun rus ordularının birbaşa müdaxiləsi ilə yatırılması, Azərbaycanın bütün məntəqələrində azadxahlara tutulan divan və təzyiqlərin canlı şəhadəti sayıla bilər. Bu məktublarda Londonda Qərb ictimai fikrinin İrana yönəltmək məqsədilə geniş təbliğatı iş apardıqdan sonra Təbrizə qayıtmış S.H.Tağızadənin də adı çəkilir, onun "həmvətənləri ilə əl-ələ verərək tamam o mühasiratı çəkdiyi" vurğulanır [1].

Təbriz üsyanının qan içində yatırılması İranın digər vilayətlərində şah rejiminə qarşı çıxışların başlanmasına təkan verir. Vəziyyəti düzəltməyə çalışan Məmmədəli şah yeni seçki qanunun hazırlanması haqqında fərman imzalayır. Bu məsələ ilə bağlı şah hökuməti ilə müzakirələr aparmaq məqsədilə Azərbaycan əncüməni ölkənin digər əncümənləri tərəfindən vəkil seçilir və S.H.Tağızadə bu işdə «baş məsləhətçi» kimi iştirak edir. Maraqlıdır ki, müzakirələrdə şah tərəfini də etnik azərbaycanlılar təmsil edirdilər [4, s. 395].

İki ay davam edən müzakirələrdən sonra, 1909-cu il iyul ayının 1-də yeni seçki qanunu təsdiq olunur ki, bu qanunu məhz S.H.Tağızadənin fəaliyyətinin nəticəsi hesab etmək olar. Çünki həmin vaxt Təbrizdə qanunvericilik sahəsində ondan təcrübəli və nüfuzlu şəxs yox idi. Yeni qanunda seçki prosesini bir qədər sadələşdirmək və ən mühümü, vilayətlərə ayrılan deputat yerlərinin həmin vilayətlərin əhalisinin sayına mütənasib formaya salmağa önəm verilirdi [4, s. 395-396].

23 avqust 1909-cu il tarixdə Tehranda "İrane-nou" qəzetinin nəşri ilə M.Ə.Rəsulzadənin yalnız İran fəaliyyətinin deyil, həm də S.H.Tağızadə ilə əməkdaşlığının yeni dövrü başlayır. Rəsulzadənin və Tağızadənin bu qəzetlə bağlı xatirələrində İranda yeni, Avropa tipli ilk qəzetin buraxılması ideyasının nə zaman və nə məqsədlə yaradıldığı haqda bir söz deyilmir. Lakin bu qəzetin Tağızadənin İranın modernləşməsi proqramının tərkib hissəsi olduğu və onun Rəsulzadənin timsalında bu mühüm vəzifənin öhdəsindən gələ biləcək bir şəxs,

professional qəzetçi, siyasi publisist, nəhayət həmməslək tapdığı şübhə doğurmur. Rəsulzadə üçün də bu qəzetin baş redaktorluğu sadəcə yeni iş yeri olmayıb, dini-klerikal və despotik-mühafizəkar siyasi mühitin hökm sürdüyü İran cəmiyyətində ilk dəfə demokratiya prinsiplərini - azadlıq, bərabərlik, ədalət ideyalarının təsbit edilməsi, doğma Azərbaycan xalqı da daxil olmaqla 15 milyonluq İran xalqlarının ən əvvəl vətəndaşlıq hüququnun tanınması, xalqın da öz hüquqlarını yeni, demokratik yollarla müdafiəyə etməyə hazırlanması kimi mühüm bir işdə siyasi təcrübə əldə etmək imkanı idi. "İran-e-nou" qəzeti eyni zamanda daha bir missiyanı yerinə yetirməli idi. Cəmiyyətin siyasi mədəniyyətinin və parlament sisteminin əsas göstəricisi olan siyasi partiyanın təşkili və hələ seçkiləri davam edən 2-ci çağırış Məclisdə yaradılması nəzərdə tutulan Demokrat fraksiyasının fəaliyyətinin yeni əsaslarla qurulması günün tələbi kimi ortaya çıxırdı. Tağızadənin başçılığı ilə yaradılan və İranın mütərəqqi fikirli siyasi və ictimai xadimlərinin, geniş ziyalı təbəqələrinin təmsil olunduğu İran Demokrat Partiyası (İDP) ölkədə partiya sisteminin əsasını qoyur. İran təbəəsi olmayan M.Ə.Rəsulzadənin bu partiyanın təşkilatçılarından biri kimi onun Mərkəzi Komitəsi heyətinə daxil edilməsi və partiyanın mərkəzi mətbuat orqanı, fars dilində buraxılan "İran-e nou" qəzetinin ideya rəhbəri və baş redaktoru təyin edilməsi 25 yaşlı Məhəmməd Əminin İranın ali siyasi dairələrində artıq ciddi və yetişmiş bir siyasətçi kimi qəbul olunduğunu göstərirdi [3, s. 36]. Birmənalı demək olar ki, nəşr olunduğu müddətdə (müxtəlif fasilələrlə avqust 1909 - may 1911) "İrane-nou" qəzeti boynuna düşən missiyanı şərəflə yerinə yetirmişdir.

İran mətbuatı tarixinə həsr edilmiş bütün kitab və tədqiqatlarda "Bakılı Məhəmməd Əmin Rəsulzadənin sər-dəbiri (baş redaktoru) olduğu bu ruznamə" öz dövründə İranın ən nüfuzlu mətbuat orqanı kimi qiymətləndirilir. İranlı tədqiqatçılar Milli Məclis nümayəndələrinin öz nitqlərində bu qəzetin yazılarından istifadə etdiklərini qeyd edirlər. "İrane-nou" orqanı olduğu partiyanın və Məclisdə Tağızadənin rəhbərlik etdiyi Demokrat fraksiyasının ölkənin siyasi sisteminin modernləşməsi istiqamətində fəaliyyətini işıqlandırmaqla yanaşı, İranın ictimai, siyasi, mədəni həyatına, cəmiyyətdə mövcud olan ictimai münasibətlərə, parlament, mətbuat, siyasi təşkilat, dil və s. kimi anlayışlara dair ən geniş səpgili yazılar dərc edirdi. Rəsulzadənin özünün "M.Əmin", "R-zadə", "Rəsulzadə", "Niş" (neştər) imzaları ilə, eləcə də imzasız dərc olunan baş məqalələri və redaksiya şərhləri nəzərə alınmaqla bu qəzetdə 200-dən artıq yazısı dərc olunmuşdu. Məhəmməd Əminin yalnız İran mövzusu ilə məhdudlaşmayaraq, Şərq, Avropa, Rusiya və əlbəttə ki, Azərbaycan tarixi və ədəbiyyatı sahəsində geniş bilgilərini qəzet səhifələrinə gətirməsi, onun özünün də etiraf etdiyi kimi, bu qəzeti yalnız nüfuzlu deyil, həm də son dərəcə oxunaqlı etmiş, beləliklə "İrane-nou" siyasi orqan olmaqla yanaşı həm də geniş maarifçilik missiyasını yerinə yetirmişdir. Məs. qəzetin rus şairi İ.A.Krılovun təmsillərini

dərc etməsi İran ictimaiyyəti arasında geniş əks-səda doğurmuş və sonralar İran mətbuatı tarixində siyasi-ictimai və eyni zamanda ədəbi hadisə kimi qiymətləndirilmişdir [1].

Lakin nə Tağızadənin İran məclisində deputat, nə də Rəsulzadənin qəzet redaktoru kimi fəaliyyəti heç də rahat və sakit olmamışdır. Tağızadənin başçılıq etdiyi inqilabçı, dünyəvi, radikal Demokrat fraksiyası Məclisdə əksəriyyət təşkil edən Etedaliyyun (mühafizəkar) fraksiyası arasında ictimai, iqtisadi, siyasi, mədəni islahatlar və onların aparılması üsulları məsələlərində ciddi ixtilaflar mövcud idi. Digər tərəfdən, Tağızadənin dinin siyasətdən ayrılması, həmçinin qətl törətmiş axundun cəzalandırması kimi tələblərini İslam tarixində görünməyən radikal mövqe kimi qiymətləndirən ruhanilərin sərt münasibəti sonda Tağızadəyə qarşı "dinsizlik"dən tutmuş "müstəmləkəçilərlə əməkdaşlıq" kimi ittihamların irəli sürülməsi və onun nəinki Məclisdən, ümumiyyətlə İrandan çıxarılması tələbi ilə nəticələnir [9, s. 12].

Təbii ki, Rəsulzadə də bu qüvvələrin diqqətindən kənarda qalmır. 1910-cu ildə ayrıca kitabça şəklində "Tənqidi firqeyi E'tidaliyun və ya Ectimaiyun-E'tidaliyun" (Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi" adlı əsərin nəşrindən tutmuş, "İrane-Nou" qəzetinin bütün fəaliyyəti istər hökumət dairələrini, istərsə də qəzetin anti-rus istiqamətindən narazı olan Rusiyanın İrandakı səfirliyini bu nüfuzlu qəzetin bağlanması və Rəsulzadənin isə İrandan xaric edilməsi üçün bəhanə axtarmağa sövq edirdi. Nəhayət Rəsulzadənin Amerikadan İranın maliyyə sistemində islahatlar aparılmaq üçün dəvət olunmuş Morqan Şusterlə apardığı siyasi müsahibə əsas sayılaraq Rusiya səfirliyinin təşəbbüsü və İran hökumətinin tələbi ilə Rəsulzadə də İranı tərk etməli olur [9, s. 12]. Qeyd olunmalıdır ki, Qərb mətbuatı "İrane-nou" və Rəsulzadə ətrafında baş verən hadisələrlə yaxından maraqlanmış, Parisdə çıxan "Siqeyl" qəzetinin Tehrana gəlmiş xüsusi müxbiri qəzet və onun baş redaktoru haqqında böyük bir reportaj dərc etmişdir. İranın o zamankı xarici işlər naziri, Rəsulzadənin "yaxın dostum" adlandırdığı Hüseyn Xan Nəvvab Rəsulzadənin şərəfinə şam yeməyi vermiş, bu məclisində S.H.Tağızadə və digər şəxslərlə birlikdə "Tayms" qəzetinin müxbiri və İngilis səfirliyinin hərbi attaşesi Stoks da iştirak etmişlər .

Beləliklə, bir neçə aylıq fasilə ilə Tağızadə və Rəsulzadə İranı tərk etməli olurlar. 1909-1911-ci illər bu iki şəxsin hər birinin həyatında bir çox cəhətdən əhəmiyyətli olmaqla onların münasibətini ən əvvəl məsləkdaş, eyni əqidə və məqsəd yolunun mübarizləri kimi qiymətləndirməyə imkan verir. Həmin dövr Rəsulzadə ilə ünsiyyətdən Tağızadənin aldığı təəssürat haqda aşağıda danışılacaqdır. Rəsulzadə üçün isə bu dövr Tağızadə kimi artıq yetişmiş siyasətçi və dövlət xadimi ilə əməkdaşlıq və yaxın ünsiyyət onun dövlətçilik və parlamentarizm sahəsində gələcək fəaliyyəti üçün böyük təcrübə məktəbi olur.

S.H.Tağızadənin amalının İslama və şəriətə zidd, Məclis, ölkə və millətin işlərində iştirakının zərərli olduğunu əsas gətirərək onun Məclisdən və İrandan çıxarılması haqqında Nəcəf üləmalarının verdiyi fitvanın tələbini İran Məclisi tam yerinə yetirməyərək, ona üç aylıq məzuniyyət verməklə mandatdan məhrum etməsə də, Tağızadəyə vurulan “kafir” damğası onun vəziyyətinin xeyli çətinləşdirir. Təbrizə gəlib, dörd ay burada qalan S.H.Tağızadə «rusların ona qarşı intriqasından» ehtiyat edərək, Demokrat Partiyasının Azərbaycan təşkilatının qərarı ilə İranı tərk edir və İstanbula gedir [5, s. 119]. İrandan gizli surətdə Bakıya qayıdan M.Ə.Rəsulzadə də qısa müddətdən sonra təqib və həbs olunmaq təhlükəsi qarşısında İstanbula gəlir və burada yenidən Seyid Həsən Tağızadə ilə görüşür. Daha iki il davam edəcək İstanbul dövründə Tağızadə və Rəsulzadənin dostluğu istər gündəlik həyatın maddi çətinliklərindən, istərsə də artıq dəyişməkdə olan məslək və məqsəd müxtəlifliyinin sınağından çıxır. Rəsulzadənin ağır maddi sıxıntı içində olduğunu görən Tağızadə onu öz yanında yaşamağa dəvət edir və “fikirləşib dolanışıq üçün bir çarə axtaran” dostlar fars dili kursları təşkil etmək və bu yolla azacıq da olsa gəlir əldə edib dolanmaq qərarına gəlirlər. Həmin dövrü öz xatirələrində ətraflı təsvir edən Tağızadə özünün bir sıra Avropa ölkələrinə səfərlərindən sonra yenidən İstanbula qayıdaraq, Rəsulzadə ilə birgə yaşayışını belə təsvir edir: “Pul daşdan çıxırdı. Hətta iş o yerə çatdı ki, yeməyə quru çörək tapmırdıq. Fars dili dərsi deyirdik. Ayda əlimizə 1 lirə pul gəlirdi. Millətçi şəxslərdən yanımıza tez-tez gələnlər olurdu. Bizimlə dostluq edirdilər. Türklər almanların tərəfini tuturdu. Onların rəhbərləri Osmanlıya gəlmişdi. Türklərin komitəsi onlara azacıq da olsa maddi yardım edirdi. Bizimlə dostluq edənlər bu komitənin üzvləri idilər. Deyirdilər Avropadan olan liberallara kömək göstərirlər. Amma İrandan gələn liberallara yardım etmirdilər. Axırda qərara aldılar ki, bizə də bir şey versinlər. Bir iki ay azacıq da olsa bizə yardım etdilər. Boynumuzda haqları var. Sonra mən İstanbuldan çıxıb getdim. Rəsulzadə qaldı İstanbulda. Tədricən onlara tərəf meyl göstərirdi. Tamamilə türk tərəfdarı olmuşdu. Mən gedəndən sonra birdəfəlik dönüb türkpərəst oldu” [6, s. 90].

1913-cü ildə, İstanbulda Rəsulzadə ilə vidalaşarkən dostunun siyasi nəzərlərinin milli-demokratiyaya doğru dəyişdiyini hiss edən liberal, modernist Tağızadə yəqin ki, Məhəmməd Əminin tamamilə fərqli bir tarixi-siyasi-ictimai şərait və şərtlər daxilində yetişdiyini və bundan sonra da fəaliyyət göstərməli olacağını nəzərə almamış deyildi. Təsadüfi deyil ki, ayrı-ayrı vaxtlarda, o cümlədən istər ömrünün ahıl vaxtında yazdığı “Xatirələrində”, o, “fövqəladə dərəcədə ləyaqətli və qabiliyyətli adam” saydığı Rəsulzadə haqqında yalnız ən yüksək fikirlər söyləmişdir [2, s.6].

Tağızadə ilə Rəsulzadənin son görüşü 1922-ci ildə, Moskvada baş verir. Stalin tərəfindən Bakıda həbsdən azad edilərək Moskvaya gətirilən Rəsulzadə qəzetlərdən Tağızadənin İran nümayəndə heyəti tərkibində Moskvaya gəldiyini

və bir müddət burada qalacağını öyrənərək ona məktub yazır, görüşə bilib-bilməyəcəklərini soruşur. Tağızadə xatirələrində onu yanına dəvət etdiyini, bu görüşdən hər ikisinin son dərəcə məmnun qaldıqlarını, sonralar özünün də hərdən Rəsulzadə ilə Abbasqulu Kazımzadənin birgə qaldıqları evə getdiyini bildirir və qeyd edir ki: "Görüşümüzü təqib edib, izləsələr də bir şey demirdilər". Rəsulzadənin 1920-ci ildə Lahıcda tutulması və ondan sonra başına gələn əhvalatları təfsilatı ilə nəql etməsindən bəlli olur ki, Tağızadə ilə görüşlərində Rəsulzadə tam səmimi olmuş və onun simasında İranın ali mənsəbli dövlət xadimini deyil, yaxın dostunu görmüşdür. Rəsulzadənin Peterburqa getməsi, ordan Finlyandiyaya, Amaniyaya, daha sonra Türkiyəyə keçməsi, Məhəmmədəli Tərbiyətlə dostluq etməsi, Stalinə məktub yazması və s. kimi təfərrüatlar, eləcə də İstanbulda "türklərlə yaxın olduğuna görə iranlılar onunla çox da yaxınlıq etmirdilər" kimi ifadələr Tağızadənin Məhəmməd Əminin mühacir həyatından yaxşı xəbərdar olduğunu göstərir. Dostunun evlənmək xəbərini eşidən Məhəmməd Əminin Tağızadəyə təbrik məktubu göndərməsi, "iranlıların onu saya salmamaqları, irad tutduqlarını" vurğulayaraq "görəsən sənə "Əziz dostum" deyib müraciət edə bilərəmmi?" soruşması "iranlı" - "türk" qarşıdurmasının hələ də özünü "iranlı" bilən İran türkləri üçün həssas məsələ olduğunu göstərir. Rəsulzadənin bu sətiraltı mənalı sualına Tağızadənin verdiyi cavab bütün şübhələri aradan qaldırır: "Əziz dostumsan. Istər babi olsun, istər müsəlman, ya kommunist, ya da millətçi, dostluq qəlbi bağlılıqdır, siyasət dünyəvi bağlılıqdır. Çox təsir elədi" [6, s. 91].

Burada bir haşiyə çıxaq ki, iranlılar tərəfindən Rəsulzadəyə qarşı bu "saymazyanalıq" heç də ümumi hal deyildi. Hələ Məhəmməd Əminin sağlığında, 1947-ci ildə İran tarixçisi Əbdülhüseyn Nəvai M.Ə.Rəsulzadənin həyatını, xüsusilə İrandakı fəaliyyətinin tədqiq etməyə başlamış və Rəsulzadənin yaxın dostu olmuş tanınmış inqilabçı Heydər Xan Əmioğlunun bioqrafiyası ilə birlikdə İranda "Yadigar" jurnalında dərc etmişdi. Rəsulzadəni "Şərqin mütəfəkkir şəxslərindən" adlandıran müəllif onu İranın inqilab tarixində xüsusi rolu olan, iranlıları məşrutiyyət ideyaları ilə tanış edən və iranlıların oyanışına səbəb olan Qafqaz müsəlmanlarından biri kimi yüksək qiymətləndirmişdir [12 s. 9-58].

1955-ci ildə Hindistana səfəri zamanı M.Ə.Rəsulzadənin vəfatı xəbərini alan S.H.Tağızadə də bu xəbərdən bərk sarsılmış və onun haqqında İranda "Suhən" (Söz) qəzetində "Hadisələrlə dolu bir həyatın sonu" adlı məqalə yazaraq, Rəsulzadəni belə yad etmişdir: "O rəhmətliklə bu cənabın (yəni Tağızadənin) arasındakı dostluğun səmimiyyəti, saflığı o qədər fövqəladə idi ki, bu hadisəyə münasibət bildirərkən hislərimi cilovlamağa çalışsam, yenə də qorxuram mənim fikirlərim mübaliğəsiz qarşılanmasın. Rəsulzadə adlı-sanlı şəxsiyyətlərdən idi. Əgər desəm ki, mən bütün ömrüm boyu Şərq dünyasında onun bənzərini görməmişəm, bilin ki, bu fikrimdə heç bir mübaliğə etməmişəm.

O, dünyada baş verən hadisələrdən xəbərdar, qələminin kəsəri olan bir şəxs idi. Onun imanının qüvvəti, bəyanının qüdrəti heyrətamiz idi. Mən onu tanıdığım üçün özümü xoşbəxt sanıram. Mənimlə onun arasındakı əlaqə bir dostluqdan daha yuxarıda dururdu. Mən onun əxlaqına, tərbiyəsinə məftun olmuşdum. Belə bir şəxsiyyəti olan millət xoşbəxtdir. O, rəhbər üçün bütün səciyyələrə sahib kamil bir lider idi. O, öz ardıcıllarını ruhlandırır, inamlı olmağa çağırırdı. Mən onun siyasi fəaliyyətinin bir hissəsinin İranda və İran üçün olduğuna görə çox razıyam. O, ömrünün sonuna kimi İrana olan bağlılıq və sevgisini əldən vermədi. O, mənim qədim vəfalı dostum idi. Bu cür dostun yoxluğundan qəlbimi necə kədər bürüdüyünü dillə deyə bilmərəm...” [2, s.6; 8, s.14].

XX əsrin əvvəllərində eyni etnik kökə malik, oxşar uşaqlıq və gənclik dövrü yaşamış, eyni niyyət və məqsədlə mübarizə meydanına qədəm qoymuş bu iki görkəmli şəxsiyyətin sonrakı siyasi yolları bir çox səbəblərdən ayrılmışdır. Tağızadə mənsub olduğu xalqın azadlıq və səadət yolunu modern İran dövlətçiliyində görmüş və bütün həyatını bu məslək uğrunda mübarizəyə həsr etmişdir. Rəsulzadə milli Azərbaycan dövlətçiliyi yolunu seçmiş və bütün həyatını bu məslək uğrunda mübarizəyə həsr etmişdir. Seçdikləri və keçdikləri mübarizə yolunda onların hər biri ən yüksək mənsəblərə çatmış, Rəsulzadə 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri, Tağızadə isə İran Senatının sədri olmuşlar. Lakin dəyişkən tale onların bu siyasi seçimlərini bir daha imtahana çəkmiş, hər ikisini sürgün və mühacirətlə yanaşı, siyasi xadim üçün ən ağır cəzaya – Vətənində “unudulmuş” ömrü yaşamağa məhkum etmiş, ilk nəzərdə Tağızadəyə qarşı daha mülayim görünsə, siyasi qələbəni Rəsulzadəyə vermişdir.

92 il ömür sürmüş Tağızadə öz ölkəsinin qanunvericilik orqanlarında və hökumət kabinələrində ən yüksək vəzifələr tutmasına baxmayaraq, onun ömrünü sərf etdiyi Modernləşmə nəzəriyyəsi və proqramı İran cəmiyyətində reallaşmamış, 1979-cü ildə İranda hakimiyyətə gələn dini-ruhani rejim isə bir daha S.H.Tağızadəni Qərbə satılmaqda ittiham edərək, onun adını ölkədə yasaq etmişdir. Bu yasaq indi də qalmaqdadır.

70 il müddətində Sovet rejimi də Məhəmməd Əmin Rəsulzadənin bir kərə qaldırdığı bayrağı ilə birgə adını da onun xalqının hafizəsindən və tarixindən silmək cəhdi etmiş, Sovet azərbaycanlıları üçün tamam başqa bir ideologiya və şərtlər əsasında dövlət qurmuşdur. Lakin son nəticədə Rəsulzadəyə nisbətdə tarixi ədalət bərpa olunmuş, Tağızadənin hələ 1955-ci ildə, “Əziz dostu” ilə vida məktubunda yazdığı: “O, Azərbaycanın peyğəmbəri idi. Yüz il sonra da Məhəmməd Əmin Rəsulzadə Sovet Azərbaycanı üçün Qandi kimi birisi olaraq qalacaqdır” sözləri həqiqət olmuşdur. Neçə onilliklərdən sonra Məhəmməd Əmin Rəsulzadənin adı, zəngin irsi və xatirəsi bir daha üçrəngli bayrağı qaldıran Vətəninə qayıtdı.

## ƏDƏBİYYAT


1. Rəsulzadə M. Ə. Əsərləri, I cild. - Bakı: Azərnəşr, 1992. - 470s.
2. “Sohən” jurnalı, Tehran, 1955-ci il, № 4 , səh.6.
3. Yaqublu N.Q. Məmməd Əmin Rəsulzadə. - Bakı: Gənclik, 1991. - 308 s.
4. Иванов М.С. Иранская революция 1905-1911 годов. - Москва: Издательство ИМО, 1957. - 560 с.

5. تاریخ تهاجم فرهنگی غرب، نقش روشنفکران وابسته (4). سید حسن تقی زاده، تهران، موسسه فرهنگی قدری ولایت، 1377، 236 ص.، با عکس، فوتو، نمونه.

6. [تقی زاده س.ح.] زندگی طوفانی، خاطرات سید حسن تقی زاده، به کوشش ایرج افشار، چاپ اول، تهران، انتشارات محمد علی اعلمی، نشر 1368، 421 ص.

7. تقی زاده س.ح. مسایل روز: بعضی از علل ترقی و انحطاط ایران چیست و هست، // «یادگار»؛ مجله. 1949/1328، شماره 50، ص. 1-13

8. جمالزاده س.م.ا. تقیزاده با قلم جمالزاده، // «راهنمایه کتاب»، تهران، 1349، شماره سه-چهار

9. رحیم رییس نیا، محمد امین رسولزاده، «گزارشهای از انقلاب مشروطیت ایران»، تهران، شپهر نقش، 1377، 360 ص.

10. مجتهدی، مهدی. رجال آذربایجان در عصر مشروطیت، تهران، زرین، 1379، 636 ص.

11. ایرج افشار. اوراق تازه یاب مشروطیت و نقش تقی زاده، تهران، جاویدان، 1359، 670 ص.

12. «یادگار»؛ مجله 1334 /1955، شماره 1،2 ، ص. 9-58

**UOT 159.922.62**

# GƏNCLƏRİN DAVRANIŞINI SƏCİYYƏLƏNDİRƏN PSİXOLOJİ XÜSUSİYYƏTLƏR

***Q.Q.Əzizov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*azizov.qulam@gmail.com*

***Açar sözlər:*** *davranış mədəniyyəti, nəzakətlilik, təvəzökarlıq, sadəlik və təvəzökarlıq, lovğalıq, təkəbbürlülük, özünütərbiyə*

Məqalədə müasir gənclərin davranış mədəniyyətini səciyyələndirən nəzakətlilik, sadəlik, təvazökarlıq, alicənablıq kimi anlayışlar araşdırılır. Daha sonra burada insanların rəftarında rast gəlinən lövğalıq, təkəbbürlülük, öz fikrini başqalarına aşılamaq kimi anlayışlar tədqiq olunur.

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ, ХАРАКТЕРИЗУЮЩИЕ ПОВЕДЕНИЕ МОЛОДЁЖИ

***Г.Г.Азизов***

***Ключевые слова:*** *культура поведения, вежливость, чванливость, гонор, скромность и простота, самовоспитание*

В статье рассматриваются такие понятия, как вежливость, скромность, великодушие, простота, характеризующие культуру поведения современной молодежи. Далее в ней описываются понятия хвастливость, надменность, навязывание своей мысли другим, встречающиеся в поведении людей.

# PSYCHOLOGICAL FEATURES CHARACTERIZING THE BEHAVIOR OF THE YOUTH

***Q.Q.Azizov***

***Keywords:*** *behavior education, politeness, modesty, homility and modesty, arrogance, boastfulness, self-nurturing*

Valuable features which characterize behavior education such as politeness, humility and modesty are described in the article. Also, impolite, arrogant, boastful people and their behavior and demeanor are mentioned.

Davranış şəxsiyyətin bütün mənəviyyatını təşkil edən iş və hərəkətlərinin, ictimai-əxlaqi rəftarının ümumi məcmusudur. Davranış mədəniyyəti ictimai həyatın bütün sahələrində insanların davranışını və rəftarını tənzim edir, qarşılıqlı münasibətlərin ən mühüm əsaslarını müəyyən edir. Davranış mədəniyyətinin mahiyyəti haqqında fikirlər müxtəlif və rəngarəngdir. İlk baxışdan davranış mədəniyyətinin mahiyyəti asan, hamıya tanış görünsə də, bu əslində belə deyil. Problem fəlsəfi, psixoloji, pedaqoji, sosioloji, linqivistik, ekoloji və s. baxımdan konkret araşdırmalar tələb edir.

İnsanın mədəni davranışının əsas əlamətlərindən biri nəsakətlilikdir. Nəzakətlilik mədəni davranışın ayrılmaz hissəsi olub başqa adamlara hörmət göstərməkdə, qayğılı münasibət bəsləməkdə ifadə olunur. Nəzakətli adam hər yerdə və hamı ilə nəzakətli olmalıdır. Bəzən gənclər nəzakətliliyi qorxaqlıq və yaltaqlıqla qarışdırırlar. Başqalarına hörmət edən, onlara həssaslıq göstərən adamlara bəzən yaltaq və qorxaq adam kimi qiymət verirlər. Həqiqətən bəzi yaltaq və qorxaq adamlar ancaq yaltaqlıq və qorxaqlıq üzündən hörmət edir, özünü nəzakətli göstərirlər. Əgər insan başqasının vəzifəsindən, ona tabe olub-olmamasından asılı olmayaraq hər yerdə və hər zaman ona hörmət edib qayğıkeşlik göstərirsə, bu əsl nəzakətlilikdir.

Nəzakətli adam başqalarına böyük hörmət, qayğı göstərməklə bərabər, öz mənliyini, ləyaqətini alçatmamalı, nəzakətliliyi yaltaqlıqla, qorxaqlıqla qarışdırmamalıdır. Şərq mütəfəkkirlərdən olan Cəlaləddin Rumi ikiüzlü, yaltaq, qorxaq, vəzifə hərisli, cildini tez-tez dəyişdirən adamlara çox haqlı olaraq belə demişdir. “Ya olduğun kimi görün, ya da göründüyün kimi ol”. Mədəni, nəzakətli, mənəvi cəhətdən saf olan adam dostluqda, yoldaşlıqda möhkəm olmalı, onun xoş günündə də, pis günündə də yanında olmalıdır [1].

Nəzakətlilik insandan öz hərəkət və rəftarını idarə edə bilməyi də tələb edir. Başqalarının işlədiyi otaqda, istirahət etdiyi yerdə ucadan danışmaq, gülmək, mahnı oxumaq, səs salmaq nəzakətsizlik əlamətidir. Çünki, bu bizim başqa adamlara hörmət etmədiyimizi göstərir. Nəzakətsizlik yalnız hərəkətdə

deyil, insanın danışığında, nitqində də təzahür edir. İnsanlar bir-birilə nitq vasitəsilə ünsiyyət saxlayır, fikirlərini, hisslərini bir-birlərinə danışıq vasitəsilə çatdırır və bir-birlərinə münasibətlərini, bir çox hallarda, nitqlə ifadə edirlər.

Mədəni davranış və adətlər ən çox ailədə formalaşır. Gənc hələ kiçik yaşlardan valideynlərlə münasibətində ən xırda davranış qaydalarına əməl etməli və onları adət halına salmalıdır. Gənclərin mədəni davranışların qeydinə qalan hər bir ailə üzvü ailədə bu münasibətlərə xüsusi diqqət yetirməlidir. Yeməkdə də, danışıqda da, qonaq qəbul edən zamanda da ən sadə etiket qaydaları gözlənilməlidir. Qonaq qəbul etmək, onu yola salmaq nəzakət tələb edir. Ev sahibi qonağı qapıda gülərüzlə qarşılamalı və özü də onu yola salmalıdır. Qonaq ev sahibinin göstərdiyi yerdə əyləşməlidir. Çağrılan qonaqlığa, görüşə gecikmək, vaxtında gəlməmək bağışlanılmazdır. Bu kimi mənfi adətlərdən gənclər uzaq olmalıdırlar [2].

Gənclərin mənəvi, psixoloji simasını, əxlaqi düşüncəsini, cəmiyyətə, xalqa, millətə hörməti və ehtiramı ifadə edən sadə əxlaq normalarından biri də sadəlik və təvəzökarlıqdır. Bu sadə əxlaq normalarının insan həyatında çox böyük rolu vardır. Bütün əxlaq kodekslərində təqdir olunan sadəlik və təvəzökarlıq insanın ən gözəl keyfiyyətidir. Müasir gənclərin mənəvi təkamülündə, onun bir şəxsiyyət kimi formalaşmasında sadəlik və təvəzökarlığın böyük əhəmiyyəti vardır. Sadə və təvəzökar insanlar xalq arasında, ailədə, cəmiyyətdə həmişə sevilirlər. Əksinə lovğa, təkəbbürlü, dikbaş, eqoist adamlar həmişə qınaq obyekti olurlar.

Gənclər o zaman sadə və təvəzökar olurlar ki, onlar özlərini, ləyaqət və mənliklərini düzgün dərk etsinlər. A.A.Bakıxanov sadəlik və təvəzökarlıqdan bəhs edərək yazırdı: "Ağıllı adam odur ki, öz eybini başqalarının eybindən artıq görə və öz hünərini başqalarının hünərindən az hesab edə". Onun fikrincə insan öz nöqsan və acizliyinin həqiqətini bildikdə, qürur və təvəzökarlığından vaz keçər və özgələrinin eyib və nöqsanları onun nəzərində böyük görünməz [3].

Bütün əxlaq kodekslərində sadəlik və təvəzökarlıq insanın ən gözəl keyfiyyətləri kimi qiymətləndirilib. Sadəlik və təvəzökarlıq şəxsiyyətin strukturunda oturuşmuş bir kateqoriyadır, insanın mənəvi zənginliyindən xəbər verən bir fenomendir. İnsanda elə şəxsi keyfiyyətlər var ki, onlar minilliklərdən süzülərək soydan, nəsildən irəli gəlir. "Ot kökü üstə bitər", "Boş sünbül başını dik tutar", "Təkəbbürlü adamı heç kəs tərifləməz", "Nəsli olmayanın əsli olmaz" və s. atalar sözləri bunu bir daha təsdiq edir.

Sadə və təvəzökar adamlar yenilik hissinə, ətrafda baş verən hadisələri təmkinlə təhlil etmək, onlardan düzgün nəticə çıxarmaq qabiliyyətinə malikdirlər. Onlar, sadə və təvəzökar olduqları üçün hamı onları sevir, fikirlərinə hörmətlə yanaşır və onları qəbul edir. Sadə və təvəzökar insanlar başqalarının müvəffəqiyyətinə sevinir və fəxr edirlər. Belə adamlar ədalətli

olurlar, baş verən hadisələrin təhlilinə soyuqqanlılıqla yanaşır və çalışırlar ki, hadisələr ədalətli başa çatsın. Lovğa, dikbaş, təkəbbürlü insanlar isə sanki ətrafda baş verənləri heç görmür, ətrafdakılara yuxarıdan aşağı nəzərlərlə baxır, onları "qabiliyyətsiz", "bacarıqsız" sayır. Belə adamlar cəmiyyət üçün çox təhlükəlidir.

Təvazökarlıq alicənablıq deməkdir və bu xüsusiyyətə sahib olan adama təvəzökar insan deyirlər. Alicənab adam başqasının xoşuna gələn bütün davranışlardan ehtiyyatlanaraq, onun qarşısında öz mənliyini qorumaq şərti ilə müəyyən güzəştə gedir. Təvazökarlıq insanın öz qüvvəsini düzgün qiymətləndirməsində, onu şişirtməməsində, başqasına xor baxmamasında ifadə olunur. Təvazökar adam heç zaman özü haqqında yüksək fikirdə olmaz, başqalarına da heç zaman aşağı nəzərlə baxmaz. Təvazökar adam öz rütbə və vəzifəsini, məşhur adam olduğunu, öz xidmət və müvəffəqiyyətini heç zaman qabarıq şəkildə biruzə verməz. Bu heç də o demək deyildir ki, təvazökar adam öz nailiyyətlərini sir kimi saxlamalıdır. Əksinə, onlardan bəhs etmək lazım gəldikdə, öz müvəffəqiyyətini kollektivin müvəffəqiyyəti fonunda təsvir etməlidir.

Bəzən bir çox hallarda nəzakətli, təvazökar adamı gülməyən, danışmayan, zarafat etməyən, soyuq ciddiliyə meyl edən, hər şeyə soyuq yanaşan adam kimi təsəvvür edirlər. Bu, əlbəttə, belə deyildir. Təvazökar adam çox gümrah, ürəyi açıq, xoş hal, yeri gəldikdə gülməyə, zarafat etməyə, əylənməyə meyil edən, həm də bunları ləyaqətlə bacaran adamdır. Bununla bərabər təvazökar adam şit zarafata, insanı gülünc vəziyyətə salan hərəkətlərə qarşı amansız olur.

Mədəni davranış zahiri görkəmdə də əks olunur. Geyimdə səliqəlilik, təmizkarlıq, hərəkətlərdə zəriflik davranışın zahiri cəhətləri olub, ona gözəllik verir. İnsanın həyatında zahiri görkəmin böyük əhəmiyyəti vardır. Çirkli, səliqəsiz bir adamın öz rəftar və hərəkətinə diqqət verə bilməsini təsəvvür etmək çətindir. Səliqəli və təmiz paltar insanın hərəkətlərinin də zərifliyinə, onun rəftarının zərif olmasına, insanda yaxşı əhval-ruhiyyənin yaranmasına səbəb olur. Bunun üçün gənclər mədəni davranışın nədən ibarət olduğunu və necə ifadə olunduğunu bilməli, öz hərəkətlərində həmin sifətləri müstəsnasız ifadə etməlidir.

Mədəni rəftar və davranışı adət şəklinə salmaq çox əhəmiyyətlidir. Adətlər insanların gündəlik həyatında çox böyük rol oynayır. Müəyyən mədəni davranışı adət şəklinə salmaqdan ötrü hər bir gənc onu dəfələrlə yerinə yetirməli, bu məsələdə özünə heç bir güzəşt etməməlidir. Bu, adamdan qətiyyət və iradə tələb edir. Çünki bu zaman özünə qalib gəlmək, çətinliyə, əziyyətə qatlaşmaq lazım gəlir. Bunsuz mədəni vərdişlər əldə etmək mümkün deyildir.

Müasir gənclərdə mədəni davranış və adətlərin formalaşmasına təsir edən etnososial, psixososial amilləri aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Ailə, bağça, təhsil müəssisələri.

2. Valideynlərin nümunəsi.
3. İnsanların hərəkət və davranışlarındakı müsbət hallara rəğbət hissi.
4. Asosial davranışların sonunda səmimi peşimançılıq.
5. Gəncliyə xas olan mədəni davranış və adətləri əməli olaraq ifadə etmək.
6. Ata-ananın, qohumların, bacı və qardaşların onu sevdiyinə inanması [4].

Mədəni davranışın inkişafı və tərbiyəsində əsas məsələlərdən biri də gənclərin bu işdə çalışması, mədəni davranış vərdişlərinin hamıda adət halına keçməsi üçün bütün qüvvələrini sərf etməsindən asılıdır. Bunun üçün belə bir şərait yaratmaq lazımdır ki, əxlaq normalarını, mədəni davranış qaydalarını pozan adamlar öz hərəkətlərinin bütün cəmiyyət tərəfindən pisləndiyini hiss etsinlər [5]. Yüksək mədəni davranış tərbiyəsində nəzarətlə yanaşı insanın öz nöqsanlarını bilməsi və habelə başqa adamlara öz nöqsanlarını aşkara çıxarmaqda kömək etməsi lazımdır. Bu isə tənqid və özünütənqidin geniş tətbiqi sayəsində mümkündür. Gənc yaşlarda mədəni davranış tərbiyəsində gəncin özünütərbiyəsi çox mühüm rol oynayır. Özünütərbiyədə əsas şərt insanın öz nöqsanlarını aşkar etməsi və bu nöqsanları özünə aydınlaşdırmasıdır. İnsanın öz davranışındakı mənfi adətlərlə mübarizə etməsi asan iş deyildir, amma mümkün olan işdir. Bunun üçün insan özünə sahib olmalı, öz hisslərini cilovlamağı bacarmalıdır. Mədəni davranış gənclərin ictimai-sosial həyatının bütün sahələrini əhatə etməlidir.

## ƏDƏBİYYAT

1. *Bayramov Ə.S.* Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri. Bakı: 1985.
2. *Bayramov Ə.S.* Psixoloji düşüncələr. Bakı: 1994.
3. *Bakıxanov A.A.*Seçilmiş əsərləri. Bakı: 1984.
4. *Makarenko A.S.* Seçilmiş pedoqoji əsərləri. 1 və 2-ci cild. Bakı: 1983.
5. *Qədirov Ə.Ə.* Mədəni davranış və onun tərbiyəsi. Bakı: 1970.

**UOT 94 (479.24)**

# XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-DƏ İCTİMAİ –SİYASİ HƏYATA TƏSİR GÖSTƏRƏN ETNO-DEMOQRAFİK PROSESLƏR

***V.K.Şükürov***
*ADPU-nun dissertantı*
*vaqif.01.11.74@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan, etnik tərkib, əhali, miqrasiya, milli azlıq, urbanizasiya*

II Dünya Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də əhali sayının artımı ləng gedirdi. 1947-ci ildən etibarən respublika əhalidə say artımı müşahidə olunmağa başlamış və yalnız 10 il sonra müharibədən əvvəki səviyəyə çatmışdır**.** İctimai siaysi vəziyyyətə təsir göstərən faktlardan biri olan urbanizasiya məsələləri müharibədən sonra respublikada azərbaycanlı əhalinin o cümlədən də şəhərlərdə etnik azərbaycanlıların say artımına xeyli təsir göstətərmiş oldu. XX əsrin 50-60- cı illərində böyük şəhərlədə xüsusən də Bakı şəhərinin etnik tərkibinin Azərbaycan türklərinin xeyrinə dəyişməsinə ciddi təsir göstərmiş oldu.

## ВЛИЯНИЕ ЭТНО-ДЕМОГРАФИЧЕСКИЙ ПРОЦЕССЫ НА ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ЖИЗНЬ АЗЕРБАЙДЖАНСКОЙ ССР В 50-60- ГОДЫ XX- ВЕКА

***В.К.Шукуров***

***Ключевые слова***: *Азербайджан, этнический состав, население, миграция, национальное меньшинство, урбанизация*

В первые годы после Второй Мировой Войы в Азербайджанской ССР рост численности населения шел медленно. С 1947 года наблюдается рост численности населения республики и только спустя 10 лет был достигнут довоенный уровень. Одним из факторов, влияющих на общественно-политическую ситуацию после войны, вопросы урбанизации оказала значительное влияние на рост численности азербайджанского населения в

республике и том числе этнических азербайджанцев в городах. В 50-60 гг. XX века в крупных городах, в частности Баку, оказала серьезное влияние на изменение этнического состава в пользу азербайджанских тюрков.

## IN THE 50-60 YEARS OF THE TWENTIETH CENTURY, ETHNO-DEMOGRAPHIC PROCESSES THAT AFFECTED THE SOCIO-POLITICAL LIFE AT AZERBAIJAN SSR

***V.K. Shukurov***

***Keywords:*** *Azerbaijan, ethnic composition, population, migration, national minority, urbanization*

In the early years after World War II the growth of population was going slowly at Azerbaijan SSR. Since 1947 observation of growth of population had been started, and only after 10 years it reached the level before war. After the war, urbanization issues which is one of the factors influencing the social and political situation has significantly influenced the growth of Azerbaijani population in Republic as well as ethnic Azerbaijanis in the cities. In the 50-60 years of the twentieth century, it had been seriously affected the change of ethnic composition in favor of Azerbaijani Turks in big cities, especially in Baku.

II Dünya Müharibəsi bir çox xalqların üzərindən qara bulud kimi keçdi. Ərazisi hərbi əməliyyatlar meydanına çevrilməyən Azərbaycan xalqı müharibədə yaxından iştirak etdi. Həm iqtisadi, həm də insan resusları müharibədə təmsil olundu, və çox böyük itkilərə məruz qaldı. “1941-1945 ci illərdə respublikanın 600 mindən çox oğlan qızı cəbhəyə getmişdi .400 mindən çox azərbaycanlı geri qayıtmamışdır”[14, səh 150-151]. Xatırladaq ki bu siyahıya **müharibədə** həlak olanlarla yanaşı müxtəlif səbəblərdən vətənə dönməyənlər də daxildir. Bu isə məhsuldar qüvvələrin inkişaf ahənginin pozulmasına səbəb olmuşdur.

**Demoqrafik vəziyyət**. Azərbaycan əhalisi “Müharibədən əvvəl 1940- cı il üçün 3.274 min adam 1945 ci il üçün bu rəqəm 2.705 min” [11,səh 13] nəfər olmuşdur. “Müharibə dövründə Azərbaycan əhalisinin sayı 780 min nəfər və ya 23,1% azalmışdır. Xatırladaq ki, Sovet Ordusuna səfərbər edilənlərin sayı 600-650 min nəfər olmuşdur. Onların da 275 min nəfəri müharibədə həlak olmuşdur. Beləliklə, müharibə dövründə mülki əhali itkisi ... çox olmuşdur. Kəndlərdə əhaliyə ərzaq kartları verilmirdi, üstəlik onlar demək olar ki, ərzaq əldə edə biləcəyi təsərrüfat mənbələrindən də məhrum edilmişdi. ... o illərdə,

xüsusilə 1944-cü ildə ölənlərin sayı o qədər çox idi ki, onları dəfn etmək bir problemə çevrilmişdi. Belə ki, meyitləri qəbiristanlığa qədər daşımağa taqəti olan adam tapılmırdı və bu cür hallarda meyitlər öz həyətlərində və ya yaxın ərazilərdə dəfn edilirdi”[11, səh 13].

Görkəmli alim professor E.İsmayılov öz tədqiqat əsərində əhalinin sayının bu dərəcədə azalmasının hərbi əməlyyatların getmədiyi ölkə üçün böyük rəqəm hesab edir və bunu aşağıdakı səbəblərlə izah edir. “**I-si** cəbhədəki itkilər. **II-si** təbii artımın aşağı düşməsi. **III-sü** gənclərin kütləvi səfərbərliyə alınması. **IV-sü** əhali arasında iqtisadi çətinliklər səbəbindən təbii ölüm hallarının artımı ilə əlaqələndirmişdir”[8]. Daha bir **V** səbəb kimi ölkədə iqtisadi çətinliklərlə ələqadar olaraq əhalinin qonşu respublikalara miqrasiyasını da qeyd etmək olar.

Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də əhali sayının artımı ləng gedirdi. 1947 ci ildən etibarən respublika əhalisində say artımı müşahidə olunmağa başlamış və yalnız 10 il sonra müharibədən əvvəlki səviyyəyə çatmışdır. Belə ki “1950-ci ildə respublikada 2859 min nəfər yaşayırdı, bu da 1940-cı ildəkindən 415 min nəfər az idi.” [4, səh 94- 95]

“1950-1955-ci illər ərzində Azərbaycanın əhalisi kifayət qədər yüksək templərlə artmışdır. Bu artımda Rusiyadan Azərbaycana miqrasiyanın davam etməsi də az rol oynamamışdır. Bütövlükdə bu dövrdə əhalinin sayı 20%-dən çox artmışdır. 1950-1955-ci illərdə isə artım 14,6% təşkil etmiş və orta illik artım 83,7 min nəfər və ya 2,8% olmuşdur. [11, səh 34 ]

Sonrakı “... 15 ili əhatə edən bu dövrdə əhalinin sayı 56,1% artaraq 1955-ci ildəki 3277,2 min nəfərdən, 1970-ci ildə 5.117,1 min nəfərə çatmışdır. Orta illik artım 122,7 min nəfər və ya 3%-dən bir qədər yüksək olmuşdur. Bu dövrdə əhalinin sayının dinamikasında miqrasiya proseslərinin heç bir rolu olmamış, əhali təbii artım hesabına yüksək templərlə artmışdır. Xüsusilə 1959-1962-ci illərdə əhalinin sayı çox yüksək templərlə artmışdır: orta illik artım 3,7%-ə bərabər olmuşdur. Azərbaycan tarixində ən yüksək əhali artımı isə 1960-cı ildə qeydə alınmışdır-4,1%. Həmin illərdə əhalinin təbii artım templərinə görə Azərbaycan nəinki SSRİ-nin digər müttəfiq respublikaları ilə müqayisədə, hətta bütün dünyada birinci olmuşdur. [11,səh 35] “1966-cı ilin axırlarında təxmini hesablamalara görə respublika əhalisi 4 mlyon 802 min nəfər olmuşdur” [3, səh 60]. Bu dövrdə Azərbaycanda demoqrafik sıçrayışa səbəb olan başlıca amil SSRİ-nin iqtisadiyyatında, müsbət dəyişikliklərin baş verməsi idi. Belə ki, bu dövr stabil yüksək iqtisadi və texnoloji inkişafın və ictimai həyatın bütün sahələrində böyük irəliləyişlərin baş verməsi ilə fərqlənirdi.

**Cədvəl 1[6 səh. 124, 11 səh. 13].**

| illər | əhalinin sayı (min nəfərlə) | | | bütün əhaliyə nisbətən %-lə | |
|---|---|---|---|---|---|
| | bütün | şəhər | kənd | şəhər | kənd |
| 1939 | 3.205,2 | 1.156,8 | 2.048,4 | 36,1 | 63,9 |
| 1940 | 3.274,0 | 1.212,0 | 2.062,0 | 37,0 | 63,0 |
| 1945 | 2.705,6 | 1.118,5 | 1.587,1 | 41,3 | 58,7 |
| 1950 | 2.858,9 | 1.252,3 | 1.606,6 | 43,8 | 56,2 |
| 1954 | 3.192,0 | 1.537,0 | 1.655,0 | 48,2 | 51,8 |
| 1955 | 3.277,2 | 1.584,6 | 1.692,6 | 48,4 | 51,6 |
| 1959 | 3.697,7 | 1.767,3 | 1.930,4 | 47,8 | 52,2 |
| 1960 | 3.815,7 | 1.835,2 | 1.980,5 | 48,1 | 51,9 |
| 1965 | 4.509,5 | 2.238,8 | 2.270,7 | 49,6 | 50,4 |
| 1970 | 5.117,1 | 2.564,6 | 2.552,5 | 50,1 | 49,9 |

XX əsrin 50-60-cı illərində Azərbaycan SSR əhalisi ictimai quruluşca sosialist cəmiyyəti adlanan totalitar cəmiyyətin əsas sosial təbəqəsi olan fəhlə və kolxozçulardan və onların içərisindən çıxmış ziyalı təbəqədən olan zəhmətkeş xalq kütlələrindən ibarət idi.

Əhalinin tərkibindəki sosial dəyişikliklərin mühüm meyillərindən biri şəhər əhalisinin sürətlə artımı olmuşdu. 1950-ci ildə əhalinin 44, 1970-ci ildə isə artıq 50 faizi şəhərlərdə məskunlaşmışdı. Buna səbəb şəhərlərin sürətlə inkişaf etməsi, habelə kolxozçulara pasport verilməsi idi.

Bəhs olunan dövrdə əhalinin sosial tərkibi fəhlə sinfinin xeyrinə durmadan dəyişirdi. Bu, ilk növbədə sənayenin inkişafı ilə əlaqədar şəhərdə işçi qüvvəsinin artması ilə bağlı idisə, digər tərəfdən də 50-60-cı illərdə kənddə həyat şəraitinin çətinləşməsi ilə əlaqədar idi. Hələ 1932-ci ildə tətbiq olunan pasport qeydiyyat sisteminə görə kəndliyə pasport verilməməsi nəticəsində sözün əsl mənasında kəndli torpağa təhkim olunmuş vəziyyətdə idi. Kənddə xeyli miqdarda, xüsusən də gənclərdən ibarət olan işsizlər ordusu yaranmışdı. Kənd təsərrüfatı kolxoz və sovxoz sisteminin mövcudluğu, şəxsi yardımçı təsərrüfatların sıxışdırılması ilə kəndlinin əlindən təşəbbüskarlığın alınması, kəndlini yuxarıların verdiyi plan və tapşırıqları yerinə yetirməyə mükəlləf edən bir təbəqəyə çevirmişdir. Bunun nəticəsi olaraq kəndli təbəqəsinin, xüsusən də gənclərin əməyə marağı azalatmış, onlarda daha asan qazanc mənbəyi axtarmaq, daha rahat həyat tərzi arzusu oyatmışdı. 1959-cu ildə "təhkimçiliyin" ləğvi kütləvi şəkildə kəndli gənclərin şəhərə axışmasına və beləliklə fəhlə sinifinin sıralarının artmasına səbəb olmuşdur.

**Cədvəl 2 [6, səh 189].**

| | 1939 | | 1959 | | 1970 | |
|---|---|---|---|---|---|---|
| | Mütləq | % | Mütləq | % | Mütləq | % |
| Bütün məşğul əhali | 1314694 | 100 | 1528502 | 100 | 1774737 | 100 |
| Fəhlələr | 329988 | 25,1 | 538033 | 35.2 | 931737 | 52.5 |
| Quluqçular | 218239 | 16.6 | 340855 | 22.3 | 404640 | 22.8 |
| Kənd təsərüfatı ilə məşğul olnanlar | 712564 | 54.2 | 640085 | 42.4 | 434311 | 24.5 |
| Tək təsərüfatçı koprativləşmiş kustarlar | 53902 | 4.1 | 1528 | 0.1 | 35950 | 0.2 |

**Cədvəl 3 [6, səh.190- 198].**

| | 1939 | | 1959 | | 1970 | |
|---|---|---|---|---|---|---|
| | Mütləq | % | Mütləq | % | Mütləq | % |
| Zehni əməklə məşğul olanlar (min nəfərlə) | 196739 | 100 | 278248 | 100 | 479303 | 100 |
| onaldan | | | | | | |
| Nomenklatura bürokratiya (məmur) təbəqəsi | 22047 | 8.1 | 22185 | 8.97 | 36151 | 7.55 |
| Elm, təhsil, səhiyyə, incəsənət mədəni-marif və hüquq sahəsi üzrə mütəəxsislər | 52001 | 26.4 | 103691 | 37.27 | 183573 | 38.3 |
| Mühəndislər, texniki işçilər, kənd təsərrüfatı mütəxəssisləri ticari-iaşə, dəftəxana işçiləri və başqaları | 122661 | 62,4 | 152372 | 54.76 | 259574 | 54.25 |

1959-cu ildə Azərbaycan əhalisi 3.36977 nəfər idi. Bunlardan 1767.3 nəfər şəhərlərdə, 1.9304 nəfər isə kənddə, yəni müvafiq olaraq əhalinin 47,8% şəhərlərdə, 52,2% kəndlərdə yaşayırdı. 1970 –ci il siyahıya almasına görə isə artıq Azərbaycanda 5. 117.1 min əhalinin 2.646.6 min nəfəri, yəni 50,1 % -i şəhərlərdə, 2.5562.5 min nəfəri yəni 49,9%- i kəndlərdə yaşayırdı [6, səh 124].

**“**Şəhər əhalisi, əsasən movcud şəhərlərdə əhalinin təbii artımı, kənd yerlərindən şəhərlərə əhalinin köçməsi və nəhayət ayrı-ayrı yaşayış

məntəqələrinin şəhərlər kateqoriyasına çevrilməsi hesabına artmışdır...” [12, səh 12]. Misal üçün “1951-ci ildə respublikada 37 şəhər və 82 qəsəbə vardısa, 1970-ci ildə onların sayı müvafiq surətdə 57 və 119-a çatmışdı [4,səh. 123].

60-cı illərin sonu üçün “respublika şəhər əhalisinin artması 55% -i ... birinci iki yollla ... qalanı isə ... yeni şəhərlərin yaranması hesabına olmuşdur” [12, səh.13]. Belə ki, bu kənd əhalisinin azalmasına gətirib çıxarırdı. Əgər 1939-cu il üçün 7,4 mindən yuxarı kənd yaşayış yeri vardısa, 1979-cu il siyahıya almasına görə 4200 olmuşdu. Bunlar ilk növbədə müvəqqəti yaşayış yerlərinin ... ləğvi, ikincisi bəzi respublikanın dağlıq azsaylı kəndlərinin “öz-özünə ləğvi”, üçüncüsü dövlətin bəzi kəndləri perspektivsiz kəndlər siyahısına salması nəticəsində həmin kəndlərin əhalisinin ... iri kənd və qəsəbələrə yerləşdirlməsi və dördüncüsü bəzi kənd yaşayış məskənlərinin yaxın şəhərlərə birləşməsi və yaxud şəhər statusu alması” [1, səh 165-166] zamanı şəhər əhalisinin artması ilə nəticələnirdi.

Göründüyü kimi, Azərbaycanda kənd əhalisinin azalma səbəblərindən biri də 50-60 -cı illərdə aparılan uğursuz aqrar islahatlar idi. “Kəndli təsərrüfatlarını iriləşdirməklə xırda kolxozların ləğv edilməsi, kəndlərin prespektivli və prespektivsiz olmaqla bölünməsi bir sıra kəndlərin baxımsızlaşmasına, həmin kəndlərdə quruculuq işlərinin aparılmamasına və perspektivsiz elan olunmuş kəndlərin tədricən xarabalıqlara çevrilməsi” [10, səh 296-297] nəticəsində əhalinin bir qisminin qonşu kəndlərə, ya da şəhərlərə köçməsinə səbəb olmuşdur.

Beləliklə, ictimai-siyasi həyata təsir göstərən urbanizasiya prosesi daha çox təbii inkişaf səbəbli deyil, eyni zamanda dövlətin, cəmiyyətin bütün sahələrini, o cümlədəndə iqtisadiyyatı tam nəzarətdə saxlaması ilə əlaqədar planlı iqtisadiyyat əhalinin iqtisadi maraqlarının təmin olunmamasına gətirb çıxarmışdır. Bu isə əhalinin xoş güzəran naminə öz yaşayış yerlərini tərk etməsinə səbəb olurdu. Deməli, urbanizasiya sənaye inkişafı nəticəsində əhalinin yer dəyişməsinə gətirib çıxaran obyektiv səbəblə yanaşı, Sovet dövlətinin kənddə yeritdiyi uğursuz siyasətin nəticəsi olan subyektiv amillərlə də bağlı idi.

**Etnik tərkib.** Bəhs olunan dövrün sonu üçün, yəni 1970-ci il üçün keçmiş SSRİ üzrə azərbaycanlıların ümümi sayının 4379,9 min nəfər olduğu göstərirıir [5,səh 17]

Müharibədən əvvəl Azərbaycan türkləri 58% təşkil edirdisə 50-cı illərin sonunadək respublika əhalisinin 67,5% çatdı. Bu, ilk növbəsində Respublikaya miqrasiyanın azalması ilə və yerli etnosun kəskin artması ilə bağlı idi [9, səh 273].

Yerli əhalinin hesabına təbii artım “Əhalinin milli tərkibində də dəyişikliklər baş vermişdi. 1959- 1970-ci illərdə azərbaycanlıların sayı 2494,4 mindən 3776,8 minə, rusların sayı 501,3 mindən 510,1 minə, ermənilərin sayı

442,1 mindən 483,5 minə, ləzgilərin sayı 98,2 mindən 137,3 minə, avarların sayı 17,3 mindən 30,7 minə, yəhudilərin sayı 40,2 mindən 41,2 minə çatmışdı.” [4, səh 123]

Eyni zamanda etnik tərkibə baxdıqda xüsusi ilə şəhər əhalisi arasında kəskin fərq nəzərə çarpırdı. Əgər kənddə azərbaycanlı əhali 70 % idisə, bu, şəhər üçün 22,6% təşkil edirdi. Belə bir fikir söyləməyə imkan verir ki 50-ci illərin başlanğıcı üçün azərbaycanlılar əsasən kəndlilərdən ibarət olan millət olaraq qalırdı. Xüsusən paytaxt Bakıda və digər sənaye mərkəzlərində ruslardan sonra ermənilər üstələyici ikinci millət durumunda idilər.” [ 8,səh 9].

Azərbaycanda XX əsrin ortaları üçün qeyri-azərbaycanlı əhalinin iri sənaye şəhərlərində, o cümlədəndə Bakı şəhərində çox olmasının bir sıra səbəbləri vardır. İlk növbədə XIX əsrin sonundan etibarən neft sənayesinin çoşqun inkişafı ilə əlaqədar olaraq Rusiyanın, demək olar ki, hər yerindən Bakıya işçi qüvvəsinin axını, **II-si** I Dünya Müharibəsi zamanı hərbi əməliyyatlar gedən ərazidən çoxlu sayda qaçqın ordusu axını, **III-sü** 1918-ci mart soyqırımı zamanı azərbaycanlı əhalinin kütləvi şəkildə məqsədyönlü qətlə yetrilməsi və qaçmağa məcbur edilməsi, **IV**-sü Sovet hakimiyyətinin ilk illərində, xüsusən də sənayeləşmə illərində işçi qüvvəsinə tələbatın artması və bunun əsas mənbəyi olan kənd əhalisinin kolxozlara təhkim olunması ilə kənardan respublikaya işçi qüvvəsinin cəlb olunması, **V-s**i II Dünya Müharibəsinin itkiləri və cəbhə bölgələrində qaçqın düşən əhalinin axını Azərbaycan şəhərlərində, xüsusən də Bakı şəhərində qeyri-azərbaycanlı əhalinin artmasına səbəb olmuşdur. 1963-cü ilin arxiv sənədlərində “Kirovabad (Gəncə) şəhəri beynəlmiləl şəhər olub, əhalinin 37%- inin qeyri-azərbaycanlılar” [2, f.1 s. 52. S. v 5,v189] olduğu qeyd edilirdi. Onu da qeyd etmək lazımdır ki, respublika ərazisinə sonrakı illərdə müxtəlif yollarla qeyri - azərbaycanlı əhalinin köçürülməsi davam etmişdir.

Təbii ki, yerli əhalinin azlıqda qalması faktı Azərbaycan dilinin sıxışdırılmasına gətirib çıxarmışdır. Gəlmə əhalinin Azərbaycan dili və mədəniyyətinə hörmətsizlik göstərməsi, azərbaycanlı əhalinin asimilyasiyaya uğrama faktlarının artması, milli vətənəprvər ziyalıların milliyyətçilik hissələrinin artmasına, dil və milli dəyərlər uğrunda mübarizənin artmasına təkan vermiş oldu. [15, səh. 442-446, 16, səh. 376-378]

“Müharibədən sonra vəziyyət bir qədər dəyişdi. 10 minlərlə ordudan tərxis olunmuş kəndli əhalisi doğma kəndinə geri qayıtmadı Elə dövlətin özü də bunun qarşısını almağa maraq göstərmədi. Çünki sənayedə və şəhər təsərrüfatında işçi qüvvəsinə kəskin təlabat var idi” [8, səh. 12].

“Sənayenin inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakı azərbaycanlaşma yoluna düşdü [13,səh 390].

SSRİ-nin qərb ərazilərinin müharibə zamanı həm insan, həm də maddi itkilərə məruz qalması və bu ərazilərin bərpası üçün böyük işçi qüvvəsinə ehtiyacın yaranması respublikaya işçi qüvvəsinin gəlməsini məhdudlaşdırmış oldu. İstər-istərməz Azərbaycan kəndi şəhər üçün əsas işçi qüvvəsi bazası rolu oynamağa başladı.

İctimai-siyasi vəziyyətə təsir göstərən faktlardan biri olan urbanizasiya məsələri müharibədən sonra respublikada azərbaycanlı əhalinin, o cümlədən də şəhərlərdə etnik azərbaycanlıların say artımına xeyli təsir göstərmiş oldu .

**Cədvəl 4 [6 səh-135 ]**

| Milli tərkib | 1939 | | 1959 | | 1970 | |
|---|---|---|---|---|---|---|
| | Mütləq | % | Mütləq | % | Mütləq | % |
| Bütün əhali | 3205150 | 100 | 3957.7 | 100 | 5117.1 | 100 |
| O cümlədəndə Azərbaycanlılar | 1870471 | 58.36 | 2494.4 | 67.5 | 3776.8 | 73.8 |
| Ruslar | 528318 | 16.48 | 501.3 | 13.5 | 510.1 | 10.0 |
| Ermənilər | 388025 | 12.11 | 442.1 | 12.0 | 483.5 | 9.4 |
| Ləzgilər | 111666 | 3.48 | 98.2 | 2.6 | 137.3 | 2.7 |
| avarlar | 15740 | 0.49 | 17.3 | 0.5 | 30.7 | 0.6 |
| Ukraynalılar | 23640 | 0.74 | 25.8 | 0.7 | 29.2 | 0.6 |
| tatarlar | 27591 | 0.86 | 29.5 | 0.8 | 31.8 | 0.6 |
| Yəhudilər | 41245 | 1.29 | 40.2 | 1.1 | 29.6 | 0.6 |
| Türklər | ---- | ----- | ---- | ------ | 8.5 | 0.2 |
| Gürcülər | 10196 | | 9.5 | 0.3 | 13.6 | 0.3 |
| Saxurlar | --- | ----- | 2.9 | 0.07 | 6.2 | 0.1 |
| Kürdlər | 6005 | 0.19 | 1.5 | 0.04 | 5.5 | 0.1 |
| Tatlar | ------- | ---- | 5.9 | 0.16 | 7.8 | 0.2 |
| Belaruslar | -------- | ------- | 4.3 | 0.12 | 4.9 | 0.1 |
| Udinlər | -------- | ------- | 3.2 | 0.08 | 5.5 | 0.1 |
| Dağ yəhudulər | -------- | ---- | ----- | ------ | 11.7 | 0.2 |
| Almanlar | 23113 | 0.73 | ------ | ------ | ------- | ------- |
| Osetinlər | 2700 | 0.08 | ------- | ----- | -------- | ------ |
| Mordvalar | 5008 | 0.16 | ----- | ------ | ---------- | ------- |
| talışlar | 87510 | 2.73 | --- | ------ | ------ | ------- |
| Digər millətlər | 63899 | 1.99 | 10.8 | | 24.4 | 0.4 |

1939, 1959, 1979 cu illərdə Azərbaycanda əhalinin sayının müvafiq olaraq 59% , 67% və 73% olmasına bir neçə səbəbini gətirmək olar. **Əvvəla** rus erməni əhalisinə nisbətdə azərbaycanlı əhali arasında təbii artımın yüksək olması idi [8, səh. 18, 5, səh 15]**, II-si,** qarışıq nikahlar zamanı doğulmuşların

daha çox ata xətti ilə milliyətinin qeydə alınması, o cümlədən də rus erməni və digər etnik qruplarla qarışıq nikahlar bu prosesi gücləndirmişdir. Azərbaycan mentalitetinə uyğun olaraq qeyri-müsəlman qızlarla evlənmə hallarının mövcud olmasından fərqli olaraq, əks tərəfə müsəlman qızların ərə getməməsi, səbəbi ilə qarşıq nikahlar vasitəi ilə qeyri-müsəlman əhalinin bir qisminin asimilyasiyasya uğramasına gətiridi. **III-sü** Azərbaycanın aborigen türk əhali ilə eyni dindən olan xırda etnik azlıqların da kompakt halda yaşdıqları ərazilərdən azərbaycanlı türk əhalinin yaşadığı boyük şəhər və rayon mərkəzlərinə miqrasiya etməsi, onların da yerli türk əhali arasında qaynayıb qarışmasına və türkləşməsinə gətirib çıxarırdı. Təsadüfi deyil ki, 1959 və 1970 ci il və daha sonrakı siyahıya almalarda Talış etnik qrupu azərbaycanlı kimi qeydə alınmışdır. **IV-sü** kəndlilərə pasport verilməsi və onların şəhərlər köçməsinə və yerdəyişməsinə icazə verilməsi respublikadan kənara 1959-cu ildən etibarən miqrasiya prosesinə təkan vermiş oldu ki, bu zaman "vaxt ilə Çar Rusiyası tərəfindən zorla Azərbaycana köçürülmüş əhalinin öz vətənlərinə tədricən miqrasiya etməsi də əhalidə azərbaycanlıların faiz etibarı ilə daha çoxluğa çevrilməsinə müsbət təsir göstərirdi. Çünki ölkədən miqrasiya edənlərin cüzi hissəsi aborigen əhali olması mühüm rol oynamışdır [8, səh.18]. **V-si** "II Dünya Müharibəsinin zamanı SSRİ-də nəhəng insan tələfatı ilə əlaqədar işçi qüvvəsinin qıtlığı səbəbi ilə respublikaya kənardan işçi axının durması [7, səh. 129-130], **VI-sı** "1948-1953-cü illərdə Ermənistan və Gürcüstandan azərbaycanlıların depotrasiyası Azərbaycanlı əhalini artmasına təsir göstərmiş oldu" [8, səh.18]. XX əsrin 50-60- cı illərində böyük şəhərlədə xüsusən də Bakı şəhərinin etnik tərkibinin Azərbaycan türklərinin xeyrinə dəyişməsinə ciddi təsir göstərmiş oldu. Bakı əhalisinin tərkibində isə azərbaycanlıların xüsusi çəkisi daha sürətlə artmış və 1959-cu ildəki 37,8%-dən 1970-ci ildə 46,3%-ə yüksəlmişdi.

## ƏDƏBİYYAT

1. Аббасов А.А. (ред.). Азербайджанцы. Историко-этнографический очерк Баку:Элм, 1998. 300 с.
2. ARPİİSSA f.1, siy.52, iş 5, v.120
3. Axundov V. Oktyabr yolu ilə Bakı, 1968, 71 səh.
4. Azərbaycan tarixi 7 cilldə. VII cild, Bakı, 2007, 608 səh.
5. Большая Советская Энциклопедия. Издание III, 30 томов, 24 том (2 киниги) 24-й том кинига I Москва-1977. 576 стр.
6. Həsənova L. Azərbaycan əhalisi XX yüzillyinin ikinci yarısında (sovet siyahya almaları əsasında) Bakı- 2003, 272 səh.

7. Исмаилов Э. Азербайджан: 1953-1956 первый годы “оттепли” Баку,2006, 368с.
8. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг. Баку, 2003, 344с.
9. Исмаилов Э. Очерки по истории Азербайджана /. - Москва, 2010.- 424 с
10. Qaffarov T. Azərbaycan kənd əhalisinin həyat tərzi. Bakı,1992, 402 səh.
11. Muradov Ş.M., Baxış Ç. Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 135 səh.
12. Nadirov A. Sovet Azərbaycanının şəhərləri və onlarda səanyenin inkişafı Bakı, 1973, 39 səh.
13. Rəcəbli Q. Azərbaycan tarixi, Bakı, 2013, 544 səh.
14. Siyasi tarix dərslik II hissə, Bakı 1998, 420 səh.
15. Şükürov. V “XX əsrin 60-cı illərində Azərbaycan SSR-də milli- dirçəliş meylləri. “Milli Azadlıq Qərargahı””//Azərbaycanşünaslığın aktual problemləri VI beynəlxalq elmi konfransın materialları. II hissə Bakı, 2015, 516 səh.
16. Şükürov. V “XX əsrin 50-ci illərində Azərbaycan SSR-də dövlət dili uğrunda mübarizə” // “Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” Beynəlxalq elmi konfransın materialları. II hissə Bakı, 2016, 440 səh.

**UOT 37.018.1**

# AİLƏNİN SOSİAL-PEDAQOJİ VƏ PSİXOLOJİ KLASSİFİKASİYASI

***S.M.Bayramova***
*ADPU nəzdində Azərbaycan*
*Dövlət Pedaqoji Kolleci*

***Açar sözlər:*** *Ailə, ata, ana, övlad, oğlan, qız, tədbiri dövr, tətbiqi dövr, tərbiyə, əxlaq, ədəb, ağıl, şüur, əqidə, davranış, fəaliyyət*

Məqalədə ailə onun təşəkkülü, inkişafı, iqtisadi, bioloji, sosial-pedaqoji, psixoloji, mənəvi aspektləri, xarakterik spesifikası, milli, bəşəri ənənələrə bağlılığını özündə ehtiva edən tarixi, elmi-nəzəri klassifikasiyadan bəhs olunur.

## СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ И ПСИХОЛОГИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ СЕМЬИ

***С.М.Байрамова***

***Ключевые слова:*** *семья, отец, мать, ребёнок, сын, дочь, период принятия мер, период применения, воспитание, мораль, этика, ум, сознание, убеждения, поведение, деятельность*

В статье рассматривается понятие семьи, ее становление и развитие, экономический, биологический, социально-педагогический и моральный аспекты. Также говорится о характерных особенностях этого явления, об исторической и научно-теоретической классификации, отражающей связь семьи с национальными и общечеловеческими традициями.

## SOCIO-PEADGOGICAL AND PSYCHOLOGICAL CLASSIFICATION OF FAMILY

***S.M.Bayramova***

***Keywords:*** *family, mother, father, child, son, daughter, measure time, application time, upbringing, morality, ethics, mind, consciousness, faith, behavour, activities*

In the article the family phenomenon, it's formation and development, economical, biological, socio-pedagogical, psychological aspects are studied. Different aspects of problem, such as moral one, it's characteristic specificity, and historical, scientific-theoretical classification, contains the connection with national and human traditions are also spoken about.

Cəmiyyətin tərəqqisi və inkişafı ailənin meydana gəlməsinə, formalaşmasına güclü təsir göstərmişdir. Ailə ictimai hadisə olmaqla yanaşı həm də təbii-bioloji başlanğıca malikdir. Sosial və ictimai həyatın mürəkkəb hadisələrindən biri olan ailənin iqtisadi, bioloji, pedaqoji, psixoloji mənəvi aspektləri vardır.

Bu ictimai varlığın təşəkkülü və formalaşması məhsuldar qüvvələrin, istehsal vasitələrinin inkişafı dəyişməsi ilə sıx bağlı olmuşdur. Cəmiyyətin tərkib hissəsi hesab olunan ailə haqqında məşhur tədqiqatçı Morqan qeyd edirdi ki, ailə fəal ünsürdür, o heç zaman dəyişməz qalmır. Cəmiyyət aşağı pillədən yuxarı pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yüksək formaya keçir.

Qohumluq sistemləri isə əksinə, passivdir: ailədə baş verən tərəqqi bunlarda yalnız uzun müddət keçdikdən sonra özünü göstərir və yalnız ailə əsaslı surətdə dəyişildikdə, bunlar da əsaslı surətdə dəyişilir. Elə bunun səbəbidir ki, bəşəriyyət inkişafının üç başlıca mərhələsinə uyğun olaraq üç nigah forması(qrup nigah, ikili nigah və tək nigah) keçirmişdir. Ailənin möhkəmlənməsi və formalaşması, uşaqların doğulması, onların böyüməsi, təlim-tərbiyəsi ilə bilavasitə bağlıdır.

İslamda uşaqğın tərbiyəsi baxımından onun inkişafı 2 dövrə bölünür:

1) Tədbiri dövr;
2) Tətbiqi dövr

**1. Tədbiri dövr** uşağın ana bətni dövrünü doğuşa qədər olan zamanı əhatə edir. İslamdinində gələcək nəslin tərbiyəsi doğumla deyil, ailə quracaq cütlüyün (kişi və qadının) evlənməyə qərar verməsi ilə başlayır. Belə ki, evlənəcək şəxslər dini əqidəli mömin bir adamla evlənməli, evlilik həyatında isə haram şeyləri yeyib-içməkdən, zinakarlıqdan uzaq olmalıdır ki, bu pis əməllər xromosomlar vasitəsi ilə dölün genlərinə keçməsin. Uşaq ana bətnində ona olan münasibəti duyur və hissedir. Bu dövrdə uşağa zərər verə biləcək şeylərdən – papiros çəkmək, içki içmək və s.-dən qaçılmalıdır. Bu cəhətdən tərbiyə işi uşağın ana bətnindən başlayıb həyatı boyunca davam edən və bir çox şərtlərin gözlənilməsini təmin edən uzun müddətli, mürəkkəb bir prosesdir.

**2. Tətbiqi dövr** doğumdan ölənə qədər olan dövrdür. İnsan ölənə qədər – "beşikdən qəbrədək" tərbiyələnir, təkmilləşir. Bu dövrdə şəxsin yaşına, düşüncə, fərdi, psixoloji xüsusiyyətlərinə, fiziki durumuna, qabiliyyətinə uyğun olaraq onun şüuruna, duyğularına, fəaliyyətinə, davranışına təsir göstərilir. Bu

təlim-tərbiyə dövrüdür. Bu cür təsirlər onu dəyişdirir, formalaşdırır və yaxşıya, gözələ, doğruya, üstün əxlaqa aparır. Ərəb alimim İbn əl-Müqəffə belə yazır: “Hava və qidadan sonra vücudumuzun ən çox ehtiyac duyduğu şey təlim və tərbiyədir. Tərbiyə əqlimizin ilkin özəyidir [1, 273].

Tətbiqi dövrdə də yerinə yetirilməsi bir çox vacib və zəruri şərtlər vardır. Belə ki, uşaq doğularkən ilk növbədə ona gözəl bir ad seçib vermək lazımdır ki, o böyüdükcə adına layiq işlər görsün və ata-anasının ona verdiyi addan sonralar utanmasın, xəcalət çəkməsin. Uşaq danışmağa başlayarkən ilk öncə müqəddəs kəlmələr − ana, ata kimi sözlər öyrədilməli, yanında gözəl əxlaqlı ədəbli sözlər öyrədilməlidir. Əbu Nəsr əl-Fərabi “Əl Mədinət-ül-Fəzilə”(“Ləyaqıtli şəhər”) əsərində insan əxlaqını, onun ədəbini həyatının xoşbəxtliyi və əmin amanlığı hesab edir və belə deyir: “Ədəb bir tac imiş nuri xudadan. Gey ol tacı, əmin ol hər bəladan” [3, 45].

Uşağın qidasına, geyiminə, ünsiyyət və münasibətinə yetərincə diqqət yetirilməlidir. Əks təqdirdə mənəvi sərvətlərin əldə edilməsi çox çətinliklə başa gələ bilər. Uşağın sağlamlığı daim diqqət mərkəzində olmalıdır.

Quran elm öyrənmək üçün uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Ona görə də Quranda yaş dövrləri vardır. Bu yaş dövrlərinin özündə də bir daxili bölgü vardır. Qurana görə insane anadan olandan ölənə kimi ömrü boyu 3 dövrdən keçir:

1) Uşaqlıq dövrü;
2) Cavanlıq dövrü;
3) Qocalıq dövrü.

Bu barədə “Ər Rum” surəsinin 54-cü ayəsində deyilir: “Sizi zəif bir şeydən (nütfədən, bir qətrə sudan) yaradan, gücsüzlükdən (körpəlikdən) sonar qüvvətli(cavan) edən qüvvətli olduqdan (yenidən) taqətsiz (qoca) edən Allahdır [2, 431].

Ailə qurmaq, uşaq yetişdirmə, uşaq sahibi olmaq qədim türklərdə çox arzuedilən olmuşdur. Oğlan və qız uşaqları arasında fərq qoyulmamışdır. Hətta qızlara daha böyük diqqət və qayğı göstərilmişdir. Uşaqsız ailələrin hörməti az olmuşdur. Əski türklərə görə oğul atasına, qız anasına çəkməli idi. Yaxşı tərbiyə olunmuş oğlana “Atac”, yaxşı tərbiyə olunmuş qıza ”Anac” demişlər. Ata oğula elə tərbiyə verməli idi ki, o, özündən irəli getsin. Elə buna görə də qədim türk ata sözündə belə deyilmişdir: “Atadan irəli, oğuldan geri” [1, 198].

Qaraxanlı türklərinin nümayəndəsi, dünyanın ikinci müəllimi (Müəllimi Sani), öz müasirləri və dövrünün böyük alimləri tərəfindən “Ulu müəllim” adlandırılan Əbu Nəsr əl-Fərabi Əl Türki özünün pedaqoji fikir və düşüncələrində ailənin xoşbəxtliyini, səadətini insanlığın ən ümdə vəzifəsi hesab etmişdir. O, ailə fərdlərinin etik və mənəvi keyfiyyətlərinin doğuşdan gəldiyini, tərbiyə ilə söyləyir. Əl Fərabi qeyd edir ki, insan ədəbi və əxlaqı mütləq deyildir. O, zamanla dəyişir, təkmilləşir, yeni keyfiyyətlər qazanır. Uşaq yaxşını

öyrəndiyi kimi pisi də öyrənə bilər.

Fərabi uşağı tərbiyə etmək üçün özünəməxsus metod icad etmişdir. Başqa sözlə, özünün dediyi kimi "qeyr-adi" tərbiyə metodu yaratmışdır. O, göstərir ki, ilk növbədə insanda mənəvi çatışmazlıqların səbəbini öyrənmək lazımdır. Bu isə öz növbəsində insan şəxsiyyətində mənəvi keyfiyyətlərin aşılanması üçün çox zəruridir. Əvvəlcə insanın həyat tərzi, zövqü və davranışına əsasən onun mənəvi fəaliyyətini müəyyənləşdirmək lazımdır: "Mən deyirəm əvvəlcə gərək insanların zövqlərini və hərəkətlərini ayırd etməliyik. Yalnız ondan sonra hansı hərəkətin məqbul, hansı hərəkətin isə qeyri-məqbul olduğunu söyləyə bilərik. Hansı bizə xoşbəxtlik, hansı isə iztirab gətirir. Əgər hərəkət yaxşı davranışdan əsas götürürsə o yaxşı hesab olunur. Və ya əksinə pisdən çıxan davranışa pis deyirik [4, 112].

"Babil çarı Hammurapinin Qanunları" (b.e.ə.1760-cı il) adlı manumental ədəbi abidədə patriarxal ailələrdə böyüyən nəslin tərbiyəsi ilə bağlı bir sıra vəzifələrin həyata keçirilməsi mühüm şərt hesab edilirdi. O dövrün mücərrəd əxlaq prinsipləri də müəyyən mənada Hammurapi kodeksində öz əksini tapmışdı. Misal üçün o vaxtlar Mesopotomiyada səmimi şəkildə inanırdılar ki, uşaqlar öz valideynlərinə hörmət etməlidirlər. Bu əxlaqi qaydaların nizamlanmasını Hammurapi kodeksinin 195-ci maddəsi təsbit edirdi: "Əgər oğul atasını vursa, onun barmaqları kəsilməlidir" Kodeksə görə uşaqların yaxşı tərbiyəsi, onlara sənət öyrədilməsi və həyata hazırlanması atanın, əxlaqi şəraitin yaradılması dövlətin əsas vəzifəsi hesab olunurdu [5, 27].

XVIII əsrin fransız maarifpərvərlərindən olan J.J.Russo (1712 – 1778) ailədə müəyyən yaş dövründə uşaqlara cinsi məsələlər haqqında zəruri məlumatları verməyi vacib hesab edirdi. O, hər şeydən əvvəl uşağı həyacanlandırıcı, zərərli təsirlərdən uzaqlaşdırmağı lazım bilirdi. Uşaqların kiçik yaşlarında cinsi həyat haqqında söhbətlərdən mümkün qədər qaçmağı, belə bir sualı uşaq qoyarsa, onu susdurub sualını cavabsız buraxmağı əsaslı hesab edirdi. Lakin tərbiyəçi (ata, ana, müəllim və s.) uşağın onu anlamağa hazır olduğunu gördükdə ona geniş cavab verməlidir. Əks təqdirdə uşaq bunu natəmiz mənbədən öyrənə bilər [6, 38].

Ailə probleminin nəzərdən keçirilməsinin mühümlüyü bir neçə aspektlərlə-nikahların sayının və doğuşun aşağı düşməsi, uşaq ölümünün artması, yeni doğulan uşaqların patologiyası, ailədə uşaqların tərbiyəsi ilə bağlı problemlərlə və nəhayət, boşanmalarla izah olunur.

Sosial-demoqrafik vəziyyətin zəifləməsi ailə problemini ictimai müstəvidən iqtisadi, psixoloji və pedaqoji müstəviyə keçirir.

Ailənin sosial-psixoloji xüsusiyyəti bir tərəfdən sosial pedaqogika və psixologiyanın statusu ilə şərtlənirsə, digər tərəfdən, obyektin özünün xüsusiyyətlərinin dərinləşməsi ilə əlaqədardır. Ailə özünün psixoloji, mənəvi, əmək, valideynin, iqtisadi, hüquqi və intim sahələri ilə şərtlənir. Ailə qarşılıqlı mə-

həbbət, inam, etibar və hörmətlə əsaslanan, müəyyən peşəyə yiyələnmiş, mənəvi əqidəsi, dünyabaxışı formalaşmış iki gəncin ünsiyyəti nəticəsində yeni həyatın başlanması, yeni nəslin yaranması və onun tərbiyə edilməsi qayğısına qalan ictimai qrupdur. Ailə mövcud ictimai quruluşun güzgüsüdür [10,75].

Məsələn, ailə problemlərinə həsr olunmuş tədqiqatlarda ailə məsələsində iki meyil özünü göstərir. Öncə qeyd edilir ki, ailə sosial-psixoloji icmadır. Onun üzvləri, bir tərəfdən qohumluq münasibətləri, yaxud nikahla, məişət ümumiliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bir-biri ilə kiçik qruplarda və sosial institutlarda əlaqədədirlərsə, digər tərəfdən, ər-arvad, valideynlər və uşaqlar arasında olan tarixi konkret qarşılıqlı münasibətlər sistemində cəmiyyətin özünün, əhalinin fiziki və mənəvi təkrar istehsalına tələbatı ilə şərtlənir.

Nəhayət, mühüm cəhətlərdən biri kimi həm də ailə tədqiqatlarının çoxsahəli xarakterli olmasını göstərmək olar. Respublikanın görkəmli psixoloqlarının prof. Ə.Əlizadənin, prof. M.Həmzəyevin, prof. Ə.Bayramovun, prof. S.Seyidovun, eləcə də sosial pedaqoqlardan prof. A.Abbasovun, prof. H.Əlizadənin və b. fikrincə, ailə və nikah psixologiyası psixologiyanın mühüm sahəsi kimi sosiologiya, iqtisadiyyat, etnoqrafiya, tarix, yurisprudensiya, demoqrafiya və i.a.istiqamətli tədqiqatları özündə birləşdirir.

Ailənin əmələ gəlməsi və inkişafı ilə bağlı çoxsaylı amillər arasında ən mühüm rolu nikah, ailənin inkişafı, onun strukturu, ailə üzvləri arasında hakimiyyət bölgüsü, ər-arvad ünsiyyəti, nikah və ailəyə uyğunlaşmaya, nikah portnyorunun seçilməsində həlledici rola malik şərtlər, tərbiyənin müxtəlif formalarının səmərəliliyi, valideynlər və uşaqların psixoloji xüsusiyyətləri, valideynlərin pedaqoji maariflənməsi və s. amillər oynayır. Bundan başqa, əmin-amanlıq, bir-birini qarşılıqlı dərketmə ruhu ailənin mühüm elementlərindəndir.

Ananın bu gün ailədə yerinə yetirdiyi ənənəvi funksiyalara-uşaqların, övladlarının qayğısını çəkməsi ilə yanaşı, həm də digərləri əlavə olunur: iqtisadi müstəqilliyə canatma, yüksəksavadlılıq nümayiş etdirmə ictimai reallığa meyl və s.ailəyə öz təsirini göstərən amillərdəndir. Qadının sosial-siyasi emansipasiyası, onun ictimai-istehsalat fəaliyyətinə qoşulması, şəhərlərə üz tutmasına səbəb olur və bu qadını ailə ocağını hərtərəfli əhatə etməkdən kənar edir.

Müasir qadın nəinki inanılmış arvad və xeyirxah ana, həm də şəxsiyyətdir. Onun analıqdan başqa bir neçə digər cəhətləri də vardır ki, bunlar: professional nailiyyətlər, sosial müstəqillik, öz şəxsi müstəqilliyi, nikah bağladıqdan sonra deyil,özü tərəfindən qazanılmasıdır. Bunlara bu gün “ənənəvi ana” funksiyasını öz üzərinə götürən peşəkar uşaq həkimləri, tibb bacıları, körpələr evi uşaq bağçalarının tərbiyəçiləri və s. kömək edir. Bütün bunlar analıq dəyərlərini və ona ehtiyacı əlindən almasa da, ana öz davranışının xarakterində xeyli dəyişikliklər edir. Heç şübhəsiz ki, ananın tərbiyəedici funksiyası uşaqların davranışında öz əksini tapır.

Ailə haqqında kiçik qrup kimi danışdıqda, hər şeydən əvvəl, onun

strukturu, tipologiyası, həm də həyatda və cəmiyyətdə, uşaqların tərbiyəsində yerini müəyyənləşdirmək vacibdir.

Prof. H.Əlizadənin fikrincə, "ailə münasibətləri bu və ya digər dərəcədə ailənin tipoloji xüsusiyyətlərini əks etdirir. Bu cəhətdən ailə münasibətlərini tipoloji axarda təhlil etmək metodoloji baxımdan xüsusilə vacibdir. Lakin ailə münasibətləri mahiyyət etibarilə şəxsiyyətlərarası münasibətlərdir. Şəxsiyyət amili axarında hər bir ailədə "ər-arvad", "ana-ata" münasibətlərində elə özünəməxsus cəhətlər meydana çıxır ki, onlar bir tərəfdən ailənin tərbiyə istiqamətində xüsusi əhəmiyyətə malik olan mənəvi-psixoloji iqlimi, digər tərəfdən isə "valideyn-uşaq", "uşaq-uşaq" münasibətlərini şərtləndirir. Bu çoxsahəli münasibətlərin xarakterindən asılı olaraq eyni bir demoqrafik amil bir halda uşaqların inkişaf səviyyəsinə pozitiv, başqa halda neqotiv təsir göstərir" [8,92].

Əgər ailə kiçik bir qrup kimi analiz edilərsə, onda şəxsi əlaqələr əsasında baş verən münasibətlər, normalar və funksiyalar əhəmiyyət qazanır. Ona görə də ailənin funksiyaları onun hansı tələbatları − cəmiyyətin, sosial qrupun, ailənin özünün, onun ayrı-ayrı üzvlərinin tələbatlarını ödəməsindən asılı olaraq müəyyənləşir [9 50].

Uşağın vətəndaş kimi təşəkkülü və inkişafında onu anaya və ataya bağlayan hisslər son dərəcə əhəmiyyətlidir, zəruridir.

Valideynlərin uşağa münasibəti – onun insanlara münasibətinin başlanğıcıdır. Məhz burada, bu münasibətlər nəticəsində uşağın qəlbində doğulan sevgi, yaxud laqeydlik, onda baş qadıran xarakterik hisslər çox maraqlıdır. Bunların hamısı valideynlərin uşağa şüurlu münasibətilə müəyyənləşir və onlardan çox asılıdır.

Uşaqlarda belə bir fikir formalaşmışdır ki, o özü güclüdür və onun heç kimin köməyinə ehtiyacı yoxdur və o özü digərlərinə kömək edə bilər. Düzdür, müasir qadın daha güclü, daha təminatlıdır, bəlkə də nə ata, nə anaöz uşaqlarının köməyinə ehtiyac duymur. Lakin uşaqlar öz valideynlərinin qeydinə, qayğısına daim qalmalıdır.

Bu gün mənəvi cəhətdən uşaqlardan güclü ananın eyni zamanda qadın kimi zəif olmasını da gizlətmək olmaz. Qadın şəxsiyyəti, ananın müdafiəsizliyi, oğulun onlara kömək göstərməsi ata üçün köməkçi və ana üçün arxa ola bilməsini öyrətmək lazımdır. Lakin bu heç də o demək deyil ki, valideynlər uşaqları qarşısında özlərini zəif, gücsüz göstərməlidirlər.

Əgər uşaq özünü aparmağı bacarmırsa, ailə bunu həyəcan siqnalı kimi qəbul etməlidir. Əgər uşaq hələ kiçikdirsə və onun çatışmazlığı xüsusi dissonans, pozuculuq kimi görünmürsə, böyüdükdən sonra o, ətrafındakılara və özünə xeyli narahatlıqlar gətirə biləcəyini nəzərdən qaçırmaq olmaz.

Hər bir valideyn tərbiyənin məqsəd və vəzifələrini müəyyənləşdirdikdə, uşağın bir vətəndaş, zəhmətkeş, xadim kimi böyüməsi qeydinə qalmağı bacarmalıdır. Valideynlərin hər biri bilməli və yadda saxlamalıdır ki, onlar o

zaman ləyaqətli şəxsiyyət yetişdirə bilərlər ki, özlərinin şəxsi ləyaqəti arzu olunan səviyyədə olsun. Bu mənada valideynlərin davranışı uşaqlara nümunə kimi son dərəcə böyük təsir göstərir. Göstərilən planda hər bir valideyn özü qarşısında elə tələblər qoymalıdır ki, onların ailəyə hörməti, özlərinin bütün addım və hərəkətləri üzərində nəzarət tərbiyənin başlıca metoduna çevrilmiş olsun.

Uşaqları həddən çox sevmək, təhlükədən qorumaq onları müstəqillikdən məhrum etməməlidir. Əlbəttə, uşaqlar digər uşaqlarla ünsiyyətdə olmalıdırlar. Bundan belə ata və ananın öz uşaqlarının harada, kimlərlə bir yerdə oynaması, davranması, hansı işlə məşğul olması barədə aydın təsəvvürləri olmalıdır. Uşaqların daim köməyə ehtiyacı var və bu köməyi valideynlər onlara nəzarət etməklə eyni zamanda yerinə yetirməlidirlər.

Şübhəsiz ki, uşaqların ailə tərbiyəsində ailənin düzgün təşkili mühüm yer tutur və bu işdə heç bir xırdaçıllığa yol vermək olmaz. Çünki burada hər bir hərəkət və söz uşaqlara müsbət, yaxud mənfi təsir göstərir.

Hər iki valideynin ailədə bir yerdə olması və onların uşaqların tərbiyəsində iştirakı, uşaqların hərtərəfli böyüməsi və tərbiyə olunması üçün şərait yaradır. Ailədə müəyyən həyata, gündəlik proseslərə münasibət olmalı, təmizliyə riayət edilməli, gigiyenik normalar həm böyüklər, həm də kiçiklər tərəfindən mütləq gözlənilməlidir. Çünki həyat şəraitinin təsiri altında ailədə müsbət, yaxud mənfi vərdiş və meyillər formalaşır. Burada uşağın “qəlbi” formalaşır və onun gələcəkdə necə olması ailədən və onun quruluşundan çox asılıdır.

Uşağın xarakterinin formalaşmasına, onun valideynləri və ətrafdakılar ilə münasibətinə valideynlər arasında yaranmış qarşılıqlı münasibət formaları xeyli dərəcədə təsir göstərir. Ailədəki qarşılıqlı münasibətlər özünəməxsus mühit yaratmaqla uşaqların xarakterini müəyyənləşdirir, onların digər insanlarla qarşılıqlı münasibətlərini tənzimləyir.

Əməkdaşlıq ruhu hökm sürən, bir-birlərinə qarşı hörmət və sevgi göstərən ailədə açıq, düzgün, doğruçul, həmişə digər yoldaşlarına kömək əlini uzadan insan formalaşır. Əksinə, şübhə, inamsızlıq, bir-birinə hörmətsizlik ruhu olan ailədə inamsızlıq mühitinə, kobudluğa, eqoizmə və digər mənfi süsusiyyətlərin inkişafına şərait yaranır.

Uşaqlar özlərinə qarşı daim diqqət tələb edirlər. Valideynlərin ailədə borcu nəinki uşaqların fiziki inkişafı, böyüməsi, əqli və mənəvi tərbiyəsi ilə bağlıdır, həm də onlar uşaqların əmək tərbiyəsinə mühüm diqqət yetirməlidirlər. Məhz bunların köməyi ilə hərtərəfli, harmonik şəxsiyyəti tərbiyə etmək olar.

Bir sıra tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, bizim cəmiyyətimizdə əmək insanların həyat fəaliyyətinin mühüm şərtidir. Əməksiz nə ailə həyatı, nə də ümumən cəmiyyətin mövcudluğu haqqında düşünməyə dəyməz.

Ailədə tərbiyənin əsas məqsədi-vətəni sevən, xalqına məhəbbət bəsləyən, lazım olduqda onun torpaqlarını müdafiə etməyə, qorumağa ehtiyac duyulursa,

hətta canını qurban verməyə hazır olan ləyaqətli vətəndaş tərbiyə etməkdən ibarətdir. Ailə qarşılıqlı qayğı və kömək, inam və etibar, tələbkarlıq və hörmət əsasında qurulmalıdır. Kollektivçilik ailə üzvlərinin davranış normasının ayrılmaz hissəsi olmalıdır. Hamının bir-biri ilə hesablaşdığı və hörmət etdiyi ailələrdə insanların bir-birinə qayğı ilə yanaşması və qarşılıqlı kömək göstərməsi üçün əlverişli şərait yaranır. Belə ailələrdə öz mənafeyini ailə mənafeyinə tabe edən, ailə şərəfini gözləyən uşaqlar böyüyürlər...

Ailədə ata və ana əsas sima olduqları üçün onların arasında yaranmış münasibət uşaqların tərbiyəsində vahid tələbləri gözləmək və s. onların qarşılıqlı münasibətində əsas cəhətdir [7, 174].

Gələcək fəal vətəndaş, vətənpərvər şəxsiyyətin iradi keyfiyyətlərinin formalaşmasına ailədə əmək tərbiyəsinə kömək edir və bunun nəticəsində uşaqda təmkinlik, dözümlülük, qoyulmuş məqsədə doğru canatma formalaşır. Bu və digər keyfiyyətlərə malik olan uşaq böyüdükdən sonra əmək qrupuna və birliyə qoşularaq, məqsədi daha tez əldə edib həmkarlarının az bir zamanda nüfuz və hörmətini qazana bilər.

Uşaq erkən yaşlarında çalışmalıdır: bu, əvvəl onun oyunlarında, sonra isə məişət əməyində iştirak etməyində özünü göstərməlidir. Sadaladığımız keyfiyyətlərdən savayı, əməkdə ünsiyyətlilik insanlara qarşı diqqət, xeyirxahlıq, vətəndaşlıq, yoldaşlıq hissləri və s. kimi keyfiyyətlər formalaşır.

Uşaqları tərbiyə edərkən valideynlər həm də özlərini tərbiyə etdiklərini yadda saxlamalıdırlar. Öz mənəvi inkişafının əxlaqi püxtələşməsinin qayğısına qalması ilə hər bir valideyn həm də uşaqlarında əməksevərlik, zəhmətkeşlik, gələcək vətəndaş böyüdən və formalaşdıran bir insan kimi düşünməlidir. Bunun üçün hər bir valideyn daim özünü nəzarətdə saxlamalı, öz xarakterindəki çatışmazlıqları korreksiya etməli, tənzimləməli, nizamlamalı, lazım olduqda özünü ələ ala bilməli, yaşadığımız cəmiyyətin yüksək tələblərinə cavab verməsi, gənclərin tərbiyə və əməyə alışdırması üçün böyük zəhmət sərf etməlidir.

Qeyd etdiyimiz amillərin hamısı normal ailənin həyat fəaliyyətinin əsasını təşkil edir. Bunların qorunması isə öz növbəsində heç sössüz ki, əsl möhkəm və mehriban ailənin yaranmasınaköməklikm göstərəcəkdir. Sadaladıqlarımızda çox şeyi ailədaxili münasibətlərin vahidliyi və möhkəmliyi müəyyən edir. Hər iki valideyn yaratdığı ailə tipindən, onların nikah münasibətindən ailənin özü, onun gələcəyi çox asılıdır.

Tədqiqatçılar bu gün öz xarakterik xüsusiyyətləri ilə seçilən ailə və ailə münasibətlərinin bir neçə tipini müəyyənləşdirdilər.

1. Monoqam (bir ər və bir arvad);
2. Polikiniya (çoxarvadlıq);
3. Poliandriya (çoxərlik).

Müasir sivilizasiyalı dünyada bir ər və bir arvaddan ibarət monoqan ailə yaratmaq qəbul olunmuşdur.

Polikiniya tipli ailə isə şərqlilər üçün xarakterik idi. Burada bir ərin bir neçə arvadı ola bilərdi.

Poliandriya tipli ailəyə - bir arvadın bir neçə əri olmasına isə Afrikanın və Cənubi amerikanın çətin keçilən bəzi rayonlarında rast gəlinir.

Nəsil sayına gəldikdə isə aşağıdakıları fərqləndirirlər:

1. Mürəkkəb (genişləndirilmiş ailə). Burada vahid şəkildə bir evdə bir neçə nəsil (3-dən az olmayaraq) babalar, valideynlər və uşaqlar bir yerdə, birgə təsərrüfatda çalışırlar. Bu, keçmiş ailə tipi olmasına baxmayaraq, Azərbaycanın bəzi rayonlarında hələ də qalmaqdadır;

2. Sadə (nuklear ailə). Belə ailələrin üzvləri yalnız 2 nəslin nümayəndələrindəndir (valideynlərdən və uşaqlardan) ibarət olur. Bu tipli ailə müasir dövrdə daha çox yayılmışdır. Məhz bu tipə "tam, bütöv ailə" anlayışı aiddir, burada valideynlərdən hər ikisinin – ata və ananın olması nəzərdə tutulur.

Bu gün artan boşanmalarla bağlı ailələrin dağılmasına sosioloqlar, nuklear ailəni şəxsi yarımçıq (boşanma və dulluqdan sonra əmələgəlmə) və nikahsız doğum və ana xətti ilə əmələ gələnə bölünürlər. Burada həm də binuklear ailəni yada salmaq lazımdır. Bu, boşanmadan sonra həm ər, həm arvadın hər birinin özü üçün yeni ailə qurmasını nəzərdə tutur. Belə olduğu halda uşağın sanki dörd valideyni (2 doğma və 2 ögey) olur və onların arasında normal münasibətlər saxlanılır.

Bəzən hər iki ailə vaxtı və istirahəti birgə keçirirlər. Uşağın yaxın qohumları, o cümlədən spliniqlər (qardaşlar və bacılar) dairəsi genişlənir. Bu hal bəzi müəlliflərin fikrincə şəxsiyyətin sosializasiyasında əlverişli ola bilər. Belə ailələr Kuba adasının sakinləri üçün xarakterikdir.

İctimai normalara görə ailə-nikah münasibətləri nöqteyi-nəzərdən aşağıdakıları göstərmək olar:

1. Patriarxal (ənənəvi) münasibətlər. Burada keçmişdə aparıcı olan nümunələrə oriyentir götürülür: kişi -"ata", "ailə başçısı", "ailəni dolandıran". O, ailəni maddi cəhətdən təmin edir, ailə üzvlərinə aid qərarlar qəbul edir: arvad işləmir, uşaqların tərbiyəsilə məşğul olur, ev, təsərrüfat-məişət işləri aparır. Burada ya uşaqların fikri az nəxərə alınır, ya da tabeçilik tabe olunan əhəmiyyəti kəsb edir.

2. Müasir (eqalitar) ailələr. Belə ailələrdə münasibətlər qohumluq və valideynliklə yox, nikahla, sevgi normaları, emosional yaxınlıq və qarşılıqlı hörmət münasibətləri ailənin bütün üzvləri arasında yayılmaqla müəyyənləşir;

3. Kollektivizm əsasında qurulmuş ailə ( yaxud qərb müəlliflərinin terminologiyasında buna "iki peşəli" ailə deyilir). Belə ailələrdə ər-arvad, hər ikisinin professional və ictimai fəaliyyəti bərabər səviyyəli, bərabər hüquqludur; ər-arvad ev vəzifələrini çevik bölüşdürür, asudə vaxtlarını birgə keçirir, kollektiv şəkildə qərarlar qəbul edirlər;

4. Fərdiləşdirilmiş ailə. Belə ailələrdə kənar fəaliyyət ailədəki fəaliyyət-

lərdən vacibdir. Ev işi burada minimuma, heçə endirilir, mühüm məsələlərin müzakirəsində onlardan hər hansı birinin fərdi maraqlarına toxunulursa, bu zaman ziddiyyətlər yarana bilir.

Ailə tipologiyasının nəzərdən keçirilməsini yekunlaşdırarkən qeyd etmək lazımdır ki, bu gün ənənəvi oturaqlaşmış ailə tipi ilə yanaşı bizim regiona xas olmayan xeyli açıq, "alternativ tipli, svininq nikahlar ("svininq" ingilis sözü olub "adi" deməkdir), qrupla birgə nikah və s. yarandığının şahidi oluruq. Bəzi ölkələrdə homoseksual ailələr, nikah müqaviləsi əsasında bağlanmış nikah və s. rəsmi olaraq qeydiyyatdan keçmişlər.

Beləliklə, nəzərdən keçirdiyimiz ailə klassfikasiyası öz əsas reproduktiv funksiyası ilə yanaşı, insanların nikah ittifaqlarının geniş tipinin mənzərəsini yarat-maqla, böyüməkdə olan gənc nəslin tərbiyəsi ilə bağlı qayğı və məsuliy-yəti öz üzərində saxlayır.

## ƏDƏBİYYAT


1. *Qurani-Kərim.* Bakı: "Çıraq" nəşriyyatı, 2005, 633 s.
2. *Hüseynzadə R.L.* Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı: 2015, 270 s.
3. *Farabi Ə.Ə.* El-Mədinətül Fazila(çevirəni Nafiz Danışman). İstanbul: Basınevi, 1956, 83 s.
4. *Ал-Фараби.* Социально-этические трактаты. Алма-Ата:1987,267 s.
5. *Rüstəmov F.A.* Pedaqogika tarixi. Bakı: Elm və təhsil, 2010, 748 s.
6. *Seyidov Ə.* Pedaqogika tarixi. Bakı: Maarif , 1968, 416 s.
7. *Əlizadə Ə.Ə., Abbasov A.N.* Ailə. Bakı: Maarif, 1986, 276 s.
8. *Əlizadə H.Ə.* Tərbiyənin demokrafik problemləri. Bakı: "Maarif" nəşriyyatı, 1993, 232 s.
9. *Məmmədzadə R.N.* Konfliktlər, ailələr, məktəblilər. Bakı: Müəllim, 2004, 140 s.
10. *Talıbov Y., Sadıqov F., Quliyev S.* Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: 1998, 153 s.

**УДК 330.341**

# НЕКОТОРЫЕ КАТЕГОРИИ ТЕОРИИ ПОЗНАНИЯ

***С.Г.Нуриева***
*Азербайджанская Государственная*
*Морская Академия*

***Ключевые слова:*** *типология, контенсивный, формулировка, понятие владение языком, развитие языкознания*

В статье рассматриваются некоторые современные направления развития языкознания. Лингвистика дает самое общие понимание природы языка и его функционирования, все остальное призвана сделать только методика. Появляется вопрос: может ли лингвистика объяснить понятие владение языком? Взявшись определить сущность владения языком, он убедится в том, что подыскать удовлетворительные формировки не так просто. Через лингвистику понятие владение языком неопределимо, а вот через понятие умения и речевого навыка вполне.

Автор считает решающей предпосылкой к преодолению произвола в выборе критериев построения типологической схематики выработку понятия языковых типов как некоторых абстрактных языков. Уточнив некоторые различия в терминологическом разграничении понятий интегральной и парциальной типологий, автор обсудил вопросы взаимоотношений между этими двумя видами лингвистической типологии. В современной типологии наиболее отчетливыми перспективами перерастания в подлинно интегральную типологию располагают два подхода, которые уже имеют немалую исследовательскую традицию. Это, во первых, типология фундаментальных отношений (контенсивная), т.е. содержательно (ориентированная), постулирующая такие языковые типы, как номинативный, эргативный и ряд других и во-вторых, это типология порядка слов.

# SOME CATEGORIES THEORY OF KNOWLEDGE

***S.G.Nuryeva***

***Keywords:*** *typology, contensive, formulation, being master of linguistics, progress of linguistics*

In this article, it deals with several modern directions of progress through linguistics. While researching the general nature of linguistics and its functioning, everyone comes into conclusion of vocation or mission due to methods of teaching languages. Here, there is a question? Can linguistics be found its position as a master of linguistics for formulation especially? Having determination of mastering through linguistics, it could be impoverish looking for gratification of formulating or formula, which is not so simple. Having through linguistics, being master of language, it is uncertain to provide someone with opportunity, ability and skill quietly well.

The author considers necessary precondition discussion of criteria on formation of typological scheme, as being master of linguistics as a type through output during the process of several abstracts linguistic. Precisely, some differences between terminology discrimination of integral and parceling out of typology, the author had given careful consideration to a problem mutually by means of two types of linguistics. There are two types of methods, approaching have been many research traditions in modern typology with distinctness in perspective prospects on typology really. Firstly, it is a typology as fundamental attitude (contensive) i.e. substantially (competent), like these types of linguistics are as nominative, ergative and series of others, secondly, this typology is as routine of words.

Любой исследователь, с одной стороны, имеет перед собой некоторые воспринимаемые (видимые, слышимые, осязаемые и т.д.) явления и, с другой стороны, обладает определённой точкой зрения на те или иные явления, методологическими установками, связанными с какой-либо научной традицией, обусловливающей представление о цели исследования. Явления, на которые направлено исследование, можно назвать непосредственным объектом исследования.

Объект исследования, рассмотренный в психическом аспекте, не существует изолированно от исследователя. На объект накладываются ограничения, вызванные целевыми установками исследователя, знаниями, накопленными им к моменту выбора объекта, предшествующим опытом в обращении с аналогичными объектами, его догадками о принципах

строения объекта и многими другими факторами. Этот комплекс факторов может быть условно назван прагматическими ограничениями объекта. Следует оговориться, что эти ограничения достаточно разнородны и неравноценны для эпистемологов: например, одни из них могут быть глубоко индивидуальными (личный опыт, знания, личные предпочтения) другие, связанные со структурой науки социальными (методы изучения подобных объектов, цели исследования). Объект вместе с социальными ограничениями может быть назван прагматически ограниченным объектом, или научным объектом [1].

Среди факторов прагматического ограничения объекта наибольший интерес представляют два: целевая установка и фактор, который мы будем называть предгипотизой. Влияние целей исследования на характер операций над объектом и на характер выдвигаемых гипотез не вызывает сомнений. Однако эта сложная и малоразработанная проблема в рамках этой книги не может быть рассмотрена. Целевая установка исследования объекта принимается здесь как постоянно действующий фактор, имеющий характер стремления к возможно более адекватному знанию.

Конечно, текст в чистом виде не является единственно возможным видом объекта лингвистического исследования. Это наиболее простой вид лингвистического объекта и именно поэтому он выступает в нашем примере. Более сложными лингвистическими объектами являются тексты плюс некоторые дополнительные факторы: например текст и информант, которому задают стандартные вопросы и который даёт на них стандартные ответы (**<да>**,**<нет>**,**<не знаю>**, и т. п.), или же текст, набор фрагментов наблюдаемого мира (например, фиксированных на киноленте) и информант и др.

Однако степень сложности объекта в данном случае не имеет значения, важно лишь то, что объект допускает наблюдение над ним и фиксацию такого наблюдения.

Исследование текста должно начинаться, по-видимому, с его описания. Описание предполагает аналитическую работу по выделению элементов и установлению зависимостей между ними (в том числе фиксацию свойств элементов), этот этап исследования должен завершиться составлением набора предложений на некотором языке (например, русском или символическом), в которых закреплены результаты анализа.

Язык, на котором сделано описание объекта, называется языком описания, или, как мы будем писать для краткости, Д-языком (Д-начальная буква слова *дескрипция*). Описание, сделанное на Д-языке, можно назвать *Д-текстом*.

Д-язык обладает своей грамматикой- правилами построения предложений данного языка и словарём (алфавитом). Его план содержания включает концепты элементов и отношений описываемого объекта. В качестве Д-языка может быть употреблён обычный (естественный) язык (русский, английский и т. П.) или же некоторый символический язык [3].

Конечно, для примера мы могли бы взять любой текст, будь то статья из очередного номера «Известий «или египетский папирус. В зависимости от выбора текста его общая характеристика может подвергаться значительным изменениям: может меняться направление записи (слева направо, справа-налево, сверху вниз и т. Д.), могут отсутствовать пробелы и специфичные сигналы, связанные с концом фразы и т.п., но должны сохраняться неизменными такие общие принципы, как упорядоченность, дискретность знаков, иерархия включения менее протяженных знаков в более протяженные.

Если считать объектом текст вместе с его переводом на знакомый нам язык (в качестве такого, в частности, может рассматриваться серия картинок, поясняющих текст), то Д–текст значительно расширится, поскольку он будет включать семантические характеристики.

Итак, процесс описания приводит к созданию некоторого нового текста – Д – текста. В соответствии с нашей общей целевой установкой, Д-текст должен быть подвергнут процессу объяснения. Любое нетривиальное объяснение связано с построением гипотезы, что, в свою очередь, предполагает введение явлений невоспринимаемых и поэтому не принадлежащих непосредственно объекту исследования. Можно сказать, что построение гипотезы об объекте связано с созданием иного плана (мира, находящегося за рамками объекта). Иллюстрацией может служить мир молекул, сконструированный ( и в то же время открытый) за пределами явлений химических реакций, или мир атомов, частиц и полей, сконструированный за пределами электромагнитных феноменов.

Следует заметить, что Д –текст имеет чисто вспомогательную роль с точки зрения процесса объяснения, он представляет объект исследования в обозримом или эксплицитном виде. Можно говорить, что Д–текст содержит некоторый образ объекта. Достигается это путём генерализации, т.е. обобщения по индукции. В результате генерализации мы узнаём из Д–текста, что исследуемый текст является последовательностью последовательностей символов, разделённых пробелами, что основным здесь является отношение следования, что это отношение существует между вхождениями символов и последовательностей и что число символов и последовательностей меньше числа вхождений символов и вхождений последовательностей, что каждый символ и каждая

последовательность символов могут быть охарактеризованы числом своих вхождений и т. Д. Естественно предположить, что образ объекта, содержащийся в Д–тексте, влияет на характер гипотезы (и на вид формального языка, служащего для описания последней), хотя связь между образом объекта и гипотезой не носит однозначного характера. Такое влияние образа объекта из Д–текста на характер гипотезы предполагается хотя бы потому, что в процессе объяснения предложения Д–текста должны быть выводимы из постулатов гипотезы. Однако сходству образа объекта и гипотезы не следует придавать излишне большого значения, опыт других наук показывает, что гипотетические построения бывают в значительной мере непохожи на наблюдаемые картины. Для примера можно сравнить планетарную модель атома водорода, предложенную в свое время Нильсом Бором, и спектрограммы излучений водорода или формулы для таких излучений. Примерами большей степени сходства наблюдаемой картины и гипотетического представления могут служить фотографии космических лучей в камере с магнитным полем, где треки и вспышки отражают представления об аннигиляции и распаде, о зарядах частиц, скоростях и т. д.

Однако вернёмся к нашему примеру. Связанная с этим текстом гипотеза, будучи изложенной на обычном языке, могла бы читаться так, существуют два рода явлений, принадлежащие двум различным уровням, текст и язык (порождающий механизм). Ограниченность числа сущностей (элементов, последовательностей и т.д.) и существование сколь угодно большого числа их вхождений связываются с уровнями языка и текста соответственно. Иными словами, язык содержит ограниченный инвентарь сущностей, а текст есть результат многократного, использования, сущностей, хранящихся в языковом инвентаре. При этом инвентарь сущностей соотносится с текстом не как мешочек с горохом, постепенно расходуемым на супы, а как клавиатура пишущей машинки соотносится с оттисками букв на бумаге. То есть инвентарь сущностей не расходуется при употреблении. Сущности языка бывают нескольких видов. Имеется алфавит А минимальных сущностей и правила образования сущностей более высоких ступеней. Таков пример гипотетических рассуждений, который мог быть продолжен [2].

Итак, построение гипотезы равнозначно созданию нового текста, который мы назовём Т-текст. С точки зрения логики, Д-язык и Т-язык вместе рассматриваются как объектный язык. Рассмотрение правил построения (грамматики) или алфавита объектного языка требуют применения некоторого языка, на котором будут излагаться описания строения Д- и Т-языков или гипотезы об их строении. Язык, на котором говорят и пишут о строении объектного языка, называется метаязыком, В

качестве метаязыка может выступать тот же язык, который используется как объектный язык, или это может быть совершенно другой язык [1].

Общий процесс накопления и дифференциации знаний в каждой области ведёт к тому, что естественные языки (в функции объектного языка и метаязыка) становятся сначала специализированными языками, а затем заменяются формализованными языками. В нашем примере в качестве Д- и Т-языков был использован русский язык. Тот язык, на котором мы будем обсуждать грамматические правила или словарь русского языка, в Д- и Т-текстах, и будет метаязыком.

В том случае, если Т-языком служит естественный язык, грамматикой является та сложная система правил, изучением которой занимаются лингвисты. Формализованные языки математики и логики используют иную, более примитивную и вместе с тем более регулярную грамматику, основу которой составляют правила преобразования одних выражений Т-языка в другие .

Приведём общую характеристику языка (прежде всего языка формализованного), данную современным американским логиком Х.Б. Карри: Язык в наиболее общем смысле определяется двумя видами соглашений. Во-первых, задаётся алфавит, т. Е. некоторый запас предметов, называемых символами (или буквами), которые могут производиться в неограниченном количестве в печатном тексте или как фонемы речи. Во-вторых, имеются правила, определяющие формирование определённых комбинаций, называемых выражениями или словами, из букв алфавита. Вообще выражения являются произвольными линейными последовательностями букв, в которых допускаются повторные вхождения; в этом случае язык будет называться линейным языком. (Таким образом, в линейном языке, алфавит которого состоит из трёх символов А, В, С, примерами выражений будут: А, АВСВА, ВССАА, АВСВАВССАА.)».

Характер грамматики языка определяется выбором исходных единиц (например, некоторые виды грамматик выделяют определённое число слов в качестве исходных единиц или аксиом) и правилами преобразования.

Среди различных типов грамматик наибольший интерес для нас представляет система, обладающая сложным алфавитом с несколькими категориями букв, с выделенным набором слов, из которых путём применения правил преобразования образуются все другие слова и, наконец, правила преобразования в виде подстановки и modusponens, т. е. аксиоматическая система.

Поскольку здесь используется понятие формального языка (формальным может быть Д-язык или Т-язык) и наряду с этим рассмат-

риваются содержательные области теории, соответствующие формальному языку, то будет удобным ввести особый термин, обозначающий интерпретацию некоторой формальной системы (текста на формальном языке). Итак, если дан формальный язык (формализм) F, то любую из его интерпретаций будем называть моделью формального языка F. Понимание модели как интерпретации формальной системы лежит в традициях логики и алгебры, но расходится с традициями кибернетики и математической лингвистики, где этот термин означает формальную систему, построенную для некоторой содержательной области.

Крайним случаем языка (в частности, Т-языка) является направленный на текст генератор, т. е. язык, на котором может быть написан единственный текст. Для нашего случая можно говорить о направленном (на текст) Т-генераторе. Очевидно, что объяснение Д-текста может быть осуществлено Т-генератором. Для предсказания (т. е. предикации) новых высказываний расширенного Д-текста (это расширение связано с расширением объекта) уже недостаточно Т-генератора. С другой стороны, Т-язык в силу своего устройства может оказаться слишком широким для одной гипотезы (на нём может быть записано множество различных гипотез). Поэтому следует предположить существование промежуточного типа языка, лежащего между Т-генератором и Т-языком, который может быть предварительно назван ограниченным Т-языком. В отличие от Т-генератора, ограниченный Т-язык обладает комбинационными способностями, достаточными для предикации, и в отличие от Т-языка ограниченный Т-язык носит более специализированный характер, адекватнее выражая исходный объект. Не вполне ясен характер тех ограничений, которыми должен характеризоваться ограниченный Т-язык. Не исключено, что приближение к объекту должно обеспечиваться созданием комплексов языков, т.е. наложением на Т-язык дополнительных языков.

Построение формального Т-языка для некоторой области, например, для лингвистики, связано с большими трудностями. Как и при формальном описании любой эмпирической науки, следует ожидать, что нам придётся столкнуться с проблемой комплементарных областей, формально проявляющейся в том, что для описания Т-текста потребуется не один Д-язык, но целый комплекс Д-языков, дополняющих друг друга. В этом отношении примечательны слова Макса Борна, обращенные к философам: «Имеет ли какое-нибудь значение для решения этой проблемы (философского описания мира-Ю.Л.) гносеологический урок, преподанный нам физикой? Я думаю, что да, ибо он показывает, что даже в ограниченных областях описание всей системы в единственной картине невозможно. Существуют дополнительные образы, которые одновременно

ременно не могут применяться, но которые тем не менее друг другу не противоречат и которые только совместно исчерпывают целое». С этой же проблемой связана наменитая теорема Гёгеля о неполноте непротиворечивой формальной системы; суть этой теоремы состоит в том, что такая система неизбежно содержит формулы, истинные при интерпретации, но недоказуемые в пределах самой системы.

Оба принципа, т.е.принцип дополнительности (комплементарности) и результат Гёделя, непосредственно связаны с содержанием настоящей книги, а именно с проблемой комплексных формализмов и с дихотомией содержательной и формальной зон.

Итак, вышеприведённые соображения свидетельствуют о возможности того, что Т-язык лингвистических гипотез может оказаться комплексным, состоящим из комплементарных формализмов, а также и о том, что теорию в широком смысле не следует сводить к набору формализмов, но разумнее оставить наряду с формализмом несколько более содержательную, хотя и достаточно зыбкую область, чтобы иметь возможность наблюдать кристаллизацию формализмов из некоторого питающего их насыщенного раствора.

## ЛИТЕРАТУРА

1. Лекомцев Ю.К. Введение в формальный язык лингвистики. Издательство «Наука», Москва: 1983, с.264.
2. Иностранные языки в школе. Москва: «Просвещение» №2, 1988, с.21-26.
3. Иностранные языки в школе. Москва: «Просвещение» №5, 1988. с.53-56.

**UOT 378**

## AUDİTORİYADANKƏNAR TƏLƏBƏ MÜSTƏQİL İŞİNİN İMKAN VƏ YOLLARI

***S.E.İsmayılova***
*Bakı Dövlət Universiteti*
*sabka567@mai.ru*

***Açar sözlər**: tələbə, bilik, bacarıq, müstəqil iş, tədqiqatçılıq.*

Məqalədə tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsindən, auditoriyadankənar müstəqil işlərin növlərindən, yazılma qaydalarından, tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsində auditoriyadankənar məşğələlərin rolundan və s. bəhs olunur.

Tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi sayəsində onlarda azad, müstəqil düşüncə, tənqidi təfəkkür, müqayisə və təhlil, optimal qərarların qəbul edilməsi və.s. kimi bacarıqlar formalaşır ki, bu da təhsilin və tədrisin keyfiyyətinə müsbət təsir göstərir.

## ПУТИ И ВОЗМОЖНОСТИ САМОСТОЯТЕЛЬНОЙ ВНЕАУДИТОРНОЙ РАБОТЫ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

***С.Э.Исмайлова***

***Ключевые слова**: студент, знания, умение, самостоятельная работа, исследование.*

В данной статье рассматривается вопросы о развитие исследовательских навыков, видах внеаудиторной деятельности, правилах написания, роли внеаудиторной деятельности в развитии исследовательских навыков студентов и т.д.

Благодаря развитию исследовательских навыков у студентов формируются способности свободного, независимого, критическое мышления, сравнения и анализа, принятия оптимального решения и т.д., что в свою очередь оказывает положительное влияние на качество образования и обучения.

## OPPORTUNITIES AND OPTIONS FOR AN INDEPENDENT EXTRA-CURRICULAR ACTIVITIES OF STUDENTS

***S.E.Ismayılova***

***Keywords****: student, knowledge, skill, independent work, research*

In this article is dealt about the development of research skills, kinds of extra-curricular activities, writing rules, the role of extra-curricular activities in the development of research skills of students etc.

Expense at students’ development of research skills, ensure them the ability of free independent and critical thinking, comparison and analysis, making optimal decision that skills are formed and make positive effect on quality of education and training.

Müasir cəmiyyətimiz üçün öndə gedən problemlərdən ən vacibi gənc nəslin təlim-tərbiyəsi, onların gələcək həyat fəaliyyətlərinə hazırlanmasıdır. Bu problemlər təhsilin məzmununun dünya təhsil sisteminə inteqrasiya edilməklə, gənc nəslin elmi dünyagörüşü, mənəvi dünyasının zənginləşməsi, yeni pedaqoji və informasiya-kommunikasiya texnologiyalarına yiyələnməsi, insanların yaradıcılıq, axtarıcılıq, tədqiqatçılıq vəs. potensiyallarının inkişaf etdirilməsi şəraitində həyata keçirilməsi mümkündür. Bunlar düzgün şəkildə həyata keçirilərsə, cəmiyyətin sosial-iqtisadi, siyasi, mədəni həyatında da əhəmiyyətli irəliləyişlər baş verə bilər [5, 347].

Məlumdur ki, müasir təhsil sistemi tələb edir ki, təhsilalanlar tərəfindən əldə edilən biliklər hazır şəkildə deyil, tədqiqat xarakteri daşımalıdır. Artıq nəzəri biliklərdən də çox praktik biliklərə üstünlük verilmişdir. Praktik biliklərin tələbələrin tədqiqatçılıq, yaradıcı-müstəqillik qabiliyyətlərinin inkişafında özünəməxsus yeri vardır.

Tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi günümüzün ən aktual problemlərindəndir. Bu məsələ ilə bağlı ölkədə bir sıra sərəncamlar, proqramlar təsdiq edilmişdir.

Tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi sayəsində onlarda azad, müstəqil düşüncə, tənqidi təfəkkür, müqayisə və təhlil, optimal qərarların qəbul edilməsi və.s. kimi bacarıqlar formalaşır ki, bu da təhsilin və tədrisin keyfiyyətinə müsbət təsir göstərir.

Tələbələri tədqiqat işlərinə cəlb etməyin aşağıdakı yolları vardır:

- Tələbələrdə tədqiqatçılığa maraq yaradılması;
- tələbələrin intellektual qüvvələrinin, potensial imkanlarının nəzərə alınması və inkişaf etdirilməsi;
- tədqiqatçılıq işi üçün əlverişli şəraitin və elmi mühitin yaradılması;

- müasir texnika və texnologiyalarından istifadə etmək bacarığının formalaşdırılması;
- ciddi elmi fəaliyyət rejiminin yaradılması;
- Zehni əməyin elmi təşkilini yaratmaq;
  tələbələrdə qətiyyət, işgüzarlıq kimi iradi keyfiyyətlərin inkişaf etdirilməsi və s. [ 4, 17].

Tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsində auditoriyadankənar məşğələlər böyük rol oynayır. Belə ki, onlar həqiqətən də sərbəst olaraq yaradıcılıq imkanlarını açır və ondan geniş istifadə edə bilirlər. Bir çox tələbələr müəllimlərin verdikləri mühazirə mətnləri ilə kifayətlənmir, öz asudə vaxtlarını kitabxanalarda keçirdir, bundan başqa internetden istifadə etməklə bir çox məlumat əldə edirlər. Təbii ki, bu prosesdə müəllimlər də tələbələrə kömək etməli, onlara düzgün istiqamət verməlidir.

III-IV kurslarda pedaqoqun əsas məqsədi tələbələrin aşağı kurslarda əldə etdikləri müstəqillik vərdişlərinə istinad edərək yaradıcı təfəkkürünü formalaşdırmaq, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməkdir. Bu məqsədə nail olmaq üçün o, həm auditoriya məşğələlərinin, həm də auditoriyadankənar işlərin imkanlarından istifadə etməlidir [4, 100].

Ali təhsil təcrübəsində auditoriyadankənar müstəqil işlərin növləri çoxdur. Bura ev tapşırıqları, laborator işlərin tərtibinin başa çatdırılması, mühazirəyə, seminara, məsləhətə hazırlıq, kompüterdə iş, referat, kurs işləri, buraxılış işləri və s. daxildir.

Məlumdur ki, tələbələrdə yaradıcılığın başlanğıcı, müstəqil idrak vərdişləri formalaşdırılması üçün auditoriyada və auditoriyadankənar məşğələlərin bütün formaları böyük əhəmiyyət daşıyır. Bu təlim formaları, əsasən, tələbələrdə araşdırıcı təşəbbüskarlığını, müstəqil düşünmə və fəaliyyət meylini oyatmağa, məsələnin həllinə yaradıcı yanaşma hissi aşılamağa yönəldilib.

Müstəqil işin bütün növ və formaları tələbənin idrak fəaliyyətinin mühüm bir tərkib hissəsini təşkil edir. Onun müvəffəqiyyəti müstəqil hazırlıq üçün istifadə edilən vaxt büdcəsinin düzgün bölüşdürülməsindən və həmin vaxtdan səmərəli istifadə etməklə meydana çıxır.

Ali məktəblərdə tələbələrin müəyyən qismi dərnəklər, konfranslar, müsabiqələr, sərgilərdə iştirak edir, öz elmi işlərini təqdim edirlər. Təbii ki, bu işdə də müəlimlər tələbələrə öz köməkliklərini əsirgəmir, onlara istiqamət verir, tezis və məqalələrin yazılma qaydalarını izah edirlər. Buna misal olaraq Pedaqogika kafedrasının hər il may ayında keçirdiyi Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilən konfransında bir sıra tələbələrin tezis və məqalələrlə çıxışını göstərmək olar.

Müəllimin tələbələri tədqiqatçılığa cəlb etməyinin müxtəlif yolları vardır.

- tələbələri müstəqil fəaliyyətlərə cəlb etməklə;

- tələbələri konfranslara, seminarlara, tədbirlərə, klublara və.s. cəlb etməklə
- tələbələri müxtəlif beynəlxalq lahiyələrdə iştirakını təmin etməklə;
- yeni pedaqoji və informasiya-kommunikasiya texnologiyalarını düzgün və sistemli şəkildə tətbiq etməklə və.s. [1, 8].

Müəllim aşağıdakı məsələləri nəzərə almaqla tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin aşkar və inkişaf etdirə bilər:

1. Tələbə qrupları elektron dərslik və şəbəkə kompüter sistemi ilə təchiz edildikdə;
2. tələbələri öyrənmə mahiyyətinin öz üzərlərinə götürmələrinə həvəsləndirdikdə, onlarda maraq yaratdıqda;
3. təhsilalanları aktiv düşünməyə cəlb etdikdə;
4. müxtəlif öyrənmə imkanları, metod və strategiyaları təklif etdikdə;
5. tələbələrin ideya və fərziyyələrini dəyərləndirdikdə və obyektiv qiymətləndirmək üçün şərait yaratdıqda;
6. tələbələri konfranslara, simpoziumlara, dərnəklərə və.s kimi tədbirlərə sövq etdikdə;
7. tələbələri müstəqil fəaliyyətlərə cəlb etdikdə və.s. [1, 12].

Ali məktəbdə tələbə müstəqil işlərinin elmi tədqiqat işi səviyyəsinə qalxmasında elmi dərnəklərin, klubların, tələbə elmi cəmiyyətlərin də müstəsna rolu vardır. Bütün bunlar tələbələrin müstəqil fəaliyyət vərdiş və bacarıqlarına yiyələnməsinə şərait yaradır.

Tələbə elmi cəmiyyətlərinin aşağıdakı vəzifələri vardır:

- Tələbələrin elmi-tədqiqat işlərinə cəlb edilməsi;
- tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliğ edilməsi;
- tədqiqatların aparılmasına gənclərin marağının artırılmasına köməklik göstərilməsi;
- gənclərin məqsədyönlü şəkildə elmi-tədqiqat və elmi-təşkilati işinə, yüksək texnologiyaların mənimsənilməsinə cəlb edilməsi;
- digər ali təhsil müəssislərinin TEC-ləri ilə əməkdaşlığının həyata keçirilməsi;
- müxtəlif səviyyəli tədbirlərin- elmi seminar, konfranslar, tələbə elmi işlərinə müxtəlif ixtisas və fənlər üzrə olimpiadalar, diskussiya klubları, simpoziumlar, tanınmış alimlərin seminar və mühazirələrinin dinlənilməsi və.s. tədbirlərin təşkili və keçirilməsində tələbələrin iştirakının təmin edilməsi;
- tələbələrin innovasiya fəaliyyətinə cəlb edilməsi və s. [2, 3].

Tələbə müstəqil işinin ən yüksək forması buraxılış işi və magistr dissertasiyasıdır.

Buraxılış işi tələbənin müstəqillik bacarığının nümayişi, müstəqil iş sisteminin son mərhələsidir. Çünki tələbə öyrəndiklərinə, əldə etdiyi fəaliyyət keyfiyyətlərinə əsaslanaraq, bilik, bacarıq sərf edərək, müstəqil yaradıcı işi olan buraxılış işini meydana qoyur.

Tələbə müstəqil işinin ən yüksək forması magistr dissertasiyasıdır. Adından göründüyü kimi, magistr dissertasiyası tələbənin tam yaradıcı fəaliyyətinin, müstəqil elmi-tədqiqi axtarışlarının, elmi ümumiləşdirilmiş nəticələrinin sistemli təqdimatıdır. Magistr bu elmi işi müstəqil yerinə yetirsə də, bu işdə ona bir sıra mütəxəssislər, alim və pedaqoqlar köməklik göstərir [4, 115].

Beləliklə, məqalədən belə nəticəyə gəlirik ki, tələbə müstəqil işlərinin əsası auditoriya məşğələlərində qoyulur və genişlənərək, varislik və ardıcıllıq əsasında auditoriyadankənar müstəqil işlərlə bir sistem təşkil edir. Bu sistemdə olan imkanlar və yollar görülən bütün işlərin əsasını təşkil edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı, Bakı: 2006, 20 s.
2. "Ali təhsil müəssisələrində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında" əsasnamə. Bakı: 2014, 27 iyun, 5s.
3. Ağayev Ə. Azərbaycan ictimai-pedqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: 2005, 155s.
4. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005, 155s.
5. Qasımova L.N, Mahmudova R.M. Pedaqogika. (Dərslik) Bakı: BDU, 2012, 548 s.

**UOT 94(479.24)**

# ÇUXUR- SƏD BƏYLƏRBƏYİLİYİNDƏ ŞƏRTİ BAĞIŞLAMA İNSTİTUTU VƏ ONUN TƏZAHÜR FORMALARI

***V.B.Baxışov***
*ADPU-nun Şəki filialı*
*ofis_dpseki@mail.ru*

**Açar sözlər:** *Səfəvilər, dövlət, Çuxur-Səd, bəylərbəyilik, əraziy-i- divani, əraziy-i-xassə, əraziy-i xassey-i-şerife, vəqf, əraziy-i-mokufe, mülk, ərbabi, icma, camaat-i-deh, xass, soyurqal, tiyul, tənxah, həmsalə, yeksalə*

# ИНСТИТУТ УСЛОВНОГО ДАРЕНИЯ И ФОРМЫ ЕГО ПРОЯВЛЕНИЯ В ЧУХУР-СААДСКОМ БЕГЛЯРБЕКСТВЕ

***В.Б.Бахышов***

**Ключевые слова:** *Сефевиды, государство, Чухур-Саад, беглярбекство, арази-и дивани, арази-и-хассе, арази-и хассе-и-шерифе, арази-и-мокуфе, мюльк, арбаби, иджма, джамат-и-дех, хасс, сойургал, тиюль, танхах, йексале.*

В представленной статье повествуется об институте условного дарения в Чухур-Саадском беглярбекстве, являющемся составной частью Сефевидского государства, его значении и формах проявления. В статье на основе представленных в исторических источниках сведений подробно говорится о таких широко применяемых в изучаемый период формах проявления условного дарения как интситуты сойургал, тиюль, танхах, хамсале и йексале, а также указывается их место в экономической системе Сефевидского государства в целом.

# CONDITIONAL DONATION INSTITUTIONS IN THE CHKUHUR-SAD BAYLARBAYI AND ITS MANIFESTATION FORMS

***V.B.Bakhishov***

***Keywords:*** *Safavids, state, Chukhur-Sad, Baylarbayi, araziy-i-divani, araziy-i-khassa, araziy-i khassey-i-sharifa, vagf, araziy-i-mokufe, mulk, arbabi, ijma, jamaat-i-deh. Khass, soyurgal, tiyul, tankhah, hamsala, yeksala.*

The submitted article is about the conditional donation institutions, its main points and other manifestation forms in the Chukhur-Sad baylarbayi located in historical Azerbaijan which was the part of the Safavid State. There is detailed information about the scope of soyurgal, tiyul, tankhah, hamsala and yeksala institutions which have been studied as the manifestations forms of conditional donations based on the historical sources of that period, as well as its role in the Chukhur-Sad baylarbayi and generally in the economic system of the Safavid State.

Tədqiq olunan dövrə aid tarixi qaynaqlarda əks olunmuş məlumatlara əsasən Çuxur-Səd bəylərbəyiliyində, həmin bəylərbəyiliyin bağlı olduğu Səfəvilər dövlətində olduğu kimi beş növ – «dövlət» (əraziy-i-divani), şah ailəsinin şəxsi domeni olan «xassə» (əraziy-i-xassə, əraziy-i xassey-i-şerife), dini təsisatlara məxsus olan «vəqf» (əraziy-i-mokufe), ayrı-ayrı şəxslərə məxsus olan «mülk» (ərbabi) və nəhayət, kənd icmalarının istifadə etdikləri «icma» (camaat-i-deh) torpaq mülkiyyəti formalarının mövcud olduğunu söyləmək olar [1, 78]. Qeyd olunan mülkiyyət formalarının hər biri mürəkkəb daxili quruluşa malik olmuş, zaman-zaman dəyişikliklərə məruz qalmışdır. Fikrimizcə, əslində yuxarıda sadalanan mülkiyyət formalarına bu vaxta kimi ənənəvi yanaşılan formada – yalnız torpaq mülkiyyəti formaları kimi baxmaq yanlış olardı. Dövrə aid tarixi qaynaqların hərtərəfli tədqiqi zamanı sadalanan mülkiyyət formalarının tərkibinə təkcə yaşayış məntəqələri və əkin sahələrinin deyil, örüşlərin, üzümlüklərin, meyvə bağlarının, dinglərin, dəyirmanların, hamamların, dükan, emalatxana və karvansaraların və s. digər bütün növdən olan daşınmaz əmlakın, eləcə də bu və ya digər gəlirgətirən obyekt üzrə toplanan vergi növlərindən birinin və ya bir neçəsinin, onların müəyyən hissəsinin toplanması hüququnun şamil edildiyini görürük ki, sonuncunu daha çox şərti bağışlama institutuna və mülk kateqoriyasına aid etmək olar.

Göründüyü kimi tədqiq edilən dövrdə sadalanan mülkiyyət formalarından başqa şərti bağışlama institutu da mövcud idi. Şərti bağışlama təsisatı torpaq sahibliyi münasibətlərinin bərqərar olduğu ilk dövrlərdən dövriyyəyə

daxil olmuşdur. Bu mənada Sasani iqtisadi sisteminin əsas atributlarından olan «xostaq» [2, 75] «şərti bağışlamanın» ilk təzahür forması hesab edilə bilər. İctimai quruluş daxilindəki təkamül bu təsisatdan da yan keçməmiş, zaman keçdikcə ictimai münasibətlər sistemində baş vermiş yeni keyfiyyət dəyişiklikləri «şərti bağışlama» təsisatının həm adında, həm də mahiyyətində xeyli dəyişikliklərin meydana çıxmasına səbəb olmuşdur. Başlanğıcda irsən keçməyən, benefisiya formasında təzahür edən bu təsisat, sonralar irsən keçən hərbi len səviyyəsinədək inkişaf etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi burada şərti bağışlama institutunu ayrıca kateqoriya kimi göstərməyimizin əsas səbəbi onun «dövlət» və ya «xass» mülkiyyəti hesabına formalaşdırılmasıdır. Yəni «soyurqal» və «tiyullar» «dövlət» və ya «xass» əmlakı hesabına paylanır və formalaşır, bununla da keyfiyyətcə yeni bir mülkiyyət növü meydana çıxırdı.

Səfəvilər dövlətində bütün kateqoriyalara aid olan - divan, xass, mülk, vəqf və icma torpaqları, onlardan əldə edilən renta üzərində ali idarəçilik hüququ şaha məxsus idi. Yalnız «şah mərhəmətinin təzahürünün nəticəsi» olaraq bu və ya digər şəxsə həmin əmlakın müəyyən bir hissəsi şərti olaraq (irsi və ya müvəqqəti əsaslarla) bağışlana bilərdi. Tarixi qaynaqlarda əksini tapmış məlumatlarla tanışlıq və həmin məlumatların təhlili və müqayisəsi nəticəsində tədqiq olunan dövrdə vətəndaşlara ictimai mövqeyi, eləcə də dövlət qarşısında xidmətləri müqabilində verilən «şərti bağışlama» təsisatının geniş yayıldığının, divan əmlakının və xəzinənin sərəncamına verilmiş digər gəlirlərin (bura «mülk» və «icma» ərazilərindən, eləcə də digər mənbələrdən xəzinəyə daxil olmalar da aid idi) bir sıra siyasi məqsədlərə uyğun şəkildə «şərti bağışlama» yolu ilə özgəninkiləşdirildiyinin şahidi oluruq.

XVI əsrin əvvəllərindən başlayaraq, əvvəlki dövrlərdə, xüsusilə XIV-XV əsrlərdə geniş yayılmış «soyurqal» təsisatının mahiyyətində keyfiyyətcə yeni dəyişikliklərin meydana çıxması və eyni zamanda onun tətbiqi coğrafiyasının xeyli daralması, şərti bağışlamanın yeni forması olan «tiyul»la əvəz olunması təmayülünün şahidi oluruq. Fikrimizin təsdiqi üçün «Təzkirət-əl mülük»də verilmiş rəqəmlərə müraciət edək. Həmin qaynağın məlumatına əsasən bütün Səfəvilər dövləti üzrə soyurqallardan əldə edilən ümumi gəlir 367778 800 dinar [3,109] təşkil etdiyi halda, tiyullardan bundan 10 dəfə (3753.663000 dinar), həmsalelərdən isə 3 dəfə çox (1165302400 dinar [3,107] gəlir əldə edilirdi. «Tiyul»un «şərti bağışlamanın» digər növlərinə nisbətən üstün mövqe tutmasını şərtləndirən əsas səbəblərdən biri Səfəvi şahlarının daim can atdıqları mərkəzləşdirmə siyasəti idi. «Soyurqal»ı şərti bağışlamanın son təzahür forması hesab edilə bilən «tiyul»dan fərqləndirən əsas cəhət «şah mərhəməti» göstərilmiş şəxslərə bəxş edilmiş ərazilərdən əldə edilmiş gəlirləri mənimsəməklə yanaşı, onlara müvəqqəti, ömürlük ya da irsi idarəçilik və məhkəmə toxunulmazlığı hüququnun verilməsi idi. Bu zaman «soyurqal»,

«müaf» təsisatı ilə çulğaşaraq sahibinə mərkəzi hakimiyyətdən demək olar ki, minimal asılılığı qəbul etməklə tam müstəqil siyasət yeritməyə imkan verirdi. Soyurqal sahibinin mərkəzi hakimiyyətdən minimal asılılığı isə hərbi səfərlər zamanı onun (soyurqal sahibinin) qoşun növü olan «çəriyə» müəyyən sayda, tam təchiz edilmiş əsgəri qüvvə təqdim etmək öhdəliyində öz əksini tapırdı. Hətta bir çox hallarda mərkəzi bürokratik aparatın nümayəndələrinin soyurqal ərazilərinə xidməti səfərləri də qadağan edilirdi. «Qoy onlar (vəzifəli şəxslər - V.B.) qələmlərini və ayaqlarını qısaltsınlar və onlar (soyurqal torpaqları) ətrafında veyillənməsinlər.» [1, 165]. «Şah mərhəmətinin» nəticəsində verilən bu kimi üstünlüklər soyurqal sahibinin iqtisadi-siyasi müstəqillik əldə etməsi ilə nəticələnirdi. Tiyuldarlar (tiyul sahibləri) isə nəzəri cəhətdən belə üstünlüklərə malik deyildilər, yalnız ona tiyul edilmiş məntəqədən toplanan bir sıra xəzinə vergiləri hesabına şah fərmanında göstərilmiş məbləği əldə etməyə səlahiyyətli idilər. Yəni, «şərti bağışlama» təsisatı irsən keçən hərbi lendən, tiyulun simasında orta çağların başlanğıcında olduğu kimi daha çox bağışlanılmış ərazilərin gəlirlərinin mənimsənilməsini nəzərdə tutan benefisiya səciyyəsi kəsb etməyə başlamışdı. Beləliklə, hakimiyyət orqanları iqtisadi maraqları siyasi hakimiyyətdən ayırmaqla əhalini «mərhəmət» sahiblərindən müstəqil vəziyyətə gətirməyə, siyasi və iqtisadi alətlərin onların əlində təmərküzləşməsinin qarşısını almağa, bununla da mərkəzdənqaçan qüvvələrə qarşı mübarizənin səmərəliliyini artırmağa cəhd göstərirdi. Doğrudur, bir sıra digər amillər (iqtisadi əlaqələrin zəifliyi və natural təsərrüfatın qismən də olsa, hələ də mövcudluğu) dövlət ərazisində bütövlükdə iqtisadi-siyasi bütünləşməni təmin edə bilmədi. Bunun da siyasi nəticələri sonrakı dövrlərdə, xüsusilə XVIII əsrin sonunda - XIX əsrin I rübündə Azərbaycan məkanında özünü açıq surətdə büruzə verdi. Məhz bu amillər nəzərə alınaraq XVI əsrdən etibarən soyurqal təsisatı tiyulla əvəz edilməyə başlandı. Bununla belə, birmənalı olaraq «soyurqal»ın həmin andan etibarən tamamilə dövriyyədən çıxdığını söyləmək düzgün olmazdı.

Qaynaqlarla tanışlıq zamanı Səfəvi şahları tərəfindən həm XVI əsrdə, həm də daha sonralar soyurqal təqdim edilməsi barədə fərmanların verilməsinin şahidi oluruq. Bu dövrdə soyurqalların daha çox əhalinin ruhani zümrəsinə təqdim olunması müşahidə edilir [1, 159]. Fransız səyyahı J.Şardən Səfəvi dövlətində özgəninkiləşdirilmiş əmlak hesab edilə bilən və uzun illər ərzində ali ruhanilərə nəsildən-nəslə, irsi olaraq ötürülən, «soyurqal» adlanan benefisiya növünün olması haqqında məlumat verir [4, 66; 5, 180]. Səfəvi fərmanlarının bir qismində əvvəlki şahlar tərəfindən verilmiş soyurqalların hüquqi qüvvəsinin təsdiqi öz əksini tapırdısa, digər qisim fərmanlarda soyurqal öz klassik mahiyyətini deyil, daha çox tiyulun daşıdığı mənanı əks etdirir, soyurqal sahibinə ona bəxş edilmiş ərazilərdə mülki idarəçilik və məhkəmə toxunulmazlığı hüququnun verilməsi nəzərdə tutulmur, «şah mərhəməti» göstərilmiş şəxslərə yalnız

soyurqal ərazilərindən xəzinə vergilərinin müəyyən bir hissəsini əldə etmək hüququ verilirdi. Burada əsas diqqət yetirilən məqam soyurqal ərazisindən əldə edilən gəlir idi. Məhz həmin məqam bu qəbildən olan soyurqalın tiyulla demək olar ki, eyni, ortaq əsaslara malik olduğu mülahizəsini irəli sürməyə imkan verir. «Soyurqal»ın və «tiyul»un ümumi (ortaq) əsasının olduğu fikrini irəli sürən N.Filroze də bu təsisatların hər ikisində dövlət tərəfindən yeni sahibkarlara verilmiş torpaqlardan əldə edilmiş gəlirin əhəmiyyət daşıdığını qeyd edir [5,186]. Bu qəbildən olan fərmanlar daha çox «soyurqal» təsisatının mövcudluğunun son mərhələsində (XVII əsrin sonunda - XVIII əsrin əvvəllərində) verilirdi. Bu baxımdan şah II Abbas tərəfindən hicri 1057-ci ilin məhərrəm (6 fevral-7 mart 1647) ayında verilmiş fərman diqqəti cəlb edir. Fərmanla Xaçen vilayətindən toplanan 45358 dinar miqdarında «malcəhət» və «vücuhatın» böyük qorçilərdən olmuş Göyçə bəyə soyurqal edilməsi haqqındakı əvvəlki şah fərmanı yenidən təsdiqlənirdi [6, 355]. Fərmanda soyurqal sahibinə həmin məntəqədə irsən keçən mülki idarəçilik və məhkəmə toxunulmazlığı hüququnun verilməsi haqqında bəhs olunmur, yalnız məntəqədən toplanan, yuxarıda adı çəkilən vergilər hesabına müəyyən edilmiş məbləğin məvacib əvəzinə həmin şəxsə ödənilməsi nəzərdə tutulur («sonuncu məvacib olaraq divandan heç bir tələbdə bulunmasın») [6, 355], divanın səlahiyyətli şəxslərinə Göyçə bəyə «tənxah» olaraq hər hansı bir məbləğin ödənilməməsi tapşırılır [6, 356].

Tədqiq olunan dövrdə «şah mərhəmətinin» geniş yayılmış təzahür formalarından biri də dövlət qulluqçularına, hərbi və mülki vəzifəli şəxslərə xidmətləri və ictimai mövqeləri nəzərə alınmaqla, xəzinə nəfinə toplanan vergilər hesabına müəyyən məbləğin məvacib kimi və ya məvacib əvəzi, ya da mükafat olaraq «tiyul» şəklində təqdim edilməsi idi. «Tiyul» iqtisadi dövriyyəyə daxil olduğu andan geniş tətbiq olunmağa başlanmışdı. «Tiyul»un «şərti bağışlamanın» digər növlərindən fərqli olaraq irsi səciyyə daşımaması onu hakim dairələr üçün cəlbedici edən başlıca amilə çevirmişdi. İ.P.Petruşevski «tiyul»un dövlət qulluğu, hərbi və mülki xidmət müqabilində təqdim edilən benefisiya növü olduğunu qeyd edir. «Tiyul» istilahı Orta (Mərkəzi) Asiya türklərinin ədəbi dili olan cığatay türkcəsində felin məchul növündə işlədilən və dilimizə «toxunmaq», «çatmaq», «götürmək», «qismət olmaq», «payına düşmək» kimi çevrilə bilən «tiqmaq», «tiumaq» sözündən törəmişdir. Burada «tiyul» - «kiminsə payına düşmüş əşya», «gəlir götürülən əşya», «gəlir üçün bağışlanılmış nəsnə», «gəlir» anlamlarını ifadə edir. İ.P.Petruşevski Səfəvi tiyulunun müəyyən ərazilərdən toplanan torpaq vergisinin («malcəhət») və bəzən də divan nəfinə toplanmış digər yığımların (mütəvəcehat-i divani) vəzifəli şəxslərə xidmətləri müqabilində bağışlanılmasını ifadə etdiyini bildirir, bu bağışlamanın torpaq və onun üzərində yaşayan mükəlləfiyyətli əhaliyə (rəiyyətə) aid edilmədiyini göstərir [1, 188].

Yəni, bu zaman yalnız tiyul edilmiş ərazidən əldə edilən müəyyən miqdarda gəlir tiyuldara bağışlanırdı. Səfəvi dövlətində torpaqdan pul əldə etməyin iki formasının olduğunu qeyd etmiş J.Şardən bunlardan birincisinin hər hansı bir şəxsin vəzifədə olduğu müddətdə torpağa sahib olduğunu göstərir. Yəni, həmin şəxs torpaqdan əldə etdiyi gəlir hesabına məvacib almalı idi. Məvacibin ödənilməsində kəsir meydana çıxdıqda (yəni, torpaqdan əldə edilən gəlir müəyyən edilmiş məvacib və bəxşişin miqdarına müvafiq olmadıqda) bu zaman əyalət rəisi tərəfindən çatışmayan məbləğə uyğun bir qədər də torpaq təqdim edilirdi. Bunun əksi baş verdikdə (yəni, əldə edilmiş gəlir müəyyənləşdirilmiş məbləği aşdığı təqdirdə) isə artıq vəsait hesablanaraq xəzinəyə qaytarılmalı idi. Tiyulun ikinci növünə əsasən isə tiyuldarlara paylanmalı olan torpaqlar dövlət dəftərxanasının sərəncamında olurdu və burada ordunun bütün heyətinin, sənətkarların, qulluqçuların, saray xidmətçilərinin dəqiq siyahıları saxlanılırdı. Dəftərxana işçiləri bu və ya digər torpağın hansı peşə və ya fəaliyyət növü üçün hesablandığını dəqiq bilirdilər [5, 183]. Yəni, təqdim edilmiş tiyuldan əldə edilən gəlirlər müvafiq olaraq bu və ya digər vəzifə və ya peşə fəaliyyəti müqabilində müəyyənləşdirilmiş məvacibə uyğun gəlməli idi. Bu baxımdan «Təzkirət-əl-mülük»də əks olunan məlumatlar diqqəti cəlb edir. Həmin qaynağın V fəslində şah sarayında mövcud olan vəzifələrin siyahısı, hər bir vəzifəyə müvafiq məvacibin miqdarı və onların hansı mənbələr hesabına ödənilməsi haqqında dəyərli məlumatlar verilir. [3, 85-115].

Vəzifəli şəxs öldükdə və ya vəzifədən uzaqlaşdırıldıqda ona verilmiş tiyul vəzifədə onu əvəz etmiş şəxsə təqdim edilirdi. Tiyuldarlar tiyul təqdimatı ilə əlaqədar olaraq əvvəlki hökmdarlar tərəfindən verilmiş fərmanların (rəqəmlərin) yeni şah taxta çıxdıqdan sonra yenidən təsdiqi xahişi ilə ali divana müraciət edir və həmin məntəqə üzərində hüquqlarının təsbit olunduğu yeni fərman almağa nail olurdular. «Matenadaranın farsdilli sənədləri» seriyasına daxil olan sənədlər içərisində bu qəbildən olan onlarla şah fərmanına rast gəlinir. Tiyul edilmiş ərazi tiyul bəxş edilmiş şəxsin ictimai mövqeyi, məvacibinin miqdarı nəzərə alınmaqla müxtəlif ölçülərdə ola bilərdi. Böyük vilayət, şəhərlər, qəsəbələr, hətta xırda kəndlər də tiyul olaraq təqdim edilirdi. Bu halda tiyuldar ona çatacaq məbləğə müvafiq olaraq verilmiş ərazidən əldə edilən gəlirləri ya tamamilə götürür, ya xəzinə ilə, ya da başqa bir tiyuldarla paylaşırdı. Yəni, ərazidən əldə edilən gəlir yalnız tiyulnamədə göstərilən məbləği ödəməyə kifayət edərdisə, həmin gəlir bütövlükdə tiyuldara çatırdı. Bu zaman tiyulnamədə qeyd edilən məbləğə müvafiq olaraq göstərilən ərazidən xəzinə nəfinə toplanan bir və ya daha çox verginin toplanması hüququ tiyuldara verilə bilərdi [6, 353-354]. Əksinə, məntəqədən əldə edilmiş gəlir tiyulnamədə göstərilən həddi aşardısa, onda bu zaman mülkiyyət hüququ əsasında artıq gəlir ya xəzinəyə, ya da şah fərmanı ilə həmin məntəqədən bu məbləği toplamağa səlahiyyəti olan digər şəxsə çatırdı. Məsələn, Şah I Abbasın hicri 1029 (1620)-

cu ildə verdiyi fərmandan Xaçen əyalətinin Dovşanlı, Vərəndə əyalətinin Dərxas kəndindən toplanan «mal» vergisinin «müqəddəs» rəqəmlə (fərmanla - V.B.) «iyirmi dörd» tayfasının əmiri Təkəbbür sultana, həmin kəndlərdən toplanan «təfavütü-cizyə» vergisinin isə əmir Saruxan xan Qacara tiyul olaraq verildiyi aydın olur [6, 324]. Kərbi mahalının Üçkilsə kəndinin dörddə birə əsasən 21 tümən təşkil edən 5 tümən miqdarındakı «mal»ı tiyul olaraq Çuxur-Səd bəylərbəyinə verilmişdi [6, 370]. Abbasqulu sultana 21 tümən 81 dinar miqdarında müəyyənləşdirilmiş məvacib əvəzinə ödənmək üçün Quştəsif mahalının gəliri 45.640 dinar təşkil edən dörd kəndi Şah II Abbas tərəfindən hicri 1056-cı ilin zilqədə (3 dekabr 1646-7 yanvar 1647) ayında verilmiş fərmanla ona tiyul olaraq bağışlanmışdı [6, 353-354]. Həmin fərmandan Quştəsif mahalından toplanılmalı olan 72500 dinar məbləğindəki «təfavütü-cizyə» vergisinin «əbvabi-cəmə» salındığı və Qarabağ bəylərbəyinə tiyul kimi verildiyi aydın olur [6, 353-354]. Bəzən ayrı-ayrı tiyuldarlar arasında onlara bağışlanılmış məbləğin toplanılması zamanı bu və ya digəri tərəfindən başqasının hüquqlarının pozulması halında narazılıqlar yaranırdı. Məsələn, Qarabağ bəylərbəyindən şikayət etmiş Abbasqulu sultan, bəylərbəyinin tiyul hüququ əsasında toplamalı olduğu 72500 dinar məbləğindəki «təfavütü-cizyə» vergisini bütün Quştəsif mahalından yığmalı olduğu halda, 25 Təbriz tümənini ona bağışlanılmış dörd kənddən topladığını bildirir. Öz növbəsində böyük mustovfilərin rəyinə əsaslanan şah, Qarabağ bəylərbəyinin ona tiyul edilmiş məbləğin yalnız dörd kəndin payına düşən hissəsini həmin kəndlərdən toplamaq hüququnun olduğunu qeyd edir, tiyul edilmiş ərazilərin əlavə tədbirlərlə sıxışdırılmamasının vacibliyini əmirin nəzərinə çatdırırdı [6, 353-354]. «İyirmi dörd» tayfasının əmiri Təkəbbür sultan Saruxan xanın ona tiyul edilmiş kəndlərdən «təfavütü-cizyə» vergisinin toplanması zamanı sui-istifadə hallarına yol verməsi nəticəsində rəiyyətin öz yaşayış yerlərini tərk etdiklərindən və ənənəvi fəaliyyət növü olan ovçuluqla məşğul ola bilmədiklərindən şikayət edirdi [6, 324]. Təbiidir ki, qanunsuzluqlara məruz qalmış əhalinin yaşayış yerlərini tərk edərək ənənəvi fəaliyyətləri ilə məşğul ola bilməmələri nəticədə Təkəbbür sultanın gəlirlərinin azalmasına və ona tiyul edilmiş (bağışlanılmış) «mal» vergisinin toplanmasında xeyli çətinlik törədirdi [6, 325].

Xəzinə vergilərinin ayrı-ayrı vəzifəli şəxslərin nəfinə güzəştə gedilməsi zamanı həmin hüququn birillik və ya çoxillik müddətə verilməsi sənədlərdə müvafiq olaraq «yeksalə» və «həmsalə» istilahları ilə ifadə edilirdi [6, 335]. «Həmsalə» ifadəsi farscadan tərcümədə «illik» anlamını verir. «Həmsalə» təsisatı Səfəvi iqtisadi sistemində mühüm yer tuturdu. «Təzkirət-əl mülük»ə istinadən bütün Səfəvi dövləti üzrə «həmsalə»lərdən əldə olunmuş daxilolmaların 11.65302400 dinar təşkil etdiyini artıq qeyd etmişik. Həmin qaynaqda verilən məlum məvaciblər siyahısında demək olar ki, əksər vəzifəli şəxslərin gəlir mənbələrindən biri kimi «həmsalə» gəlirləri xüsusi bir bəndlə qeyd

edilmişdir [3, 85-86]. Məsələn, mustovfiyi-məmalikin həmsalədən əldə etdiyi 2533.000 dinar miqdarındakı ümumi məbləğin 125.000 dinarı ayrıca olaraq Abbasabad, Gəncə, İrəvan və Urmiya əyalətlərinin payına düşürdü [3, 90]. Həmin qaynaqda «tiyul»la «həmsalə»nin, bəzən isə «həmsalə»dən və «yeksalə»dən əldə edilən gəlirlərin ayrıca bənd vasitəsilə qeyd edilməsi [3, 85-87] bizə onlar arasında bir çox oxşar xüsusiyyətlərlə yanaşı fərqlərin də olması qənaətinə gəlməyə əsas verir. Fikrimizcə, onlar arasında olan fərqlərin sırasında başlıca olaraq «həmsalə» və «yeksalə»nin bu və ya digər şəxsə ödənilməli olan məvacib əvəzində verildiyi halda, tiyulun bu əsasla yanaşı həm də bir sıra digər görüşlərdən çıxış edilərək mükafat və s. formada təqdim edildiyini qeyd etmək olar.

«Həmsalə» əmək haqqı ödənilməsinin elə formasıdır ki, bu zaman məmura növbəti fərmanadək göstərilən ərazidən toplanan vergilər hesabına məvacibini almaq hüququ verilirdi. Məsələn, Şah II Abbasın hicri 1057-ci ilin məhərrəm (6 fevral-7 mart 1647) ayında verdiyi fərmanla Göyçə bəyə soyurqal edilməsi nəzərdə tutulan məbləğ «həmsalə» hüququ əsasında verilmişdi və fərmanın sonunda hər il yeni fərman tələb etməyə lüzum olmadığı qeyd edilirdi [6, 356]. Yəni, soyurqal edilmiş məbləğ çoxillik müddətə verilmişdi. Bu hüquqdan istifadə edən şəxslər «həmsalədar» adlanırdılar. Hakim dairələr «yeksalə»dən fərqli olaraq «həmsalə» verilməsinə daha çox üstünlük verirdilər ki, bunun da əsas səbəblərindən biri «yeksalə» təqdim edilmiş şəxsin ona verilmiş imtiyazdan süi-istifadə edərək bir il ərzində rəiyyəti maksimum istismar etməyə çalışması idi. Bu isə öz növbəsində əhalinin daha çox vergilərə cəlb edilməsi ilə nəticələnirdi. «Həmsalə»nin əsas xüsusiyyəti onun hər hansı müəyyən bir vəzifə ilə əlaqədar olmasındadır. Dövlət məmurlarnın məvacib-lərinin almalı olduqları bu və ya digər obyektlərin yerləşdiyi ərazilərə göndə-rilməsi qaynaqlarda ərəbcədən tərcümədə «ayrılmış», «götürülmüş» anlamlarını ifadə edən «itlaq» [6, 324, 356] istilahı ilə ifadə edilir. Bu zaman vəzifəli şəxsə çatmalı olan məbləğ bu və ya digər əyalət xəzinədarlığı tərəfindən hər il yazılan xüsüsi təxsisnamə («bərat», «həvalə») vasitəsi ilə ödənirdi. «Həvalə» bir növ həmin şəxslərə təqdim edilmiş zəmanət rolunu oynayırdı. Divan tərəfindən hərbçilərə və dövlət qulluqçularına verilən və «həvalə» adlandırılan zəmanət sənədi onların nümayəndələri tərəfindən məvacib kimi, nağd pul və ya ərzaq almaq məqsədi ilə göndərildikləri kənd icmasına, ya da aşağı rütbəli vergi məmurlarına təqdim edilirdi. Göründüyü kimi, «həmsalə» kimi müəyyənləş-dirilmiş məbləğ həmsalədar, yəni, təxsisnamə sahibi (ərbab-i bərat) tərəfindən deyil, dövlət vergi toplayanları vasitəsi ilə toplanırdı. Bu zaman yığılmış vəsaitin təxsisnamə sahibinə verilməsi üçün sərəncamda olduğu idarənin rəhbərliyi tərəfindən həmin şəxsin cari il ərzində həqiqi xidmətdə və ya icazəli məzuniyyətdə olduğunu təsdiqləyən şəhadətnaməni təqdim etməsi tələb olunurdu. Əgər göstərilən ərazinin gəliri təxsisnamədə göstərilən məbləği

ödəmək üçün kifayət etməzdisə, bu zaman kəsir hissə əyalət xəzinədarlığında olan azad vəsait hesabına ödənilirdi. Azad vəsait olmadığı təqdirdə ödəmə gecikirdi.

Tədqiq olunan dövrdə Çuxur-Səd bölgəsində «şərti bağışlama»nın digər növləri kimi «həmsalə» təsisatı da geniş tətbiq olunurdu. Bu bölgədə «şərti bağışlama» təsisatının geniş tətbiq olunmasının səbəbləri sırasında daim Səfəvi-Osmanlı maraqlarının toqquşduğu mərkəzlərdən biri olan çəkişən rəqiblərin bölgədə yaşayan digər nüfuzlu şəxslərlə yanaşı tayfa və əşirət rəislərinin rəğbətini qazanmaq, onların şəxsində etibarlı dayaq əldə etmək niyyətini qeyd etmək olar. Məsələn, Osmanlı ordusu Diyarbəkir ətrafında toplanaraq Azərbaycana yürüşə hazırlaşdığı zaman Səfəvi şahı dövlət torpaqlarının hərbi əyanlar və sıravi əsgərlər arasında paylanmasını nəzərdə tutan xüsusi fərman vermişdi. Bu zaman mülkiyyət hüququ dövlətin sərəncamında saxlanılsa da, paylaşılma «həmsalə» (illik) şərtlərlə həyata keçirilmişdir ki, bu isə həmin təsisatı hakim dairələr üçün cəlbedici edən əsas amillərdən hesab edilə bilər. İ.P.Petruşevskinin qənaətinə görə, «bu hüququ əldə etmiş şəxslər rəiyyətlə heç bir təmasda olmur, onlardan toplanan məbləği dövlət xəzinəsi vasitəsilə əldə edirdilər» [1, 196; 7, 133]. Səfəvilər dövləti üçün strateji əhəmiyyət daşıyan sərhəd bölgələrində, o cümlədən Çuxur-Səd ərazisində tiyul və həmsalələr təqdim edilərkən görkəmli tayfa və əşirət rəislərinə və digər nüfuzlu şəxslərə daha çox diqqət göstərilirdi. Məntəqədə Osmanlı hökmranlığı başa çatdıqdan (1606) sonra Sədlu tayfasının rəisi, yenidən şaha itaət etdiyini bildirərək «şahsevən» olmuş Əliqulu bəyin oğlu Mehdiqulu bəyə İrəvan bəylərbəyinin rəhbərliyi altında «sərhəd xidmətində can yandırması üçün» İrəvan əyalətində tiyul və məvacib («həmsalə») təqdim edilmişdi [1, 106-107]. Şah I Səfi tərəfindən hicri 1038-ci ilin zilhiccə (22 iyul-20 avqust 1629) ayında verilmiş fərmandan Şah I Abbasın hakimiyyəti zamanında (1617-ci ildə) Üçkilsə katolikosu Meliksetin [6, 323-324] hər il divana 100 tümən «peşkəş» və «təkəbbül» ödəmək öhdəliyinə əsasən ödəməli olduğu məbləğin «qalibiyyətli əsgərlərə» «həmsalə» olaraq verildiyi aydın olur. Üçkilsə monastırını bu məbləği ödəməkdən azad etmiş Şah Səfi mustovfilərə həmsalədarlara çatacaq həmin məbləği nəsə başqa bir şeylə əvəz etməyi tapşırırdı. Həmsalədarlara isə «pul tələbi ilə yeni təyin olunmuş katolikos Movsesi narahat etməməyi və ilan ilindən başlayaraq həmsalələrinin ödənməsini divan əhlindən tələb etməyə» göstəriş verirdi [6, 334-335].

Çuxur-Səd bəylərbəyi Təhmasibqulu xanın (1625-1635) mülkləri sırasında müsadirə edilərək divanın sərəncamına verilmiş əmlak öncə «tənxah», sonra isə «həmsalə» hüququnda Azərbaycan vilayəti vəzirinə təqdim edilmişdi. Onun ölümündən sonra isə həmin əmlak «həmsalə» hüququ əsasında bəylərbəyi Məhəmmədqulu xana (1639-1647) verilmişdi [6, 361-362].

Dövlət qulluqçularına məvacib şəklində ödənilən vəsait bir sıra hallarda

qaynaqlarda «tənxah» [6, 356] istilahı ilə ifadə edilir. Bu istilah farscadan tərcümədə «məbləğ», «nağd pul» anlamlarını ifadə edir [8, 620]. A.D.Papazyan bu istilahın müasir fars dilində «var-dövlət», «əmtəə», «böyük məbləğli kapital» anlamlarında işlədildiyini qeyd edir. Bu istilah XVII-XVIII əsrlərdə olduğu kimi, hal-hazırda da İranın bəzi kənd rayonlarında var-dövlət və nağd pulu əvəz edən ekvivalent əmtəə anlamlarında işlədilməkdədir. «Tənxah» istilahı XVII əsrə aid olan sənəd və qaynaqlarda əhalidən xəzinə nəfinə toplanan vergilər hesabına hərbçilər və ya mülki məmurlara məvacib kimi, ya da məvacib əvəzi ödənilən vəsait mənasında işlədilirdi. Bu istilaha sənədlərdə «tənxa-i məvacib» (məvacib məbləği) formasında rast gəlinir [6, 323]. «Təzkirət-əl-mülük»də böyük məmurun (əmir) həmsalə və yeksalə şəklində verilmiş nağd puldan (tənxahdan) 100 dinar gəlir əldə etdiyi qeyd edilir [3, 86]. Göründüyü kimi, «tənxah»la «həmsalə» və «yeksalə»nin bir sıra ortaq cəhətləri vardır. Sadalananların hər üçü məvacib ödənilməsinin xüsusi forması idi, ödəmələrin natura ilə yanaşı əsasən daha çox nağd formada aparılması kimi müştərək xüsusiyyətlərə malik olmuşdur. Qeyd olunan oxşarlıqlar həmin istilahların sinonim olmaqla, eyni iqtisadi mahiyyət kəsb etməsi anlamına gəlməməlidir. Qaynaqlarla daha yaxından tanışlıq «tənxah»ın birdəfəlik ödəniş forması olduğu qənaətinə gəlməyə əsas verir. Belə ki, «tənxah»ın təqdim edildiyi şəxslər müəyyənləşdirilmiş məvaciblərini almaq üçün hər il divana müraciət etməli idilər. «Həmsalə» isə bunun əksinə olaraq çoxillik müddətə təqdim edilir, növbəti fərmanadək hüquqi qüvvəsini saxlayırdı. «Həmsalə»lərin təqdim olunması haqqındakı fərmanlarda həmsalədarın bundan sonra «tənxah» (tənxah-i məvacib) və «marsumat» tələbi ilə divana müraciət etməmələri qeyd edilirdi. «Həmsalə» və «tiyul» sahiblərindən fərqli olaraq «tənxah»ın təqdim edildiyi şəxslər birbaşa divana bağlı idilər. İl ərzində məvaciblərini hansı məntəqədən almalı olduqları mustovfilər tərəfindən müəyyənləşdirilirdi. Digər tərəfdən «tiyul» və «həmsalə»lərin təqdim olunması haqqında verilən fərmanlarda tiyuldarların və həmsalədarların il ərzində əldə etdiyi gəlirlərin hansı hissəsinin nağd, hansı hissəsinin isə natura şəklində toplanmalı olan vergilər hesabına ödənməsi mütləq şəkildə göstərilirdi. «Tənxah» verilməsini nəzərdə tutan fərmanlarda isə yalnız məvacibin məbləği göstərilir, mustovfilərə həmin məbləği kitablara qeyd edərək hər il hər hansı bir obyektdən ödənməsi tapşırığı verilirdi. Yəni, «tənxah»ın hansı obyektlərin gəlirləri hesabına ödənməsi konkret olaraq fərmanlarla tənzimlənmirdi. Həmin obyektlər mustovfilərin rəyinə əsasən müəyyənləşdirilir və qeyd olunan məbləğin fərqli obyektlərin gəlirləri hesabına ödənilməsi mümkün idi. «Tiyul» və «həmsalə»lərin təqdim edilməsi haqqındakı fərmanlarda isə əksinə olaraq, bu kateqoriyadan olan ərazilərin və onların gəlirlərinin hansı hissəsinin bağışlanılması konkret olaraq öz əksini tapırdı.

## ƏDƏBİYYAT


1. Петрушевский И.П. Очерки по истории феодальных отношений Азербайджана и Армении в XVI - начале XIX вв. Л. ЛГУ, 1949, 382 с.
2. Касумова С.Ю. Азербайджан в III-VII вв. Баку: Элм, 1993, 140 с
3. Tadhkirat Al-Muluk. A manual of Safavid Admnistration (circa 1137/ 1725) Persian text in facsimile (B.M.or.9496). Translated and expained by V.Minorsky. London, 1943, 348 п.
4. Cənab kavaler Şardenin Səfəvilərə və Şərqin digər yerlərinə səyahətləri (tərcümə və qeydlərin müəllifi Vaqif Aslandır. (Əlyazması hüququnda) c.VI, Paris, 1811, s.1-125.
5. Филрозе Н. К вопросу о формах земельной собственности в государстве Сефевидов / Очерки по новой истории стран Среднего Востока. Л.: ЛГУ, 1951, с. 175-187.
6. Персидские документы Матенадарана. Сост. А.Д.Папазян. вып. II (1601-1650). Ереван: АН Арм.ССР, 1959, 592 с.
7. Полиевктов М.А. Европейские путешественники XIII-XVIII веков по Кавказу. Тифлис: 1935, 222 с.
8. Ərəb və fars sözləri lüğəti. Bakı: Yazıçı, 1985, 1040 s.

**UOT 94 (479.24)**

# ДЕЯТЕЛЬНОСТЬ ИСТОРИКОВ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ВОЙНЫ (1941-1945 гг.) В ТЫЛУ

***З.А.Ализаде***
*Института Истории*
*НАН Азербайджана*

***Ключевые слова:*** *историк, война, конференция, агитация, патриотизм.*

В статье повествуется о научной деятельности азербайджанских историков в годы Великой Отечественной войны. Рассматриваются вопросы повседневной педагогической деятельности, проведения различных конференций по актуальным темам кафедры «Истории Азербайджана» АГУ, а также деятельность сотрудников Азербайджанского филиала ИМЭЛ при ЦК ВКП(б) и коллектива Института истории АЗФАНА.

Широко освещается серьезная и плодотворная работа азербайджанских историков по идейно-политической мобилизации народных масс, воспитанию их в духе многовековых патриотических традиций.

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN TARİXÇİLƏRİNİN ARXA CƏBHƏDƏ FƏALİYYƏTİ (1941-1945-Cİ İLLƏR).

***Z.A.Əlizadə***

***Açar sözlər:*** *tarixçi, müharibə, konfrans, təbliğat, vətənpərvərlik.*

Məqalədə müəllif Böyük Vətən müharibəsi illərində Azərbaycan tarixçilərinin elmi fəaliyyətini geniş şəkildə şərh edir. Müəllif ADU-nin Tarix fakültəsinin əməkdaşlarının gündəlik pedaqojı fəaliyyətindən, müxtəlif aktual mövzularda təşkil etdikləri elmi konfranslardan, MK nəzdində fəaliyyət göstərən Marksizm-Leninizm İnstitutunun bu istiqamətdə apardığı fəaliyyətindən, Elmlər Akademiyasının Azərbaycan filialının elmi fəaliyyətindən geniş bəhs edir.

Müəllif xalq kütlələrinin siyasi baxımdan səfərbərliyi və onlarda vətən-pərvərlik ruhunun aşılanması istiqamətində Azərbaycan tarixçilərinin apardığı ciddi fəaliyyətini geniş işıqlandırmışdır.

## ACTIVITY OF HISTORIANS OF AZERBAIJAN IN THE PERIOD OF WAR (1941-1945) INTO THE REAR

***Z.A.Alizadeh***

***Keywords:*** *historian, war, conference, agitation, patriotism.*

The article tells about the scientific activities of Azerbaijani historians during the Great Patriotic War. The issues of daily pedagogical activity, holding various conferences on the topical issues of the Department of the History of Azerbaijan at the ASU, as well as the activities of the employees of the Azerbaijan branch of IMEL under the Central Committee of the CPSU (b) and the staff of the Institute of History of AZFAN are considered.

The serious and fruitful work of Azerbaijani historians on the ideological and political mobilization of the masses is being widely covered, and their education in the spirit of centuries-old patriotic traditions.

Учеными нашей республики много написано об участии азербайджанского народа в войне (1941-1945 гг.) с фашистской Германией. По данной проблеме проведены серийные исследования, опубликованы десятки солидных монографий и научно-популярных работ.

Среди них следует особо выделить обобщающий, фундаментальный труд член-корр. Академии Наук Азербайджанской ССР, Г.А.Мадатова, в котором впервые освещен вклад азербайджанского народа в победу над гитлеровской Германией [1] монографии Абасова М., Новрузова Т., Багирзаде А., посвященные трудовым подвигам рабочего класса, крестьянства и интеллигенции в дни войны [2]. Боевому пути 416, 223 и др. азербайджанских дивизий посвящены монографии Зейналова Р. и Бородецкого Л. Имеются два издания Очерков о героях Советского Союза - сынах Азербайджана. Однако следует отметить, что до сих пор остается неизученным вопрос о деятельности историков Азербайджана в годы войны.

С началом войны первоочередной задачей стала мобилизация всех материальных, физических и духовных сил страны, была перестроена и вся работа историков республики. В эту работу включились три основных

коллектива учёных-историков: исторического факультета АГУ, и в первую очередь члены организованной в 1941 г. кафедры истории Азербайджана, института Истории партии при ЦК КП - Азербайджанский филиал ИМЛ ВКП(б) и Институт истории АзФАНА.

Кафедру истории Азербайджана в АГУ возглавлял к.и.н. доцент Ибрагимов З.И. До этого назначения он в самом начале войны был призван в армию и направлен военным корреспондентом в Иран, где находились наши войска, в частности полки 77-ой азербайджанской стрелковой дивизии. Но он был отозван из армии и направлен на исторический факультет АГУ. На кафедре истории Азербайджана в качестве старшего преподавателя работали Казиев М., Токаржевский Е., Ямпольский З., которые защитили свои кандидатские диссертации в конце войны. Члены кафедры вели повседневную педагогическую работу, читали лекционные курсы, проводили семинарские занятия. Кафедра организовывала студенческие конференции по актуальным военным темам. Так, в мае 1943 г. состоялась студенческая конференция исторического и экономического факультетов по теме: «Народы Кавказа в борьбе против иноземных захватчиков», на котором были сделаны следующие доклады: «Народы Кавказа в борьбе против римских захватчиков», «Оборона Шуши в XVIII в.», «Сыны закавказских народов против немецких захватчиков» [3, 284].

В начале мая 1944 г. на истфаке была проведена другая студенческая теоретическая конференция, где в числе докладов был и такой: «Сыны Азербайджана в Великой Отечественной войне» [3, 274].

В трудных военных условиях историками-членами кафедры Истории Азербайджана АГУ отдавалось немало сил подготовке молодых кадров-историков. За 1940/41-1944/45 годы исторический факультет окончило 128 человек.

Наряду с педагогической работой сотрудники кафедры занимались написанием работ по наиболее актуальным проблемам.

Немало интересных научно-популярных работ было опубликовано Ибрагимовым З.И. по вопросу героических традиций азербайджанского народа. К ним принадлежат: «Борьба азербайджанского народа против арабских захватчиков» (на азерб. яз.). Баку, 1942 г.; «Из героического прошлого азербайджанской женщины» (на азерб. яз.). Баку, 1943 г. и др.. Казиевым М.А. была написана научно-популярная брошюра «Из истории борьбы азербайджанского народа против иноземных захватчиков», изданная в 1942 г. Коллектив научных сотрудников института истории партии при ЦК КП Азербайджана, филиал ИМЛ в период войны подготовил и издал на азербайджанском языке несколько сборников о героях-воинах Азербайджана [4]. В первой книге рассказывалось о

подвигах начального периода войны политрука Камала Расулова, летчиков М.Абиева, Г.Алиева и Ал. Шитова, снайпера Зибы Тагиевой, дважды орденоносца Аллахверди Рагимова, разведчика Алекпера Надирова и др. Во второй книге получили освещение подвиги более позднего периода войны: Героя Советского Союза генерал-майора Ази Асланова, Героя Советского Союза младшего лейтенанта Идриса Султанова.

Коллектив научных сотрудников Института истории работал при ЦК КП Азербайджана - Азербайджанском Филиале ИМЛ в период войны подготовил и издал на азербайджанском языке несколько очерков о героях войны Азербайджана [5] - снайперах Балаоглане Абасове и Мамедали Абасове, капитане авиации Ризване Зейналове, комиссаре Амирулле Дадашеве, офицере-артиллеристе Энвере Алибейли и др.

Авторами ряда указанных очерков являлись М.А.Казиев, Е.А.Токаржевский, З.И.Ямпольский, А.Дадашев.

Немаловажное агитационно-пропагандистское значение имела научно-популярная работа З.И.Ибрагимова и Е.А.Токаржевского «Писатели и историки о мужестве и доблести азербайджанцев», изданная в 1943 г. По решению бюро ЦК КП Азербайджана она была направлена на фронт и распространена среди воинов-азербайджанцев 416-ой и др. национальных дивизий.

В то же время были изданы научно-популярные брошюры З.И.Ибрагимова Е.А.Токаржевского [6, 370].

Ряд историков выступали на страницах республиканской печати с публицистическими статьями, посвященными боевому содружеству советских народов в деле защиты Родины, разоблачению агрессивных планов и кровавой политики германского фашизма.

З.И.Ибрагимовым и Е.А.Токаржевским были написаны и опубликованы статьи «Азербайджанский народ в борьбе с иноземными захватчиками» [7, ф. 2, оп. 1, д. 78, 84]; «О мужестве и доблести азербайджанского народа»; «Братья по оружию» [7, ф. 1, оп. 2, д. 19, с. 51.].

Работа сотрудников Азербайджанского филиала ИМЭЛ при ЦК ВКП(б) была отмечена Бюро ЦК КП(б) Азербайджана. В частности, Бюро ЦК КП(б) Азербайджана отмечает, что Азербайджанской филиал ИМЭЛ при ЦК ВКП(б) в период великой отечественной войны проделал значительную работу по подготовке и изданию книг и брошюр, являющихся серьёзным материалом для пропагандистов и агитаторов на фронте и в тылу, в деле популяризации героических традиций азербайджанского народа и его мужественных сынов на фронтах отечественной войны. Такие книги, как «Из истории героической борьбы русского народа против немецкой агрессии», «Доблестные сыны

Азербайджана», «Историки и писатели о доблести и мужестве азербайджанцев», «Из истории борьбы азербайджанского народа против иноземных захватчиков», «Из героического прошлого азербайджанской женщины», «Крылатый богатырь», «Сыны Азербайджана в битвах за Москву и Ленинград» и др. не только служили пособием для агитаторов и пропагандистов, но и имели большое воспитательное значение для широких масс трудящихся Азербайджана. За время войны Институтом Истории подготовлено 34 книги и брошюры с общим объёмом 87 печатных листов, из коих издано 28 книг в 49 печ. листов, с общим тиражом 241.000 экземпляров [7, Ф. 1, оп. 29, д 7, с. 95].

Была начата работа по собиранию, разработке и систематизации материалов об участии азербайджанского народа в отечественной войне.

Институтом Истории была проведена также большая работа по переводу на азербайджанский язык произведений классиков марксизма-ленинизма. Переведены I и II тома IV издания сочинений В.И.Ленина (вышел в свет I том); заново отредактированы «Манифест коммунистической партии» - К.Маркса и Ф.Энгельса, «Вопросы ленинизма», - И.В.Сталина. Краткий курс истории ВКП(б). «К вопросу об истории большевистских организаций в Закавказье» - Л.П.Берия. Впервые переведены на азербайджанский язык «Марксизм и национально-колониальный вопрос» - И.В.Сталина, биография И.В.Ленина (составленная ИМЭЛ при ЦК ВКП(б)), «Материализм и эмпириокритицизм» В.И.Ленина, «Военная переписка Ленина», «Маркс и Энгельс о реакционном прусачестве» и др [7, Ф. 1, оп. 29, д 7, с. 95].

Отделом переводов института переведено и отредактировано два основных произведений классиков марксизма-ленинизма с общим объёмом 257 печатных листов. Кроме того, переведено и издано на азербайджанском языке на темы отечественной войны 85 книг и брошюр в 246 печатных листов с общим тиражом 1.485.000 экземпляров. Научными работниками Института за время войны написано и опубликовано в республиканской периодической печати 90 статей. Прочитано свыше 550 докладов и 12 лекций [7, Ф. 1, оп. 29, д 7, с. 95].

Наряду с этим бюро ЦК КП(б) Азербайджана считает существенным недостатком в работе Института медлительность в выполнении плана научно-исследовательских работ на историко-партийные темы, вследствие чего до сего времени Институтом не завершено написание и издание ряда научных работ, предусмотренных в тематическом плане [7, Ф. 1, оп. 29, д 7, с. 95]..

В дни войны значительную работу развернул и коллектив Института истории АЗФАН А, в сентябре 1841 г. директором которого был назначен видный азербайджанский учёный к.и.н. И.А.Гусейнов.

И.А.Гусейнов вёл свою исследовательскую работу по проблемам Октябрьской революции, по тогдашним временам - весьма актуальная тематика. До этого в первые дни войны он был мобилизован в армию и назначен зам. директора одной из военных газет, задействованных в районе Поволжья. Но затем был отозван для руководства Институтом Истории. Выступал со статьями о задачах военного времени. Под его руководством, в это время в Институте Истории трудился большой коллектив учёных, в их числе были: А.Ализаде, эвакуированный из Ленинграда в Баку, будущий академик АН Азерб. ССР; С.Казиев, И.М.Джафарзаде, И.П.Петрушевский, также эвакуированный из Ленинграда в Баку; М.Шарифли, В.Левиатов, П.Валуев, З.И.Ямпольский, Е.Пахомов, М.Векилов и др [7, Ф. 1, оп. 29, д 7, с. 95].

С направлением И. А.Гусейнова на другую работу, в 1944 г. директором Института Истории был назначен Абдулкерим Ализаде, известный специалист по средневековой истории Азербайджана, в том числе исследующий творчество великого азербайджанского поэта Низами и связанных с его деятельностью исторических событий. За издание научно-критического текста «Шереф-наме» из Хамсе (Пятерицы) Низами, А.А.Ализаде и Е.Э.Бертельсу в 1948 г. была присуждена Государственная премия СССР.

За годы войны А.А.Ализаде написал и опубликовал следующие статьи: «К истории феодальных отношений в Азербайджане в XII-XIV вв.» (Термин «тарх»), Изв. АзФАН №3, 1942 г.; «К вопросу об институте «икта» в Азербайджане при Ильханах (XIII-XIV вв.)». Изв. АзФАН, №7, 1942 г.; «К истории рудников и монетного обращения в Азербайджане в XIII- XIV вв.», Изв. АзФАН, №7, 1942 г.; К вопросу об институте «инджу» в Азербайджане (XIII-XIV вв.), Изв. АзФАН, №8, 1943 г.; «К истории феодальных отношений в Азербайджане: термин «купчур»». Изв. АН Азерб. ССР, 1945, №5 и др.

2 апреля 1942 г. Абдулкерим Ализаде защитил кандидатскую диссертацию на тему: «Виды земельной собственности и налоговая система в Азербайджане при Ильханах (XIII-XIV вв.)».

Большое место в работе Института Истории уделялось изданию научно-популярной литературы. Вышли в свет брошюры: «Героический Кавказ» (Из высказываний летописцев и историков о героизме кавказцев) 1943 г., М.Х.Векилов «Джеваншир», 1942 г.; П.Валуев «Фатали хан Кубинский»; И.П.Петрушевский «Совместная борьба народов Закавказья против иноземных захватчиков в XI-XII вв.» его же «Из героической борьбы азербайджанского народа в XIII-X1V вв.»; его же «Великий патриот Ширваншах Ибрагим» АзФАН СССР, 1942 г.; З.М.Ямпольский. «Бабек». Б., 1941 г.

Кроме того, археологами проводились раскопки в районах республики, давшие ценный материал. Характерной особенностью деятельности учёных историков в тот период являлось активное участие их в политиковоспитательной работе в массах трудящихся посредством выступлении с лекциями и докладами в воинских частях, госпиталях и на промышленных предприятиях на патриотические темы.

Некоторые из учёных в составе делегации от трудящихся нашей республики выезжали на фронт для встречи с воинами - азербайджанцами, беседовали с ними, читали им лекции. Так, в 1944 г. М.А.Казиев побывал в частях 416-ой дивизии в качестве члена одной из делегаций.

Таким образом, за период войны 1941-1945 гг. азербайджанскими историками была проведена серьёзная и плодотворная работа по идейно-политической мобилизации народных масс, воспитанию их в духе многовековых патриотических традиций защиты Родины.

Публикации в те тяжёлые дни научно-популярных брошюр и публицистических статей на тему о сплочении всех сил на борьбу с врагом, выступления с лекциями и докладами в воинских частях - все это способствовало решению задачи патриотического воспитания народа, в особенности молодёжи.

Рассматривая деятельность учёных Азербайджана в период войны, необходимо подчеркнуть, что в те сложные годы росло и получило закалку на фронтах новое, молодое поколение азербайджанских историков, только что окончивших ВУЗ или же призванных из средней школы, они в свои 18- 20 лет уходили сражаться за Родину. И уже после войны, получив высшее историческое образование, приходили на смену старшему поколению своих коллег. Именно в огне тяжелых испытаний войной начинались биографии многих талантливых историков, чья научная деятельность развернулась в послевоенные годы. К ним относится З.Буниятов, Д.Гулиев, М.Исмаилов, М. Абасов, Р.Зейналов и др.

## ЛИТЕРАТУРА

1. Мадатов Г.А. Азербайджан в Великой Отечественной войне. Баку, 1975.
2. Абасов М. Баку в годы Великой Отечественной войны. Баку, 1967 г.; Новрузов Т. Трудовые подвиги колхозного крестьянства в период Великой Отечественной войны (1941-1945 гг.). Баку, 1963; Багирзаде А. - интеллигенция Азербайджана в годы Великой

Отечественной войны. Баку, 1970.
3. Атакишиев А. История Бакинского Университета. Баку, 1989, с. 284.
4. Славные-сыны Азербайджана. Кн. I. Баку, 1942; Кн. П. Баку, 1944 и др.
5. Бакинский рабочий, 7/X-42 г.
6. Архив Ин-та истории, ф. 2, оп. 1, д. 73; Т.Керимова. Из истории национальной Академии наук Азербайджана. Б., 2005, с. 370.
7. Архив Ин-та истории, ф. 2, оп. 1, д. 78, 844; ф. 1, оп. 2, д. 19, с. 51; Ф. 1, оп. 29, д 7, с. 95;
ф. 1, оп. 2, д. 65, с. 36.

**UOT 94(479.242)**

# NAXÇIVANIN QƏDİM ŞƏHƏRLƏRİ XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ

*(Xaraba Gilan şəhər yerinin arxeoloji materialları əsasında)*

***B.İ.İbrahimli***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*ibrahimlib@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, tarix, işğal, arxeologiya*

Məqalədə XII əsrin birinci yarısında Naxçıvanın siyasi həyatında baş verən hadisələr və bu hadisələrin bölgənin təsərrüfat həyatında, sənətkarlığında, memarlığında qoyduğu izlərin arxeoloji tədqiqatlar zamanı aşkar olunması şərh olunmuşdur. Tədqiqatın gedişində həmin dövrdə bir şəhər kimi tarixin səhnəsindən silinmiş Xaraba Gilan şəhər yerində aparılmış arxeoloji tədqiqatlar zamanı əldə olunmuş materiallardan istifadə olunmuşdur. XIII əsrin 20-70-ci illəri Naxçıvanda şəhər həyatının tənəzzülə uğradığı dövr kimi qiymətləndirilir.

# ДРЕВНИЕ ГОРОДА НАХЧЫВАНА В НАЧАЛЕ XIII ВЕКА

(на основе археологических материалов городища Хараба Гилян)

***Б.И.Ибрагимли***

***Ключевые слова:*** *Азербайджан, Нахчыван, история, захват, археология*

Первая половина XIII века в Азербайджане, в том числе Нахчыване, сопровождалась частыми войнами и разрушениями. В самом начале этого же века грузины напали на Нахчыван, не овладев городом разрушили все окрестности. В 1221 и 1231 годах Нахчыван два раза подвергся разрушению со стороны монголов. Между монгольскими нападениями город был захвачен ещё Хорезмшахом Джелаладдином. Об этих событиях подробно рассказывают письменные источники.

Археологические раскопки, проведённые на городище Хараба Гилан подтверждают сведения средневековых историков и путешественников. Порою результаты археологических исследований превосходят эти сведения, что позволяет детально уточнить степень разрушений,

реставраций и интервал между ними. Более точную датировку позволяют получить найденные при раскопках нумизматические материалы.

**THE ANCIENT CITIES OF NAKHCHIVAN IN THE BEGINNING OF THE 13TH CENTURY**
(based on the archaeological materials of the ancient Kharaba Gilan city)

***B.I.Ibrahimli***

***Keywords:*** *Azerbaijan, Nakhchivan, history, capture, archaeology*

The first half of the 13th century in Azerbaijan, including Nakhchivan, was accompanied by frequent wars and destruction. At the very beginning of this century, the Georgians attacked Nakhchivan and unable to conquer the city, destroyed the whole locality. In 1221 and 1231, Nakhchivan was destroyed twice by the Mongols. Between the Mongolian attacks the city was conquered by Khorezmshah Jelaladdin. These events are described in detail by written sources.

Archaeological excavations conducted at Kharaba Gilan fortress confirm the information of medieval historians and travelers. Sometimes the results of archaeological research surpass these data, which allows us to specify in detail the degree of destruction, restoration and the interval between them. Numismatic materials found during excavations allow one to obtain a more accurate dating.

XII əsri Azərbaycan şəhərlərinin çiçəklənmə dövrü, milli mədəniyyətimizin qızıl dövrü adlandırmaq olar. Bu dövrdə Naxçıvan Azərbaycanın maddi və mənəvi mədəniyyətinin yüksək sürətlə inkişaf etdiyi və özünəməxsus xüsusiyyətləri olan siyasi və mədəni mərkəzlərdən biri idi. Səkkiz yüz illik maddi mədəniyyətimizin bu günədək gəlib çatmış ən yaxşı nümunələri memarlıq abidələri və arxeoloji tapıntılardır ki, Naxçıvan da bu materiallarla çox zəngindir. Memarlıq abidələrini qülləli türbələrin dünyada ən yaxşı nümunəsi sayılan Mömünə Xatun türbəsi (1186/1187 il), Yusif Küseyir oğlunun türbəsi (1162-ci il) və Xaraba Gilan şəhər yerində qalıqları aşkar edilən türbələr təmsil edir. Bu türbələr Əcəmi Əbubəkr oğlu məktəbinin ən yaxşı abidələridir.

XII əsrdə Naxçıvanın sürətli inkişafına təkan verən amillərdən bir də bu əsrin 30-cu illərindən 1175-ci ilinə qədər Azərbaycan Atabəylər dövlətinin (Eldəgəzlərin) paytaxtı olması idi [1, s.173]. Bu zaman Cənubi Qafqaz

Naxçıvandan idarə olunurdu. Azərbaycan Atabəyləri Səlcuqluların ən güclü varisi idi və 1225-ci ildə Atabəy Özbəyin Əlincə qalasında ölməsi ilə bu dövlətin varlığına son qoyuldu [2, s. 104-110].

XIII əsrin 20-ci illərində baş vermiş tarixi hadisələr Çindən Avropaya qədər olan ölkələrin, o cümlədən Azərbaycanın da inkişafına ağır zərbə vurdu [3]. 1221-ci ildə monqolların hücumu ilə başlayan bu tənəzzül əsrin sonuna qədər davam etmişdi. Monqollar Azərbaycana hücum etməmişdən əvvəl Xorasanı, İraqi Əcəmi ələ keçirib xeyli güclənmişdilər. 1220-ci ildə Cəbə və Subutay Azərbaycana girib Zəncan, Ərdəbil, Sərab və başqa şəhərləri darmadağın etdi [4. s.113]. Qeyd etmək lazımdır ki, Azərbaycanın monqollar tərəfindən belə asanlıqla işğal olunmasının bir səbəbi də Atabəy Özbəyin zəif hökmdar olması və ölkədə feodal dağınıqlığının hökm sürməsi idi. Şəhərlər darmadağın edilmiş, müdafiə tikililəri, su təchizatı sistemi, sənətkarlıq ocaqları, yollar, körpülər, ümumiyyətlə, sivil nə varsa hamısı dağıdılmışdı. Naxçıvan və ətraf şəhərlər güclü dağıntıya məruz qalmış, əhalisi qılıncdan keçirilmişdi [5. s. 188]. Elə bu zaman hələ monqol hücumlarından özünə gəlməmiş, müdafiə divarları dağıdılmış, əhalisi qılıncdan keçirilmiş şəhəri 1225-ci ildə Cəlaləddin Xarəzmşah ələ keçirir. Qısaca olaraq demək olar ki, Naxçıvan XIII əsrdə baş vermiş siyasi hadisələrin demək olar ki, həmişə mərkəzində olmuş və dəfələrlə dağıntıya məruz qalmışdır.

Naxçıvanda XIII əsrin birinci yarısında baş vermiş tarixi hadisələrin şəhər həyatına, məişətinə, sənətkarlığa təsirini arxeoloji tədqiqatlar zamanı da izləmək mümkündür. Tədqiqatlar zamanı aydın olur ki, monqolların birinci hücumundan sonra yaşayış məntəqələrində, xüsusən şəhərlərdə qismən də olsa, bərpa işləri aparılmış, şəhərlərin əsas məhəllələrində və narınqalasında yaşayış bir müddət davam etmişdir. Bərpa izləri təkcə tikintilərdə deyil, eyni zamanda keramikada, toxuculuq məmulatında, ümumiyyətlə, hər sahədə izlənir. Bunlar da bir daha Azərbaycan sənətkarlarının monqollar tərəfindən sürgünə apardıqları haqqındakı tarixi mənbələrin məlumatlarını təsdiq edir.

Monqolların vəhşicəsinə dağıntılarından sonra özünə gələ bilməyən və tarixin səhnəsindən silinən Xaraba Gilan şəhər yerində aparılan arxeoloji tədqiqatlar zamanı bu faktlar daha dəqiq və ətraflı izlənmişdir.

2015-2016-cı illərdə, 31 illik fasilədən sonra Xaraba Gilan şəhər yerində arxeoloji tədqiqatlar bərpa olunmuş, şəhərin ən yaxşı qalmış I məhəlləsində arxeoloji qazıntılar nəticəsində iki yaşayış evi təmizlənmişdir. Arxeoloji tədqiqatlar sübut edir ki, hələ 800 yüz il bundan qabaq muxtar respublika ərazisində yerləşən şəhərlər relyefə uyğun planlı şəkildə salınmış, bu zaman şəhərin müdafiə qurğularına və su təchizatı sisteminə xüsusi diqqət yetirilmişdir.

Xaraba Gilan şəhər yeri Gilançayın sol sahilində, Ordubad-Naxçıvan şosse yolunun 17-ci km-də yerləşir. Təpələr və dağlar üzərində yerləşən şəhər

xarabalıqları 100 ha-dan artıq ərazini əhatə edir. Qərb tərəfdə, ətrafdakı dağlardan 70-80 m hündür və üzəri nisbətən düz olan dağın üstündə şəhərin narınqalası vardır. Dağın şimal-qərb tərəfindən başqa hər tərəfi sıldırım qayalıqdır. Dağın eni bəzi yerlərdə 300 metrə çatır. Beləliklə, təkcə narınqalanın sahəsi 30 hektara qədərdir. Narınqalanın mərkəzi hissəsində qala qarnizonunun yerləşdiyi çoxlu kiçik otaqlardan ibarət kompleks, seçmə daşlarla və əhəngkövrə ilə işlənmiş, şəhər hakimi və qoşun başçılarının olduqları bir neçə iri həcmli kompleks və iki örtülü su anbarı yerləşmişdir.

Şəhərin narınqalası və məhəllələri dairəvi, dördbucaqlı və altıbucaqlı planda bürcləri olan möhkəm müdafiə divarları ilə əhatə olunmuşdur. Məhəllələr arasındakı çökəkliklərdə karvansara, dəyirman, hamam və b. ictimai binalar yerləşmişdi.

Şəhərin müdafiə sistemində yaxınlıqdakı kiçik qalalar və qarovul məntəqələri də mühüm rol oynamışdır. Şəhərin Narınqalasından başqa əsas məhəllələri də müdafiə divarları ilə əhatə olunmuş, bundan başqa şəhərdən bir qədər aralı şərqdə (Pilapan qalası), qərbdə (Dəlmə qalası), şimalda (Babək qalası) və cənubda – Arazın o tayında (Maraza qalası) forpostları olmuşdur [6. s. 36-40].

Xaraba-Gilan yaxınlığındakı beş kəndin adında saxlanmış «Dizə» sözü sasanilər dövründə (III-VII əsrlər) «qala» mənasında işlənmişdir. Məhz bu ərazilərdə şəhərin forpostları yerləşirdi.

Şəhər dağlıq ərazidə və böyük çaylardan aralı yerləşdiyindən onun olduqca mürəkkəb su təchizatı sistemi olmuşdur. Ən böyük su anbarı şəhərin şimal-şərqində Narınqalaya yaxın yerləşmişdir. Burada eni 500 m-dən artıq olan dərənin qabağı 20-22 m enində daşdan işlənmiş bəndlə kəsilmişdir. Bu bənd həm də müdafiə divarı rolunu oynamış, onun şərq tərəfdəki axırıncı bürcündən divarın üstü ilə Narınqalaya yol olmuşdur. Bu su anbarı Düylünçaydan çəkilmiş arx vasitəsilə və yağış suları ilə doldurulurdu.

Şəhər içməli su ilə, əsasən kəhrizlər vasitəsilə təmin olunurdu. Bu kəhrizlərdən ikisinin ayağı indi də şəhər yerindən cənubda və qərbdə bulaq kimi üzə çıxır. Su itkisinə yol verməmək üçün şəhər daxilində saxsı borulardan (güyüm) istifadə olunmuşdur.

Şəhərin memorial abidələri onun şimalında və şimal-şərqindəki iki dağın üzərində yerləşmişdir. Burada Naxçıvan memarlıq məktəbinin X-XIII əsrlərə aid ən gözəl nümunələri toplanmışdır.

Xaraba Gilan şəhər yerində aparılan arxeoloji tədqiqatlar antik dövrdən son orta əsrlərə qədər mövcud olmuş şəhərlərin təsərrüfatı və mədəniyyəti haqqında faktlara əsaslanan elmi fikirlər söyləməyə imkan verir.

Naxçıvan memarlıq məktəbinin inciləri olan memorial abidələr öz konstruktiv həllinə, memarlıq üslubuna, ornamentlərinin mürəkkəbliyinə və zənginliyinə görə Azərbaycan və dünya memarlığında xüsusi yer tutur. Bu

məktəbin təsiri təkcə Azərbaycanda deyil, Yaxın Şərqin bir çox şəhərlərində özünü göstərmişdir.

Xaraba Gilanda, II və III məhəllələr arasındakı çökəklikdə yerləşən XII əsr-XIII əsrin əvvəllərinə aid karvansaranın tədqiqi bu tip tikililərin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Karvansaradan şərq tərəfdə şəhər hamamlarından biri aşkar edilmişdir. Burada kənarları oyma üsulu ilə naxışlanmış daş vannalar və dağ daşları və əhəngkövrə ilə işlənmiş su çəni vardır.

Karvansara kompleksinin fundamenti qaya üzərində işlənmişdir. Bərkidici kimi gildən istifadə olunmuşdur. Qapı və pəncərə başları bişmiş kərpiclərlə çatma tağ formasında tikilmişdir. Karvansaranın divarları 3 m. hündürlüyə qədər daşla, sonra isə çiy kərpiclərlə (27x27x8 sm) işlənmiş, saman qarışıq gillə suvandıqdan sonra, əhənglə ağardılmışdır. Divarların eni 60 sm-dən 2 m-ə qədərdir.

Şəhərin birinci məhəlləsində aparılmış arxeoloji qazıntılar XIII əsrin əvvəllərində burada güclü dağıntıların baş verdiyini bir daha təsdiq edir.

Xaraba Gilan arxeoloji ekspedisiyası 2015-ci ildə Xaraba Gilan şəhər yerinin qədim dövrünü, narınqalasını və şəhərin əsas məhəllələrinin tikililərini öyrənmək məqsədilə şəhərin narınqalaya yaxın mərkəzi məhəlləsində (I məhəllə) tədqiqatlara başlamışdı. Perspektivdə məhəllənin bütünlüklə açılması, tikililərin konservasiya və bərpası nəzərdə tutulmuşdu. Bu məhəllə narınqalanın yaxınlığında və şəhərin mərkəzində yerləşdiyindən şəhərin baş məhəlləsi hesab olunur. Məhəllə ətrafı ilə birlikdə 2 hektardan artıq bir ərazini əhatə edir və eni 2 m olan müdafiə divarı ilə əhatə olunmuşdur. Qazıntıya məhəllənin cənub tərəfindən – məhəlləyə əsas girişin ehtimal olunduğu yerdən başlanmış, tədricən sahə genişləndirilmişdi. Yerüstü qalıqlardan – xüsusən, çəkisi 1,5-2,0 ton, qalınlığı 60-70 sm, uzunluğu 1,5 metrdən 2,8 metrə qədər olan daş bloklardan (dördbucaqlı qaya parçaları) aydın görünürdü ki, burada möhtəşəm bir binanın qalıqları vardır. Burada 50 $m^2$ qazıntı sahəsi götürüldü. Üst qat təmizləndikdən sonra məhəlləni əhatələyən müdafiə divarının qalıqları aşkar edildi. Divarın eni hər tərəfdə 2 metrdir və yuxarıda qeyd etdiyimiz iri həcmli daşlarla inşa edilmişdir. Müdafiə divarı son tunc-erkən dəmir dövrünün siklopik tikililərinə oxşayır. Lakin bəzi yerlərdə divara tikilinin ümumi ansamblına uyuşmayan nisbətən kiçik həcmli daşlar işlənmişdir ki, bu da ola bilsin divarın bərpası zaman baş vermişdir. Bu divara bitişik məhəllə evlərinin divarlarının eni ən enli yerdə 1metrdir. Evlərin divarlarında kobud şəkildə aparılmış bərpa izləri hər yerdə aydın nəzərə çarpır. Əvvəlki dövrün keyfiyyətlə işlənmiş divarları yanında bu bərpa izləri çox primitiv görünür.

Qazıntı sahəsinin şərq tərəfində aşkar edilmiş, eni 1 m olan divarın qərb tərəfində uzunluğu 3,7 m, eni 2,5 m olan dəhliz aşkar edildi. Dəhlizin ortasında, qalınlığı 40 sm olan bir qaya parçası pillə əmələ gətirmişdi. Qaya parçası maili

vəziyyətdə olduğundan dəhlizin döşəməsi də maili vəziyyətdə görünür. Dəhlizin şimal divarının (170 sm-ə qədər salamat qalmışdır) qərb tərəfində başqa bir otağa giriş vardır. Burada qapı yerinin 7-8 sm qalınlığında çürümüş qətləsi aşkar edildi. Qapının özü yoxdur. Qapı yeri təmizləndikdə daha bir otaq aşkar edildi. Bu otaq qazıntı sahəsindən kənarda yerləşir.

Dəhlizdən qərb tərəfdə daha iki otaq aşkar edildi. O biri otaqlarda olduğu kimi burada da 1,5-1,8 m qalınlığında daş qarışıq torpaq qatı vardır. Otağın içərisində aşkar edilən gil qab parçaları, yerə basdırılmış küp otağın məişət təyinatlı (mətbəx) olduğunu söyləməyə əsas verir.Təsərrüfat küpü otağın şimal-qərb küncündə, qərb divarından 25 sm, əsas şərq divarından isə 4,7 m məsafədə yerləşir. Üzəri ağ-boz anqobla örtülmüş küpün çiynində çərtmə naxışlı relyefik kəməri vardır. Otağın qərb divarından 45 sm aralı bir təndir aşkar edildi. Təndirin diametri ortada 72 sm-dir. Küpdən şərqə tərəf su tüngünün qalıqları və qərbə tərəf küpün oturacaq hissəsi aşkar olundu.

İkinci otaqdan qərb tərəfdə aşkar edilmiş 3N-li otaq çox güman ki, yaşayış üçün olmuşdur. Otağın döşəməsi qərb divarının salamat qalmış hissəsindən 80 sm dərinlikdə aşkar edildi. Otağın içərisində bəzi yerlərə sal döşənmişdir. Bu döşəmə bərpa dövrünün döşəməsidir. Çünki, əvvəlki döşəmə bundan 45 sm altdadır. Otağın şimal-şərq küncünə yaxın küp, mətbəx və süfrə qablarının fraqmetntləri tapıldı. Daşdan işlənmiş pilləkənin iki daşdan ibarət bir pilləsi qalmışdır. Bunlardan başqa otağın içərisindən tapıntı aşkar olunmadı. İkinci otağın şərq divarının qurtaracağında şərqə tərəf qapı yeri müəyyən edildi. Bu qapı birinci otaqda aşkar edilən qapıya yaxındır və hər ikisi qazıntıdan kənarda qalan otağın içərisinə açılır. Yaşayış yerinin qazıntısı zamanı çoxlu miqdarda şirli və şirsiz gil qab fraqmentləri, mis sikkələr və s əldə olundu.

Şəhərin bu məhəlləsindən və Narınqalasından başqa digər məhəlləri və müdafiə divarları demək olar ki, özülünə qədər dağıdılmışdır. Bu məhəllənin-şəhərin birinci məhəlləsinin tikililərinin 95%-i daşla işlənmişdir. Xaraba-Gilanda tikinti üçün yararlı daşların bol olması bir növ şəhərin əsrlər boyu ətraf kənd və şəhərlərin əhalisi tərəfindən dağıdılmasına şərait yaradan səbəblərdən biri olmuşdur. Birinci məhəllə nisbətən hündür dağın üzərində yerləşdiyindən, hələlik, buraya texnika gəlməmişdir.

İkinci qazıntı sahəsi, dağın cənub ətəyində müdafiə divarının yanında götürüldü. Məqsəd keçən ilki qazıntı sahəsini də birləşdirməklə müdafiə divarının bu hissəsini təmizləmək, salamat qalmış tikililəri konservasiya edərək Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinə təhvil verməkdir. Belə ki, Xaraba-Gilanın çox böyük turizm potensialı vardır. Burada antik və orta əsrlər şəhər həyatının bütün sahələrini əyani şəkildə təqdim etməyə imkan vardır.

Qazıntı sahəsinin müəyyən edildiyi ərazisi yaşayış evlərinin divarlarından sökülmüş plitə dağ daşlarının qalıqları ilə örtülmüşdür. Təcrübə göstərir ki, bu daş qalıqları olan yerlərdə tikililərin divarları qismən salamat qalmışdır. Çökək

yerlər isə tavanı çökmüş otaqların içərisidir. Yuxarıda göstərilən ərazidə 8x15 m. (120 $m^2$) sahədə qazıntıya başladıq. Üst qat daşlardan təmizləndikdən sonra divar qalıqları izləndi. Qazıntını divarların konturlarını təmizləməklə davam etdirdik. Şimal-cənub istiqamətində, eni 72-75 sm. olan daş divarın qərb tərəfində, 1,3 m. dərinlikdə daş döşənmiş dəhlizin bir hissəsi aşkar olundu . Dəhlizin eni 105 sm-dir, divarı əhənglə suvanmışdır. Suvaq bir neçə qatdır, ev görünür bir neçə dəfə təmir olunmuşdur. Daş döşənmiş dəhlizin şimal tərəfi pilləli formada işlənmişdir. İşlənən yer divarın suvağının da üzərini örtmüşdür. Bu pilləkən ev dağıldıqdan sonra, tələsik aparılmış ikinci bərpa zamanı işlənmişdir.

Bu hissədə divar daşlarına və suvağın divarın içərisinə tərəf dönməsinə əsasən vaxtilə qapı olduğunu söyləməyə əsas verir. Belə vəziyyət otağın içərisində də təkrarlanır. Divarın küncünə yaxın suvağı daha yaxşı qalmışdır. Uçqunun qalıqları təmizlənərkən əhəng suvaq, ağac, bişmiş kərpic qırıqları, keramika fraqmentləri aşkar olundu. Bu mədəni təbəqə şəhərin ən son dağıldığı vaxta aiddir və bu təbəqədən XIII əsrin birinci yarısına aid mis sikkələr, şirli və fayans qablar aşkar olundu.

Evin birinci mərtəbəsinin tağlı tavanı iri həcmli daşlarla və əhəngkövrə (orta əsr «sementi») ilə işlənmişdir. Tağla üzbəüz qarşı tərəfdə divar qalığı aşkar olundu. Divarın üst daşlarının maili qoyulması onun tağın alt hissəsi olduğunu göstərir. Bu divarın şimal tərəfi daha yaxşı qalmışdır və divarın bu hissəsi ikinci mərtəbənin otağına aiddir. Yuxarıda qeyd etdiyimiz kimi, bu otaqdan dəhlizə qapı olmuşdur. İkinci mərtəbənin otağı, yaşayış evinin həm eşik tərəfi, həm də içərisi əhənglə süvanmışdır.

İkinci mərtəbənin şimal-şərq və şimal-qərb künclərində tağın dayaq divarları yerləşir. Monqolların hücumu zamanı yaşayış evi dağıdılmış, sonra bir müddət bərpa olunsa da, sonradan tərk edilmişdir. Təndirin içərisi süvaq qalıqları, torpaqla, daşla doldurulmuşdur. Bərpadan sonra təndirdən istifadə olunmamışdır. Təndirdən otağın içərisinə tərəf kanalcıq (15 sm. enində) vardır. Bunun nə məqsədlə istifadə olunduğunu demək çətindir. Qarşı tərəfdəki – otağın şimal-qərb küncündəki təndir daha yaxşı qalmışdır. Təndirin içərisi suvaq qalıqlar və heyvan sümükləri ilə dolmuşdur. Daş döşəndikdən sonra təndir döşəmənin altında qalmışdır. İkinci mərtəbədəki otağın yalnız şimal-qərb və şimal-şərq küncləri salamat qalmışdır. Otağın qapısısının eni 110 sm-dir.

Evin qərb tərəfində ikinci mərtəbənin divarları səviyyəsində daha bir divar şimala doğru uzanır və onun çox hissəsi qazıntı sahəsindən kənarda qalır. Divarın eni 1 metr olub, dağ daşından işlənmişdir.

Yaşayış evinin birinci mərtəbəsi ikinci mərtəbəyə nisbətən daha yaxşı qalmışdır (Şəkil, 1;2). Mədəni təbəqədən şirli qab qırıqları, mis sikkələr, parça hissələri tapıldı. Tapıntıların əksəriyyəti qədim bərpadan (monqolların hücumu zamanı baş vermiş dağıntıdan) sonrakı dövrə XIII əsrin 30-40-cı illərinə aiddir.

Otağın içərisi xaç formasındadır. Bu memarlıq üsulundan Xaraba-Gilanda geniş istifadə olunmuşdur. Sahəsi böyük olan tikililərin üstünü örtmək üçün bu ən əlverişli üsuldur. Bölgə zəlzələlərin tez-tez baş verdiyi seysmik zona oldğunudan tikililərin xüsusi üsullarla möhkəm inşasına diqqət verilmişdir. Xaraba-Gilan memarları bir çox antiseysmik üsuldan istifadə etmişlər ki, bunlardan da əhəngkövrə və dağ daşı ilə işlənmiş dam örtükləri xüsusi diqqətə layiqdir.

Yaşayış evinin birinci mərtəbəsindəki evin ölçüləri 5,7 m. x 5,3 m, (30,2 kv.m.) olmaqla, təqribən kvadrat formasındadır. İkinci mərtəbədə olduğu kimi, birinci mərtəbənin də döşəməsinə daş döşənmişdir. Şərq tərəfin daş döşəməsi bütünlüklə salamat qalmışdır. Qalan yerlərdə, yalnız cənub tərəfin şərq küncündə daş döşəmə qismən qalmışdır. Otağın giriş yolu şərq tərəfdə olub, eni 93 sm-dir. Bu hissədə qapının olduğu divar 1,6 m. hündürlüyündə salamat qalmışdır. Otağın şimal divarı çəkisi bir neçə ton olan daşlarla işlənmişdi. Ehtimal ki, bu daşlar dağın təkindən çıxan daşlardır, onları ən yaxında olan divarların tikintisində istifadə etmişlər.

Bu yaşayış evinin qərb tərəfi məhəllənin müdafiə divarına bitişik işlənmişdir. Müdafiə divarının eni bəzi yerlərdə 2 m. bəzi yerlərdə 2,5 m-dir. Güman ki, müdafiə zamanı bu evlərin damından müdafiə divarının üstünə çıxırmışlar. Yaşayış evinin tədqiqi Xaraba-Gilan şəhər yerində Naxçıvan memarlığının inkişaf dövründə şəhər evlərinin sahəsi, quruluşu, fasadı və plan quruluşu haqqında müəyyən fikir söyləməyə imkan verir.

Arxeoloji qazıntılar zamanı əldə olunan numizmatik materiallar şəhərin iqtisadi, siyasi və mədəni həyatının öyrənilməsində mühüm rol oynamaqla yanaşı, dövrün müəyyən edilməsində də əsas vasitədir. Xaraba-Gilan şəhər yerindən b.e.ə.II əsrdən XV əsrə qədər uzun bir xronoloji dövrü əhatə edən sikkələr əldə edilmişdir. Bunların içərisində II Mitridatın (b.e.ə.123-88-ci illər) [7, s.11] arşaki gümüş drahması, imperator Honorinin (395-423-cü illər) [7, s.15] qızıl solidi, IX-X əsrlərə aid ərəb xəlifələrinin qızıl sikkələri, XI-XII əsrlərə aid anonim Bizans sikkəsi və çoxlu miqdarda Eldəgizlərin (XII-XIII əsrlər) mis pulları, Şirvanşahların (XII əsr), I Məsudun (1180-1193-cü illər) mis sikkələri, Hülakuların mis və gümüş sikkələri vardır. Numizmatik materiallar içərisində üzərində «Kiran» yazılmış mis sikkədə vardır ki, bu da şəhərdə zərbxananın olduğunu sübut edir.

Xaraba Gilanda aparılmış arxeoloji tədqiqatlar XIII əsrdə Naxçıvan haqqında yazılı mənbələrin verdiyi məlumatları maddi faktlarla şərh etməyə imkan verir.

***Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant N EİF-KETPL-2-2015-1(25)-56/47/5***

## ƏDƏBİYYAT

1.Буниятов З. М. Государство Атабеков Азербайджана (1136-1225 годы), Баку, 1978

2.Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956.

3.Vaqif Piriyev. Naxçıvan tarixindən səhifələr.Bakı, 2004.

4. Vaqif Piriyev. Azərbaycan XIII_XIV əsrlərdə. Bakı, 2003.

5. Гильём де Рубрук. Путешествие в Восточные страны. Карпини Д. История монголов. Москва, 1957.

6. Б.И.Ибрагимов. Средневековый город Киран. Москва-Баку, 2000.

7. Пахомов Е.А. Клады Азербайджана и других республик и краев Кавказа. Вып. 2. Баку, 1938.



**Şəkil 1. Xaraba Gilan şəhər yerində yaşayış evinin qalıqları**





**Şəkil 2. Xaraba Gilan şəhər yerində yaşayış evinin qalıqları**

**UOT 32(091)**

## QAFQAZ SİYASİ MÜHACİRLƏRİNİN BİRLİK UĞRUNDA MÜBARİZƏSİ VƏ ERMƏNİLƏRİN MÖVQEYİ

***T.Y.Əliyeva***
*Azərbaycan Universiteti*
*tahmina751@mail.ru*

***Açar sözlər:*** *Qafqaz, mühacir, respublika, mübarizə, erməni*

Qafqaz Birliyinin pozulması istiqamətində ermənilərin fəaliyyəti milli müstəqilliklər itirildikdən sonra da davam edir. Milli hökumət təmsilçiləri bolşevik işğallarından sonra mühacirətə gedərək orada öz hökumətlərinin təmsilçiliklərini yaradır və azadlıqlarının, suverenliklərinin bərpası uğrunda mübarizəyə başlayırlar. Bu mübarizənin əsas istiqamətlərindən biri yenə Qafqaz Birliyi məsələsi olmuşdur. Mühacirətdə müxtəlif birlik təşkilatları yaradılır ki, onların fəaliyyətlərinin və ermənilərin bu fəaliyyətə əngəl olan əməllərinin öyrənilməsi araşdırmanın tamlığına və mövzu ilə bağlı daha aydın mənzərənin yaranmasına xidmət edir.

## БОРЬБА ЗА ПОЛИТИЧЕСКОЕ ЕДИНСТВО В МИГРАНТОВ КАВКАЗА И ПОЛОЖЕНИЕ АРМЯН

***Т.Я.Алиева***

***Ключевые слова:*** *Кавказ, эмигрант, республика, борьба, армянин*

Армяне после потери национальной независимости продолжали свою деятельность в разрушении кавказского единства. Представители национального правительства после оккупации большевистской, уйдя в эмиграцию, там создают представление и начинают борьбу за свою независимость, свой суверенитет. Эта борьба в основном была направлена на кавказскаяое единство. В эмиграции создаются различные объединения, которые служат полному изучению и исследованию этих тем, направленных на ясное изложение этих картин.

# THE STRUGGLE FOR POLİTİCAL UNİTY İN THE CAUCASUS MİGRANTS ANT THE POSİTİON OF ARMENİANS

***T.Y.Aliyeva***

***Keywords:*** *the Caucasus, Caucasian, emigrant, republican, fight, Armenian*

In violation of the Union of Armenians in the Caucasus after the loss of national mustəqilliklər continues. Representatives of the national government after the Bolshevik occupation and freedom of emigration there is going to create a representation of their governments, begin to struggle for the restoration of sovereignty. One of the main objectives of this struggle has been the issue of the Caucasus. Various community organizations set up in exile in the study of their activities and actions that prevent the operation of the Armenians on the subject of the investigation completeness and helps to create a clearer picture.

Qafqaz respublikalarının milli müstəqilliklərinin devrilməsindən sonra siyasi mühacirlər bir neçə istiqamətdə fəaliyyət göstərirdilər. Birinci istiqamət, heç şübhəsiz devrilmiş müstəqilliklərin yenidən bərpası uğrunda aparılan diplomatik mübarizə idi. İkinci istiqamət, milli müstəqilliklərin bərpasının ən optimal yolu kimi Qafqaz Birliyi modelinin yaradılması üçün bütün Qafqaz siyasətçilərini, ideoloqlarını bir araya gətirmək idi. Bu baxımdan mühacirlərin ilkin təşəbbüsləri Qafqaz Birliyi ideyasının yaradılması barədə nəzəri mülahizələri özündə ehtiva edir. Lakin proses bununla məhdudlaşmır. Mühacirlər nəzəri fəaliyyətlə yanaşı Qafqaz Birliyinin yaradılması yollarını və formalarını arayır, bu istiqamətdə fikir mübadilələri aparırdılar.

1924-cü ilin oktyabr-noyabr aylarında Azərbaycan, Gürcüstan və Şimali Qafqaz təmsilçiləri yenidən Parisdə bir yerə toplaşaraq "Qafqaz Sovet Rus qüvvələrindən xilas olar-olmaz, yüksək dövlət strukturlarının birləşməsi yolu ilə bir federalist qurum yaratmağı" qərara aldılar. Məlum olduğu kimi, hələ 1924-cü ilin iyunun 11-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin imzaladığı protokol əsasında formalaşan Daimi Şura öz qarşısına üç respublika adından diplomatik işlər aparmağı və bu xalqların bir konfederativ dövlətdə birləşdirilməsi üçün bütün tədbirləri görməyi qarşısına məqsəd qoymuşdu [5, 111]. Bununla bağlı təmsilçilər 1924-cü ilin sonlarında qurtuluş mücadiləsini dəstəkləməklə səlahiyyətli bir Qafqaziya Komitəsi qurdular [4, 37].

Varşavada Şimali Qafqaz Dağlıları Xalq Partiyası tərəfindən 1877-1878-

ci illər Qafqaz üsyanının 50-ci ildönümü münasibəti ilə keçirilən ilk böyük konfrans Varşava Şark İnstitutu, Prometey klubu və Brnodakı Çex-Leh klubunun binalarında gerçəkləşdi. 28 aprel 1927-ci ildə tarixində keçirilən konfrans Qraf Otelinin böyük salonunda sosial demokrat, sosial federalist mühacir qrupların təmsilcilərinin də qatılması ilə çoxlu dinləyici kütləsi qarşısında Əhməd Tsalikat "Qafqaz Dağlarının Azadlıq Mücadiləsi" adlı məruzə oxudu. Xüsusilə Adil Bəy Kulattinin "Şimali Qafqaz" adlı məruzəsi iki saat davam edən konfransda çex və lehler tərəfindən maraq və diqqətlə dinlənildi. Konfransdan sonra mühəndis Adil bəy davamlı alqışlarla təqdir edildi [3].

1927-ci ildə Azərbaycan, Gürcüstan və Şimali Qafqaz mühacirləri Qafqaz İstiqlal Komitəsi adlı bir təşkilat yaratdılar. Bu təşkilat 3+1 formatında yaradılmışdı: adı çəkilən 3 Qafqaz respublikası və Polşa. Polşanın əsas funksiyası adı çəkilən Qafqaz təmsilçilərinin fəaliyyətini əlaqələndirməkdən və onlara maliyyə, eləcə də digər zəruri dəstək verməkdən ibarət idi. Azərbaycanı Qafqaz İstiqlal Komitəsində M.Ə.Rəsulzadə, M.Y.Mehdiyev, Gürcüstanı N.Jordaniya, A.Çxenkeli, A.Asatiani, S.Mdivani, Dağlıları isə İ.Çumşov və M.Sunşev təmsil edirdi. Təşkilatda M.Mehdiyev, M.Sunşev və İ.Salamodadan ibarət əməliyyat işlərini həyata keçirən üçlük və hərbi bölmə, mətbuat şöbəsi yaradılmışdı.

1927-ci ildə Varşavada müstəqillik elanının 10 illiyi ilə bağlı keçirilən tədbirlərdə qafqazlı təmsilçilərdən ibarət bir konfederasiya yaratmaq təklifi səsləndi. Bir il sonra isə bu qurumun adından Millətlər Cəmiyyətinə önəmli bir nota verildi. Qafqaz Birliyi ilə bağlı formalaşan Qafqaz İstiqlal Komitəsinin fəaliyyətinə Polşa dövləti böyük köməklik edirdi. Eyni zamanda Polşa bu təşkilatın fəaliyyətini də əlaqələndirir, maliyyə işində dəstək göstərirdi [5, 111].

Bu dövrdə Avropada "Avropa Birliyi" ideyası populyarlaşmaqda idi və qafqazlılar həmin ideyanın nəzəri əsaslarını əldə rəhbər tutaraq Qafqaz Birliyi yaratmağa və erməniləri də prosesə qoşmağa çalışırdılar. Lakin ermənilər Azərbaycana və Gürcüstana qarşı torpaq iddialarından hələ də əl çəkmirdilər. "Azəri Türk" jurnalı Praqada çıxan "Sosialistiçeskiy Vestnik" məcmuəsində erməni müəlliflərinin dərc etdirdiyi "Qafqaz problemi" məqaləsindən bəzi hissələri dərc edərək, ermənilərin Bakı neftindən pay istədiyini, Qafqaz xalqlarının birlik ideyasına önəm verdikləri bir zamanda onların yenə də xülyalarla yaşadığını, torpaq iddialarından əl çəkmədiklərini göstərirdi [2].

Tarixi, iqtisadi və həmçinin ictimai faktorlar göstərir ki, Qafqaz xalqları bir-birindən təcrid olunmuş halda yaşaya bilmirlər. Bu mərhələdə Qafqaz Evi fəlsəfəsinin ən vacib komponenti ümumi informasiya siyasətinin yaradılması və həmçinin dünyanın başqa ölkələri ilə əlaqədə ümumi regional siyasətinin yaradılması zəminidir. Maneələrə baxmayaraq qonşuluqda yaşayan xalqların

anlaşmasına xidmət edən dialoqun qurulması lazımdır.

Cənubi Qafqazda yaşanan problemlər və əməkdaşlıq perspektivləri elm adamlarının, siyasətçilərinin və dövlət xadimlərinin son iyirmi ildə müxtəlif aspektlərdən müzakirə etdiyi və bundan sonrada müzakirə edəcəkləri bir mövzudur. Xüsusilə bölgənin təhlükəsizliyi haqqında təhlillər zamanı əsasən Qərbin və Rusiyanın maraqlarını ifadə edən müxtəlif görüşlər aparılmışdır. Bu görüşlərin ortaq nöqtələri bölgədəki problemləri dövlətlərin sərhədlərinin toxunulmazlığı çərçivəsində həll etməkdən  daha çox, "status quo"nun qorunması şərti ilə silahlı münaqişələrin  başlanmasına mane olmaq və ya separat qüvvələri dəstəkləməkdir. Bu xüsusilə, Abxaziya, Cənubi Osetiya, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi prosesində daha açıq hiss edilməkdədir.

Araşdırma materialları birmənalı olaraq təsdiq edir ki, ermənilər Qafqaz respublikalarının milli müstəqillikləri devriləndən sonra da Qafqaz Birliyinin yaradılmasına elə ilk illərdən mane olmaqda davam ediblər. Onların bu istiqamətdə göstərdiyi fəaliyyətlər, birliyi pozmaqda güddükləri məqsədlər bölgədən mühacirətə gedən siyasi xadimlərin məqalələrində ətraflı təhlil edilmişdir. Bu mühacirlərdən biri birlik ideyasının səmimi tərəfdarı və təbliğatçısı H.Bammat "Qafqaz Konfederasiyası və ermənilər" məqaləsində yazırdı: "Bütün ümidlərini İttifaq dövlətlərinin zəfərlərinə, böyük və kiçik Ermənistanın tarixi torpaqlarından türk hakimiyyətinin qalxmasına bağlayan ermənilər, müttəfiqlərin müharibəni qazandığı dövrdə Qafqaz dövlətlərinə əhəmiyyət vermədilər və müqəddəratlarını onlara bağlamaqdan çəkindilər" [1, 50].

Birinci dünya müharibəsinin yekununda ermənilər özlərini qalib dövlətlərin sırasında görür və Böyük Ermənistanın qurulacağına inanırdılar. Osmanlının çöküşü ərəfəsində Avropa dövlətləri də "xəstə adam"ın tezliklə aradan çıxacağını və onun geniş torpaqlarının bölüşdürüləcəyini səbirsizliklə gözləyirdilər. Ona görə də Avropa dövlətlərində keçirilən müxtəlif toplantılarda ermənilərlə Qafqaz cümhuriyyətləri arasında birlik məqsədilə aparılan danışıqlar heç bir nəticə vermir, bütün tədbirlərdə ermənilərin qeyri-səmimi olduqları ortaya çıxırdı. Bəzi hallarda ermənilər Qafqaz birliyinə ironik münasibət bəsləməkdən belə özlərini saxlaya bilmirdilər.

Lakin Atatürk Anadolu torpaqlarında Avropa ağalığının hökm edəcəyi və "Böyük Ermənistan"ın yaranacağı barədə yaranan bütün arzuları puç etdi. "Trabzondan İskəndəriyyəyə qədər uzanan Böyük Ermənistan xülyası da duman kimi dağılıb getdi" [1, 50].

Ermənilərin "Böyük Ermənistan" məsələsi ilə bağlı bolşevik Rusiyasından gözləntiləri də özünü doğrultmadı. H.Bammat haqlı olaraq deyirdi ki, "Bir millətin bu qədər acı təcrübələr keçməsi tarixdə az görünmüşdür" [1, 51].

Buna baxmayaraq, ermənilər bolşevik Rusiyasının da Qafqazda olmasına sevinir və ona pis variantların ən yaxşısı kimi baxırdılar. Hətta Daşnaksütyun

liderləri də onların müstəqilliyini əlindən alan bolşeviklərə düşmən münasibət bəsləmir və bunu heç gizlətmirdilər. 1918-1920-ci illərdə Ermənistan hökumətinin başçısı olmuş O.Kaçaznuni yazırdı ki, Ermənistan Rusiyaya möhtacdır. Bu gün Rusiya ilə dostluğu möhkəmləndirmək üçün Ermənistan Sovet Respublikası mövcud olmalıdır [6, 56].

Şərhə ehtiyacı olmayan bu fakt ondan xəbər verir ki, ermənilər rəngindən, ideologiyasında asılı olmayaraq ağ və yaxud qırmızı Rusiyaya təxminən eyni cür yanaşıb, başqa sözlə ancaq xilaskar kimi baxıblar. Daşnaksütyun liderinin bu cür düşüncəsi fərqli mülahizəyə yer qoymur. Rusiya Ermənistanın müstəqilliyini əlindən alsa da, Ermənistanın Rusiyaya xilaskar baxışı qətiyyən dəyişmədi. Məhz belə düşüncə Qafqaz Birliyinin gerçəkləşməməsinin əsas səbəblərindən idi. Ermənilər bütün zamanlarda Qafqazda "parçala və hökm sür" siyasətini həyata keçirən Rusiyanın yanında olub. Buna görə də onlar mühacirətdə də daha çox Qafqaz mühacirlərinin deyil, ağ Rusiya mühacirlərinin yanında mövqe tuturdular. Həmin ağ Rusiyanın ki, ancaq bir şüarla, bir prinsiplə yaşayıb fəaliyyət göstərirdilər: "Bölünməz və Böyük Rusiya!". Yəni ermənilər yaxşı bilirdilər ki, Rusiyada bolşevik hakimiyyəti devriləndən sonra qurulacaq istənilən rejim Qafqazı yenə öz əyaləti kimi görəcək, bölgənin xalqlarına heç bir müstəqillik verməyəcək.

Birlik Qafqaz xalqları üçün zəruri və faydalı bir məsələdir. Qafqaz xalqlarının konfederativ əsaslarda birləşməsi bölgədəki etnik münaqişələrin ortadan qaldırılması, separatçılıq hərəkatlarının cilovlanması üçün bəlkə də yeganə effektli modeldir. Bu model həm də inteqrasiya, təhlükəsizlik və stabillik modelidir. Qafqazın bütün bölgələri arasında iqtisadi inteqrasiyanın mövcudluğu təbiətin bəxş etdiyi zəngin təbii resurslardan qarşılıqlı faydalanma imkanlarının yaranması və bölgə xalqlarının rifaha qovuşması deməkdir.

Qafqaz Birliyi ideyası ən aktual dövrünü milli müstəqillik dövründə yaşamış sayılır. 1917-1920-ci illərdə ermənilərin başlıca siysəti nəyin bahasına olursa-olsun "Böyük Ermənistan" arzusunun reallaşdırılması idi. Rusların bölgədə daha çox erməniləri himayə etməsi, bundan əlavə onları silahlandırması, qətliamlar törətmələrinə şərait yaratması hələ beşikdəykən Mütəqil Qafqaz Birliyinin boğulması demək idi.

Azərbaycan, Gürcüstan və Şimali Qafqaz müstəqil dövlət olduqdan sonra da Qafqaz biliyinin reallaşması istiqamətində fəaliyyətə başladılar. Bölgə xalqlarının birlik cəhdi göstərmələrinə baxmayaraq gənc respublikaların mübahisəli ərazi məsələsi və xüsusən də ermənilərin ərazi iddiaları və separatism meyilli siyasəti Qafqaz Birliyi ideyasının reallaşmasına imkan vermədi.

# ƏDƏBİYYAT

1. Bammat H.N. Kafkas Konfederasyonu ve ermeniler // Kafkas Almanagı. İstanbul, 1936.
2. Mehmet S. Kafkasiya meselesi // Azeri Türk 1929, İstanbul, № -24/2.
3. Turan M.A . Promethe Hareketinde Kuzey Kafkasya Mültec // http://birlesikkafkasya.blogcu.com/m-aydin-turan-promethe-hareketi-nde-kuzey-kafkasya-multec/551729
4. Unutkan tarih (Sovyet Sonrası Türkdilli xalqlar. Hazırlayan: Semih Vaner). İstanbul: 1996.
5. Yaqublu N.Q. Mehmet Emin Resulzade Ansiklopedisi. Ankara: Azerbaycan Kültür Derneği yayınları-2015.

Качазнуни О.В. Дашнакцутюн больше нечего делать. Баку: Издательство

**UOT 913(47+57)**

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU MƏSƏLƏSİNDƏ TÜRKMƏNİSTAN RESPUBLİKASININ PROBLEMİN HƏLLİNDƏ MÖVQEYİ

***A.T.Hüseynov***
*AMEA A.Bakıxanov adına Tarix İnstitutu*
*hato1976@mail.ru*

***Açar sözlər:*** *Şahdəniz, təbii qaz, Xəzərin hüquqi statusu*

Xəzərin hüquqi statusu 1992-ci ildən ortaya çıxdı. 1921 və 1940-cı il müqavilələrinə görə Xəzər yalnız İran və Rusiya arasında bölünmüşdür. SSRİ dağılandan sonra Xəzərin qonşularının sayı 5 dövlət oldu. Türkmənistan hesab edir ki, Xəzərin orta hissəsini ümumi istifadədə saxlamaqla milli zonalara bölünməlidir. Lakin qarşılıqlı görüşlərə bxmayaraq problem hələ də tam həllini tapmayıb.

## РЕШЕНИЕ ПРОБЛЕМЫ ПОЗИЦИИ РЕСПУБЛИКИ ТУРКМЕНИСТАНА О ПРАВОВОМ СТАТУСЕ КАСПИЙСКОГО МОРЯ

***А.Т.Гусейнов***

***Ключевые слова:*** *Шахдениз, природный газ, правовой статус Каспийского моря*

Правовой статус Каспийского моря появился с 1992 года. В соответствии с соглашениями 1921 и 1940 годов Каспийском море была разделена только между Россией и Ираном. После распада Советского Союза, соседи Каспийское море было уже 5 независимая республика. В соответствии с мнением Туркменистана Каспийского моря должна быть разделена на общего пользования, при сохранении национальных зон. Тем не менее, несмотря на многосторонние встречи эта проблема до сих пор не решена.

# SOLVING THE PROBLEM OF THE REPUBLIC OF TURKMENISTAN'S POSITION ON THE LEGAL STATUS OF THE CASPIAN SEA

***A.T.Huseynov***

***Keywords:*** *Şhahdeniz, природный газ, the legal status of the Caspian Sea*

The legal status of the Caspian Sea has appeared since 1992. Accarding to the agreement of 1921 and 1940 the Caspian Sea was divided between Russia and Iran. After the collapse of the Soviet Union (USSR) the neighbors of the Caspian Sea were 5 states. Turkmenistan considers of that the Caspian Sea should be divided into the national zones maintaining the average past of the Caspian Sea to common use. In spite of mutual meetings, the problem has not been solved yet.

Xəzər dənizi öz karbohidrogen ehtiyyatlarına, coğrafi, strateji mövqelərinə görə dünyada seçilən bölgələrdən biridir. 90-cı illərin əvvələrində Xəzər dənizi Qafqaz regionunda daha çox diqqət mərkəzinə çevrilməyə başladı. SSRİ-nin dağılması bölgədə yeni müstəqil respublikaların yaranması Xəzərə qərb dövlətlərinin marağını artırdı. Elə bu dövrdə də Xəzərin Hüquqi statusu ilə bağlı mübahisə ortaya çıxdı və 1992-ci ildə aktiv fazaya keçdi.

1991-ci ilə qədər yalnız İran və SSRİ Xəzərin qonşuları sayılırdılar (1921-ci ilfevrlın 26-sı və 1940-cı ilmartın 25-i İran-SSRİ müqavilələrinə görə Astara-Həsənqulu xət bölgüsünə əsasən İrana 14%, SSRİ-yə 86% pay düşmüşdür. 1976-cı ildə SSRİ bu payı sahilyanı ölkələr arasında milli sektorlara bölmüşdür). Ancaq Sovet İttifaqının dağılmasının ardınca Azərbaycan, Türkmənistan və Qazaxıstan Respublikaları da Xəzəryanı ölkələrin sırasına qoşuldular. Hal-hazırda Xəzər sahillərinin 14% İran, 16% Rusiya, 20% Türkmənistan, 21% Azərbycan Respublikası və 29 % Qazaxıstan Respublikası tərəfindədir. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"-nin imzalanması Xəzər dənizinin statusu məsələsinin həlli barəsində danışıqların yeni mərhələsi kimi qədəm qoydu. Çünki müqavilə imzalanana qədər Rusiya və İran dövlətləri heç də Xəzərin statusunun yenilənməsi zərurəti haqqında məsələni müzakirə etmək istəmirdilər. Statusla bağlı üç prinsip müzakirə edilirdi: 1.Beynəlxalq quru sərhədlərinin orta xətt boyunca dənizə qədər uzadılması ilə milli sektorların yaradılması və sahil dövlətlərin özlərinə aid milli sektorlar daxilində hər cür suverenliyə və haqqa sahib olmasıdır (Bu yanaşmaya Rusiya və Qazaxıstan qarşı çıxır). 2. 1982-ci il tarixli BMT Dəniz Hüququ üzrə Müqaviləyə uyğun olaraq hər bir ölkə üçün 12 millik (1dəniz mili-1852 metr) dəniz suları nəzərdə tutur, qalan ərazi isə sahil ölkələrinin ümumi istifadəsinə verilir. Türkmənistan ilə İran bu yanaşmaya müsbət yanaşır. 3. Dənizin 5 ölkə

arasında bərabər bölünməsini nəzərdə tutur. İranın irəli sürdüyü bu həll yoluna Xəzərlə ən uzun sahili olan dövlətlər Qazaxıstan və Rusiya qarşı çıxır. Mövcud bölünmədə yalnız Qazaxıstanın payı 20 faizdən çoxdur. İran ilə sərhədi olan Azərbaycan və Türkmənistan kimi ölkələr öz paylarından İrana təhvil verəcəyi halda özlərinə qonşu olan Qazaxıstandan pay ala bilməyəcəyini bildikləri üçün bu yanaşmanın əleyhinədir) [1, 58-59].

1996-cı il noyabırın 11-12-də Türkmənistanın paytaxtı Aşqabadda (digər görüşlər 30 yanvar-2 fevral 1995-ci ildə Aşqabadda, 28-29 iyun 1995-ci ildə Tehranda, 26-27 sentyabır 1995-ci ildə Alma-Atada, 20-22 may 1996-cı ildə Tehranda, 22-23 may 1997-ci ildə Alma-Atada, 16-17 dekabır 1998-ci ildə Moskvada keçirilmişdir.) Xəzər dənizinin hüquqi statusunun təsbit edilməsinin zəruriliyini və sahilyanı dövlətlər üçün mühüm əhəmiyyətini nəzərə alaraq, Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin iclasında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın işlənməsi üzrə xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrup yaradıldı. Bütün sahilyanı ölkələr, ümumiyyətlə, Xəzər dənizinin bölünməsi məsələsinə tərəfdardırlar. Xəzərin dibinin bölünməsi məsələsində Azərbaycan, Rusiya və Qazaxıstan dövlətləri arasında qarşılıqlı iddialar yoxdur. Məsələ yalnız Türkmənistan və İran dövlətləri ilə razılaşdırılmayıb. Bu səbəbdən indiyədək Xəzərin statusu hələdə müəyyənləşdirilməyib [2, 77-78].

90-cı illərin əvvəlində Türkmənistanın mövqeyi Rusiya ilə çox yaxın idi.Türkmənbaşı şəhərində Rusiya ilə 1995-cil vqustun 11-12-də keçirilən görüşdə tərəflər arasında müqavilə imzalandı və həmçinin Konvensiyanın işlənilməsi müzakirə olundu. 1997-ci avqustun 27-də tərəflər orta xətt prinsipinə razılıq verdilər. Türkmənistan Xəzəri fərqli üsulla həm dibini həm də eninə bölmək təklifini edir.Beləki dənizin Azərbaycanla türkmənistan akvatoriyası meridian istiqamətində uzanmış formadadır [12].

Türkmənistan hesab edir ki, əsas prinsip dənizin orta hissəsini ümumi istifadədə saxlamaqla milli zonaların müəyyənləşdirilməsi olmalıdır.Yəni Xəzər qapalı su hövzəsidir,sahilyanı dövlətlərin ümumi sərvətidir,milli sektorlar isə sahildən içəriyə 45 dəniz mili olmaqla orta sahə ümumi əmlak sayılır. Oradakı neft-qaz çıxarmada bütün dövlətlərin iştirakı olmalıdır [5, 42]. 1993-cü ildə Türkmənistan dövlət sərhəddi haqqında qanun qəbul etmiş və Xəzərdə 12 millik məhəlli sularını ayırmışdır və Xəzərə dəniz kimi baxmağa başlamışdır. Növbəti danışıqlarda Türkmənistan Respublikası bu mövqeyindən imtina etmişdir [6, 1366]. 1997-ci ilin danışıqlarında (xüsusilə Qazaxıstan) təklif edilmişdir ki, Xəzərin hüquqi statusu məsələsi tam müəyyənləşdirilməsinə qədər hər bir dövlət keçmiş sektorunda neft çıxarda bilər. Bu varian Rusiya tərəfindən qəbul edilsə də, Türkmənistan tərəfindən (həmçinin İran da) qəbul edilmədi. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Xəzərdə Türkmənistan üçün isbat

olunan neft ehtiyatı 1,7 milyard barrelə, mümkün neft ehtiyatı 32 milyard barrelə və ümumi neft ehtiyatı isə 34 milyard barrelə bərabərdir [11, 68].

1998-ci ildən Türkmənistan milli sektorlar mövqeyini müdafiə edir və hesab edir ki, Xəzərin dibinə, su qatına və ehtiyatlarına ikili yanaşma qəbuledilməzdir. Bu əməkdaşlığın təşkilati-hüquqi mexanizmini mürəkkəbləşdirə bilər. Həmçinin su qatının ümumi istifadədə olması ehtiyatların nəqli zamanı problemlər yaradacaq və investisiyalrın cəlbinə maneçilik törədəcək. Türkmənistan da hər dövlətə məxsus sektorun onun sahil xəttinin uzunluğu ilə düz mütənasibliyinə tərəfdardır [8, 679]. Türmənistanın XİN Boris Şahmuradov 1998-ci ildə 45 millik milli sektorlar bölgüsünü və sahilyanı dövlətlərin sammitində müzakirə olunmasını təklif etdi. 2002-ci ildə belə bir sammit Tehranda keçirilsədə İran və Türkmənistanın qeyri prisipial mövqeyi səbəbindən ortaq məxrəc əldə edilmədi [3].

Qeyd olunduğu kimi, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi sahəsində aparılan səylərin bir hissəsi iki ya üçtərəfli olub. 2003-cü ildə Rusiya, Qazaxıstan və Azərbaycan Respublikası Xəzər dənizinin dibi ilə əlaqədar 3 müqaviləyə qol çəkmişdilər. Həmin müqaviləyə əsasən Xəzərin sahil bölgəsinin 64 %-i bölüşdürülüb. Bu səbəbdən bəzi ölkələr arasında bir sıra ixtilaflar da yaranıb. Misal olaraq 1997-ci ildə orta xətt əsasında Azərbaycan Respublikası ilə Türkmənistan arasında Xəzər dənizinin bölüşdürülməsi müqaviləsi imzalandı. Ardınca tərəflər “Kəpəz”*("Kəpəz" yatağı Türkmənistan "Sərdar" adlandırır. 1959-cu ildə Azərbaycanın “Xəzərdənizneft” İB tərəfindən kəşf edilmişdir və Xəzər dənizində Azərbaycan və Türkmənistan sərhədində yerləşir. İlk quyu 1986-cı ildə qazılmış və 1988-ci ildə ilk neft əldə edilmişdir. Yataqda 80 mln. tona yaxın neft və 32 mlrd. kubmetr qaz var. 1970-ci ildə SSRİ-nin Neft və Qaz Nazirliyi tərəfindən həyata keçirilmiş bölgüyə əsaslanırlar. O zaman “Kəpəz”-“Sərdar” Azərbaycan sektoruna daxil edilmişdi. 1998-ci ilin fevralından bu yataq iki ölkə arasında mübahisəli əraziyə çevrilib* [4, 573] neft yatağı ilə əlaqədar dərin ixtilaflarla üzləşdilər. Əslində Türkmənistan “Kəpəz”-i mənimsəmək, kəşfiyyat qazma işlərinə, stasionar hasilat və texnaloji platformaların inşasına başlamaq iqtidarında da deyil. Hal-hazırda üzən yarımdalma qazma platformasına (ÜYQP) və güclü kran gəmilərinə yalnız Azərbaycan və Rusiya malikdir. Kəşfiyyat qazma işləri aparmağın malik olduğu Xəzərdə yeganə ÜYQP olan “Dədə Qorqud” Azərbaycanda yerləşir. Bu türkmən tərəfinin “Kəpəz” yatağına münasibətdə beynəlxalq normaları pozma imkanını istisna edir [7, 573].

Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da yaradılıb. 1999-cu il iyunun 8-də Türkmənistanın Azərbaycanda səfirliyi fəaliyyətə başladı. 4 iyun 2001-ci ildə maliyyə çatışmazlığı səbəbindən Aşqabada köçürülmüş, 8 aprel 2008-ci ildə fəaliyyətini bərpa etmişdir. Azərbaycanın Türkmənistanda Səfirliyi 18 oktyabr

2002-ci ildə fəaliyyətə başlamışdır. Hal-hazırda Azərbaycan Respublikasının Türkmənistandakı Səfiri Vəhdət Sultan-zadədir [9]. 2001-2008-ci ildə səfirliyin fəaliyyəti dayandırıldı. 2002-ci ilin avqustunda isə Azərbaycanın Aşqabadda səfirliyi fəaliyyətə başladı. İlk dövrdə iki ölkə arasında münasibətlər kifayət qədər mürəkkəb idi. Xüsusən Xəzərin hüquqi statusu və milli sektorların sərhədləri ilə bağlı Türkmənistanın nümayiş etdirdiyi mövqe Xəzər bölgəsi ölkələri arasında narahatçılığa səbəb olurdu. Bundan başqa, Xəzər dənizində əməkdaşlıq, onun karbohidrogen ehtiyatlarının işlənməsi və xarici bazarlara çıxarılması məsələsində də Türkmənistanın qeyri-prinsipial mövqeyi bu ölkənin tərəfdaş mövqeyinə xələl gətirirdi.1993-cü ili dekabrın 23-24-də Aşqabadda keçirilən MDB-yə üzv ölkələrin başçılarının Zirvə toplantısında iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi, maraq doğuran regional və beynəlxalq məsələlər barəsində danışıqlar aparıldı. 1996-cı il martın 18-19-da Türkmənistan prezidenti Saparmurat Niyazov Azərbaycan Respublikasına rəsmi səfəri zamanı dostluq və əməkdaslıq haqqında muqavilə, Bakı Bəyannaməsi, təhsil sahəsində əməkdaslıq haqqında saziş, məsləhətləşmələr haqqında protokol, konsulluq konvensiyası, əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş, dəniz ticarət gəmiciliyi sahəsində əməkdaşlıq haqqında saziş və digər sənədlər imzalandı. 90-cı illərin sonlarından etibarən soyuqlaşan ikitərəfli münasibətlər tədricən mülayimləşməyə başladı. 2008-ci il mayın 19-da Türkmənistanın yeni prezidenti Qurbanqulu Berdimühəmmədov Azərbaycana rəsmi səfərə gəldi və iki ölkənin maliyyə, xarici işlər və nəqliyyat nazirlikləri arasında əməkdaşlıq haqqında sazişlər imzalandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci ilin noyabrın 28-də Türkmənistana rəsmi səfəri zamanı Türkmənistan prezidenti tranzit boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması barədə Türkmənistanın beynəlxalq təşkilatlarda irəli sürdüyü təşəbbüsün Azərbaycan Prezidenti tərəfindən dəstəklənməsini yüksək qiymətləndirildi. Danışıqlar zamanı Bakı və Türkmənbaşı limanları vasitəsilə beynəlxalq dəmir yolu – bərə xəttində yüklərin daşınmasının, yük vaqonlarının və konteynerlərinin istismarının, nömrələr üzrə qeydiyyatının və onlardan istifadəyə görə hesablaşmanın təşkili haqqında saziş, təhsil haqqında əməkdaşlıq haqqında saziş, hökumətlər arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Türkmənistan hökumətlərarası komissiyası haqqında saziş və digər sənədlər imzalandı. 2008-ci il sentyabrın 9-da Bakıda "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlıq strategiyası" mövzusunda I Beynəlxalq Konfrans-sərgi keçirildi. Burada Türkmənistan nümayəndələri ilə yanaşı dünyanın 31 ölkəsi təmsil olunurdu. Həmin il ticarət əlaqələri zəif göstərici ilə yadda qalıb: İdxal 45.9 miliyon dollar, ixrac 14.0 miliyon dollar, ticarət saldosu -31.9% təşkil edib. 2010-cu ilin I rübündə isə Azərbaycanın Türkmənistanla ticarət əlaqələri: İdxal

3 068,9 min dollar, ixrac 12 823,6 min dolar, xarici ticarət saldosu 9 754,7 min dollar olmuşdur [10].

Azərbaycan Respublikası dövlət səviyyəsində dəfələrlə bildirmişdirki mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinin tərəfdarıdır və Xəzər dənizində demilitarizasiyanın tərəfdarı kimi çıxış edir. Azərbaycan Türkmənistanla danışıqları davam etdirməyə hazırdır. 2013-cü ilin noyabrın 21-22-də Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya hazırlanması üzrə Xüsusi İşçi Qrupunun 34-cü iclasında müəyyən razılıqlar əldə olunsa da problemin həlli sahəsində hələ də yekun bir qərara gəlinməmişdir. 2014-cü il oktyabırın 10-da 5 Xəzəryanı olkə Moskvada müqavilə imzaladı. Müqavilədə qeyd edilirdi ki, 15 millik dəniz zonası və daha 10 mil iqtisadi zona sayılsın. Qalan 25 millik zona bütün sahilyanı dövlətlər üçün ümumi istifadə sahəsi hesab edilsin.

## ƏDƏBİYYAT


1. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr( 1991-1999). Bakı: 1999,104 səh.
2. Əliyev Q. Azərbaycan nefti dünya siyasətində. Bakı: 2003 (namizədlik dissertatiyası.) səh 73-75.
3. Темирбулатов А.М. Правовой статус Каспийского моря: позиции прикаспийских государств (Электронный ресурс). Режим доступа: www.geobez.ru
4. Mirişli F.R. Dünya iqtisadiyyatı. Moskva: İzvestiya, 2015, 642 səh.
5. Mehrəliyev E. Beynəlxalq siyasətdə neft amili. Bakı: 2005.
6. Adıgözəlov K. “Azərbaycanın neft strategiyası beynəlxalq siyasətin aparıcı istiqamətlərindən biri kimi” Əsrin müqaviləsi 10 il Azərbaycan böyük inkişaf yollarında Bakı: 2004.
7. Mirişli F.R. Dünya iqtisadiyyatı. Moskva: İzvestiya, 2015, 642 səh.
8. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005, 686 s.
9. http://mfa.gov.az
10. http://lib.aliyevheritage.org
11. Hacızadə E.M. Neft təsərrüfatinin iqtisadi strukturunun modernizasiyası. Bakı: Elm, 2003, 512 səh.
12. Икаев Д.Г. Проблемы определения международно-правового статуса Каспийского моря : Дис. ... канд. юрид. наук : 12.00.10. Москва: 2006, 203 с. РГБ ОД, 61:06-12/1261.

**UOT 159.9**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRDƏ TRANSFORMASİYALAR

***N.Z.Çələbiyev***
*ADPU-nun Şəki filialı*
*n_chelebiyev@mail.ru*

***Açar sözlər**: qloballaşma, ailə, ailədaxili münasibətlər, transformasiya, inteqrasiya, ailə dəyəri,demoqrafik keçid, antiqlobalizm*

# ТРАНСФОРМАЦИЯ ВО ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЯХ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

***Н.З.Чалабиев***

***Ключевые слова**: глобализация, семья, внутрисемейные отношения, трансформация, интеграция семейные ценности, демографический переход, антиглобализм.*

Статья посвящена процессу глобализации, принимающий в мире необратимый характер, порожденным им социальным последствиям. Автор просмотрел психологические аспекты влияния глобализации в современном обществе на семейную систему и на национальные семейные ценности, обратив внимание на глобальную интеграцию, как на неизбежный процесс, проявил инициативу проанализировать его положительные и отрицательные проявления.

# TRANSFORMATIONS IN THE CONTEXT OF GLOBALIZATION OF FAMILY REATIONS

***N.Z.Chalabiev***

***Keywords:*** *globalization, family, a family relations, Transformation, integration, family values, anti-globalization, demographic transition*

The article deals with the result of globalization to social consequences in the modern changing world. The author tries to identify the influence of globalization to psychological aspects of family system and values of the modern family? The process of global integration is inevitable and analyze the positive and negative effects.

Sürətlə qloballaşan müasir dünyada siyasi, iqtisadi, sosial sahələrlə yanaşı, mənəvi sahələrdə də ciddi dəyişikliklər baş verməkdədir. Qlobal inteqrasiyanın tərəfdarı kimi son illər respublikamızda mədəniyyətlərarası və dinlərarası dialoqa həsr olunmuş bir sıra beynəlxalq tədbirlər, o cümlədən beş qlobal forum, bir sıra regional və beynəlxalq əhəmiyyətli transmilli layihələr həyata keçirilmiş və bu istiqamətlə fəaliyyətlər uğurla davam etdirilir. Bütün bunlar isə öz növbəsində Azərbaycanı qlobal transformasiya və inteqrasiyanın subyektinə çevirmişdir. Qlobal inteqrasiya ictimai həyatın digər sahələri ilə yanaşı, cəmiyyətdə insanların sosial birliyi forması kimi ailəyə də öz təsirini göstərməkdədir. Qaçılmaz olan qlobal transformasiya öz təsirini yalnız ailənin tiplərində deyil, həm də ailədaxili münasibətlərin xarakterində, ailənin sosial yönəlişliyində, dəyərlər sistemində, ailə üzvlərinin sərvət meylində, habelə bütövlükdə ailənin mənəvi-psixoloji iqlimində də göstərir.

Qloballaşmanı heç də beynəlmilləşmə yox, onun daha yüksək və intensiv forması kimi təqdim edən Böyük Britaniyanın Kembric Universitetinin professoru Piter Skott qeyd etmişdir ki, qloballaşma tamamilə fərqli hadisədir, o, insanların şəxsi həyatına da nüfuz edir.

Hər bir cəmiyyətdə mədəniyyət və sivilizasiyanın üzvi vəhdəti əyani olaraq ailədə əks olunur. Sosial-mədəni fenomen kimi ailə bütün bəşər mədəniyyəti və sivilizasiyanın, bütövlükdə cəmiyyətin ictimai-tarixi və mənəvi təcrübəsini ehtiva edir.

Bazar iqtisadiyyatına keçid dövründə baş verən transformasiyalar ənənəvi cəmiyyətlərə daha kəskin təsir göstərir: ənənəvi dəyərlər və stereotiplər sürətlə dağılır, ənənəvi dəyərlərlə qloballaşmanın gətirdiyi və "müasirlik" kimi təqdim edilən dəyərlər arasında ziddiyyətlər kəskinləşir.Bütün bunlar isə öz növbəsində bir sıra demoqrafik, sosial və psixoloji problemlərin meydana gəlməsinə səbəb olur.

Ənənəvi ailə tipinə məxsus sosial dəyərinin get-gedə zəifləməsi, Qərb ailə dəyərlərinin sürətlə ənənəvi dəyərləri sıradan çıxarması, milli adət və ənənələri Qərb yönümlü dəyərlərin əvəz etməsi, boşanmaların, vətəndaş nikahlarının, etnik-qarışıq nikahların sayında artım və s. ənənəvi ailənin dağılması risklərini artırır.

Qeyd etmək lazımdır ki, qloballaşma inkişaf etmiş ölkələrlə yanaşı, daha çox inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrə daha güclü təsir göstərir

məhz buna görə də təsirlərin doğurduğu zidiyylətlər və narazılıqlar da daha çox inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrdə daha qabarıq hiss olunmaqdadır. Bunun nəticəsində cəmiyyətdə qadınların emansipasiyası və gender bərabərliyinə, onların kişilərlə bərabər vətəndaş hüquq və azadlıqlarından bəhrələnərək şəxsi karyera yaratmalarına və ailədə kişilərdən iqtisadi asılılıqlarından yaxa qurtarmaq üçün təşəbbüslərinin artmasına səbəb olur ki, bu da bir sıra yeni problemlərə yol açır.

Avropa ailə strukturlarının "eksportu"nun təsiri altında ölkəmizdə ailə planlaşdırılmasında ailələrin əxlaqi norma və qaydalarında, adət və ənənələrində, dini etiqadlarda deqradasiyalar baş verir.

Bir çox mütəxəssislər qloballaşmanın cəmiyyətin alt sistemi olan ailəyə vurduğu ziyanın daha təhlükəli olması, ənənəvi ailə dəyərlərini, milli mental dəyərləri sıxışdırdığını qeyd edirlər. Ailə problemləri və gender münasibətləri üzrə tanınmış mütəxəssis T.A.Qurko qeyd edir ki, "...iqtisadiyyatın qloballaşması nəticəsində miqrasiya prosesləri geniş miqyas alır. İnsanlar rifah və həyat səviyyəsi yüksək olan ölklərə yüksək qazanc və daha yaxşı həyat axtarışı ilə üz tuturlar. Lakin getdikləri ölkələrdə ya milli əlamətlərinə, ya da miqrant statuslarına görə diskiminasiyaya məruz qalırlar. Çox vaxt  hüquqları tadalanır, iqtisadi tələyə salınır, qadınlar isə başqa cür istismara məruz qalırlar. Müasir qloballaşmanın gətirdiyi miqrasiya prosesləri qohumluq və ailə əlaqələrini dağıdır" [11].

Xarici ölkələrə miqrasiya edən gənclərin bir çoxu həmin ölkələrdə əcnəbilərlə nikaha daxil olaraq ailə qurur və vətəndaşlıq qazanaraq uzun illər və ya daimi olaraq burada yaşayırlar.  Belə ailələrdə doğulan uşaqlar şübhəsiz ki, yeni şəraitə asanlıqla uyğunlaşır, yerli mədəniyyəti və dili mənimsəyirlər. Lakin öz milli köklərindən ayrı düşən belə uşaqlarda, xüsusilə yeniyetməlik yaşlarında etnik identikliyin formalaşması prosesində problemlər yaranır.

Qloballaşma beynəlxalq aləmdə bütün sahələrdə qarşılıqlı asılılıq və əlaqələrin dərinləşməsi əsasında yeni, ümumdünya miqyaslı qlobal sistemin formalaşması, inkişafı və fəaliyyətinin əks olunduğu obyektiv prosesdir. Bu proses siyasi, iqtisadi və sosial ölçülərlə xarakterizə olunaraq, qlobal transformasiyaya yol açmışdır. Transformasiya dedikdə, insanın, insanlar qrupunun yeni sosial şəraitə, dəyişən həyata uyğunlaşması nəzərdə tutulur.

Qloballaşma dünyanın bütövlük, qarşılıqlı əlaqə və asılılıq, inteqrasiya olunma baxımından formalaşması və onun bu şəkildə ictimai şüur tərəfindən dərk olunmasıdır. [14,s.64]

Qloballaşma müasir dünyada baş verən dəyişikliklərin əsas səbəblərindən biri kimi qiymətləndirirlir. Bu prosesin birbaşa və ya dolayı təsirləri nəticəsində dünyanın müxtəlif ölkələrində yaşayan xalqların həyat tərzinin, mental dəyərlərinin, adət-ənənələrinin, mədəni təcrübəsi və mənəvi  prinsipləri

milli sərhədləri aşır, kütlələrin şüurunda yeni stereotiplər və yönümlər formalaşır.

“Qloballaşma, inteqrasiya qaçılmaz prosesdir, onun qarşısını heç bir xalq, dövlət ala bilməz. Artıq beynəlxalq əlaqələr, iqtisadi, siyasi, mədəni münasibətlər elə bir inkişaf həddinə çatıb ki, ona qarşı çıxmaq mümkün deyil” [8.s.7]. Qloballaşma prosesi bir çox cəhətdən üstünlüklərə malik olsa da, onun törətdiyi və törədə biləcəyi fəsadlar da az deyildir. Bu sahədə aparılan tədqiqatlar sübut edir ki, qloballaşmadan dünya əhalisinin yalnız 20%-i fayda götürür, qalan insanlar isə bundan ziyan çəkirlər. Bu cəhətdən ən çox ziyan regional və milli mədəniyyətə malik olan xalqlara, onların mənəvi dəyərlərinə dəyir. Bu proses insan fəaliyyətinin müxtəlif sahələri də daxil olmaqla yeni beynəlxalq standartların yaranmasına meydan açır. Müasir cəmiyyətdə yaşayan uşaqların əksəriyyəti erkən yaşlarından eyni məzmunlu uşaq proqramlarına-videokliplərə və cizgi filimlərinə, yaşlılar isə daha çox həyati reallıqlardan uzaq süjetli kompyuter texnologiyaları əsasında yaradılmış “köpük” filimlərə baxırlar. Dünyanın hər yerində insanlar demək olar ki, hər gün analoji kommentariyalı xəbərləri izləyir, dünyanın məşhur firma və şirkətlərinin istehsal etdiyi geyim və məişət əşyalarından və nəqliyyat vasitələrindən istifadə edir, oxşar ərzaqlarla qidalanırlar. Qloballaşmanın təsiri altında bir çox xalqların milli adət və ənənələrə əsaslanan ailə dəyərləri ciddi deformasiyaya uğrayır, əcnəbilərlə etnik-qarışıq nikahlar əsasında qurulan ailələrin sayı durmadan artır. “Birmədəniyyətliliyin və yekcinsliyin tamamilə yeni səviyyəsini doğuran qloballaşma inkişafın Qərb modelləri üzrə genişmiqyaslı standartlaşdırmaya çevrilir: dünyanın müxtəlif guşələrində insanlar eyni cür-Avropasayağı geyinir, eyni modaya, eyni adətlərə və zövqlərə üstünlük verir, eyni filimlərə baxır, eyni musiqini dinləyir, əksəriyyəti Qərb mədəniyyətini təmsil edən eyni kumirlərə pərəstiş edirlər” [13,s.319]. Bu isə öz növbəsində cəmiyyətin bütün sosial təbəqələrini birləşdirən milli və ənənəvi mental dəyərlərin sistemli həyat axarında əriyib yoxa çıxması, nəsillər arasında varisliyin itməsi kimi təhlükəli tendensiyadan xəbər verir.

“Qloballaşma sadəcə olaraq müxtəlif dövlətlərin inteqrasiyası yox, təhsil, mədəniyyət, iqtisadiyyat, hətta düşüncə tərzinin yaxınlığı, mümkün olsa, oxşarlığı deməkdir [9,s.19].

Qloballaşma bir çox cəhətdən texnogen sivilizasiya ilə paralel gedən prosesdir. O, ənənəvi cəmiyyətdən texnogen sivilizasiyaya keçidi sürətləndirir, “bio”, “nano” və “info” texnologiyalar əsasında yeni texnologiyalara meydan açır. “Texnogen sivilizasiya-bizim can atdığımız, illüziyalar içərisində öz həyatımıza gətirmək istədiyimiz sosial şərait kimi başa düşülür. Əslində həmin şərait, “...Amerika, Avropa mütəxəssisləri tərəfindən insanı bezikdirən, onun fiziki və psixi fəaliyyətsizliyinə səbəb texnogen rahatlıq, ifrat azadlıq, ifrat müstəqillik kimi xüsusiyyətlərinə görə tənqid edilir” [4,s.138].

"Qloballaşma prosesi bizim ictimai, iqtisadi və mədəni həyatımız üçün daimi xarakter daşıyır. BMT, Dünya Bankı, Avropa İttifaqı və digər bu kimi beynəlxalq təşkilatlar təhsil sahəsi də daxil olmaqla, dünyada baş verən qloballaşma prosesinin daha da sürətlənməsində mühüm rol oynayırlar" [7].

Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivəsinə salaraq sərt şəkildə məhdudlaşdırır. "O, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir" [10,s.107].

"Qloballaşma" kifayət qədər geniş anlayışdır. O, özündə yalnız iqtisadi deyil, ölkələr arasında qeyri-iqtisadi, mədəni, elmi-texniki əməkdaşlıq, beynəlxalq turizm, ümumdünya informasiya şəbəkəsi olan İnterneti və s. də əhatə edir. "Qloballaşma" anlayışı elmi leksikaya 1990-cı illərin ortalarından etibarən daxil olmuş, birmənalı izahı olmasına və diskussiya doğurmasına baxmayaraq, qısa zamanla surətlə genişlənərək beynəlxalq terminə çevrilmişdir.

"Qloballaşma" termininin yaranmasını amerikalı sosioloq R.Robertsonun adı ilə bağlasalar, o, qloballaşmaya müxtəlif növlü proseslərin bir növ nəhəngləşdirilməsi və ya qarışığı kimi baxılmasının əleyhinə idi. R.Robertsona görə, qloballaşma qlobal məkanda keyfiyyət dəyişikliklərini, ayrı-ayrı insanların və ya bütünlüklə bəşəriyyətin, qarşılıqlı əlaqəsi və unikallığının artırılmasını müəyyən edən obyektiv prosesdir [9].

"Qloballaşma" terminin vahid elmi izahı yoxdur. Bu termin haqqında çox ümumi mahiyyət doğuran açıqlamanı Cessi Rassel vermiş və qeyd etmişdir ki, qloballaşma-iqtisadi, siyasi, mədəni inteqrasiya və vahid şəklə gətirilmə xarakteri kəsb edən ümumdünya prosesidir. Müasir fenomen kimi qloballaşmanın təhlili "qlobalistika" adlı fənlərarası elmi tədqiqat sahəsinin meydana gəlməsi ilə nəticələnmişdir. Bu elm sahəsi qloballaşma proseslərinin mahiyyəti, xarakteri, səbəb və inkişaf perspektivlərindən bəhs edir. "Qloballaşma" anlayışı sözün geniş mənasında həm regional, həm də dünya səviyyəsində qlobal problemlər və qloballaşmaya aid elmi, fəlsəfi, kulturoloji və tətbiqi tədqiqatların nəticələrini özündə əks etdirir. Bir çox alimlər isə bu anlayışın fərqli interpretasiyalarını vermişlər.

ABŞ alimi Fridment "qloballaşma" anlayışını "insanların, bazarların, texnoloji inkişafla birlikdə əvvəlkindən daha sürətli, ucuz və dərin formada inteqrasiyası" kimi xarakterizə etmiş, A.Giddens isə, qloballaşma ilə birlikdə "dünyanın köklü dəyişiklik mərhələsinə daxil olduğunu, təməli iqtisadiyyata əsaslanan bu dəyişmə prosesinin Yer kürəsinin hər hansı bölgəsi ilə məhdudlaşmadığını, getdikcə bütün ölkələri əhatə edəcəyi fikrini irəli sürmüşdür.

A.Ponarina qeyd edir ki, iki hadisəni dünya ictimaiyyətinin müasir inteqrasiya olunmuş inkişafının bir-birini qarşılıqlı tamamlayan tərkib hissələri

qismində fərqləndirmək lazımdır: burada qloballaşma–hibridləşdirilmiş dünya mədəniyyətinin meydana gəlməsi və milli ənənələrin qarışdırılması, beynəlliləşdirilmə isə milli dövlətlərin-icmaların və onların öz aralarındakı qarşılıqlı əlaqənin təşəkkül tapmasıdır [15,s.79].

"Qloballaşma və antiqlobalizm qarşıdurması müasir beynəlxalq həyatın reallığıdır. Əslində, elə onların mübarizəsi də beynəlxalq sistemi daha çevik saxlayan fəaliyyətlərin bir hissəsidir. Məsələ burasındadır ki, daha təcrübəli və mübariz cəmiyyətlər qlobal inteqrasiya prosesinin labüdlüyünü anlayaraq, özünü ona qarşı müqavimət və dirəniş ruhunda kökləmir,əksinə, enerjisini onunla ayaqlaşmaq səylərinə yönəldir" [8,s.161].

Antiqlobalizm qloballaşmaya əks olunan beynəlxalq hərəkatdır. Onun ideoloqu ABŞ iqtisadçısı, Nobel Mükafatı Laureatı D.Tobin hesab edilir. O, nəhəng maliyyə qurumları və şirkətlərdən vergilər alıb ictimai ehtiyaclara yönəltməyi təklif edir. Antiqlobalistlər kütləvi etirazlar, elmi konfranslar, küçə yürüşləri, ekoloji tədbirlər və s. kimi aksiyalar keçirməklə qloballaşmaya qarşı çıxır, bu prosesin ayrı-ayrı dövlətlərə və xalqlara ciddi ziyan vuracağı barədə həyacan təbili çalırlar.

"Qloballaşmanın hücuma məruz qalmasının səbəblərindən biri bundan ibarətdir ki, onun ənənəvi dəyərləri təhlükə altına qoyması haqqında fikirlər formalaşmışdır. Bu ziddiyyətlər realdır və müəyyən dərəcədə qaçılmazdır" [1,s.284].

Hal-hazırda qloballaşma proseslərinə aid bir sıra nüfuzlu konsepsiyalar mövcuddur F.Fukuyamanın ("Tarixin sonu"), Z.Bjezinskinin ("Böyük şahmat taxtası"), J.Vallerstaynın ("Məlum dünyanın sonu. XXI əsrin sosiologiyası"), S.Hantinqtonun ("Sivilizasiyaların toqquşması"), U.Bekin ("Risk cəmiyyəti. Başqa modern yolunda"), R.Robertsonun ("Sosial nəzəriyyə və qlobal mədəniyyət"), V.İnozemsenin ("Parçalanmış sivilizasiya: postiqtisadi inqilabın mövcud zəminləri və mümükn nəticələri"), A.Panarinin ("İnformasiya müharibəsi və geosiyasət"), A.Utkinin ("Amerika imperiyası") və s. adları daha məşhurdur. Adları qeyd olunan konsepsiyaların demək olar ki, hər birində qloballaşmanın bəşəriyyət üçün neqativ təsirləri, doğuracağı fəsadlar xüsusilə qeyd edilir, bununla belə, bu fenomenin obyektiv və geriyə dönməz xarakter daşıdığı vurğulanır.

"Ada kimi yalnız özü üçün olan adam yoxdur, hər bir adam qitənin, qurunun bir hissəsidir. Əgər dalğa dənizdə sahil qayasını yuyub aparsa, Avropa kiçilər və habelə o, dəniz burnunun ucunu yumuş olsa, yaxud sənin və ya sənin yoldaşının evini uçurtsa, hər bir insanın ölümü mənə də təsir edər, çünki mən bütün bəşəriyyətlə vəhdət təşkil edirəm. Ona görə də, heç zaman soruşma ki, zəng kimin üçün çalınır, məhz sənin üçün də çalınır" [12,s.3].

Müasir dövrdə qlobal problemlər insanların həyatının bir çox sahələrinə, ayrı-ayrı dövlətlərin siyasi, iqtisadi və mənəvi həyatına, dinlərarası və

millətlərarası münasibətlərə, insanların həyat şəraitinə, özünüdərk və mental dəyərlərinə ciddi təsir göstərməklə yanaşı, bir sıra qlobal problemlər də yaratmışdır. ABŞ-ın Kolumbiya Universitetinin professoru, İqtisadiyyat üzrə Nobel Mükafatı Laureatı Cozef Stiqlits "Qloballaşma: həyacanlı tendensiyalar" adlı kitabında yazmışdır: "Hər hansı bir xalqın qloballaşmadan nə kimi bar götürəcəyi əsas etibarı ilə milli hökumətlərdən asılıdır. Başlıca şərt isə bazar iqtisadiyyatında dövlətin rolunun bərpa edilməsindən ibarətdir. O, hesab etmir ki, "bazarların özləri bütün sosial problemləri həll edə bilər. Bərabərsizlik, işsizlik, ətraf mühitin çirklənməsi- bütün bu problemlərin həllində mühüm rol dövlətə məxsusdur" [2,s.64-65].

Dünya dövlətləri arasında münasibətlərdə özünü göstərən qloballaşma mental ruhu və dəyərləri ilə fərqlənən ayrı-ayrı ölkə xalqlarının ənənəvi həyat tərzinə güclü təsir göstərir. Ailə, onun kiçik sosial qrup kimi cəmiyyətdə, şəxsiyyətin formalaşması və inkişafındakı rolu sürətlə qloballaşan müasir dünyada yeni xarakter almağa başlamışdır. Qloballaşmanın qaçılmaz təsiri altında dəyişməyə məruz qalan bütün cəmiyyətlərdə "şəxsiyyət və cəmiyyət" dixotomiyasında münasibətlərin yeni sistemi formalaşır və bu dəyişikliklər öz təsirini daha qabarıq formada dəyərlər sisteminin yeniləşməsində, ailənin təkamülündə, struktur və funksional sıçrayışlarda əks olunur.

Bir çox dünya ölkələri kimi, postsovet ölkəsi olan Azərbaycan da texnogen sivilizasiya adlanan bezikdirici yeni dövrün formalaşdırdığı həyat tərzində yaşamaq zərurəti ilə üz-üzə qalmışdır. Yeni həyat tərzinin yaratdığı sosial-iqtisadi və mənəvi-psixoloji problemlərin aradan qaldırılması məcburiyyəti insanların psixoloji durumunda ciddi narahatlıqlar və gərginliklərə səbəb olmuşdur. Bütün bunlar isə ənənəvi ailədaxili münasibətlərə ciddi təsir göstərir, davamlı münaqişələrə, məişət zorakılıqlarına, əksər hallarda boşanmalara gətirib çıxarır. 2016-cı ilin statistikasına görə, Azərbaycanda hər 1000 nikaha 200 boşanma düşür ki, bu da ölkəmizdə ailə institutunun böhranı barədə ciddi narahatlıqlara əsas verə bilər.

Müasir cəmiyyətdə nikahın qeyri-rəsmi olan **tənhalıq, "vətəndaş" nikahı və "ana ailələri"** kimi alternativ formaları meydana gəlmiş və cəmiyyətdə onlara liberal münasibət formalaşmaqdadır. İndiki cəmiyyətdə "ana" və "uşaqlar" adi hadisədir. Müasir qadınların bəziləri, hətta bir neçə uşağı atanın himayəsi olmadan böyütməyə nail olurlar.

Müasir ailəli kişi və qadınların bir qismi öz vaxtlarının çox hissəsini öz ailəsi ilə real ünsiyyətdə deyil, sosial şəbəkələrə qoşulmaqla virtual ünsiyyətə keçirirlər. Onlar virtual tanış olduqları adamlarla intim yazışmalara qoşulur, şəxsi və ailə həyatlarının sirlərini onlarla bölüşürlər. Müasir statistikaya görə, hər 5-6 ailədən biri məhz sosial şəbəkələrdən xəlvəti istifadə nəticəsində yaranan xəyanət şübhəsi və ya qısqanglıq səbəbindən dağılır. Sosial şəbəkələr zəmanəmizin böyük texnoloji nailiyyəti olsa da onun geniş kommunikativ

imkanları sui istifadə nəticəsində ailələrə fəalakət və bədbəxtliklər gətirir, “deviant davranış”ın formalarından biri olan “kompyuter addiksiyası” və ya “İnternet asılılığı”na səbəb olur.

Bu prosesin təsiri altında dünya dövlətlərinin siyasi, iqtisadi və mədəni sahədə əməkdaşlıq əlaqələri genişlənir və get-gedə şəffaflaşır. Translokal və transmilli şəbəkələr, İnternet, tələbə və peşəkar kadrların mübadiləsi, investisiya axınları, birgə regional layihələr, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlamanın yaxşılaşması, informasiyanın hamı üçün əlçatan olması, istehlak malların çeşidliliyi və bolluğu və s. qloballaşmanın müsbət cəhətləridir. “...qloballaşma problemlərinə həsr olunmuş çoxsaylı diskussiyalarla həmişə xüsusi bir narahatlıqla vurğulanırdı ki, qloballaşan dünyada milli dövlət (“nation-state”) və mədəniyyətlərin tədricən yoxa çıxması qaçılmaz olaraq. Ancaq belə olmamalıdır və hələlik olmamışdır” [8,s.161].

Bir sıra antiqlobalistlər qloballaşmanın “qlobal müdaxilə” kimi qiymətləndirir\, “amerikanlaşma”, “hibridləşmə” kimi təqdim edirlər.

Məşhur İngilis yazıçısı Çarlz Snou hələ 1959-cu ildə Nobel Mükafatının təqdimatı mərasimində söylədiyi nitqində göstərirdi ki, müasir cəmiyyətin inkişafı ilə bağlı iki fərqli süur forması və ziyalı təbəqəsi yaranıb. Bunlardan biri humanitarlar, digəri isə texniki təfəkkürlü, dünyagörüşlü insanlardır. Humanitarlar ənənələrin pozulduğunu, getdikcə mənəviyyatın korlandığını, texnokratlar isə elmi-texniki tərəqqiyə istinad edərək, cəmiyyətin daha da tərəqqi edəcəyini göstərirlər. Uyğun olaraq humanitarlar milliliyin, texnokratlar qloballaşmanın təşəbbüskeşi kimi çıxış edirlər [5,s.21].

Qloballaşma prosesinin nəticələri özünün müsbət və mənfi təzahürləri ilə artıq reallıqdır.

Müasir dünyada baş verən hadisələr birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını məhz qloballaşma müəyyənləşdirəcəkdir. Bu proses dünya ölkələrinin siyasi, iqtisadi, sosial və sosiomədəni sahələrində bəzi ortaq dəyərlərin milli və beynəlxalq sərhədləri aşaraq bütün dünyaya yayılmasıdır. Heç bir dövlət qlobal proseslərə qoşulmağa məcbur edilməsə də, yaranmış vəziyyət dövlətləri onunla hesablaşmaq məcburiyyəti ilə qarşılaşdırır.

## ƏDƏBİYYAT


1. Cozef E. Stiqlitz Qloballaşma və onun doğurduğu narazılıqlar. İqtisadi İslahatlar Mərkəzi. B:, Xəzri-Ekspress. 2004. 317 səh.
2. Дж. Стиглиц. Глобализация: Тревожные тенденции. M:, 2004.
3. Əsgərzadə A. Qloballaşma və onun Azərbaycan mühitinə təsiri. Beynəlxalq münasibətlərin aktual problemləri. B:, 2007
4. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. (Psixoloji etüdlər). B.,”MBM”, 2007, 200 səh.
5. Əliyev R.İ. Etnopsixologiya: Qloballaşma və millilik. B., “Nurlan”, 2007, 180 səh.
7. Əliyev S. Dünya iqtisadiyyatının qloballaşması şəraitində ali təhsilin beynəlmilləşdirilməsinin bir sıra aspektləri. “Azərbaycan müəllimi” qəzeti, 25 oktyabr, 2010
8. Feyziyev C.Ə. Türk dövlətləri birliyi. Qlobal inteqrasiyanın Avrasiya modeli. B., “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 312 səh.
9. Федотова Н.Н. Глобализация и образование // «Философские науки», M:, 2008,№ 4.
10. Həşimov D. Qloballaşmanın xüsusiyyətləri və qlobal problemlər haqqında. “Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri” mövzusunda Beynəlxalq Konfransın materialları. B:, Azərbaycan Universiteti. 4-5 may. 2011. səh.107-109
11. Гурко Т.А. Глобализация и семья. Тезисы выступлений Международного Форума Expanding the role of women in cross-cultural dialogue. 10-11 июня, 2008, г в Баку Азербайджан /Электронный ресурс. Режим доступа: http: www.isras.ru/ ввод gurkol.html.
12. Quliyev S., Quliyeva M. Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri. B:, 2013, 264 s.
13. Mehdiyev R.Ə. Fəlsəfə. B:, “Şərq-Qərb”, 2010, 360 səh.
14. Paşazadə T. Qloballaşma prosesinə dair. //Dövlət və din. İctimai fikir toplusu. B.,2010, iyul-avqust. səh.64-68.
15. Панарина Н.Н. Глобализация высшего образования и проблемы интернационализации образовательных систем.// Общество социология, психология, педагогика. M:, Изд-во ХОРС, 2012, № 3

# Mündəricat

***İ.M.Hacıyev.*** NAXÇIVAN XANLIĞI, ONUN RUSİYA İMPERIYASI TƏRƏFİNDƏN İŞĞALI .......... 3
***İ.F.Kazımbəyli.*** İRƏVAN BÖLGƏSINƏ ERMƏNİLƏRİN KÜTLƏVİ KÖÇÜRÜLMƏSİNİN İLKİN MƏRHƏLƏSİ, ƏHALİNİN SAY DİNAMİKASINDA BAŞ VERMİŞ DƏYİŞİKLİKLƏR .......... 15
***А.Г.Сеидов, А.А.Кулиев.*** МОНЕТНОЕ ДЕЛО ГОСУДАРСТВА ШИРВАНШАХОВ XVI ВЕКА .......... 26
***X.Q.Niyazov.*** DÖVLƏT İNFORMASİYA SİYASƏTİ: ANLAYIŞI, PRİNSİP VƏ FUNKSİYALARI .......... 41
***Ə.H.Şəfiyeva.*** XX ƏSRİN İKİ BÖYÜK AZƏRBAYCANLI SİYASİ XADİMİ .......... 51
***Q.Q.Əzizov.*** GƏNCLƏRİN DAVRANIŞINI SƏCİYYƏLƏNDİRƏN PSİXOLOJİ XÜSUSİYYƏTLƏR .......... 63
***V.K.Şükürov.*** XX-ƏSRİN 50-60-CI İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-DƏ İCTİMAİ –SİYASİ HƏYATA TƏSİR GÖSTƏRƏN ETNO-DEMOQRAFİK PROSESLƏR .......... 68
***S.M.Bayramova.*** AİLƏNİN SOSİAL-PEDAQOJİ VƏ PSİXOLOJİ KLASSİFİKASİYASI .......... 78
***С.Г.Нуриева.***НЕКОТОРЫЕ КАТЕГОРИИ ТЕОРИИ ПОЗНАНИЯ .......... 88
***S.E.İsmayılova.*** AUDİTORİYADANKƏNAR TƏLƏBƏ MÜSTƏQİL İŞİNİN İMKAN VƏ YOLLARI .......... 96
***V.B.Baxışov .***ÇUXUR- SƏD BƏYLƏRBƏYİLİYİNDƏ ŞƏRTİ BAĞIŞLAMA İNSTİTUTU VƏ ONUN TƏZAHÜR FORMALARI .......... 101
***З.А.Ализаде.*** ДЕЯТЕЛЬНОСТЬ ИСТОРИКОВ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ВОЙНЫ (1941-1945 гг.) В ТЫЛУ .......... 112
***B.İ.İbrahimli.*** NAXÇIVANIN QƏDİM ŞƏHƏRLƏRİ XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ .......... 120
***T.Y.Əliyeva.*** QAFQAZ SİYASİ MÜHACİRLƏRİNİN BİRLİK UĞRUNDA MÜBARİZƏSİ VƏ ERMƏNİLƏRİN MÖVQEYİ .......... 131
***A.T.Hüseynov.*** XƏZƏR DƏNİZININ HÜQUQİ STATUSU MƏSƏLƏSİNDƏ TÜRKMƏNİSTAN RESPUBLİKASININ PROBLEMİN HƏLLİNDƏ MÖVQEYİ .......... 137
***N.Z.Çələbiyev.*** QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRDƏ TRANSFORMASİYALAR.......... 143

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərimələdir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2017, 2 (17)**

***Çapa imzalanmış*** *29.*06.2017-ci ***il***
***Kağız formatı*** *60x84 1/16,* ***çap vərəqi 20***
***Sifariş*** 298, ***sayı*** *100*

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbə****yli* ***küçəsi****, 68*
***Tel****: (+912) 493-74-10*
*E*mail: Poliqrafiya@mail.ru